

**ABDULLA ŞAİQ**

# XATİRƏLƏRİM

"XAN" XATİRƏ ƏDƏBİYYATI 10

XAN NƏŞRİYYATI

# ABDULLA ŞAİQ

# XATİRƏLƏRİM

"XAN" Xatirə Ədəbiyyatı silsiləsindən 10-cu kitab

ĐK-5888
QYHK-2357

AŞM
Fonduna qəbul olundu

xan
nəşriyyatı

Layihə rəhbəri:
**Şəmil Sadiq**

Naşir:
**Müşfiq XAN**

Redaktor:
**Nərgiz Cabbarlı**

Korrektor:
**Asifə Əfəndi**

Mətn tərtibatı:
**Rövşən Yerfi**

Texniki redaktor:
**Bəxtiyar Ələkbərov**

Dizayn və qrafika:
**Teymur Fərzi**

***Abdulla Şaiq. Xatirələrim ("XAN" xatirə ədəbiyyatı silsiləsindən) "XAN" nəşriyyatı. Bakı-2015. 368 səh.***

XX əsr Azərbaycan ədəbiyyatının və maarifinin görkəmli nümayəndələrindən biri olan Abdulla Şaiqin "Xatirələrim"i "Xan" nəşriyyatının "Xatirə ədəbiyyatı" seriyasından təqdim etdiyi növbəti kitabdır. Kitabda görkəmli maarifçi ziyalının uşaqlığı, böyüyüb formalaşdığı Tiflis mühiti, Mirzə Fətəli Axundovla atasının münasibətləri, Əbdürrəhimbəy Haqverdiyev, Nəriman Nərimanov, Cəfər Cabbarlı, Hüseyn Cavid kimi ziyalılarla ünsiyyəti, Xorasandakı, Bakıdakı həyatı və s. öz əksini tapıb. Kitab XX əsrin əvvəllərində Azərbaycanda mövcud olan ziddiyyətli, təzadlı şəraiti, erməni-müsəlman hadisələrini də şairin xatirələri fonunda görməyinizə şərait yaradacaq.

**"XAN" nəşriyyatının** rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı bir hissəsinin təkrar çapı **qadağandır.**

**ISBN: 978-9952-405-56-9**

**© Gənclik nəşriyyatı / 1973**
**"XAN" nəşriyyatı / 2015**



**Abdulla Şaiq. 1955-ci il**

Keçmişin ağır, iztirablı günlərini görməyən azad və xoşbəxt gəncliyimizə ithaf edirəm

## Zaman və Könül Güzgüsü

Hər şair, hər yazıçı öz dövrünün, mühitinin və ədəbi nəslinin güzgüsüdür. Bu güzgüyə bax – o dövrdən xəbərin olsun. Bu güzgüyə diqqət et – o mühitin bütün əyrilərini, əskiklərini, xarakterik cizgilərini toplayaraq xəyalında canlandır. Bu güzgüdəkiləri gör – gördüklərin sayəsində yazıçının özünü də, şəxsiyyətini də, onu yetişdirən, yazıçı olmasına səbəb olan şəraiti də anlamaq asanlaşsın.

Bütün bu dediklərim bədii ədəbiyyat nümunələrinə aiddir. Amma oxuduğunuz əsər həm də xatirədirsə, deməli, verəcəyi dəyərli informasiya da, təsəvvür yaranmasına xidmət edəcək çalarlar da, hadisə, situasiya və xarakter zənginliyi də daha çox olacaq.

Ümumiyyətlə, xatirə ədəbiyyatı bütün dünyada və bütün dövrlərdə oxucu marağını çəkib. Bunun səbəbi yalnız o ədəbiyyatın yazıçının taleyi, şəxsiyyəti və xarakteri ilə bağlılığı deyil, həm də mühiti və dövrü ilə bağlılığıdır. Bir də təbii ki, səmimiyyət göstəricisi ilə. İnsanlar xatirələrini danışarkən daha səmimi, daha içdən olurlar. Çünki özlərindən, özləri üçün dəyərli olanlardan söz açırlar. Yaşadıqlarına xəyalən qayıdarkən özlərini, ruhlarını bütün ziddiyyətləri ilə bərabər göstərməli olurlar. İçinə qapılaraq getdikləri, təsiri altında olduqları hadisələr buna vadar edir. Bəlkə də elə bu səbəbdəndir ki, əksər yazıçılar xatirə yazmağı sevmirlər. Axı Olduğu kimi Görünmək hər yazıçının arzusu deyil.

Azərbaycanda da xatirə ədəbiyyatı çox yayılmış janr hesab edilmir. Çünki bizdə bu istiqamətdə qələm çalmaq istəyənlər daha az olub. Ancaq XX əsr Azərbaycan ədəbiyyatının və maarifinin görkəmli nümayəndələrindən biri olan

Abdulla Şaiqin "Xatirələrim"i bu sahədə yazılmış ən dəyərli nümunələrdən biri hesab oluna bilər.

Abdulla Şaiq (Talıbzadə Abdulla Şaiq Axund Mustafa oğlu – 1881-1959) Tiflisdə, ruhani ailəsində dünyaya gəlib. 1888-ci ildə altı sinifli şəhər müsəlman məktəbində təhsilə başlayıb. 1893-cü ildə ailə vəziyyəti ilə əlaqədar anası və qardaşı ilə bərabər Xorasana köçüb, təhsilini orada davam etdirib. 1900-cü ildə Tiflisə qayıdaraq bir müddət burada qaldıqdan sonra 1901-ci ildə Bakıya köçüb.

Milli intibah tərəfdarı olan maarifçi pedaqoq, romantik şair kimi tanıdığımız Abdulla Şaiq öz həyatını bütünlüklə Azərbaycan maarifinin inkişafına, yeni tipli məktəblərin yaranması, təlimin ana dilində aparılması, dərs kitablarının ana dilində tərtib edilməsi, ibtidai və orta məktəblərin inkişafı, milli müəllim kadrlarının hazırlanması kimi problemlərin həllinə həsr edib. "Türk ədəbiyyatı", "Türk çələngi", "Milli qiraət", "Müntəxabat", "Ədəbiyyat", "Gülşəni ədəbiyyat" adlı dərsliklər və proqramlar hazırlayıb.

Yaradıcılığına tərcümə və qəzəllə başlasa da, ilk mətbu əsəri "Laylay" adlı uşaq şeri olub. "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağıllar yazıb. "Ədhəm", "Tapdıq dədə", "Qoçpolad" kimi poemaları milli folklorumuzun ən koloritli xüsusiyyətlərini özündə daşıyır. 1910-cu ildə qələmə aldığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının özülünü qoyub. "Məktub yetişmədi", "Köç", "Daşqın", "İntiharmı, yaşamaqmı", "Göbələk", "İblisin hüzurunda", "Dursun", "Əsrimizin qəhrəmanlar"ı kimi bir çox dəyərli hekayə, povest və romanların müəllifidir.

Onun həyatı da, yetişdiyi və yaradıcılıqla məşğul olduğu dövr də Azərbaycan tarixinin, eyni zamanda da ədəbiyyatının elə bir qarışıq, ziddiyyətli, və mürəkkəb dövrü idi ki,



ona işıq salınması, onun haqqında danışılması hər zaman maraq doğuracaqdır. "Xatirələrim" belə bir funksiyanı daşıyır. Burada kiçik yaşlarından başlayaraq Abdulla Şaiqin bir çox Azərbaycan ziyalısının yetişməsində və inkişafında rol oynamış Tiflis mühitində böyüməsi, formalaşması, ailəsi ilə bərabər Xorasana köçməsi, orada gördükləri, yaşadıqları və müşahidə etdikləri çox maraqlı yazıçı üslubu ilə əks etdirilir. Azərbaycanın görkəmli mütəfəkkiri Mirzə Fətəli Axundovun Abdulla Şaiqin atası ilə dostluğu və münasibətləri haqqında qələmə aldığı fikirlər də bir çox maraqlı məqamların aydınlaşmasında yardımçı olur: "Evləri bizə yaxın olduğundan bazar günləri atamın yanına söhbətə gəlirlərmiş. Söhbət zamanı hərdən mübahisə də edərlərmiş. Anamın dediyinə görə M.F.Axundov da atamın kitabxanasından istifadə edər, tez-tez ondan kitab alıb apararmış. Bunların çoxu dini kitablar idi. ...atam "Hər gələndə dindən söz açır. Çox ağıllı, bilikli və xeyrli adamdır, hayıf ki, etiqadı xarabdır", – deyirdi".

Burada Abdulla Şaiqin Nəriman Nərimanov, Əbdürrəhimbəy Haqverdiyev, Cəfər Cabbarlı, Hüseyn Cavid kimi görkəmli ziyalılarla tanışlığı və ünsiyyəti də öz maraqlı ifadəsini tapıb.

"Xatirələrim" Xorasan həyatını da əks etdirir, Bakı mühitini də. Bu şəhərlərdə yaşayan insanların həyatı, güzəranı, müsəlmanların necə bir avamlıq və xurafat içərisində olduqları, hansı zillət içərisində ömür sürdüklərini də göstərilir. Ancaq bu kitab yalnız Abdulla Şaiqin, ailəsinin yaşamını əks etdirmir. Burada müsəlman qadınının hüquqsuzluğu da var, siyasi çalarlara da rast gəlinir. Mühitdən başqa ailənin, ata və ananın bir insanın yetişməsinə, hansı istiqamətə yönləncəyinə göstərdiyi təsir də öz əksini tapır. Kiçik Abdullanın şəxsi duyğularına, həyəcanlarına da şahid olur, bir uşaq

üçün atanın necə dəyərli və vacib şəxsiyyət olduğunu anlayır, bu səhnədən təsirlənirik: "Bilmirəm, o nə hal idi! ...Qollarımı ona tərəf uzadıb: "Ata, ata!" – deyə elə vəhşi bir səslə bağırdım ki, yanımdakılar qorxdular, iki qolumdan tutaraq: "Səbir elə, fayton bura gələcək," – deyə məni saxladılar. Xorasana gəldiyimiz ilk gündən keçən beş il ərzində bəlkə birinci dəfə idi ki, belə sevinirdim".

Bəzən kədər, təəssüf, qəlb ağrısı gətirən misralar arada-bir Abdulla Şaiqin öz xarakterindən irəli gələn zarafatcıllıq, baməzəlik kimi xüsusiyyətlərlə də yüklənir, maraqlı yumoristik çalar da ala bilir. Məsələn, Cəlaləddin Rumi ilə bağlı qələmə aldığı əhvalat: "..bir şair aşura günü təsadüfən gəlib Hələb şəhərinə çıxıb... Görür ki, adamlar boyunlarında kəfən bir-birinin belindən tutub: "Şaxsey-vaxsey," – deyə-deyə ...yeriyirlər. ...yanında duran kişidən soruşur:

– Şəhərinizdə vəfat edən kimdir?

Həmin kişi acıqlı-acıqlı ona baxaraq soruşur:

– Bəs sən müsəlman deyilsən?

Şair cavab verir:

– Əlhəmdullah, müsəlmanam.

– O halda bəs sən bilmirsən ki, bu gün aşuradır, İmam Hüseynin qətlə yetirilən günüdür.

Şair təəccüblə kişiyə baxıb deyir:

– Aha, yadıma düşdü, yezid dövrünü deyirsən? Bu xəbər sizə nə gec çatıb? Siz onun ölümü xəbərini bu gün eşitmisiniz?"

Abdulla Şaiq buna görə Cəlalədin Ruminin də kafir hesab edildiyini yazaraq mühitin və xalqın avamlığını çox ustalıqla əks etdirə bilir.



Abdulla Şaiq yazır: "Şərq həyatının elə qaranlıq guşələri vardır ki, oraya günəşlə bərabər ensən, yenə də onun dərinliklərinə nüfuz edə bilməzsən!".

İnsanın könlü də belədir. Ora işıq salmaq çətindir. Amma Abdulla Şaiqin "Xatirələrim"i onun Zamanına da, Cavid, Hadi, Cabbarlı kimi zamandaşlarının şəxsiyyətinə də, Könlünə də Güzgü ola bilir. "Xatirələrim" sayəsində onlara baxmaq da, görmək də mümkündür. Hətta bu gün üçün bəzi yanlış görünən dəyərləndirmələrinə baxmayaraq...

*Nərgiz Cabbarlı*

# KƏDƏR İÇİNDƏ SEVİNC

Uşaq hafizəsi təmiz bir güzgüyə bənzər, gördüyünü, eşitdiyini olduğu kimi əks etdirər. Uşaqlıq xatirələri hafizədə o qədər möhkəm yer tutur ki, uzun illər onu silib yox edə bilmir. İnsan qocaldıqda da ilk xatirələrini hafizəsinin yardımı ilə olduğu kimi gözünün qabağında canlandıra bilir və xəyalın yüngül qanadları üzərində bir anda ən uzaq məsafələri dolaşıb yenə qayıdır.

Uşaq ikən gördüyüm adamlar, bildiyim hadisələr, dəfələrlə qulaq asdığım nağıl və dastanlar, əzbərlədiyim şeirlər indi də hafizəmdən silinməmişdir. Əlimə qələm alıb uzaq keçmişə aid xatirələrimi yazarkən, hafizəm ən kiçik hadisələri belə gözüm önündə elə canlandırırdı ki, indi 72 yaşım olduğu halda onları bu gün görüb, bu gün eşidir kimi oluram.

***

Doğulduğum və uşaqlıq illərimin çoxunu keçirdiyim Tiflis şəhəri, ətəkləri yaşıl otlar və əlvan çiçəklərlə bəzənmiş, uca dağlarla qucaqlaşmışdır. İnsan əli dəyməmiş kimi görünən müctəhid və botanik bağları, Şeyx Sənan dağı, Sərdar bağı zəngin təbii zənginlikləri olan Tiflis şəhərini əlvan qanadlarını geniş açmış tovuzquşuna bənzədir. Şəhəri ikiyə ayıran Kür çayının yaşıl məxmər xalıya oxşayan sahilləri, şəhəri gizlətməyə çalışan uca, şax-budaqlı ağacları Tiflisin gözəlliyini bir qat daha artırır. Hələ XVIII əsrdə məşhur Azərbaycan şairi Vaqif Tiflis şəhərindən aldığı təəssürata:

"Bəh, bu bağın nə əcəb sərvi-dilaraları var,
Hər tərəf tazə açılmış gülü-rənaları var" –



beytilə başlanan ayrıca bir şeir həsr etmiş, bununla özünün gürcü xalqına, gürcü gözəllərinə, Tiflisin zəngin və könülaçan təbiətinə dərin məhəbbətini bildirmişdir.

Öz təbii gözəllikləri ilə yanaşı Tiflis o zaman xüsusi inzibati mövqeyə də malik idi. Bu şəhər bu gün Gürcüstan, Ermənistan və Azərbaycan respublikalarının tutduğu sahələri birləşdirən Zaqafqaziyanın mərkəzi idi. Çar tərəfindən təyin edilmiş canişin burda yerləşir, Zaqafqaziya ilə birlikdə Dağıstan vilayətini də o idarə edirdi. Tiflisin inzibati mövqeyi ona Rusiya ilə daha sıx əlaqə saxlamağa imkan yaratdığından, rus mədəniyyətinin təsiri də daha tez burada özünü göstərməyə başlayırdı. XIX əsrin ikinci yarısında artıq Tiflisdə yüksək mədəni səviyyədə olan teatrlar yaradılmış, orta və ali məktəblər, Qori şəhərində müəllimlər seminariyası açılmışdı.

Tiflis bu dövrdə yalnız Gürcüstanla deyil, bütün Zaqafqaziya xalqlarının siyasi-istimai həyatı ilə bağlı şəhər idi. Zaqafqaziya və Dağıstan müsəlmanlarının, o cümlədən azərbaycanlıların az-çox mədəni-maarif ocaqlarını idarə edən təşkilatlar, dini idarələr Tiflisdə yerləşirdi. Çarizmin millətləri parçalamaq siyasətinə uyğun olaraq Tiflisdə müfti və şeyxülislamın rəhbərliyi altında iki ruhani idarəsi təşkil edilmişdi. Müfti sünnilərə, şeyxülislam isə şiələrə rəhbərlik edirdi. Bunların hər birinin iki müavini, rusca və azərbaycanca yazan iki katibi və bir hesabdarı var idi. Şəhər və qəzalara təyin edilmiş qazı və mollalar idareyi-ruhaniyyələrə, idareyi ruhaniyyələr isə Zaqafqaziya canişininə tabe idi.

Bu zaman Tiflisdə, Zaqafqaziya canişininin göstərişi ilə, şeyxülislamın və müftinin nəzarəti altında altı sinifli məktəb açılmışdı. Dərsləri rus dilində aparılan bu məktəb altı sinifli rus məktəblərinin proqramını qəbul etmişdi. Əlavə olaraq bu

məktəbdə Azərbaycan dili, fars dili və ərəb qəvaidi də keçilirdi. Atam Axund Molla Mustafa Tiflisdəki ruhani idarələri və açılan məktəblərlə əlaqədar olduğundan orada yaşayırdı. Mən də dünyaya gözlərimi ilk dəfə bu şəhərdə açmış, uşaqlıq illərimi də orada keçirmişəm.

Qardaşım Abdullanın[1] ölümü ata-anasının qəlbini dərin hüzn və kədər içində buraxmışdı. Onlara ancaq yaxın zamanda dünyaya gələcək yeni övlad ümidi təsəlli verirdi. Hamı səbirsizliklə onun yolunu gözləyirdi. O yolu gözlənən çağa mən idim. 1881-ci ildə fevral ayının 12-də (yeni hesab ilə 24-də) Tiflis şəhərində doqquz aylıq uzun bir səfərdən tək yox, özüm ilə bərabər bir yoldaş da gətirmişdim. Ölən qardaşımın sönən çırağını yandırmış olduğumdan onun adını mənə qoydular. Mən də, mənim ilə əkiz tayı olan bacım Mərziyə də ata-anamızın qəlbindəki dərdi, kədəri silib yerinə sevinc və şənlik qığılcımları saçdıq. Ailəmiz yenidən şənləndi.

Atam Axund Molla Mustafa Süleyman oğlu o zaman Tiflis qazısının müavini vəzifəsində çalışıb, ayda 25 manat maaş alırmış. Əsli Borçalı mahalının Sarban kəndindın idi. Çox varlı olmamasına baxmayarq: "Gözün aydın, Axund əmi, oğlun oldu" – deyə onu muştuluqlayan mamaya 5 manat ba-ğışlamışdı. Bacım Mərziyə bir saat məndən sonra dünyaya gəlmişdi. Əfsus ki, çox yaşamadı, 3 ay sonra vəfat etdi. Mən doğulduqdan iki həftə sonra atam şeyxülislamın müavini təyin edildiyindən maddi vəziyyətimiz bir az yaxşılaşmışdı.

[1] Atamın indi məndə olan bir kitab səhifəsinə qeyd etdiyi tarixə görə qardaşım Abdulla 1879-cu ildə noyabrın 17-də anadan olubdur.



Atam qarayanız, ortaboylu bir kişi idi. Qara, enli qaşları, iri, qara gözləri, bir tutumluq şəvə kimi qara saqqalı var idi. Bığına, saqqalına rəng və həna yaxdırmağı vərdiş etmişdi.

Atam ruhani olmasına baxmayaraq, öz təbiəti etibarilə daha çox müəllimə bənzəyirdi. (Məncə vəzifənin insanların əhvali-ruhiyyəsinə az-çox təsiri olur). O, məhdud fikirli, mütəəssib, zaman və mühitini düşünməyən ruhanilərdən deyildi. Vəzifəsinə sadiq, haqqı və doğruluğu sevən, zamanının maarifçi şəxslərindən idi. İdareyi-ruhaniyyədən və müəllim olduğu altı sinifli məktəbdən aldığı zəhmət haqqı ilə ailəsini dolandırırdı. Məktəbdə şəriət fars dili və ərəb qəvaidi müəllimi idi. Bütün Tiflis camaatı onu sevirdi. Hamı onu "Axund əmi" çağırırdı.

Anam nağıl edirdi ki, Mirzə Fətəli Axundov, şeyxülislam Molla Əhməd Səlyaninin və atamın yaxın dostu imiş. Evləri bizə yaxın olduğundan bazar günləri atamın yanına söhbətə gəlirlərmiş. Söhbət zamanı hərdən mübahisə də edərlərmiş.

Atamın zəngin kitabxanası var idi. Anamın dediyinə görə M.F.Axundov da atamın kitabxanasından istifadə edər, tez-tez ondan kitab alıb apararmış. Bunların çoxu dini kitablar idi. Görünür, M.F.Axundov islam dinini və şəriət ehkamlarını tənqid edərkən, islam dininin özünü öyrənmək üçün bu kitablardan istifadə edirmiş. Bir dəfə anamın "Qonaqla nəyin üstündə belə deyişirsən?" – sualına atam cavab veriri ki, "Hər gələndə dindən söz açır. Çox ağıllı, bilikli və xeyrli adamdır, hayıf ki, etiqadı xarabdır".

Atamın bəylərlə heç arası yox idi. Doğulduğu Sarban kəndində bəylərin törətdikləri vəhşilikləri gördüyündən onlara qarşı dərin nifrət bəslərdi. Onlardan söhbət düşəndə çox tez-tez təkrar etdiyi bu beyti deyərdi:

"Səg çü dəndan avərəd, bəg mişəvəd,

Bəg çü dəndan bərkənəd, səg mişəvəd".[2]

Maraqlı burasıdır ki, atam bu beyti öz tələbələrinə də əzbərlətmişdi.

Anam Mehri qısaboylu, ətli-canlı, ağbəniz, açıq alınlı bir qadın idi. Qısa kirpikli, xırda, qara gözləri, bir-birindən aralı nazik qaşları vardı.

Anam çox gəzməyi, bəzənməyi sevməz, arabir ancaq qardaşıgilə gedərdi. O da şəraitin və köhnə adət-ənənələrin məhkum etdiyi yüzlərlə Şərq qadınlarından biri kimi, sevmədən, tanımadan atama verilmişdi. Uşaq ikən Nərimanovlar familyasına mənsub olan Molla Fatmanın yanında üç-dörd il oxumuşdusa da, bir şey öyrənməmişdi.

Sənəm nənəm əri Cəfər öldükdən sonra, dörd qardaşın bir bacısı olan qızı Mehrinin üstündə yarpaq kimi əsirmiş. Dindar və mövhumatpərəst nənəm göz dəyməsin deyə, hər gün üzərlik yandırıb qızını onun üstündən keçirir, boynundan göy muncuq asır, hər ay dua yazdırıb üstünə tikirmiş. Dindar arvadın ürəyi bunlarla da sakit olmayıb, nəzir edibmiş ki, "qızım ölməyib əlimdə qalsın, onu seyidə verim". Buna görə də hər cümə axşamı Tiflisdə məşhur seyidlərdən olan Mir Nemətulla ağanın ocağında şam yandırırmış.

Atam yaxın qohumu olan anamı qız ikən görüb ona vurulubmuş. Lakin bilirdi ki, dindar Sənəm qızını seyiddən başqa heç kəsə verməyəcəkdir. Mir Nemətulla ağa ilə dost olduğundan dərdini gedib ona açır. Mir Nemətulla ağa atamın sözünü yerə salmayıb onunla birlikdə Sənəm nənəmin

---

[2] Hər köpək diş çıxaranda bəy olur. Dişlərini tökən bəy də it olur.



yanına gedir. Nənəm onların qabağına şirin çay töküb qoyanda ağa fikrini açıb söyləyir:

– Sənəm xanım, mən sənin qapına həmişə gələn adam deyiləm, bu gün vacib bir iş üçün gəlmişəm. Sözümü yerə salsan, çayımı içməyib çıxıb gedəcəyəm. Mən qardaşım Axund Mustafa tərəfindən elçi gəlmişəm. Mehri xanımı ona almaq istəyirəm.

Sənəm nənəm cavabında deyir:

– Ağa Molla Mustafa bizə yad deyil. Gəlinimin qardaşıdır. Ancaq mən nəzir eləmişəm ki, qızımı seyidə verim.

Mir Nemətulla ağa deyir:

– Molla da seyid kimi bir şeydir.

Nənəmin sözü kəsilir, razılıq verməyə məcbur olur. Bundan sonra Mir Nemətulla ağa əvvəlcə atamın, sonra da öz çayını qarışdırıb deyir:

– Allah mübarək eləsin, xoşbəxt olsunlar, indi ağzımızı şirin eləyə bilərik.

## İLK QƏDƏM

Biz o zaman Tiflisin müsəlman məhəlləsində – Varantovski küçədə hacı Rza deyilən bir adamın mülkündə olurduq. İki mərtəbədən ibarət olan bu binanın həyətə baxan hissəsinin birinci qatında biz, ikinci qatında şeyxülislam Mirzə Həsən Tahirov öz ailəsi ilə yaşayırdı. Həmin binanın küçəyə baxan hissəsinin birinci qatında altı sinifli məktəb, ikinci qatında isə ruhani idarəsi yerləşirdi. Həyətin sağ və sol tərəfindəki çiçəkliklər tünd yaşıl rəng çəkilmiş qısa, nazik taxtalarla çəpərlənmişdi.

Altı sinifli məktəb şeyxülislamın nəzarəti altında olmasına baxmayaraq, başqa şəhər məktəbləri kimi o da Tiflisdə olan Zaqafqaziya maarif müfəttişliyinə tabe idi. Dərslər rus dilində keçilirdi. Ruhani idarəsi nəzdində olduğu üçün proqrama şəriət, Azərbaycan, fars və ərəb dilləri də daxil edilmişdi.

Mən hələ məktəb yaşına çatmamışdımsa da, həmin məktəbin şagirdləri ilə tanış ola bilmişdim. Tənəffüs zamanı onlarla həyətdə görüşür və bir yerdə oynayırdıq. Atam həm ruhani idarəsində işlədiyinə, həm də məktəbdə müəllim olduğuna görə məktəb müəllimləri məni yaxşı tanıyırdılar.

1888-ci ilin sentyabr ayı idi. Dərslər başlanmışdı. O gün zəng vurulduğu zaman uşaqlarla bərabər mən də birinci sinfə girib, yeni tanış olduğum Nəbiağa adlı tələbənin yanında oturdum. Müəllim etiraz etmədi. Dərslər bitdikdən sonra evə gedərkən müəllim: "Sabah kitab, dəftər, qələm gətir", – dedi.

Səhəri gün rəsmi bir tələbə kimi bilik ocağına ayaq basdım. Dərsdən sonra kitablarım qoltuğumda evə qayıtdığım zaman anam məni çox mehriban qarşılamışdı. O gün şadlığımdan yerə-göyə sığmırdım.

Müəllim çatışmadığından bir otaqda iki-üç sinif yerləşirdi. Üç birinci sinifdə Baxşəli bəy, o biri siniflərdə Paşa bəy dərs keçirdi. Paşa bəy qumralgözlü, arıq, ortaboylu, Baxşəli bəy isə qarayanız, Paşa bəyə nisbətən uca və kürəkli bir şəxs idi. Müəllimlərimizin hər ikisi saqqal qoyurdu. Baxşəli bəyin bir az uzun, şəvə kimi qara saqqalı ona çox yaraşırdı. Onlar təbiətcə bir-birindən gözəl adamlar idi.

Tənəffüs zamanlarında artırmada gəzişə-gəzişə şirin və mehriban söhbət etmələri, hərəkət və rəftarları bizə böyük tərbiyə dərsi idi. Biz tələbələr də onları təqlid edərək, bir-birimizə mehriban olmağa çalışırdıq. Onların hər ikisi Qori seminariyasının məzunları idi.



Mən müəllimlərimi çox sevirdim. Bilmirəm, mənmi həddindən artıq xəyalpərəst bir uşaq idim, ya onlar doğrudan da, bu qədər nəcib insanlardılar?! Mən onları uşaq xəyalımda dərəcə-dərəcə böyüdür, bir növ, bizim kimi adi insan olduqlarına inana bilmirdim. Onların hər bir hərəkəti, rəftarı məndə coşqun hisslər, yüksək düşüncələr oyadırdı. Dərsə olan sonsuz həvəsim və yorulmadan gecə-gündüz çalışmağım da müəllimlərimə səmimi məhəbbətimdən irəli gəlirdi. Səhərlər ala-qaranlıqdan oyanır, dərslərimi lampa işığında təkrar oxuyub hazırlayırdım. Böyüdükdən sonra, müəllim olduğum zamanlarda belə, o müəllimlərimi unuda bilmirdim. Həmişə özümü onlara bənzətməyə çalışırdım.

Uşaqlıqdan ədəbiyyata dərin eşqim var idi. İstər Azərbaycan, istərsə də, rus, fars dillərində yazılmış mənzum parçaları böyük həvəslə əzbərləyirdim. Oxuduğum dərslik "Vətən dili" bu sahədə mənə az kömək etməmişdi. Həmin dərslik Qori seminariyasının ana dili müəllimi Səfərəli bəy Vəlibəyov və həmin seminariyada çalışan Çernyayevski tərəfindən tərtib edilmişdi. Məktəbdə oxuduğum zaman Qasım bəy Zakirin, Həsənəli xan Qaradağskinin öz orijinal şeirlərilə yanaşı Krılovdan tərcümə etdikləri təmsilləri, Puşkin və Lermontovun rusca şeirlərini sevə-sevə əzbərləyirdim. O şeirlərin çoxu indi də hafizəmdən silinməmişdir. O zaman azərbaycanca "Vətən dili"nin birinci və ikinci cildlərindən başqa dərslik yox idi. Ona görə də üçüncü sinifdən farsca "Gülüstan" kitabını oxumağa məcbur idik.

Şeiri sevdiyimi müəllimlərim də bilirdilər. Təhsil ilinin sonunda, imtahan zamanlarında müəllimlər məni həmişə rusca, azərbaycanca şeir oxumağa məcbur edirdilər.

Mən elə düşünürdüm ki, şeiri ancaq böyük alimlər yazırlar. Bir gün imtahan ərəfəsində atamdan bir şeir yazmasını xahiş etdim. Fikrim imtahanda müəllimlərimə yeni bir şeir oxumaq idi.

Atam gülə-gülə dedi:

– Oğlum, mən şair deyiləm ki, şeir yazım. Şeiri şairlər yazır.

Mən elə zənn etdim ki, atam məni başından eləmək istəyir. Ondan əl çəkmədim, dedim:

– Sən ki, alimsən, sən şeir yaza bilməyəndə daha kim yaza bilər?

O, məni inandırdı ki, şair başqadır, alim başqa. Ümidsiz bir halda qollarım yanıma düşdü. Atam məni qucaqlayaraq:

– Yaxşı oğlum, – dedi, – sabah idarəyə gedəndə Mirzə Əhmədə tapşıraram, sənə bir yaxşı şeir yazar.[3]

Mən sevindiyimdən bilmirdim neyləyim. Ertəsi gün məktəbə gedəndə səs saldım ki, bu il imtahanda mən lap təzə şeir oxuyacağam.

Dörd-beş gün sonra atam şeiri gətirdi. İmtahanda əzbərdən oxuduğum həmin şeir müəllimlərimin çox xoşuna gəldi.

O zaman həmin məktəbə böyük yaşlı uşaqlar da qəbul edildiyindən siniflərdə yaşca bir-birindən fərqli tələbələr oxuyurdu. Mənimlə birinci sinifdə Hüseyn adlı ucaboy bir tələbə vardı. Təxminən iyirimi-iyirimi iki yaşı olardı. Boyuna görə cılız idi. Söz danışanda qısa kirpikli gözlərini döyürdü. Çox sadə, təmizəxlaqlı, üzügülər, xoşrəftar və zarafatcıl idi. Adına Şormərkə Hüseyn deyirdilər. Atası zurnaçı olduğundan uşaqların bəzisi zarafatla ona "zurnaçı oğlu" da deyirdi. Atası başqa arvad alıb, ondan ayrı yaşadığına görə Hüseyn toylarda, qonaqlıqlarda qarmon çalıb-oxuyur və aldığı zəhmət haqqı ilə özünü, anasını və kiçik bacısını dolandırırdı. Ona görə də vaxtlı-vaxtında dərslərini hazırlaya bilməzdi. Bir gün onun həll edə bilmədiyi məsələni izah etmək üçün müəllim məni lövhəyə çağırdı. Məsələni həll etdim. Müəllim hər ikimizi sinif qarşısında saxlayıb dedi:

– Abdulla, Hüseynə bax!

Mən onun belindən idim. Altdan yuxarı ona baxdım, o başını yerə dikib durdu. Sonra müəllim ona dedi:

– Hüseyn, Abdullaya bax!

O da yuxarıdan aşağı acıqlı-acıqlı mənə baxanda bütün sinif güldü.

Bu hadisə Hüseynə çox toxunmuşdu. Odur ki, səhərlər tezdən sinfə gəlib dərslərimi təkrar etdiyim zaman Hüseyn məni qaldırıb çiyninə qoyar, sinifdə, daha çox həyət artırmasında o yan-bu yana qaçardı. Uşaqlar gülüşə-gülüşə onun arxasına düşərdilər. Çox yalvardıqdan sonra məni yavaşca yerə qoyub, deyərdi:

– Di get, məni bir də utandırma! Axund əminin oğlu olmasaydın, səni boynumdan elə atardım ki, yerindən qalxa bilməzdin.

Bir gün müəllimimiz Baxşəli bəy dərsə gecikmişdi. Hamı deyirdi ki, müəllim gəlməyəcək, saatımız boş keçəcəkdir. Uşaqlar sinifdə gülüb-danışırdılar. Şagirdlərdən kim isə yazı taxtasında bir beyt yazmışdı. Başımız danışığa elə qarışmışdı ki, həmin beyti kim yazdığına fikir verməmişdik. Bu vaxt Baxşəli bəy birdən qapıda göründü. Sinifdə bir dəfə o yan-bu yana dolaşdıqdan sonra, lövhədəki beyti görüncə üz-gözü qızardı. Lövhədə yazılmışdı:

---

[3] Mirzə Əhməd Salyani idareyi-ruhaniyyədə katib idi. O qədər gözəl xətti var idi ki, bəzi həvəskarlar ona böyük və qalın kağızlarda şeir yazdırıb çərçivə içərisində divardan asırdılar.

«Пуст погибнет русский царъ,

Кровожадный государъ» .

Qəzəblənmiş müəllim bu misraların kim tərəfindən yazıldığını öyrənmək istəsə də, heç kim cavab vermədi. Baxşəli bəy dedi:

– İndi ki, siz yazanı demirsiniz, üç gün axşam saat beşə qədər hamınız sinifdə ac və dustaq qalacaqsınız!

Sonuncu dərsin axırında o, məktəbin xidmətçisi Nəsiri çağırıb saat beşə qədər bizi sinifdə dustaq saxlamağı əmr etdi. Başqa sinif şagirdləri gülə-gülə, danışa-danışa evlərinə gedirdilər. Biz pəncərədən həsrətlə onlara baxırdıq. Mən bərk darıxırdım, evimizə istəyirdim.

Xidmətçi Nəsir o biri sinifləri təmizləyirdi. Hüseyn başqa yoldaşlarına nisbətən xeyli şən görünürdü. Hiss olunurdu ki, nəyə isə sevinir. Birdən o, papağını qaşlarının üstünə əyib pəsdən zümzümə eləməyə başladı. Hüseyn on-on beş dəqiqə şirin xalq mahnılarından oxudu. Sonra üzünü bizə tutub dedi:

– Eh, qarmonum burda olsaydı, sizə bir kef verərədim ki, dadı damağınızdan getməzdi.

O sözünü qurtarmamışdı ki, Baxşəli bəy içəri girdi. Görünür o, Hüseyni dinləyirmiş. Dərhal hamı yerinə keçdi.

Oxumağına görə Hüseynə daha ağır cəza verəcəyini gözləyirdik. Müəllim bütün sinfi gözdən keçirdikdən sonra üzünü ona tutub dedi:

– Hüseyn, sən ağıllı oğlansan, səninlə bir məsləhət etmək istəyirəm.

Hüseyn qızardı, gözlərini döyə-döyə soruşdu:

– Müəllim, nə məsləhət?

Baxşəli bəy gülə-gülə dedi:



– Mən uşaqları azad etmək istəyirəm, sən nə məsləhət görürsən?

Hüseynin kefi açıldı, dedi:

– Qurban olum, müəllim, yaxşı işə nə məsləhət?

Sevindiyimizdən əlimiz-ayağımız yerə dəymirdi. Kitablarımızı yığışdırıb hazır durduq. Müəllim yazı taxtasına nəzər saldı. Beyt silinmişdi... Mənim zehnimdən isə silinməmişdi.

Bizi azad edən kimi arxama baxmadan evə qaçdım.

Cəzalandırıldığımı anam bilirmiş. O gün qonşumuz Gülsüm bacımla otağın bir guşəsində oturub oyuncaqlarla oynayırdılar. Anam yerə sərdiyi kiçik bir süfrəyə yeməyimi qoydu. Əlimi yeməyə uzadar-uzatmaz o gülə-gülə dedi: "Bax, gördün, nadinclik edəni ac saxlayırlar". Gülsümün yanında söylənən bu söz qüruruma toxundu. Əlimi yeməkdən çəkərək dik qalxdım və ağlaya-ağlaya çıxıb getdim. Anam arxamca çox çağırdı, yalvardı, yaxardı, geri dönmədim.

Qəribə uşaqlığım var idi. İndi də bəzən hadisələri xatırlayanda qeyri-iradi gülümsəyirəm.

Bizim ev sahibi Hacı Rzanın Asiya adlı böyük bir qızı vardı. Mən hələ uşaq ikən qucağına alır, üzümdən öpüb: "Sənə gedəcəyəm", – deyərdi. Mən də xidmətçimiz məşədi Pərinin öyrətdiyi sözləri ona deyərdim: "Asiya xanım, gəl bizə, götürüm qaçım Təbrizə".

Bir gün Asiya xanımı nişanladılar. Toy başlandı. Məşədi Pəri mənə dedi: "Abdulla, nişanlın ərə gedir, nə qayıracaqsan?" Qonşudakı hazırlığı görüb əhvalatı anladım. O gün evdən dışarı çıxmadım. Anam nə qədər çalışdı ki, məni toya aparsın, razı olmadım, evdə oturub xeyli ağladım. Axır əhvalatı gəlinə söylədilər. Asiya xanım gəlinlik paltarında gəldi. Məni qucaqlayıb aparmaq istədi. Getdim. Köçdükdən

sonra tez-tez atası evinə gəlirdi. O gəldiyi zaman məni görməsin deyə evdən çıxırdım.

Bakıda uzun müddət müəllimlik edən Abbas Minasazov, Bakı və Tiflisdə nəşr edilən rus qəzetlərində çıxan məqalələri ilə şöhrət qazanmış Şahhüseyn Minasazov bizimlə qapı-qapıya qonşu idi. Şahhüseyn mənimlə yaşıd və sinif arqadaşım idi. Onun bacısı Gülsüm kiçik bacım Ruqiyyə ilə yaşıd idi. O hər gün öz gəlinini götürüb bacımın yanına gəlir, eyvanda palaz salıb gəlin-gəlin oynayırdı. Mən qara, qıvırcıqsaçlı bu gözəl qızı dəlicəsinə sevirdim. O, bizə gəlmədiyi gün gözlərim onu arardı. Ancaq ona bir kəlmə də olsun söz söyləyə bilməzdim. O, arabir "Abdulla" – deyə məni çağırdığı zaman qızarardım. O zaman doqquz, on yaşından artıq olmazdım. Bu saf, səmimi çocuq sevgilərim bu gün ən dəyərli bir xatirə olaraq könlümün ən dərinliklərində saxlanmışdır.

Mənim təbiətim böyük qardaşıma əsla bənzəməzdi. O vücudca və yaşca özündən çox böyük və qüvvətli uşaqlarla güləşir, qapışır və daima qalib gəlirdi. Qaçaq Kərəm rolunu oynamaq onun ən çox sevdiyi oyunlardan idi. Özü Kərəm və məhəllə çocuqları onun yasovulu olurdu. Küçələrdə qoyduğu qarovullar oradan keçən yabancı uşaqları tutub: "Kərəm səni çağırır", – deyə çəkə-çəkə qardaşımın hüzuruna gətirirdilər... Qardaşım: "Sən Kərəmin torpağından izinsiz nə üçün keçirsən?" – deyə onları döydürürdü. Bu oyun mənim əsla xoşuma gəlməzdi və arabir sıradan çıxıb oynamaq istəmədiyim zaman qardaşım məni tənbeh edərdi. Mənim sevdiyim: aşıq-aşıq, dirədöymə və turna-turna idi. Ona görə də "Kərəm" oyunu adı çəkilincə bir bəhanə ilə sivişib evə gedərdim, bacımla oynardım.



## MÖVHUMAT

Bir fars şairi demişdir: "Bə hər koca ki, rəvi, aseman bəyek rəng əst", yəni: "hər yerə getsən, göy bir rəngdədir". O zaman Şərq xalqlarının həyat tərzi, adət və ənənələri bir çox cəhətdən bir-birinin eyni idi. Bu yaxınlığı yaradan mənəvi amillərdən biri islam dini idi.

Tiflis Zaqafqaziyanın mədəni mərkəzlərindən biri olmasına baxmayaraq, müsəlman Şərqinə məxsus həyat tərzi, adət və ənənələr, etiqad və görüşlər burda da davam etməkdə idi. Xüsusən Cənubi Azərbaycandan Tiflisə gələn azərbaycanlılar, orda hökm sürən mövhumatı, İran istibdadının məhsulu kimi meydana çıxan adət və ənənələri özləri ilə bərabər gətirir və yayırdılar. Tiflisdə yaşayan azərbaycanlıların bir hissəsini də öz vətənindən didərgin düşən, şah istibdadının şikəst və müti etdiyi Cənubi azərbaycanlılar tərəfindən rəğbət və məhəbbətlə qarşılandılar. Lakin Cənubi Azərbaycandan Tiflisə mollalar, seyidlər, falçı və dərvişlər gəlirdilər ki, bunlar yerli xalqa dini adətlərin, mövhumatın möhkəmlənməsi və yayılmasına təsir göstəriridilər. Dövrün qabaqcıl ziyalıları gimnaziyalarda, şəhər məktəblərində müəllimlik edərək rus və Avropa mədəniyyətini, təbiət elmlərini yaymaqla məşğul olduqları halda, Cənubi Azərbaycandan gələn din nümayəndələri yerli mürtəcelərlə birləşib, yeni üsullu məktəblər əleyhinə təbliğat aparır, öz uşaqlarını "üsuli-cədid" məktəblərində oxudanlara minbərlərdən lənət oxuyur, qiyamət günü peyğəmbərin yanına üzüqara gedəcəklərini söyləyir, uşaqları mollaxanalarda oxutmağı tələb edirdilər. Beləliklə, yeni, qabaqcıl görüşlərlə köhnə, mürtəce görüşlər mübarizə aparır, üz-üzə gəlirdi.

Bütün bunlarla yanaşı, xalqın şüurunda dini görüşlər, avamlıq və mövhumat çox möhkəm yer tutmaqda idi. Xalqın çoxu savadsız idi; fala, duaya, pirlərə, qəza-qədərə, caduya, istixarəyə inam möhkəm idi. Avam arvadlar bir xəstəlik, ya bədbəxtlik üz verən kimi falçılara fala baxdırır, Altınbarmaq Seyidə dua yazdırır, Tiflisin məşhur ruhanilərindən olan Mir Nemətulla ağanın ocağına, Xıdır Nəbiyə nəzir verir, şam yandırır, onlardan nicat, sağlamlıq və xoşbəxtlik istəyirdilər.

Mir Nemətulla ağanın evi "Botanik bağı"nın yanında idi. (O bağa "Gəncə bağı" da deyirdilər.) Atam danışırdı ki, Mir Nemətulla ağanın həyətində iri, şaxəli, qoca bir tut ağacı var imiş. Bir gün qonşuluqda yaşayan avam bir qadın gecə qaranlıqda həmin ağacın altında işıldayan atəş böcəyini görüb, onu şama oxşatmış, səhər ətrafa səs salmışdı ki, gecə tut ağacının altında səhərə qədər şam yanmışdır. Həqiqəti anlamayan bu avam qadın ertəsi günü axşamçağı tut ağacı altında birinci şamı özü yandırmışdı. Beləliklə tut ağacı ocaq olur. Ona hər yandan nəzir-niyaz gəlməyə başlayır. Uşağı olmayan, ya bir fəlakət üz vermiş olan qadınlar nəzir edib, tut ağacına əski bağlaya-bağlaya hər dərdin dərmanı bildikləri bu ağacı axırda qurutdular. Bundan sonra ağanın ocağını yaşatmaq üçün tut ağacının yerində böyük bir günbəd tikildi.

Yadımdadır, qonşulardan biri xəstələnsəydi, ya işləri çətinə düşsəydi, dərhal Altıbarmaq Seyidə dua yazdırar və Mir Nemətulla ağanın ocağına nəzir edərdilər.

Anamın təbiətində Sənəm nənəmin aşıladığı mövhumatçılıq qulluqçumuz məşədi Pərinin təsiri ilə daha da güclənmişdi. Bu qılıqlı arvad anama özünü elə sevdirmişdi ki, anam ona çox zaman "bacım" deyə xitab edir və hər sözünə inanırdı.



***

Şeytanbazar o vaxt Tiflisin ən izdihamlı küçələrindən idi. İki-üç yerdə çayxana var idi. Bu çayxanalar səhərdən axşama qədər hey dolub boşalır; hərə qarşısında bir stəkan çay oturur, dərvişlər nağıl söyləyir, ilan oynadır, xanəndələr çalıb-oxuyurdular. Böyük samovar səhərdən gecə yarısınadək qaynayır, onun yanından qızarmış kömür əskik olmur, çayxana xidmətçiləri qəlyan başına maşa ilə od qoyub, çəkə-çəkə alışdırır, sonra aparıb müştəriyə verirdilər. Müştəri də bir əli ilə qəlyanın uzun boğazından, bir əli ilə də uzun müştüyündən yapışıb çəkir və tez-tez tüstünü havaya buraxırdı. Samovarların hisi, tənbəkilərin acı tüstüsü çayxananın içini duman kimi bürüyürdü. Mən dayımgilə həmişə bu çayxananın qabağından keçib gedərkən qapı ağzında durub, içəridə nağıl söyləyən, ilan oynadan dərvişlərə tamaşa edirdim. Bu çayxanalar o zaman işsiz-peşəsiz həyat keçirən, ətalət və qəflət azarına tutulmuş adamların məskəni idi. Elə çayxana düşgünləri var idi ki, bütün günlərini orda keçirirdilər.

Şeytanbazarın çayxanaları kişilərin əyləncə yeri olduğu kimi, Tiflis hamamxanaları da arvadların gün keçirdikləri yer idi. Bu hamamlar gecə-gündüz qurnalardan[4] şırhaşır axıb hovuzlara tökülən kükürdlü isti mədən suları ilə məşhurdur. Heç bir ictimai yerə çıxmayıb evdə dustaq kimi yaşayan çarşablı arvadların ən böyük əyləncə yeri bu hamamlar idi. Hamı burada görüşür, burada tapışır, burada şirin söhbətə qızışır, oğlunu evləndirmək istəyənlər burada qız bəyənirdi. Hər kəs öz gücünə görə boğçasına pendir, çörək, yayda qarpız, xiyar bağlayıb hamama gedir, axşama qədər gününü orada keçirirdi.

---

[4] Kran.

Uşaq vaxtından mən də hamama anam ilə gedirdim. Yadıma gəlir, bu arvad hamamında elə səs-küy olardı ki, ağız deyəni qulaq eşitməzdi. Təəccüb burasındadır ki, hamısı birdən danışır, hamısı da bir-birini anlayıb cavab verirdi.

Sonralar hamama mən atamla gedirdim. Hamama daxil olan kimi gözə dərhal kərpicdən tikilmiş, əhəng və gəc ilə suvanmış böyük bir hovuz çarpırdı. Hovuzun sağ və sol tərəflərində soyunmaq üçün yerdən bir qədər uca xüsusi səkilər vardı. Nazik və uzun taxtalardan qayrılmış kiçik bir daxmada hamamçı otururdu. Soyunulan paltarlara nəzarət edən xidmətçi çimib gələnlərin ayağına su tökür, geyinmək istəyənlərə hər cür kömək göstərirdi. Bir tərəfdə isə samovar qaynayır, çayçı müştərilərə çay paylayırdı. Bir dəfə atam ilə hamama getməyim heç xatirimdən çıxmır. Biz hamama daxil olan kimi ətrafımızı kisəçilər bürüdü. Atam birini seçdi. O əvvəlcə hamamın səkisinə iki fitə sərdi. Sonra uzanmaq üçün bir kisəni yumrulayıb başı altına qoydu. Biz fitə üstündə oturduq. Kisəçi əvvəlcə atamın saqqalına xına qoydu. Sonra mənə kisə çəkdi. Mən oturub atamı gözləyirdim. Kişi başqa birisinə kisə çəkdikdən sonra atamın saqqalının xınasını yuyub yerinə rəng yaxdı. Mən gözləməkdən darıxırdım. Bir saatdan sonra kisəçi atamın saqqalının rəngini yuyub bədəninə kisə çəkməyə başladı. Sonra canını ovuşdurdu. Bütün bu tamam-dəsgahdan sonra böyük hovuza girdik. Dolu hovuzun suyu o qədər təmiz idi ki, ayaq barmaqlarımızın dırnağı görünürdü. 3-4 saat davam edən yuyunma nəhayət başa çatdı. Hamam xidmətçisi ayaqlarımıza su tökdü. Kişi hamamı intizamlı və səs-küysüz idisə də, kisəçinin hoqqabazlıqları, atamın saqqalının xınası və rəngi, onun bütün hamam qanun-qaydalarına qeyd-şərtsiz itaət etməsi məni lap hövsələdən çıxarırdı.



***

Tiflis cavanlarının bir hissəsi oxumur, işləmir, günlərini xoruz və qoç döyüşdürmək, meydançalarda güləşməklə keçirirdilər. Bir gün evdən çıxıb yoldaşım Hüseyn Minasazov ilə "Virana bağ"a oynamağa gedirdik. Yolda iki nəfər kişinin öz qoçlarının zəncirindən tutub, yanlarında bir dəstə adam ilə həmin bağa tərəf addımladıqlarını gördük. Bildik ki, qoçlarını döyüşdürməyə aparırlar. Biz də onlara qoşulduq. Qoçların ikisi də ağ idi. Qoçbazlardan biri öz qoçunu yol uzunu tərifləyib deyirdi:

– Tiflisdə mənim qoçumun qabağına çıxan qoç olmayıb. Heydər ağanın qoçu ki, səsi Tiflisi tutmuşdu, onu mənim qoçum beşcə dəqiqədə qaçırtdı.

O biri qoçun sahibi sakit-sakit onu dinlədikdən sonra:

– İgidin gücü meydanda bilinər! – deyə cavab verdi.

Onlar qoçlarını "Virana bağ"a yox, onun aşağısındakı Qarpız meydanına gətirdilər. Ora çatıncaya qədər yolda adamlar çoxalmışdı. Qarpız meydanında böyük bir ağaclıqda dayandıq. Hər iki kişi qoçların boynundakı nazik zəncirə bağlı qalın meşin xaltaları açıb, qoçların buynuzlarından yapışdılar; onları bir-birinə yaxın gətirib buraxdılar. Qoçlar əvvəlcə bir-birilə iyləşdi, sonra dəhşətli bir döyüş başlandı. Vuruş getdikcə qızışır, hər iki qoç geri çəkilir, sonra irəli cumub bir-birinin kəlləsinə "şaraq-şaraq" buynuz vururdu. Qoçların yiyələri: "Ha qoçum, ha" deyə-deyə elə bil onlara ürək-dirək verirdilər. Vuruşma uzun sürdü. Öyünən qoçbazın qoçu axıra yaxın bir-iki dəfə yediyi buynuzdan başını yana çevirib qaçmaq istədisə də, sahibinin "ha, qoçum, ha" – deyə bağırtısı ilə yenə döyüşməyə başladı. Lakin bu axırıncı həmlə ona kömək etmədi. Hamı qalib gələn qoçun sahibini alqışladı. O biri qoçbazın rəngi qaçmış, dərin hüzn və həyəcan içində

durmuşdu. Çox keçmədi ki, cibindən bir onluq çıxarıb, qalib gələn qoçun sahibinə verdi.

– Al, bu sənin mərcin.

Qalib qoçun sahibi Qurban pulu almaq istəmədi. Rəqibi Baba zor ilə pulu onun ovcuna basdı.

Bu zaman Qurbanın qoçu yiyəsinə yaxınlaşıb əlini yaladı, başını onun ayaqlarına sürtdü. Baba acıqlı-acıqlı qoça baxdı, onun buynuzundan tutub dilləndi:

– Kim deyirdi ki, bu dinc, sakit görünən qoç mənim odalov qoçumu qaçıra bilər?! – Sonra o üzünü Qurbana tutub əlavə etdi: – Qurban, bu qoçu sat mənə.

– Yox, satmıram!

– Qoy bu adamlar qiymət qoysun. İki dəfə artıq verərəm. – Bu sözləri deyib Baba şəst ilə əlini cibinə saldı.

– Yox, Baba, satmıram.

– Bu qoçumu da üstəlik verirəm...

– Dedim ki, mən qoçumu satmıram.

Lakin qoç döyüşdürmək büsatı bununla bitmədi. Məğlub olan qoçbaz birdən qaçıb öz qoçunu tutdu. Onu yerə yıxdıqdan sonra cibindən bıçağı çıxarıb qoçun başını kəsmək istədi. Ətrafdakılar nə qədər ona mane olmaq istədilərsə də, hirsindən dodağını gəmirən kişi razı olmadı: "Adam içində mənim başımı yerə soxan qoç mənə lazım deyil!" – deyib qoçun başını kəsdi. Sonra üzünü adamlara tutub dedi:

– Götürün soyun, ətini aranızda bölüşdürün, mən belə namərd qoçun ətindən yemərəm! – Baba qoçun zəncirini oynada-oynada o biri qoça baxdı. Sonra necə oldusa onunla o biri qoçun sahibi arasında mübahisə başlandı. Mübahisə bir anda elə alovlandı ki, bu dəfə qoç sahibləri özləri döyüşə girişdilər...



***

Gecə idi. Anam bizi yedirdib, içirdib yatmağa uzandırmışdı. Birdən-birə bayırda dəhşətli bir səs-küy qopdu. Elə bil, bütün şəhər ayağa qalxmışdı. Hər yerdə tüfəng, tapança atılır, qəribə həyəcanlı səslər eşidilirdi. Tez yerimdən qalxıb, həyətə baxan artırmaya çıxdım. Anam yerindən sıçrayıb qolumdan yapışdı. Bütün bədənimin titrədiyini gördükdə: "Qorxma, oğlum, cinlər ayın üzünü tutub, onları qovurlar", – dedi və göydə üzünü qara bir pərdə qapamış, yalnız kənarları parıldayan ayı göstərdi.

Kişilər aya güllə atır, arvadlar iki mis qabı bir-birinə vurub cingildədirdilər. Bir arvad isə həyətdə, kəsilmiş at quyruğunu uzun bir payanın ucuna bağlayıb havada oynada-oynada: "Kişə, kafir, kişə", – deyə çığırırdı.

Mən yenə də qorxu içində idim. Bütün bu işlərin sirlərini başa düşmək üçün anamdan soruşdum:

– Ana, cinlər ayın üzünü niyə tuturlar?

– Oğlum, cinlər, şeytanlar insanların düşmənidir. Onlar ayın, günün üzünü tutub dünyanı zülmətdə tutmaq, zülmətdə qoymaq istəyirlər.

Mən xəyalımda vəziyyəti bir az da böyüdərək: "Doğrudan bu cinlər ayın, günün üzünü tutub yer üzünə işıq verməyə qoymasalar, qaranlıqda biz necə yaşayarıq?" – deyə düşünməyə başladım.

Athaat, cingilti, bağırtı davam edirdi. Bir az sonra ayın bir yanı işıqlandı. Anam sevinə-sevinə:

– Aha, ay cinlərin əlindən qurtarır, – dedi.

Çox keçmədi ki, "cinlər qovuldu", ayın üzü açıldı, səs-küy yatdı. Hamı sevinə-sevinə evinə çəkildi. O gecə səhərə qədər yata bilmədim. Cinlərin nə olduğunu və onların ayın yanına necə gedib ucaldıqlarını düşünürdüm.

Sonralar coğrafiya dərslərində ayın və günün nə səbəbə tutulduğunu müəllim bizə anlatdı.

***

Qafqaz və bəzi Şərq xalqları arasında belə bir əfsanə dolaşmaqda idi ki, guya Xızır adlı bir peyğəmbər var, o həmişə diridir. Ona bəzi yerdə Xızır Nəbi, bəzi yerdə Xıdır Nəbi deyirlər. Böyük dərd, fəlakət, ya bədbəxt bir hadisə üz verdiyi zaman "Ya Xızır," – deyə onu köməyə çağırırdılar. Tiflisdə Xıdır Nəbi adına ayrıca bir kilsə də var idi. İldə bir dəfə fevralın üçüncü həftəsində cümə axşamı o kilsənin günü idi. Çərşənbə axşamı gürcü, erməni və azərbaycanlı arvadlar niyyət edir, buğdanı qovurub kirkirədə üyüdür, sonra onu böyük bir qaba töküb şərbət ilə isladırdılar. Səhərəcən qalıb quruyurdu. Buna qovut deyirdilər. Nəzir edən şəxslər hazırladıqları qovutu Xıdır Nəbi kilsəsində dilənçilərə paylayırdılar. Deyərdilər ki, guya kimin nəziri qəbul olubsa, çərşənbə gecəsi Xıdır Nəbi gəlib o qovutdan ya bir az yeyər, ya barmaqlarını üstünə basıb gedərmiş.

Yaxşı yadımdadır, anam da Xıdır Nəbi gecəsi nəzir eləyib qovut hazırlamışdı. Mən qovutu sevməzdim. Anam qovutu böyük bir qabda pəncərəyə qoymuşdu. Mən hər səhər hamıdan əvvəl oyanardım. Həmin gün də tezdən oyananda anamın pəncərəyə qoyduğu qovut yadıma düşdü. Tez pəncərəyə yanaşdım, gördüm ki, Xıdır Nəbi barmağını qovutun üstünə basmayıbdır... Demək, anamın nəzri qəbul olunmayacaq. Tez barmağımı beş-altı yerdən qabdakı qovuta basdım. Anam oyananda pəncərəyə sarı qaçdı. Qovutun üstündə barmaq yerlərini görüb, sevincək çığırdı: "Xıdır Nəbi qovutuma barmağını basıb!" Tez gedib Məşədi Pərini çağırdı.



Barmaq yerlərini göstərib: "Görürsənmi? – dedi. – Ona şəkk gətirənə lənət!" Məşədi Pəri heyrətlə qovutun üstündəki barmaq yerlərinə baxıb: "Mehri xanım, Allah nəzrini belə qəbul eləsin: gör neçə yerdən barmaq basıb", – dedi.

O gün anam qovutu paylamaq üçün Məşədi Pəriyə verib Xıdır Nəbi kilsəsinə göndərdi. Ancaq bu işlərin hamısı atamdan xəlvət olurdu. Bizim ev müəllim evi olduğu halda, mövhumat yuvası idi.

***

Yeddi-səkkiz yaşında ikən bir dəfə xorzək olmuşdum; səsim tutulmuşdu, danışanda boğulub xoruz kimi banlayırdım. Həmişə evdə uşaqlardan biri xəstələndiyi zaman anam başını itirirdi. O, indi də bərk əl-ayağa düşdü. Qala məhəlləsində dayımgilin qonşuluğunda Gözəldostu adlı bir qoca arvad var idi. Hər kəs xəstələnsə onu çağırırdı. Hamı ona təcrübəli türkəçarə həkimi kimi inanırdı. Anam tez onu çağırtdırdı. Gözəldostu gəldi. Boğazımı əli ilə yoxlayıb: "Xorzəkdir, – dedi. – Boğazı da iki tərəfdən gəlib. Bir az yağ ver ovuşdurum". Anam nəlbəkidə yağ gətirdi. Gözəldostu barmaqlarını yaladıqdan sonra nə qədər etdisə, ağzımı açmadım. Axırda anam mənə yalvarmağa başladı:

– Oğlum, boğazını basmayacaq, eləcə baxır ki, görsün qızarıb, yoxsa yox.

Ağzımı açdım. Gözəldostu baxdıqdan sonra:

– İkitərəfli gəlib, görmürsən vəzləri nə boyda olub? Boğazını basmaq gərəkdir, – dedi.

Gözəldostu ucaboy, əlli beş-əlli altı yaşlarında bir arvad idi. Başına qara kəlağayı örtmüş, üstündən də ağ çarşab salmışdı, əyninə tünd göy rəngdə gen don geymişdi. Uzun, yo-

ğun barmaqları kirdən çatlayıb şişmişdi. Mən onun barmaqlarına baxaraq, özümü kənara çəkməyə çalışdım. Anam yenə yalvarmağa başladı. Mən: "– Barmaqları kirlidir", – dedim. Sonra o arvadın qolundan tutub dedi:

– Qalx, Gözəldostu, su töküm əlini sabun ilə təmiz yu.

Gözəldostu əllərini göstərib narazılıqla mızıldandı:

– Mənim əlimə nə olub ki? Tərtəmizdir.

Ancaq yenə də anamın sözünü yerə salmamaq üçün Gözəldostu əllərini yuyub gəldi. Barmaqlarını mənə göstərərək:

– Bax, tərtəmizdir. Yaxşı, oğlum, ağzını aç, boğazını basım. Elə bu gün sağalacaqsan, – dedi.

Nəhayət, ağzımı açdım. O bir əli ilə boğazımdan yapışıb, o biri əlinin şəhadət barmağını ağzıma soxdu. Boğulurdum. Boğazımdakı vəzi barmağı ilə basanda ağrıdan elə bil ağlım başımdan çıxdı. Qışqırdım. İtər-istəməz onun barmağını dişlərimin arasında bərk sıxmağa başladım. İndi mən də qışqırırdım, o da; səsimiz otağı başına götürmüşdü. Onun əlindən bərk yapışıb çəkə-çəkə ağzımı açdım. O, barmağını tez çıxardıb havada oynada-oynada ufuldayır, anam da mənə acıqlanır, Gözəldostudan üzr istəyirdi. Boğazımın sol tərəfini basmamışdı, ancaq barmağını bir də ağzıma uzatmağa cəsarət etmədi:

– Mehri bacı, sol tərəfdə elə bir şey yoxdur, – deməklə canını qurtardı. Sonra anamdan bir yumurta istədi. Yumurtanın sarısını üstdən boğazıma sürtüb, dəsmal ilə bağladı, tez-tez üzüm turşusu içməyi tapşırdı.

Gözəldostunun "müalicəsi" vəziyyətimi yaxşılaşdırmaq əvəzinə daha da ağırlaşdırdı. Bu xəstəlikdən xeyli əziyyət çəkdim, ancaq o qara kəlağayılı arvadın uzun, yoğun barmaqları yadımdan çıxmadı. Bəzən hətta o barmaqlar yuxuma girir, qaranlıqda ilan kimi boğazıma sarı uzanıb, elə bil, məni boğmaq istəyirdi.



## İKİ QARDAŞ

Anamdan eşitdiyimə görə, Cəfər babam öldükdən sonra ailəsini Sənəm nənəm idarə edirmiş. Sənəm nənəm qoçaq və kişi təbiətli bir qadın imiş. Ərindən ona bir yaşadıqları ev, bir də Tiflisin yaxınlığındakı Qarayazda bir bostan yeri qalmışdı. Nənəm Qarayazdakı bostan yerinin ixtiyarını böyük oğlu İsmayıla verib, hər il orda bostan əkdirirmiş. Kiçik oğlu Abbas da, Qala məhəlləsində evlərinin qabağında olan Vano bəy Orbelianinin hamamını icarəyə götürmüşdü. Bu iki qardaş həm xarici görkəmcə, həm də təbiətcə bir-birinə bənzəmirdi.

İsmayıl qısaboy, kök, qarayanız, xırda gözlü, Abbas isə ucaboy, qumral gözlü, xoşsifət bir adam idi.

Nənəm oğlanlarını evləndirmək istəyirdi. Ancaq İsmayıl dayımın hər il mədaxili az gətirməsi onu şübhələndirirdi. O, Qarayaza adam göndərib, oğlu İsmayılın orada nə ilə məşğul olduğunu öyrəndi. İsmayıl dayımın Qarayazda pulları siğə etdiyi dul arvadlara yedirtdiyini bilincə birbaş Qarayaza getdi. Dayıma bərk qulaqburması verib, bu işdə yaxından iştirak edənləri məzəmmətlədi. Bu hadisədən sonra nənəm İsmayıl dayımı gözdən saldı, ondan əvvəl kiçik dayım Abbasa Sarban kəndindən atamın bacısı Mina bibimi alıb içində yaşadığı evi də ona bağışladı. İki il sonra İsmayıl dayımı Gəncədən öz qohumlarından evləndirdi. Dayılarımın hər ikisi məhəllə məktəbində molla yanında oxumuş olduqlarından az savadlı idi.

O zaman Kərbəlaya, Məşhədə və Məkkəyə at ilə gedirdilər. Qərib ölkələr keçib bu uzun yolları at ilə getmək zəhmətli olduğuna baxmayaraq, dindar və şöhrətpərəst adamlar o zəhmətlərə qatlanırdı. Onlar özlərilə yol bələdçisi götürürdülər. Belə bələdçilərə çovuş deyirdilər. Bu çovuşların özlərinəməxsus səfər paltarı olurdu. Onlar əllərində ələm, at üstündə küçə-küçə gəzib adamları Kərbəlaya və Xorasana getməyə təşviq edirdilər. Haca, Kərbəlaya, Məşhədə getmək cahil adamlar içində böyük hörmət sayılırdı.

Kərbəlaya getməyə hazırlaşan dostlarından biri Abbas dayıma onunla bərabər getməyi təklif etmişdi. Abbas dayım ona razılıq verib fikrini nənəmə demiş, o isə oğlunun bu tədbirini çox bəyənmişdi. Bundan sonra dayım səfər tədarükü görməyə başlayaraq bir at aldı. Səfər günü çovuş Kərbəlaya gedən atlılarla birgə dayımgilin qapısına gəlib, ucadan oxuya-oxuya İmam Hüseyn qəbrini ziyarət etməyin savabından danışırdı. Məhəllə adamları toplanıb dayım ilə görüşür, sağsalamat qayıtmasını arzu edirdilər. Abbas dayımın bu dəbdəbə ilə Kərbəlaya getməsi İsmayıl dayımın arvadının izzətinə toxunmuş, böyük qardaşı dura-dura kiçik qardaşa olan bu ehtirama qarşı söylənməyə başlamış, hətta o gün ərini qardaşı ilə görüşməyə qoymamışdı.

Bu hadisədən sonra iki qardaş ailəsinin arasında gizli bir ədavət əmələ gəldi. Abbas dayımın Kərbəladan qayıdandan sonra məhəllə adamları tərəfindən "Kəblə Abbas, ziyarətin qəbul olsun!" – deyə hörmətlə qarşılanması, dayımın Kərbəlayı adı alıb hörmətə minməsi iki ailə arasında ədavəti bir qat da artırdı. İki qardaşarvadı bu tütstülü kösöyü püfləyə-püfləyə alovlandırdılar və bir-birinə düşmən oldular.

Böyük dayımı sadəcə olaraq İsmayıl çağırmalarını arvad həzm edə bilməyib ona deyirdi:



– Kiçik qardaşın Kərbəlaya gedib Kəblə Abbas oldu, qeyrətin varsa, sən də haca gedib Hacı İsmayıl ol!

Dayımgil ata-babadan Orbeliani hamamının sol tərəfindəki birmərtəbəli köhnə evdə yaşayırdı. Kiçik həyəti vardı. Babam ona bitişik uçuq bir ev alaraq, yerində təzə ev tikdirməyə başlamışdı. Ev tamam olmamış o vəfat etdiyindən evi Sənəm nənəm tikdirib başa çatdırdı. Ev dördmərtəbəli idi. Kiçik qardaşın dördmərtəbəli yeni evdə, böyük qardaşın isə köhnə birmərtəbəli evdə yaşaması da İsmayıl dayımın arvadı Səkinəni hövsələdən çıxarırdı. O, hər gün "Qeyrətimdən çatlayıram. Mənə də dördmərtəbəli ev tut!", – deyə dayımı boğaza yığmışdı. Dayımın bu söz-söhbətə, heç bir şeyə əhəmiyyət vermədiyini görüb, Səkinə özü ev axtarmağa başladı. Nəhayət, Şeytanbazarından Botanik bağına gedən küçədə üçüncü mərtəbədə boşalmış bir mənzil tapdı və zor-güc ora köçdü.

İsmayıl dayım sadəlövh, dindar bir kişi idi. Molla Həsən ağa adlı bir vaizin ən sadiq müridlərindən idi. O, hər il Qarayazdakı bostanın məhsulunu satdıqdan sonra qazancını götürüb Molla Həsənin yanına gedirdi. Molla Həsən xümsünü seyidlərə və zəkatını yoxsullara vermək üçün qazancın müəyyən qismini ayırıb götürür, xeyir-dua verib, var-dövlətinin artmasını allahdan arzu edirdi. İsmayıl dayım bu fırıldaqçı mollanın hiylələrinə uyan adamların nə birincisi, nə də sonuncusu idi. Molla Həsən onun kimilərinin çoxunu hörümçək kimi tora salıb qanını sorurdu.

Bir gün dayım arvadı yarı gerçək, yarı zarafat ilə:

– İsmayıl, bura bax, – dedi, – bu il qazancından o Molla Həsən kişiyə versən, burda oturanların hamısının günahı sənin boynuna.

İsmayıl dayım acıqlı-acıqlı dedi:

– Arxayın ol, bu il heç kəsə pul verə bilməyəcəyəm. "Hacı İsmayıl ol!" - deyə-deyə bostanı qurutdun. Gələn il bostan əkdirməyə pulum çatmır, – dedi.

Ər-arvad bir az sözə gəlib deyişdilər. Arvad deyirdi:

– Görəsən pulu yenə hansı köpək qızına yedirtmisən?

Bu zaman qapıda birdən səs-küy ucaldı. Dayım arvadı qulaqlarını şəkləyib narazı səslə:

– Yenə rəncbərlərin gəldi. Görək Ağa İsmayıla nə buyruq göstəriblər, – deyə üz-gözünü turşutdu. Sonra dayıma amiranə bir səs ilə dedi:

– Qabaqlarına çıxmayacaqsan, mən deyəcəyəm ki, evdə yoxdur.

Rəncbərlər qapıdan həyətə baxan eyvana girib "Ağa İsmayıl", – deyə səsləndilər. Dayım arvadı qabaqlarına çıxıb:

– Ağa İsmayıl evdə yoxdur. Qarayaza gedib, – deyə onları yola salmağa çalışdı. Rəncbərlər bu sözdən döyükə-döyükə bir-birlərinin üzünə baxdılar. Hamısının başında yanlarını kir kəsmiş qara papaq var idi. Üzləri günəşdən yanmış, vücudları bir dəri, bir sümükdən ibarət idi. Paltarlarında o qədər cırıq və yamaq var idi ki, üstlərinə bir put darı tökülsəydi, biri də yerə düşməzdi. Çalsaqqal, zəif bir rəncbər dayım arvadına heyrətlə baxıb cavab verdi:

– Xanım, Ağa İsmayıl Qarayaza necə gedir, onun orada daha bir işi qalmayıb, bizim onun ilə işimiz var. Gəlmişik onu görməyə.

Dayım arvadı dediklərini yenə təkrar etdi:

– Evdə yoxdur, deyirəm, özü dedi ki, Qarayaza gedəcəyəm.

Səsindən, simasından xəstəyə bənzəyən arıq bir oğlan dedi:



– A xanım, bu qədər yol gəlmişik, Allah rizasına, bizi balalarının başına çevir, Ağa İsmayılı gizləmə. Qoy ona dərdimizi danışaq.

Dayım arvadı bir az yumşaldı. "Onda bir saatdan sonra gəlin", – deyə onları yola saldı.

Rəncbərlərin bu halına anamın yazığı gəlib dedi:

– Ay İsmayıl, bunların üst-başı niyə belədir? Arvadları yoxdur? Görünür rəncbərlərə az zəhmət haqqı verirsən ki, yazıqlar özlərini düzəldə bilmirlər.

Dayım istehza ilə gülərək, məğrur bir səslə cavab verdi:

– Bəs necə, hamı sizin kimi xoşbəxt ola bilməz ki... Bir parça çörəyin var, oturub rahat yeyə bilmirsiniz... Onların da alnına Allahdan belə yazılıb. Molla Həsən ağa deyir: "Hər insanın qəza-qədəri hələ ananın bətnində ikən alnına yazılır. Bəndə kömək etməklə onun işi yaxşılaşmaz. Gərək Allah kömək eləsin".

Anam dedi:

– Ay İsmayıl, mənə qalsa, o Molla Həsənə verdiyin pulu bu yazıqlara versən, onlara əl tutsan, belə yazıq halına düşməzlər...

– Bəsdir, bəsdir, sən allah, – deyə dayım arvadı anama etiraz etdi, – qardaşın o yan-bu yana az paylayır, sən də ona təzə yol göstərirsən. Bəs biz neyləyək? Ağzımızı göyə açaq?

Anam cavab vermədi. İsmayıl dayım arvadına haqq qazandıraraq dedi:

– Molla Həsən düz deyir, onların da alnına bu yazılıbdır, biz neyləyək?

Dayım arvadı fürsətdən istifadə edib söhbəti yenə "Hacı İsmayıl" məsələsinə gətirdi:

– Molla Həsən ağanın da alnına Ağa İsmayılı soymaq yazılıbdır. O olmasaydı, sən çoxdan Hacı İsmayıl olmuşdun.

Söhbət uzandı. İsmayıl dayım çuxasını geyib evdən çıxmaq istərkən, yenə həyətdə rəncbərlərin "Ağa İsmayıl" deyə səsləri eşidildi. Dayım tez qapıya tərəf getdi. Mən də tez küçə qapısına çıxdım.

Rəncbərlər dayımı görən kimi əllərini döşlərinə qoyub "Salam əleyküm, Ağa İsmayıl", – dedilər. Dayım salamlarını aldıqdan sonra:

– Hə, nə deyrisiniz? – deyə məğrur bir vəziyyət aldı.

Birinci qoca kişi dilləndi:

– Ağa İsmayıl, bizə pul lazımdır. Gəlmişik...

Dayım onun sözünü kəsdi:

– Mən sizə demişəm ki, pul əlimdən oynayıb, bu il mən sizi yaza qədər saxlaya bilməyəcəyəm. İstəyən qalsın, istəməyən getsin özünə iş tapsın.

Arıq, xəstə rəncbər:

– A kişi, bu vaxt biz işi hardan tapaq? Heç olmasa bunu iki ay əvvəl deyəydin. Görünür sən bizi acından öldürmək istəyirsən!

– Öldürmək neçin?.. Bu il mənimki belə gətirdi. Yoxa nə çarə?

– Günah kimdədir?.. O ifritə Zeynəb gündə bir arvad tapıb səni soğan qabığı kimi soydu.

– Artıq-əskik danışmayın, mən sizi yaza qədər saxlaya bilməyəcəyəm.

– Ağa deyir, sür dərəyə, sür dərəyə, əlimizdən nə gəlir. Barı bu günə qədər olan haqq-hesabımızı ver! – deyə qoca rəncbər mübahisəyə yekun vurmaq istədi.

İsmayıl dayım qocanın əlinə 45 manat pul qoyub:

– Aranızda bölüşdürün, – dedi.



Hamı gözünü qocanın əlindəki pula dikmişdi. Xəstə rəncbər nə isə demək istəyirdi. Elə bu vaxt dayım əlimdən tutub evə qayıtdı.

***

Molla Həsən Ağanın adını eşitmişdimsə də, üzünü görməmişdim. Bir gün təsadüfən atamla bazara gedərkən küçədə ona rast gəldik. Atamı görüncə dayandı. Salamlaşdılar. Bir-birinin əhvalını soruşduqdan sonra o diqqətlə mənə baxıb dedi:

– Yəqin bu ağazadədir?

Atam cavabında:

– Bəli, bəndəzadədir, – deyə cavab verdi.

Mən onun Molla Həsən olduğunu hiss etmişdim.

Molla Həsən ağa ucaboy, qarayanız və sağlam bir kişi idi. Ensiz, qırışıq alnı, enli və çatma qara qaşları, kiçik bəbəkli, qara, kəskin gözləri vardı. Vücuduna nisbətən kiçik başına qazan boyda iri bir əmmamə qoymuşdu. Bu əmmamə qalın, iri dodaqlarının ucuna qədər boru kimi uzanmış, nazik burnuna, xırda gözlərinə və qırışıq sifətinə heç yaraşmırdı. Təxminən altmış yaşlarında olan bu molla Tiflis camaatının əksəriyyətini öz təsiri altına ala bilmişdi. Minbərdə üzünü camaata tutub deyirmiş: "Hər kəsin xanəsində rusca kitab olsa, hər kəs özünü rusa bənzədib, rus əlbisəsi geyinsə, hər kim uşaqlarını rus məktəblərində təlim və təhsil almağa qoysa qiyamət günü allah-təalanın və peyğəmbərimiz Məhəmməd Əleyhissəlamın hüzuruna üzüqara gedəcəkdir. Bizə ancaq din və şəriət elmi lazımdır, vəssalam, mabəqi elmlər şeytan elmidir. Onlardan qaçın, vücudunuzu cəhənnəm odundan qoruyun..."

Belə görüşlərin təsirilə çox zaman Tiflis camaatı uşaqlarını rus dilində açılmış məktəblərə qoymayıb, mollaxanalara göndərirdilər.

Molla Həsən ağanın iki arvadı vardı. Böyük arvadı Zibeydə xanımı özü ilə İrandan gətirmişdi. Zibeydə xanım özünü kişinin gözünə soxmağı bacaran, 45 yaşında nazlı-qəmzəli bir arvad idi. Ağa evə qayıdana yaxın hər gün qaşlarına məsmə, gözlərinə sürmə çəkib, gözəl və təmiz paltarını geyinər, Molla Həsən ağanın yolunu gözləyərdi. Kişi içəri girincə əl-əl üstündə onun qarşısında durub salam verər, səhhətini soruşar və allah-taaladan ağaya can sağlığı arzu edərdi. Ağa bir şey istədikdə heç kəsə fürsət verməyib hər kəsdən əvvəl özü ona xidmət etməyə çalışardı.

İkinci arvadı Güləndam xanımı Tiflisdən almışdı. Güləndam xanım Zibeydə xanımdan həm cavan, həm də gözəldi. Ancaq nədənsə Ağa Zibeydəni daha çox istəyirdi.

Ağa yeməyə də çox tələbkar idi. Plov ilə küftəni çox sevərdi. Ona görə də xanımlar ona bir gün plov, bir gün küftə bişirirdilər.

## LOTU ÇIXDI

Bir gün İsmayıl dayımgilə qonaq getmişdik. Dayım bir sini paxlava bişirtdirib, oğlu Məmməd Cəfər ilə Molla Həsən ağanın evinə getmişdi. Bir az sonra onlar qayıtdılar. Məmməd Cəfər üzünü anama tutub gülə-gülə:

– Bibi, mən bu gün atamın Molla Həsən ağasını yaxşı tanıdım. O, molla yox, lotu imiş, – dedi. Dayımın acıqlanmasına baxmayaraq, o yenə sözünə davam etdi:



– Bir sini paxlavanı birbaş onun evinə apardım. Arvadlar hərəmxanada bir-birinə dəymişdi. Ağanın böyük arvadı sinini boşaldıb mənə verincə qapıda durub gözlədim. Toyuq plov bişirirdi. Böyük arvadı paxlavanı boşalda-boşalda deyirdi:

– Bir az əldən zirək olun, saat beşə gərək xörək hazır olsun. Ağanın xasiyyətini bilirsiz ki, yeməyin vaxtından bir az keçəndə evdə qiyamət qoparır.

Atamın tapşırığına görə boş sinini alıb ağanın otağına girdim. Ağa baş tərəfdə döşəkçə üstündə oturub danışır, adamlar da divar dibində səd çəkib ona qulaq asırdılar. Atam məni ağa ilə tanış edib: "Yaxın get, ağanın əllərini öp!" – dedi. Mən yaxınlaşdım, əvvəlcə sağ əlini öpdüm. Sonra ağa sol əlini uzatdı. Onu da öpdüm. O mənə diqqətlə baxlb: "Ağa İsmayıl, maşallah, sizin bösböyük şahzadəniz var imiş", – dedi, sonra soruşdu ki, "Ağazadənin vəzifəsi nədir?" Atam başa düşmədi. Molla Həsən xırdalayıb dedi: "Soruşuram ki, oğlunuz nə iş görür?" Atam cavab verdi ki, "Mənə kömək edir".

– Şkolda oxumayır ki?

– Yox, ağa, oxuyurdu, sizin moizənizdən sonra işkoldan çıxartdım.

Onun üz-gözü güldü. Sevinə-sevinə:

– Ay allah ata-anana rəhmət eləsin, müsəlman adamsan, – dedi. Sonra söhbəti dəyişib yenə moizəyə başladı:

– Məndən sizə vəsiyyət, bu beş günlük dünyaya uymayın, qarnınızı həşərat və heyvanat yuvası etməyin!

Məmməd Cəfər bu sözləri deyib bərkdən güldü. Sonra üzünü atasına tutdu:

– Ay ata, xoruzun quyruğu görünür, özü evdə hər gün toyuqplov basıb yeyir, amma sizə deyir ki, qarnınızı həşərat yuvası eləməyin. Belə adama lotu deməyib bəs nə deyərlər?

Dayım ona bərk acıqlandı. Bu sözlər dayım arvadının lap ürəyindən idi. Odur ki, qaşlarını düyünləyərək dedi:

– Lotu olmasa kişinin var-yoxunu tovlayıb əlindən ala bilərdi? Elə bil zalım oğlu bizim kişiyə sehr-cadu eləyib. Pul əlinə gələn kimi onun yanına qaçır.

Molla Həsən ağanın birinci arvadından Ağa Qənbər adlı bir oğlu var idi. Mollaxanada oxuyurdu. Sonra gimnaziya tələbələrinin geydikləri rəsmi geyimi bəyənib o məktəbdə oxumaq istədi. Ağa razı olmadı. Ağa Qənbər əl çəkmədi. Ərköyün böyümüş və "yox" sözünü bu vaxta qədər eşitməmiş olan Ağa Qənbərə bu "yox" sözü çox mənasız görünürdü. O, öz sözündə möhkəm durur, hər gün anasının yanında ağlayıb, sızıldayıb deyirdi: "Mən rus məktəbində oxuyacağam". Anası ağaya nə qədər yalvarıb-yaxarırdı, Ağa razı olmurdu. Lakin Ağa Qəmbər dediyindən dönmədi, atasından gizlin gimnaziyaya daxil oldu. Bir neçə vaxtdan sonra atası bu əhvalatdan xəbər tutsa da, daha ona bir söz demədi.

Dayım oğlu Məmməd Cəfər tez-tez bizə gələrdi. Bu gün o yenə bizə gəlmişdi. Son zamanlar anamın da Molla Həsən ağa ilə maraqlanmağa başladığını bildiyindən:

– Bibi, sənə Molla Həsən ağadan danışım, – dedi, – mən ona lotu deyəndə atam acıqlanır. Bu gün Əsgər ağanın oğlu Nəsrəddin ilə küçədə görüşdük. Xoş, beş, on beşdən sonra mənə dedi: "Sən axmaqsan, gimnaziyadan çıxdın. Odur, molla Həsən ağanın oğlu Ağa Qənbər gimnaziya oxuyur". Mən qulaqlarıma inanmadım. "O ki rusca bilmir, gimnaziyaya necə girdi?" – deyə soruşdum. Nəsrəddin gülərək dedi



ki, Ağa Qənbərin özünün dediyinə görə rus dilini ona atasının dostu Mkrtıç öyrədibdir.

Çox çəkmədi ki, Molla Həsən ağa Kür çayı sahili yaxınlığında böyük bir ev alıb ailəsilə bərabər ora köçdü. O, hər il bir-birindən xəbərsiz olan varlı müridlərinin qazancından xüms-zəkat çıxır, bəzən də borc alıb qaytarmırdı. Bu müridlər ancaq indi başa düşdülər ki, hər il onlardan aldığı pulu Ağa nəyə xərcləyirmiş. İsmayıl dayımın dili qısalmışdı. Arvadı deyirdi:

– Sən bu Molla Həsənə pirim deyə yapışmısan, bax, o özünə necə gün ağladı, sən necə gün ağladın? Sən yerli olaola, hər il o qədər pul qazana-qazana bir ev də ala bilmirsən. Cəhənnəm, heç olmasa Haca gedib Hacı İsmayıl olsaydın, yenə dərd yarı idi. O səni və sənin kimiləri soyub, özünə o cür mülk aldı.

İsmayıl dayım bu sözlərin doğru olduğunu bilib daha heç bir söz demirdi.

Məmməd Cəfərin də dili uzanmışdı. O da atasının hərəkətlərini tənqid edərək deyirdi:

– Ata, mən deyəndə ki, o lotudur, sən cin atına minib göyə qalxırdın. Onun sözü ilə məni gimnaziyadan çıxartdın. Amma o öz oğlunu gimnaziyada oxudur.

İsmayıl dayım yanları ətli, kiçik, qara gözlərini iri-iri açaraq:

– Yox, yalandır! – deyə bağırdı.

– Yalan deyil, Əsgər ağanın oğlu Nəsrəddin deyir ki, Ağa Qənbər Molla Həsənin Mkrtıç adlı bir erməni dostunun evində yaşayır. Öz evlərinə gedəndə gimnaziya paltarını çıxarıb, arxalığını geyir, dərsə gedəndə yenə paltarlarını dəyişir.

Dayım arvadı yerindən səsləndi:

– Evin yıxılsın, kişi, uşağımızı necə bədbəxt elədi!

Molla Həsən məsələsi ildən-ilə başqa rəngə girirdi. Atalarda bir məsəl var: "Cidanı çuvalda gizləmək olmaz". Molla Həsənin Mkrtıç ilə dost olmağının səbəbi ortaya çıxdı. Məlum oldu ki, Molla Həsən ona və bir çox başqa alverçilərə pul verirmiş. İndi Tiflisdə, Şeytanbazarda ancaq Molla Həsəndən söhbət gedir, onun hiyləgərliyindən danışırdılar. Hamı deyirdi: "Bu ki, lotudur!.. "

Molla Həsən ağanın böyük düşməni arvadlara dua yazan Altıbarmaq seyid idi. O neçə dəfə Molla Həsənin yanına gedib xalqdan aldığı xümsdən ona da verməsini xahiş etmişdi. Molla Həsən ağa həmişə ona: "Ağa, heç kəs mənə xüms verməyibdir ki, mən də sizə paylayım", – deyirdi.

Molla Həsən ağanın lotuluğu meydana çıxandan sonra Altıbarmaq Seyid hər yerdə onun əleyhinə təbliğat aparıb ağanı biabır edirdi:

– Ay müsəlmanlar! Qoyun dərisinə girən bu ac qurd Kür qırağındakı o böyük imarəti hansı pul ilə aldı? Alverçilərə veksil ilə minlərlə borc pulu hardan verir? İndi onun hiylə topu olan iki top əmmaməsini boynuna sarıyıb, bu Şeytanbazarda başıaşağı, başıyuxarı sürməyə haqqımız var, ya yox?

Altıbarmaq Seyidi Tiflisdə tanımayan yox idi. O, məscidə bitişik körpünün yanında altına bir qoyun dərisi salıb oturur və hər dərdə, hər xəstəliyə dua yazırdı. Dua yazdıran arvadlar növbəyə dururdu. O, duanı yazıb pulunu aldıqdan sonra bir arvadı itələyib, o biri arvada dua yazmağa başlayırdı. Seyidin bazarı çox rəvac idi. Onun əlindən qələmi yerə qoyub beş dəqiqə dincəldiyini görən olmazdı. Arvadlar deyirdi: "Altıbarmaq Seyidin duası daşdan da keçir" .



Altıbarmaq Seyid ucaboy, sağlam, qarayanız bir kişi idi. Uzun, qara saqqalı var idi. Həmişə belinə göy şal bağlardı. Göy şal seyidlik əlaməti idi. Xoşuna gəlməyən adamlara arabir həcv də yazardı.

Altıbarmaq Seyidin gecə-gündüz Ağanın əleyhinə təbliğat aparması ancaq öz mənfəəti üçün idi. Bu yolla o öz dini nüfuzunu artırmağa, gəlirini çoxaltmağa çalışırdı. Odur ki, yavaş-yavaş onun da hiylələrini başa düşüb, "Bu Altıbarmaq da öz cibinin dərdini çəkir", – deyənlər də vardı. Beləliklə, bu iki pul hərisi bir-birini gözdən salmağa çalışır, aralıqda isə qara camaat soyulurdu.

Molla Həsən Ağanın hiylələri açıldıqca İsmayıl dayımın evində dava-dalaş da artırdı.

Dayımın Qarayazdakı bostanı zərər etdiyindən əli kasad idi. Ona bir-iki manat lazım idi ki, yazda bostanı əkdirib başa çıxsın. Odur ki, arvadı deyirdi:

– Bu vaxtacan sən Ağaya əl tutmusan, var-yoxunu ona vermisən, nə olar, indi də qoy o sənə əl tutsun, bir qədər pul borc versin.

İsmayıl dayım öz səhv işini başa düşmüşdü. Başını aşağı salıb, cavab verdi:

– Arvad, əvvəlindən aldanmışam. Mən onu allah bəndəsi, düz-doğru bir molla kimi tanıyırdım. Nə bilim ki, lotu imiş.

## TƏZƏ QONŞULARIMIZ

Aprel ayı idi. Hacı Rzanın evindən köçüb Kəblə Lətifin evində tutduğumuz mənzildə olurduq. Yeni mənzilimiz ikinci qatda 3 otaqdan ibarət idi. Ağaclı və çiçəkli həyətə ba-

xan uzun artırması vardı. Bizim altımızda ev sahibi Kəblə Lətifin ailəsi yaşayırdı. Mənzilimizin sağ tərəfində üç otaq var idi. Bu otaqların ikisində Səfi dayı adlı bir miskər, digərində Fərəc adlı bir bəzzaz yaşayırdı.

Həyətin ortasında üstü taxta ilə örtülmüş böyük bir hovuz vardı. Qocaman bir alça ağacı iri şaxələrini hovuzun üzərinə gərmişdi. Bu mənzilimiz və həyətimiz mənim daha çox xoşuma gəlirdi.

Yeni mənzilimizdə qonşularımızdan Səfi dayı və onun arvadı Narıngül xala bizə daha çox səmimi idilər. Səfi dayı tez-tez atamla, Narıngül xala da, anamla söhbətə gələrdi. Fərəc əminin arvadı Qəmər xala da arabir bizi yad edirdi. Fərəc əmi burnunda danışdığına görə ona Tıntın Fərəc deyirdilər. Boydan çox kasıb idi. Saqqalı olmasaydı, onu uzaqdan yeddi-səkkiz yaşlı uşağa bənzətmək olardı. Camaldan da xeyli məğmun olan Fərəcin Həştərxan xoruzu kimi lovğa-lovğa, kəkələyib danışmağı vardı. Özü də molla Həsən ağanın müridlərindən idi. Hər gün dükanı bağlayıb məscidə gedər, günorta namazını orda qılar və ağanın moizələrinə qulaq asıb gələrdi. Arvadı Qəmərdən Tovuz adlı bir qızı və Əsgər adlı bir oğlu var idi.

Qəmər ortaboylu, ağır bir arvad idi. Ölgün baxışlı, qara gözləri vardı, yuxudan yenicə oyanmış, ya xəstəlikdən yenicə sağalmış adamı xatırladırdı. Heç bir yeri ağrımadığı halda, tez-tez ufuldayıb-sızıldamağa vərdiş etmişdi. Buna baxmayaraq o, çox çalışqan və qoçaq arvad idi. Qəmər xalanı harda itirsən, yaz-qış Kür qırağında tapardın. O, hər gün stəkan-nəlbəkini, qab-qacağı aparıb Kürdə saatlarla yuduqdan sonra yorğun-arğın evə qayıdardı.

Bir dəfə anam: "Ay Qəmır bacı, gündə bu qab-qacağı Kürə niyə aparırsan, burda yusana?" – deyə soruşduqda, o



cavabında, – "Mehri bacı, neyləyim, nəfsim çəkmir. Kürdə yumasam, ürəyim sakit olmur, bu da məndə bir naxoşluqdur", – demişdi. Qəmər xala əl dəydiyi üçün qapıları da tez-tez yuyurdu, qonşulara da çox gedib-gəlməzdi. Hətta bir vaxtlar o, bələkdəki uşaqlarını da Kürdə yuyundurardı. Ona görə də dörd uşağı sətəlcəmdən ölmüşdü. Bu işlər onu o qədər yorurdu ki, bəzən xörəyi vaxtında çatdıra bilmirdi.

Anam gəzəyən arvad deyildi. Ancaq qonşularla söhbət etməyi çox sevərdi. Bir gün söhbət ərlərin xasiyyətindən düşmüşdü. Mən Səfi dayıgilin artırmasında onun qızı Ülkər, Fərəc dayının qızı Tovuz, oğlu Əsgər ilə oturub "təkmə-cüt" oynayırdım. Anam bizim artırmanın onların artırmasına baxan sağ tərəfində durub Qəmər xala ilə danışardı. Qəmər xala Fərəc əmidən şikayətlənərək, dərindən ah çəkdi:

– Rəhmətliyin qızı, sən nə qoyub nə axtarırsan. O zəhər tuluğu zəhərləməkdən başqa bir şey bilmir. Evə gələndən sonra yazıq balalarımın danışıb-gülməyə nə cürəti var! Budur, xörəyi bişirib qurtarmışam. Evə gələndə heç kəsin üzünə baxmadan fısıldaya-fısıldaya: "Acam, xörəyimi gətir", – deyib əmr edəcək. Yeyib qurtarandan sonra qabı itələyib: "Hər gün bu it yalını yeməkdən təngə gəldik. Əməlli-başlı xörək də bişirməyi bacarmırsan", – deyə söylənməyə başlayacaq. Gündə iki abbası üstümə atıb gedir, mən bu iki abbasıya bilmirəm nə bişirim ki, ağanın xoşuna gəlsin.

Fərəcin bəzzaz dükanı var idi. Ondan parça alanlar həmişə şikayət edib deyirdilər: "Ölçəndə parçanı çəkə-çəkə, arşını qaçıra-qaçıra satır, beş arşında yarım arşın əskik verir" .

Bir gün qonşusu Səfi dayının arvadı Narıngül əlindəki parçanı Qəmərə göstərib narazı halda dedi:

– Ay Qəmər, buna bax, Fərəc əmidən beş arşın lasyik almışam, üç çərək əskik gəlir.

– Mən neyləyim, ay qız, nadürüstlük onun qanındadır. Pul görəndə dini-imanı da yadından çıxır.

Anam da eyvana çıxıb söhbətə qarışdı:

– Eybi yoxdur, namaz qılan, oruc tutan kişidir. Allah günahından keçər.

Narıngül xala anamın kinayəsini başa düşdü.

– Mehri bacı, dükan ağzına qədər kəndlilərlə doludur. Bir alver var ki, daha nə deyim. Mənə belə kəf gələndə, gör o yazıqlara nə toy tutur! Bu qədər ki, pul qazanır, bəs bunlar nə olur?

Qəmər xala dərdli-dərdli cavab verdi:

– Nə bilim, ay Narıngül, sən ki, mənimlə qapı-qapıya qonşusan. Ər-arvad kimi bir dəfə mənimlə oturub söhbət etdiyini görmüsən? Mızının biridir, nə var ürəyindədir. Onun işindən şeytan da baş çıxara bilməz! Ər-arvad səninlə Səfi dayı kimi olar. Bir-birinizə can deyib, can eşidirsiniz.

Anam gülə-gülə dedi:

– Qəmər bacı, sən allah, elə demə, gözün dəyər.

– Yox, Mehri bacı, dəyməz, allah onları bir-birinə daha da mehriban eləsin. Neyləyim, məni dərd dilləndirir. Neçə ildir Narıngül ilə qonşuyuq. Bu vaxta qədər mən öz dərdimi ona açıb deməmişəm. İndi canım boğazıma gəlib. Özü də daha məni bəyənmir. O gün deyir ki, "Havaxtacan sənin adama oxşamayan sifətini görəcəyəm" .

– Araba cırıldamaqdan, banı cırıldayır.

Kiçik daş yığmaq üçün biz qalxıb, həyətə çıxdıq. Sonra nə danışdıqlarını eşitmədim.

Bu söhbətdən xeyli keçdi. Bir gün həyətdə qonşular bir-birinə dəymişdi. Hamı deyirdi: Görünür bu Tıntın Fərəcin yalı çox düşüb, qudurubdur. Qəmər kimi təmizkar, əlli-ayaqlı, bişirib-düşürən arvadın üstünə bu qırğıburun Zalxanı nə ağıl ilə aldı? Barı uşaqlarından utanaydı.



## GÜNÜÇÜLÜK

Zalxanı Qəmər də, uşaqları da düşmən kimi qarşıladılar. Heç biri onu dindirmirdi. Ailə içərisində ikitərəflilik əmələ gəldi.

Fərəc isə bu işlərə əhəmiyyət vermir, öz kefini pozmur, yenə köhnə qayda ilə səhərdən-səhərə evdə iki abbası xərclik qoyub dükana gedirdi. Qəmər xala da bu puldan 15 qəpik Zalxanın üstünə atır, qalan pulu özlərinə xərcləyir və Fərəcin axşamına heç bir şey saxlamırdı. Zalxa ilk günlər Qəmərin hörmətini saxlayır, uşaqlarına məhəbbətlə yanaşır, evin ağır işlərini görürdü. Qəmərin isə qaşqabağı açılmırdı. Axırda Zalxa da acığa düşüb əlini ağdan-qaraya vurmadı. Fərəcin ailə həyatı ağır vəziyyət aldı: evlər süpürülmədi, paltar yuyulmadı, xörək vaxtında bişirilmədi. Fərəc bir neçə axşam şamsız yatdı. Xeyli səbr etdi, gözlədi – günülər yola gəlmədi. Tıntın Fərəc arvadı tənbeh edərkən onu söyüb acıqlamaqla kifayətlənmirdi, bərk acıqlananda evi günlərlə xərcsiz qoyurdu. O, indi də bu "cəza üsulu"na əl atdı... Evə pul vermədi. Ailənin yaşayışı çətinliyə düşdü. Qəmər çıxış yolu axtarmağa başladı. Axırda bu qərara gəldilər ki, ev işlərini bir gün Qəmər görsün, bir gün Zalxa. Hər ikisi buna razı oldu.

Zalxa ətli-canlı, qarayanız bir gəlin idi. Qalın qara saçı, ensiz qara qaşları, sarımtraq kiçik gözləri vardı. Onun özündən xeyli yaşlı Tıntın Fərəcə ərə gəlməsinin ayrıca bir tarixi vardı. Zalxa bir dəfə qonşusu Narıngülə öz həyatını belə nağıl etmişdi.

– Ay qonşu, dünyaya mənim kimi bədbəxt qız gəlmə yibdir. Atam öldü, yeddi ay sonra anam öldü... Bir ildə evi mizdən iki meyit çıxdı. Kənddə yaxın qohumumuz yox idi Odur ki, bibim Mahtab şəhərdən gəlib məni buraya gətird Bibimin əri Səfərəli çit-bez karxanasında işləyib ayda 12 ma nat alırdı. Bibim də yeri düşəndə evlərdə paltar yuyurdu Qazandıqları özlərini, uşaqlarını zornan görürdü. Çarəsi qalıb bibim məni bir evə qulluqçu verdi. Bir həftə keçmişd ki, xanım: "Bizə daha qulluqçu lazım deyil", – deyib əlim bircə manat pul verdi. Təzədən bibimgilə qayıtmalı oldum Evdə hamının qanı qaraldı...

Səfərəli Fərəc ilə bir kənddəndir. Bir gün bu ayağı qırıl mış Səfərəlinin yanına gəlmişdi. Məni görən kimi: "Mahtal bacı, bu qız kimdir? Mən bunu sizin evdə görməmişəm", dedi. Bibim cavabında dedi ki, "Qardaşım qızıdır, bir yer qulluqçu vermişdim, bu gün qaytarıb üstümə göndəriblər heç bilmirəm buna hardan bir iş tapacam". Bu sözlərdə sonra Fərəc mənə bir də diqqətlə baxdı, sonra: "Böyükcə qız dır, ərə ver getsin!" – dedi. Bibim ah çəkdi. "Hanı ər, gərəl olsun ki, verim...". Elə bil bu mürdəşir üzünü yumuş bunu gözləyirdi. Bibimin ağzından bu sölzər çıxmamış kişi gülə gülə: "Məndən yaxşı ər, ver alım", – dedi. Bibim cavab ver mədi, Səfərəli onun ağzından vurdu: "Sənin ki arvad uşağı var. Yoxsa yemin çox düşüb? Xalq birini saxlaya bilmir, sə təzədən qoşalaşdırırsan?" Fərəc lovğalanmağa başladı: "Mən mənəm, sən deyiləm. Səhərdən axşamacan qan-tər içində iş ləyib ayda 12 manat alırsan. Mən on iki manatı yarım saatd qazanıram. Özünüz bilin, mənim üçün fərqi yoxdur. Bu qız mənə verməsəniz gec-tez Qəmərin üstünə arvad alacam" Qalxıb gedəndə də dedi: "Mahtab bacı, yaxşı fikirləş, sonr peşman olarsan. Ona məndən yaxşı ər tapa bilməzsən".



O gedəndən sonra mən öz fikrimi evdəkilərə dedim: "Başımı kəssələr də, yüz il ərsiz qalsam da bu həyasız kişiyə getmərəm!"

Fərəc o gündən bizə ayaq açdı, hər nə qədər etdi, mən razı olmadım. Ancaq Səfərəliynən bibim də mənə bir iş, bir qulluq tapa bilmirdilər. Bibimin özünü də evlərə lap az-az çağırırdılar. Dolanışıqları ağır idi. Onların üstündə bir yük olduğumu hiss etdiyimdən bibimin evi mənə zindan kimi görünürdü.

Bir axşam Səfərəli işdən qayıdanda bibim süfrəyə çörək və göy soğan qoydu. Səfərəli yeyib qurtarandan sonra: "Çox şükür", – deyib çəkildi. Bibim süfrəni yığışdırıb: "Sabah Allaha qonağıq, – dedi. – Bu gün uşaqlar lap acdırlar. Heç bilmirəm sabah neyləyəcəyik?!"

Mən bir küncə çəkilib dinməz-söyləməz oturmuşdum. Deyəsən, onlar mənim otaqda olduğumu yaddan çıxartmışdılar. Odur ki, bibim Səfərəliyə dedi: "Ayaqdan-ayağa fərq var. Bu qız evimizə ayaq basan gündən bizimki gətirmir". Bu sözləri eşidincə ağlım başımdan çıxdı. Səfərəli məni görüb sıxıldı, məsələni malalamaq istədi: "Ay arvad, yaman günün ömrü az olar. Allah qoysa Zalxaya da iş tapılar, sənə də, yenə birtəhər yaşayarıq". Otaqda dayana bilməyib artırmaya çıxdım.

Üç gün idi ki, evdə qanqaralıq idi. Nə yeyir, nə içir, nə də bir kəlmə danışırdım. Ancaq bibim bir söz soruşanda cavab verirdim. Hər gün evdən çıxıb iş axtarmağa gedir, tapa bilməyib yorğun-argın evə qayıdırdım.

Bu əhvalatdan bir neçə gün sonra Fərəc gəldi. Xasiyyətini bilirsiniz. Dediyindən dönən adam deyil. Onu görən kimi: "Vay, xortdan gəldi", – deyə dalımı qapıya çevirdim. Fərəc bu sözləri eşitdi. Ancaq o belə sözlərdən çox eşitmiş və

qulağı dolmuş olduğundan əhəmiyyət vermədi, özünü eşit-məməzliyə qoydu.

– Mahtab bacı, nə var, nə yox, necə dolanırsınız? – deyə sözə başladı.

– Eh, Fərəc qardaş, necə dolanacağıq, çox pis, Səfərəli xərci çatdıra bilmir, mən də özümü ha oda-közə vururam, bir şey çıxmır.

– Bəs Zalxa xanıma iş tapa bilmədiniz?

– Yox!

Bu "yox" sözü kaftarın lap ürəyindən oldu. Gülə-gülə bir mənə baxdı, bir bibimə, sonra yenə əvvəl dediyini dedi:

– Onu ərə verməkdən başqa çarə yoxdur.

– Eh, hanı bizdə o bəxt ki, bir allah bəndəsi elçi göndərib istəsin, o da rahatlığa çıxsın, biz də.

Bibimin bu dəfə sözü mənə lap pis toxundu, özümü sax-laya bilməyib hönkür-hönkür ağladım. Bibim peşman oldu:

– Ay qız, niyə ağlayırsan? – deyə mənə təskinlik vermək istədi.

Fərəc bibimə aman vermədi.

– Ağlamasın bəs neyləsin?.. Qızın müştərisi başının üs-tündə durub, deyirsən ki, "bir allah bəndəsi olsaydı" ...

Mən ağlaya-ağlaya onun sözünü kəsib dedim:

– Gedirəm, cəhənnəmə də olsa gedirəm, gora da olsa ge-dirəm.

Tıntının kefi açıldı, "sağ ol, Zalxa xanım, sağ ol, allah xe-yir versin, qalx gedək", – deyib qolumdan yapışdı. Mən çad-ramı başıma salıb onunla birlikdə evdən çıxdım. Bibim, Sə-fərəli nə qədər dedilər ki, qayda-qanunla olsun, el adəti ilə olsun, razı olmadım. Dedim ki, gedirəm, vəssalam... İndi də ki, bu oda düşmüşəm. Günülük nə yaman şey imiş, yanıram



tüstümü görən yoxdur. Heç bilmirəm burdan baş alıb hara qaçım...

Belə bir həyat o zaman kimsəsiz, yoxsul qızların çoxuna nəsib olurdu...

Zalxanı Fərəcin dedi-qodulu evi sıxmağa başladı, ürəyi-ni boşaltmaq, dərdini azaltmaq üçün hər gün qonşulara qa-çıb Qəmərdən, uşaqlarından, xüsusən Fərəcdən şikayət edir-di. O, çox şirinsöhbət, zarafatcıl bir gəlin idi. Son zamanlar bizə də tez-tez gəlirdi.

Zalxanın qonşulara getməyi Qəmərə xoş gəlmirdi. Odur ki, bir dəfə günüsünü hədələyərək dedi:

– Qonşuları gəzmək də təzə çıxdı. Bunu Fərəc bilsə, səni evdən qovar.

– Kaş qovaydı, mən allahdan istəyirəm ki, onun adama oxşamaz sifətini görməyim! – deyə Zalxa qəti bir cavab ver-di.

– Ay qız, görünür, sən Allaha, qurana inanmırsan, arvad da ərinə elə söz deyər? Günah deyil?

Bu dəfə Zalxa öz etirazlarını daha aydın ifadə etdi:

– Vallah, cana elə doymuşam ki, nə Allah yadıma düşür, nə də Quran... Bu evdə hamı mənə düşmən görünür. Qaşqa-bağın məni lap təngə gətirib. Heç bilmirəm başımı bu xara-badan götürüb hara qaçım!

– Paho, bu da bizi bəyənmir, ata-anasını görməsəydi, bu kəndçi qızı xanlıq iddiası edərdi.

– Sən görünür şah qızısan. Bir də arvadı ata-anası ilə yox, əri ilə tanıyarlar. Sən də Tıntın Fərəcin arvadısan, mən də. Daha nəyinə qudurursan?

Qəmər Zalxaya evdə yad və lüzumsuz bir adam kimi baxırdı. Ona görə də günüsünə qarşı qəlbində kin və ədavət hissi alovlanırdı. Bunu Zalxa hər gün, hər saat hiss edirdi.

Ehtiyac içindən gəlib bir qırmızısaqqala qul olmuş kəndli qızı, qəfəsə salınmış quş kimi çırpına-çırpına qalmışdı. Sağa dönəndə günüsünün, sola dönəndə çalbaş ərinin yumruğuna rast gəlirdi. Atam-anam da, qonşularımız da onun faciəsinə bir çarə tapa bilmirdilər. Bir də ki, neyləyə bilərdilər? Köhnə dünyanın qanunları belə idi!

## MOLLA MƏKTƏBİ

Hamımız palaz üstündə oturub, sağ ayağımızı irəli uzadırdıq, uşaqlardan biri sayırdı. "İynə-iynə, ucu düymə, bal ballıca, ballı keçi, qoz ağacı, qotur keçi, hoppan-huppan, yarıl, yırtıl, su iç, qurtul". Axırıncı heca kimin ayağında qurtarsaydı, o öz ayağını çəkirdi. Bu sadalama davam edirdi. Axıra kimin ayağı qalsa idi, o, başını əyir, biz də əllərimizi bir-birinin üstə onun belinə qoyub soruşurduq: "Əl üstə kimin əli?" Uşaq suala düzgün cavab verməyəndə hamımız əlimizi yavaşca onun belinə vurub deyirdik: "Qaldırın, vurun yalandır! Qaldırın, vurun yalandır!" Bu qayda ilə yorulana qədər oynar, sonra oturub söhbət edərdik.

Tıntın Fərəcin mənimlə yaşıd oğlu Əsgər mollaxanada oxuyurdu. Bir dəfə yenə oyundan sonra söhbət əsnasında mən onun nə üçün mollaxanada oxuduğunu soruşdum. O atasına məxsus bir qürur ilə cavab verdi:

– Atam deyir ki, hansı evdə rus kitabı olsa, ora mələykə girməz.

– Mənim də atam molladır, bəs nə üçün məni rus məktəbində oxudur?

Əsgər əvvəlki tövrünü pozmayıb cavab verdi:



– Sənin atan, Molla Həsən ağadan çox bilmir ki? Bu sözü atama Molla Həsən ağa deyibdir. Bir də ki, rus məktəbində oxuyanlar Quranı oxuya bilmirlər. Mən bu il Quranı qurtarıram. Sən Qurandan heç bir kəlmə də bilmirsən.

– Yalan deyirsən, mən Quran da oxuya bilirəm, kitab da, – dedim.

O mənə inanmadı. Deyişməmiz uzandı. Əsgər qalxıb evlərinə qaçdı, bir azdan sonra əlində Quran gəldi.

– Di oxu görüm! – dedi.

Mən Quranı açıb höccələyə-höccələyə oxudum. O heyrətlə üzümə baxdı, sonra Quranı əlimdən çəkib özü oxumağa başladı. Lakin Əsgər məndən pis oxuduğu üçün davam etdirmədi, bir söz deməyib başını aşağı saldı.

Get-gedə Əsgərin də mən oxuduğum məktəbə həvəsi artırdı. Xüsusən mollaxanada ona verilən cəzalar yazıq uşağı lap cana gətirmişdi. O, bəzən evə ağlaya-ağlaya gələr, mollanın onun ayaqlarını falaqqaya salıb döydüyünü yana-yana anasına söylərdi. Qəmər xala oğlunun qızarmış ayaqlarına baxıb, mollaya qarğayır, sonra da Fərəcin arxasınca deyinirdi: "Bu zalım oğlunda övlad məhəbbəti də yoxdur. Gözünün ağı-qarası bir oğlu var, onu da belə zülm ilə oxudur..." Əsgər sızıldaya-sızıldaya anasına yalvarırdı ki, onu da mən oxuduğum məktəbə qoysunlar. Qəmər xala neçə dəfə bu barədə Fərəc əmiyə yalvarmışdısa da, kişi üz-gözünü turşudaraq: "Yox! Öz məktəbinə gedəcək! " – deyə cavab vermişdi.

Əsgərdə mollaxanaya qarşı nifrət gündən-günə artırdı. O hər gün dərsdən qayıtdıqdan sonra mollaxanada baş verən hadisələrdən mənə danışırdı.

Köhnə məhəllə məktəbləri uşaqlara dörd-beş ilə ancaq Quran oxumaq və bir qədər də yazı-pozu öyrədirdi. Otuz cüz Quranın kiçik ayələrdən ibarət olan birinci cüzinə çərəkə

deyilirdi. Həmin çərəkə mollaxanalarda oxuyan şagirdlərin ilk dərsliyi idi. Molla məktəbə yeni daxil olan hər uşağa gündə bir xətt dərs verib, axşama qədər oxuyub hazırlamağı tapşırırdı. Uşaqlar tanımadığı hərfləri və tamamilə yad ərəb kəlmələrini tutuquşu kimi əzbərləyir və çərəkəni ancaq bir ilə qurtara bilirdilər. Hər uşaq mollaya verdiyi aylıqdan başqa Quranı qurtaranda ona pul və xələt gətirməli idi. Çərəkədən başqa mollaxanalarda "Gülüstan", "Cameyi-Abbas" və sairə kimi kitablardan da dərs keçilirdi.

Mollaxanalarda dərs vermək üsulu çox ibtidai və pedaqoji prinsiplərə zidd bir şəkildə qurulmuşdu. Uşaqlar həsir üstündə diz çöküb qarşılarındakı kitabları ucadan oxuyur, molla da əlində uzun bir çubuq onlara nəzarət edirdi. Hər axşam, dərs qurtarana yaxın uşaqları bir-bir çağırıb dərsləri soruşur, bilməyənləri tənbeh edərək ya əllərinə, ya da falaqqaya salıb ayaqlarına çubuqla vururdu.

Falaqqa ilə tənbeh etmək mollaxanalarda ən çox yayılmış üsullardan biri idi. Kiçik yaşlı uşaqlarda məktəbə, təhsilə nifrət oyadan, onların məktəbdən qaçmasına səbəb olan falaqqa qol yoğunluqda, arşın yarım uzunluğunda bir ağacdan ibarət idi. Ortasına iki tərəfdən yoğun kəndir keçirilmiş bu ağacın hər yanından bir şagird tuturdu. "Müqəssir" uşağın ayaqlarını falaqqanın ortasındakı kəndir halqalara salıb bururdular, ayaqlar göydə, bədən yerdə qalırdı. Molla çubuğu işə salırdı...

Bir dəfə mənimlə yanaşı oturan sinif yoldaşım Nəbiağa Acalovun başına belə bir əhvalat gəlmişdi. Yay tətili boş keçməsin deyə, atası onu bir-iki ay müddətinə molla Nağının məktəbinə qoyubmuş. Bir gün anası ilə bərabər qonaqlığa çağrıldığından mollaxanaya getmir. Ertəsi gün qoltuğunda kitab-dəftəri məktəbə gələndə molla Nağı onu yanına çağırıb dünən dərsdə olmamasının səbəbini soruşur. Nəbiağa qonaq getdiyini söyləyir. Qəzəblənən molla ona dünənki dərsi oxudur. Uşaq dərsi oxuyur. Molla: "Yox, düz oxumadın, aç əlini, görüm içində nə var", – deyir. Nəbiağa bir şey başa düşməyib əlini açır. Molla Nağı çubuqla onun əlinə elə vurur ki, uşağın baş barmağının sümüyü sınır. Əlinin ağrısından nə edəcəyini bilməyən Nəbiağa mollanın qutusunun yanındakı ayaqqabını götürüb onun başına vurur. Molla yerindən sürətlə qalxarkən qabağındakı qutu yuvarlanır və içində uşaqlardan gizlin saxladığı şərab şüşəsi yerə düşüb dağılır...

Ucqarlarda maarifin inkişafına mane olmaq üçün çarizmin gördüyü tədbirlərə, ruhanilərin yeni təhsil üsuluna qarşı apardıqları mübarizəyə baxmayaraq, XIX əsrin 80–90-cı illərində "üsuli-cədid" adlanan məktəblərin sayı ildən-ilə artırdı. Xalqda elmə, maarifə oyanan həvəs, Rusiya ali məktəblərində və Qori müəllimlər seminariyasında təhsil alıb gələn qabaqcıl müəllimlər, yeni üsullu məktəblərin möhkəmlənməsi, dini məktəblərin nüfuzdan düşməsi üçün şərait yaradırdı. "Rus-tatar məktəbləri" adlanan bu tədris ocaqları tədris üsulu etibarilə mollaxanalara zidd idi. Bu məktəblərdə yeni dərsliklərdən istifadə olunur, dərslər isə rus dilində aparılırdı. Ana dili dərsləri böyük rus pedaqoqu Uşinskinin prinsipləri ilə yazılmış "Vətən dili", daha sonralar "Uşaq bağçası" kimi dərsliklər əsasında keçilirdi.

Lakin "rus-tatar" məktəbləri ayrı-ayrı ruhanilər tərəfindən açılan və feodal-ruhani məfkurəsini təlim edən mollaxanaları tamamilə sıxışdıra bilmirdi. Mollaxanalar həm çarizmin məmurları, həm də yerli mürtəcelər tərəfindən bərk müdafiə edilirdi, çünki bu məktəblər uşaqlarda dini təəssübü tərbiyə etməklə çarizmin ucqarlarda cəhaləti və fanatizmi

möhkəmlətmək siyasətinə xidmət edirdi. Uşaqların hər səhər dərs başlayanda ərəb dilində padşah haqqında mollanın əzbərlətdiyi duanı oxumaları, onun səltənətinin uzun illər yaşamasını arzu etmələri mollaxanaların mövcud siyasi quruluşa nə dərəcədə sadiq olduğunu göstərirdi. Ancaq çarizmin və yerli mühafizəkarların cidd-cəhdlərinə baxmayaraq, mollaxanalar, ruhani məktəbləri, mədrəsələr get-gedə nüfuzdan düşür, qabaqcıl adamlar öz balalarını bu məktəblərə vermәkdən imtina edirdilər.

## OXU DAŞA DƏYDİ

Tıntın Fərəclə bir artırmada yaşayan Səfi dayı ucaboylu, irigövdəli, sağlam və xoşsifət bir kişi idi. Cavanlıqda tez-tez güləşərmiş. Tiflisdə onun qabağına çıxan pəhləvan çox az imiş. Aslan pəncəsi kimi iri, qüvvətli əllərini kimin yaxasına ya kəmərinə keçirsəydi, bir anda qaldırıb yerə vurardı. Şəhərdə hamı onu tanıyır, sevir, hörmətini saxlayırdı.

Səfi dayının Gülbala adlı bir oğlu və Ülkər adlı bir qızı vardı. Gülbala altı sinifli məktəbin dördüncü sinfini qurtardıqdan sonra atası öz sənətini ona öyrətmək üçün dükana aparmışdı. Səfi dayının misgərlər küçəsində kiçik dükanı var idi. Oğlu Gülbala ilə çalışır, qazan, güyüm, sini, dolça və mis kasa qayırıb satırdılar.

Səfi dayının yaşı əllini keçmişdisə də bu vaxta qədər məscidə gedib bir dəfə də namaz qılmamışdı.

Bir gün dükan sahibləri axşam namazını qılmaq üçün məscidə gedərkən, onu da çox sevdiyi çayxanadan çıxarıb özləri ilə bərabər aparmaq istədilər. Səfi dayı çox yalvardı, dostları əl çəkməyib, onu zor ilə çayxanadan çıxartdılar.



Hay-küyə məhəllənin bütün adamları çıxmışdı. Tanışlar onu bu vəziyyətdə görüb: "Səfi dayı, xeyir ola, hara belə?" – deyə soruşduqda o, başını bulaya-bulaya belə cavab vermişdi: "Səfi dayını namaza aparırlar..."

O gündən sonra hər kimi könlü olmayan bir işə məcbur etsəydilər, camaat: "Səfi dayını namaza aparırlar" – deyə bu sözləri zərbi-məsəl kimi işlədirdi.

Səfi dayı bir qonaqlıqda Şorməkə Hüseyn ilə tanış olmuş, onun qarmon çalıb oxumasını çox bəyənmiş və o gündən onunla dostlaşmışdı. Odur ki, son zamanlar Hüseyn arabir Səfi dayının evinə gəlib-gedirdi. Tıntın Fərəcin qızı Tovuzu gördükdən sonra Səfi dayının evinə daha tez-tez gəlməyə başladı. Həyətdə hamı, o cümlədən Fərəcin qızı Tovuz da onun çalıb-oxumasına aşiq olmuşdu. Tovuzun on dörd yaşı var idi. Bu qız o qədər gözəl idi ki, baxanlar gözlərini ondan ayırmaq istəmirdilər. Həyət arvadları deyirdilər: "Tıntın Fərəcdən belə qız?! Hələ bu qızlar bulağından su içəndən sonra gör nə qız olacaq! Bəxtəvərin ağzı-burnu elə bil qüdrətdən yaranıb".

Tovuz Hüseynin oxumasına qulaq asmaq üçün gələndə oğlan coşur, əlindəki qarmonu elə həvəslə çalırdı ki...

Hüseynin belə coşmasının səbəbini həyətdə artıq hamı duymuşdu. Arvadlar pıçıldaşırdılar. "Şorməkə Hüseyn Tovuza vurulub. Ancaq qudurğan Fərəc ona qız verməz!"

Şorməkə Hüseyn Səfi dayıgilə gələndə çox vaxt eyvanda çalıb-oxuyur, qonşular isə qapıya çıxıb tamaşaya dururdular. Qəmər xala da tamaşaya çıxardı. Deyəsən belə bir oğlanın ona kürəkən olmaq istəməsindən narazı deyildi.

Səfi dayının arvadı Narıngül bir gün Qəmərin ağzını aradı. Qəmər hazır adam kimi o saat cavab verdi: "Hüseyn yaxşı oğlandır, mən razıyam. Ancaq bilirsən ki, gödək adam-

lar gündə yeddi dəfə allahlıq iddiası edər. Bizim kişi də be-lələrindəndir. Danışanda ağzına çullu dovşan sığmır. O, pul ad-san istəyir. İnanmıram Hüseynə qız verə".

***

Qonşu olduğumuza baxmayaraq Tıntın Fərəc çox gec-gec atamın yanına gəlirdi. Bir gün necə olmuşdusa bizə gəl-mişdi. Arvadlarından şikayət etdikdən sonra atamdan so-ruşdu:

– Axund əmi, camaat içində yayılıb ki, guya Molla Hə-sən ağa oğlunu gimnaziyada oxudur? Bu xəbəri sən də eşit-misən?

– Eşitmişəm.

– Bəs özü minbərdə bizə deyirdi: uşaqlarını rus məktə-bində oxudanlar kafərdir.

– Axmaq sözdür, elmi hər yerdə, hər dildə olursa-olsun oxumaq lazımdır. Bu sözlərə görə mən onu minbərdən dü-şürmək istəyirdim. Şeyxülislam qoymadı. Dedi ki, camaat içində böyük hörməti və nüfuzu var. Hamı ona inanır. Məs-ciddə avam müridlər içində həyəcan qopa bilər. O, molla de-yil, lotudur.

Fərəc bir az düşündükdən sonra dedi:

– Mənim fikrimə görə molla gərək varlı olsun. Bəs ana-sının əmcəyini əmib dolanmayacaq ki.

Atam istehza ilə cavab verdi:

– Molla Həsən kimi lotuların sizin kimi də müridləri olar.

Fərəcin qaşları çatıldı, burnunda mızıldadı:



– Niyə elə deyirsən, axund əmi? Molla Həsən ağa necə-dir ki? Hörməti Şeyxülislamdan da, sizdən də artıqdır. Hələ üstəlik var-dövləti də var.

Atam bu dəfə cavab vermədi.

***

Tovuz şən və oynaq bir qız idi. Musiqiyə dərin məhəb-bəti vardı. Hüseynin qarmonunun səsini eşidəndə tez içəri-dən çıxır, oxunan mahnıları öyrənir, sözlərini əzbərləyirdi. Hüseyn gedəndən sonra o havalar ağzından düşmürdü.

Son zamanlar Hüseyn ilə Tovuz məsələsi Qəmər xalanı da düşündürməyə başlamışdı. O bilirdi ki, şöhrətpərəst və pulgir Fərəc Tovuz kimi gözəl bir qızı qarmonçalan Hüsey-nə verməz. Buna görə də o, qızını bir daha Hüseynin çaldığı havalara qulaq asmağa qoymadı. Bundan sonra Hüseyn sev-gilisini görə bilmədi.

Musiqi pərəstişkarı olan Tovuza anasının bu hərəkəti pis təsir etdi. Onun qızılgül qönçəsi kimi yenicə açılmağa baş-layan göyçək üzünə qəm-kədər tozu qondu. Ahənrüba kimi hər kəsi özünə cəlb edən uzun kirpikli qara gözlərinə həzin bir kədər çökdü. Hüseyn ovunu itirmiş ovçu kimi bir müd-dət həyətə, bağçaya göz gəzdirdi, günlər ötdü, bir daha To-vuzu görmədi. Onun şən, oynaq havalar çalan qarmonu bir-dən-birə inləməyə başladı.

***

Molla Həsən ağanın elə bil ki, hər yerdə adamı var idi. Tıntın Fərəcin Tovuz adlı şəkil kimi bir qızı olduğundan xə-bər tutmuşdu. Molla Həsən ağa əmin idi ki, müridi Fərəc

onun heç bir sözündən çıxmaz. Buna görə də xeyli vaxtdan bəri beynində dolaşdırdıqlarını ona açarkən çətinlik çəkmədi.

Bir gün o məscidə tez gəlib payi-minbərdə Fərəcin yolunu gözlədi. Fərəc məscidə girən kimi Molla Həsən onu yanına çağırdı. Bir az ordan-burdan danışdıqdan sonra mollaya qız verib qohum olmağın savabından söz açdı, Qurandan bir neçə ayə və hədis gətirdi. Nəhayət, Tovuzla evlənmək istədiyini söylədi.

Tıntın Fərəc bir an belə düşünmədən dedi:

– Baş üstə, ağa, on qızım da olsa, sizə qurbandır.

Molla Həsən "içindən qənbərqulu çıxar", – deyə işi tələsdirib, ertəsi günü kəbin kəsdi və bir-iki günə qızı gətirmək fikrində olduğunu söylədi. Fərəc etiraz etmədi. Bir gecə Molla Həsənin böyük arvadı Zibeydə qızı fayton ilə evinə gətirib mollaya tapşırdı. Bu işi Fərəc o qədər gizlin tutdu ki, nə qonşuların, nə də Səfi dayının xəbəri oldu.

Təsadüfə bax ki, bu zaman Şorməkə Hüseyni Qızıl Hacı kəndinə toya aparmışdılar. İki gün müddətinə getdiyi halda, on gün keçirdi, hələ gəlib çıxmamışdı. Görünür onu zorla saxlamışdılar.

Bir gün eyvanda Şorməkə Hüseynin səsi ucaldı. Əlində qarmon Tovuzgilin eyvanına yaxınlaşaraq Tıntın Fərəcin və molla Həsənin dalınca qəzəbli-qəzəbli danışırdı:

– Sən öz qızını bədbəxt elədin, Fərəc kişi! Molla Həsən molla deyil, lotudur, başkəsəndir!

Bu arada eyvanda görünən Tıntın Fərəcin gözü kəlləsinə çıxdı:

– Ey, Şorməkə, başından böyük danışma! Onun sözü sənin ağzına sığmaz!



– Molla Həsənin qayınatası olmaq və avam camaat içində hörmət qazanmaq üçün Tovuz kimi qızı o qoca şeytana satdın! Qızını satan ata mənim gözümdə hər şeydən alçaqdır.

Molla Həsən ağa Tovuzu aldıqdan sonra Altıbarmaq Seyid onu yaman həcv etmişdi. Bu həcv o zaman dillərdə dolaşırdı. Sonralar həmin həcvi atamın kitab şkafında tapıb üzünü köçürtmüşdüm. Hayıf ki, indi o həcvdən cəmi bir-iki beyt yadımda qalmışdır:

Gündə bir toğlu gələr, keyfini saz eylə, Tovuz,
Verməri̇k qonşulara kəllə-paçadan, bu gecə,
Ətini cız-bız edib tavada büryan edərik,
Vermərik qonşulara kəllə-paçadan, bu gecə.
On iki yaşda qız olmaz, girir on üç yaşına.
Ona həmdəm olacaq qıllı o xortdan, bu gecə.

Bu həcv çox uzun, həm də çox biabırcasına yazılmışdı.

Hüseynin keçirtdiyi iztirab Səfi dayıya çox bərk təsir etmişdi. O hər cür vasitə ilə gənc dostuna təsəlli verməyə çalışırdı. Hüseynin isə oxu daşa dəymişdi. Odur ki, üzünü Səfi dayıya tutub dedi:

– Səfi dayı, bu evdən mən daha həmişəlik getməli oldum. Ona görə izin ver, son sözümü deyib gedim.

Hüseyn qarmonu bağrına basıb dilləndirdi. Elə yanıqlı çalıb-oxuyurdu ki, bütün qonşular onun halına yanırdı.

Aşıq, qaralı qoyma,
Ovçu, maralı qoyma,
Oxun sinəmdə qaldı,
Öldür, yaralı qoyma!

Səfi dayı əli ilə onun çiyninə vurub:

– Hüseyn, fikir eləmə, adam qədrini adam bilər, elə ac-gözlər sənin qədrini bilməz. Bir-iki il gözlə, Ülkər böyüsün, onu sənə verəcəyəm, – dedi.

## MƏHƏRRƏMLİK BÜSATI

Məhərrəm ayının (hicri ilinin 1-ci ayının adıdır) ilk on günü Tiflisdə yaşayan azərbaycanlıların həyatında ən ağır günlər olurdu. Şəriətmədarların müsəlman xalqlarına gətir-diyi müsibətləri aydın təsəvvür etmək üçün bu on günə nə-zər salmaq kifayət edərdi. Təsadüfi deyil ki, Şərqin, o cüm-lədən Azərbaycanın qabaqcıl adamları həmişə məhərrəmli-yin acı nəticələrindən yazmış, belə mürtəce adətlərə atəş aç-mışdılar.

Bütün şiələr kimi avam Tiflis müsəlmanları da İmam Hüseynə matəm saxlayırdılar. Bu matəm mərasimi vəhşili-yin son həddi hesab oluna bilərdi. Məhərrəm ayının birindən başlayıb qırx gün davam edən bir müddət ərzində ruhanilə-rin fırıldaqlarına uymuş avam camaat məscidlərdə, təkyə-lərdə sinə vurur, baş çapır, zəncir vurur, dərilərinə sancaq, qıfıl keçirir, özlərinə min bir əzab verir, bundan zövq alırdı-lar. Bütün bu oyunbazlıqlar isə nəticə etibarilə mərsiyəxan-ların, müftəxor təziyə mübaşirlərinin ciblərini doldurmağa xidmət edirdi.

Məhərrəmlik ayı əslində arvadların bayramı olurdu. Məhərrəmlik ayinləri məscidlərdə keçirildiyi üçün onlar bir yerə yığılıb söhbət etməyə fürsət tapırdılar. Məscidin aşağı tərəfində, üst qatda arvad və uşaqlara məxsus taxtadan qa-yırılmış böyük bir eyvan var idi. Orada oturub tamaşa edən arvadları kişilər görməsin deyə, eyvanın məhəccərlərinə ağ



pərdə çəkilmişdi. Minbərdə molla moizə edir, mərsiyəxan mərsiyə oxuyur, arvadlar isə yuxarıda şirin-şirin söhbət edir, səsləri məscidi basırdı. Aşağıdan kişilərin: "Ay analar, ay ba-cılar, qoyun qulağımız bir şey eşitsin, bura söhbətə gəlibsi-niz?" – deyə səsləri eşidiləndə elə bil qurbağa gölünə daş atı-lırdı. Arvadların səsi kəsilirdi. Bir qədər sonra yenə şirin söh-bət, səs-küy başlanırdı.

Məsciddən başqa ayrı-ayrı məhəllələrdə təkyələr təşkil olunur, məhərrəmlik ayinləri icra edilirdi. Hər təkyənin baş-çısı öz təkyəsini gözə soxub ad qazanmaq üçün, gözəl səsli növhəxanlar və mərsiyəxanlar çağırır, sinəzənlər, zəncir vu-ranlar dəstəsi düzəldirdi. Dəstənin qabağında gedən tuğa (ələmə), Cənab Qasım və Əli Əkbər otaqlarına qiymətli, rəngbərəng ipək dəsmallar asılırdı. Bunların hamısı arvadlar tərəfindən verilən nəzirlər idi.

Aşura günü qəbiristan yaxınlığındakı açıqlıqda baş ça-pılırdı. O gün başı çarşablı arvadları küçələr tutmurdu. On-lar dəstə-dəstə həmin meydançaya gedib, tamaşa üçün yer tutmağa can atırdılar.

Başlarını əvvəlcədən qırxdırmış, qara sətindən paltar ge-yib boyunlarına ağ kəfən keçirmiş kişilər cərgə ilə dayanar-dılar. Sağ əllərində xəncər olan bu adamlar sol əlləri ilə bir-birinin əlindən tutur, xəncəri havada başlarının üstündə oy-nada-oynada: "şaxsey-vaxsey," – deyir, sağ ayaqlarını irəliyə və geriyə qoyub, yavaş-yavaş hərəkət edirdilər. Hər xəncər oynadanın arxasında əllərində bir arşın uzunluğunda, qol yoğunluğunda ağac olan adamlar dururdu. Dəstə bu qərar ilə yavaş-yavaş hərəkət edir, baş yaranların "şaxsey-vaxsey" – səsi ucalır, xəncərlər qalxıb-enir, əllərində ağac olan adam-lar isə bu bədbəxt insanları qorumaq məqsədilə həmin ağac-

ları onların öz başlarına endirdikləri xəncərin qarşısına uzadırdılar.

Dəstələr "Gəncə bağı"nın yaxınlığında yaşayan məşhur Seyid Mir Nemətulla ağanın evinə yaxınlaşanda səslər daha da ucalır, xəncərlər daha sürətlə enib-qalxır, çapılan başların sayı daha da artırdı. Dəstəbaşı ucadan "ya Hüseyn!" – deyib xəncər ilə başını yardığı zaman, o biriləri də "şaxsey-vaxsey, ya Hüseyn!" – deyə xəncəri endirir, göz qarşısında dəhşətli, qanlı bir lövhə canlanırdı. Bu qanlı lövhədən və xəncər oynadan kişilərin "şaxsey-vaxsey" səsindən qorxan uşaqlar həyəcan içində ağlayır, analarının dizlərinə qısılır, insanların bu vəhşiliklərinə heyrətlə baxırdılar.

Aşura axşamı təkyələrdə şəbih başlanırdı. Guya Şümr adlı birisi Fərat çayının yolunu kəsib İmam Hüseyni və onun ailəsini susuzluqdan öldürmək istəyir. Bu mənzərəni canlandırmaq üçün təkyənin ortasında böyük tasda su və yanında bir dolça qoyulurdu. Şümr də əlində xəncər suyun yanında durub, Ərəbistan çöllərində susuzluqdan yanan İmam Hüseynə su vermirdi.

Şümr rolunu o zaman azərbaycanlılardan heç kəs oynamaq istəməzdi. Hər dəfə təkyə başçısı yalvarıb-yaxarıb bir ermənini Şümr rolunu oynamağa razı edərdi. Bir dəfə erməni əynində dəmir geyim, başında dəmir papaq, əlində xəncər suyun başında durubmuş. Ona tapşırıbmışlar ki, İmam Hüseyn at üstündə, qucağında da kiçik oğlu Əli Əsgər gəlib su istəyəndə verməsin.

İmam Hüseyn rolunu oynayan şəxs Əli Əsgəri qundaqda iki əli üstündə tutub, at belində gəlir və Şümr rolunu oynayan erməniyə deyir:

– Ey Şümr, Fəratın yolunu üzümüzə bağlayıb bizi susuzluqdan öldürmək istəyirsən. Heç olmasa bu yazıq südəmər balama rəhm elə, susuzluqdan dil-dodağı quruyub. Ona bir içim su ver.

Ürəyi yumşalan erməni dolçanı su ilə doldurub "İmam Hüseynə" verir."Al, ver uşaq içsin, məni, vallah, bu köpək oğlu Kəblə Nəsib öyrətdi," – deyə səhnədən çıxıb gedir. Təkyədə oturan camaat ağlamaq əvəzinə gülməyə başlayır".



Tiflisdə aşura günündən başlayaraq imamın qırxına qədər təkyələr davam edirdi. Təbrizlilərin, ərdəbillilərin, qarabağlıların və yerli tiflislilərin tövsiyələri ayrı olurdu. Yerlilərin təkyəsi Mir Nemətulla ağanın evində təşkil edilirdi. Təkyə başçısı müxtəlif xörəklər bişirtdirib növbə ilə hər gecə imam ehsanını yeməyə məhəllədən 20-25 adam çağırır və çağırılan adamların evinə də xonça göndərirdi.

Bir dəfə qəbiristan məhəlləsindən çağırılan üç nəfərin evinə üç xonça tutulub göndərilir. Xonçaları aparanlar qəbiristana yaxın köhnə bir günbəzin yanından keçərkən oradan belə bir səs ucalır: "Gəlirəm, gəlirəm!" Adamlar qorxudan xonçaları yerə qoyub qaçırlar. Əhvalatı eşidən təkyəbaşı inanmır, özü birbaş qəbiristana tərəf yollanlr. Günbəzə yaxınlaşarkən həmin səs yenə təkrar olunur. Bu işin sirrini öyrənmək üçün səhər ala-qaranlıqdan bir-neçə nəfər həmin yerə gedir, ancaq bir şey tapmırlar, nəhayət, günbəzə girib görürlər ki, çolaq bir seyid xonçalardan birini tamam yeyib, qalanlarını da yanına düzüb yatmışdır...

Qırx gündən sonra təkyələr bağlanırdı. Təkyə xörəklərinə dadanmış ruhani və müftəxorların ötən günləri yada salıb təəssüf etmələrinə Tiflis camaatı bu cür söz qoşmuşdu:

Getdi plov, sındı belim, vay, vay!
İşkənədən çıxdı əlim, vay, vay!

Məhərrəmlik günləri avam xalqın bir daha var-yoxdan çıxmasına, soyulmasına, müxtəlif xəstəliklərin yayılmasına

səbəb olurdu. Məhərrəmlik büsatı bəzi mollaların müsəlman aləmi üçün "yadıgar" qoyub getdiyi mənfur hoqqabazlıqlardan biri idi. Belə adətlər xalqa çox baha oturur, tənbəl adamları mütəxorluğa alışdırırdı.

## TOY

Hörmətli artistimiz Mirzağa Əliyevin özünəməxsus yumorla dediyi bu sözləri həmişə xatırlayıram: "Naşı adam qarpız alanda onun necə olduğunu bilmir, evdə qarpızı kəsəndə ya qıpqırmızı, bal kimi şirin çıxır, ya ağappaq. Keçmişdə bizim evlənməyimiz, qız almağımız da qarpız əhvalatına bənzəyirdi. Evlənmək istədiyimiz zaman hamıdan gizlənən başı çarşablı qızların nə üzünü görür, nə səsini eşidir nə də xasiyyətini bilirdik. Qarpız alan adam kimi: "Ya baxt" deyib bir qız alırdıq. O qız da qarpız kimi ya qıpqırmızı, bal kimi şirin çıxır, ya ağappaq, kal".

Bu kiçik səhnə köhnə həyatımızdan götürülmüş acı bir həqiqətdir. Doğrudan da, o zaman qadın və qızlarımızın böyük bir hissəsi çarşab ilə gəzir, kişi və oğlanlardan gizlənirdilər. Buna görə də bir qayda olaraq evlənmək istəyən cavanlarımızın ana və bacıları, bibi və xalaları qızları məclislərdə, hamam və toylarda, məscid və təkyələrdə görüb bəyənirdilər. Bir-birini görüb, sevib evlənmiş oğlan, qız çox az olurdu.

Səfi dayı və Narıngül Gülbalanı evləndirmək istəyirdilər. Narıngül baqqal Mərdanın qızı Gülsümü hamamda görüb bəyənmişdi. Axşam Narıngül əri Səfiyə qızı tərifləyib Gülbalaya almaq istədiyini söylədi. Səfi dayı bir az düşündükdən sonra "Qız yaxşı olsa da, atası Mərdan acgöz, şöhrətpərəst adamdır. O bizə qız verməz, boş yerə özünü yün-



gül eləmə", – dedi. Narıngül razı olmayıb: "Ay kişi, qızı min yerdən istəyərlər, biz də istərik, verərlər nə yaxşı, verməzlər, xəncərimizin qaşı düşməz ki", – deyə cavab verdi və Səfi dayını birtəhər razı saldı. Ertəsi gün Narıngül bacısı Firuzəni Mərdanın evinə elçi göndərdi. Qızın anası onu hörmətlə qəbul etdi. Gülsüm çay hazırlayıb, süfrə açdı. Firuzə Gülsüm xanımı bacısıoğlu Gülbalaya almaq istədiyini açıb söylədi və Gülbalanı çox tərif etdi. Südabə rədd etməyib: "Mən sizə hələ cavab verə bilmərəm, axşam Mərdan gəlsin, ona deyim, sonra sizə mən özüm cavab göndərərəm", – deyə cavab verdi.

Axşam Mərdan evə gəldikdə Südabə əhvalatı açıb ərinə söylədi. Baqqal acı-acı gülüb: "Pəh, pəh, pəh... Aləmə it hürəndə, bizə də çaqqal hürür. Mən qızımı elə aclara verə bilmərəm", – dedi.

Südabə etiraz etdi:

– Ay kişi, niyə ac olur, Səfi dayının şəhərdə adı, sanı, əlinin qızıl kimi sənəti var. Oğlu Gülbalanı da hamı tərif eləyir. Qızını daha kimə verəcəksən?.. Bu üçüncü dəfədir ki, qapına elçı gəlir, sən hərəsinə bir quyruq bağlayırsan.

– Oğlanın tərifini mən də eşitmişəm, ancaq bilirəm ki, bizə bab adamlar deyil... vəssalam. Onların qabağına elə kötük dığırla ki, qoyub qaçsınlar.

– Nə kötük dığırlayım?

– Qıza gətirmək üçün ağır şeylər istə. Məsələn: brilyant üzük, sırğa, boyunbağı, bilərzik, yeddi dəst paltar... Qərəz ağzına nə gəlir istə... Qoy onların gücü çatmasın, bizdən əl çəksinlər. De ki, Mərdanın tələbidir, bu şeylər gəlməsə mən qızımı hörmətsiz etməyəcəyəm.

Südabə Mərdanın xasiyyətini bildiyi üçün susmağa məcbur oldu. Südabə dəndənəsini boşaltmaq üçün qonşusu

Ruxsaragilə getdi və əhvalatı açıb ona söylədi. Ruxsara əli ilə onun dizinə vurub: "Ay qız, – dedi, – şadlığınıza şitlik etməyin, Gülbala kimi oğul Tiflisdə az tapılar. Baqqal Mərdanın qızını bəy almayacaq, xan almayacaq, ondan artıq kimə verəcəksən? Atası Səfi dayı necə arvad saxlayır? Gülbala da atası ilə bir almadır. Qızım olsaydı, mən minnətini çəkərdim".

Ruxsara Səfi dayını, arvadı Narıngülü və Gülbalanı o qədər təriflədi ki, Südabənin lap ruhu uçdu. Ertəsi günü Südabə oğlanı görmək üçün qızı Gülsümü də götürüb, Səfi dayının dükanına getdi. Mis qab almaq bəhanəsilə üzünü Gülbalaya tutub:

– Oğlum, mənə bir mis kasa lazımdır, – dedi. Gülbala Gülsümdən gözünü çəkməyərək, onların qarşısına tez bir neçə mis kasa qoyub:

– Baxın, hansını istəyirsiniz, bəyənin, – dedi.

Südabə ən kiçiyini bəyənib qiymətini soruşdu. Gülbala gözlərini Gülsümün ipək çarşabının arasından görünən üzündən ayırmayıb gülə-gülə:

– Necə istəyirsiniz verin, istəyirsiniz heç pul da verməyin, peşkəşdir, – dedi. Südabə qızardı. O elə güman etdi ki, oğlan onların kim olduğunu tanıyıbdır. Arvadın ağır vəziyyətdə olduğunu hiss edən Səfi dayı ocağı körükləyə-körükləyə:

– Bacı, o kasanın qiyməti yarım manatdır, – dedi.

Süda-bə yarım manatı verdi. Gülsüm kasanı götürüb dükandan uzaqlaşarkən, Gülbala bir də ona diqqətlə baxdı. Gülsüm Gülbalanın çox xoşuna gəlmişdi. Həmin gün Gülbala onun haqqında fikirləşir, "Anam bu qızı mənə alsaydı, baxtım işləyərdi," – deyə düşünürdü.



Gülsüm onu misgər Səfinin oğlu Gülbalaya almaq istədiklərini elçilər gələn gün eşitmişdi. Öz ürəyində ölçür-biçir, onun necə oğlan olduğunu düşünürdü. Anasilə o gün hara və nə üçün getdiklərini bilmirdi. Misgərbazarda Səfinin dükanı qarşısında dayandıqları zaman anasının ora nə üçün gəldiyini başa düşmüş, gözlərini Gülbalanın ona qarşı heyrətlə açılan gözlərinə dikib, müştəri gözü ilə baxmışdı. Gülbala ətli qollarını çırmayıb, boynundan önlük kimi uzun, qara bir dəri asmışdı. Onun sağlam vücudu, yapışqanlı siması və qısa, sıx kirpikli qara gözləri qızın xoşuna gəlmişdi. Gülbalanı Südabə də bəyənmişdi.

Ertəsi günü Südabə bacısı Zəhranı Narıngülgilə göndərib, qızın ata-anasının razı olduqlarını bildirdi.

Südabə ərinin ağzını aramaq üçün tələb olunan şeylərin çox ağır olduğundan söhbət açdı. Mərdan qaşlarını çataraq: "Dediyim dedikdir, başqa cür ola bilməz", – dedi.

İki gün sonra toy haqqında danışmaq üçün Narıngül Südabənin yanına getdi. Südabə qudasını çox hörmətlə qəbul etdi. Narıngül toydan söz açdıqda Südabə ərinin tələblərini bildirdi.

Narıngül qudasının evindən qanıqara qayıtdı, axşam Səfi ilə Gülbala gələndən sonra qudalarının tələbini açıb söylədi. Səfi dayı:

– Bunlar bizim dərimizi soymaq istəyir, insana toydan sonra toy gərəkdir. Bizim nəyimiz var ki... İki həsir, bir yesir... Yox, o şeyləri verməyə bizim gücümüz çatmaz, – dedi.

Gülbalanın qanı qaraldı, qaş-qabağını sallayıb, eyvana çıxdı.

– Ay kişi, qızı Gülbalanın gözü yaman tutub, cavandır, qorxuram yaman dərd eliyə... Nə qədər çalışdım, zalım qızı

güzəştə getmədi. "Bu Mərdanın tələbidir", – dedi. İndi biz neyləyək?

– Yox, biz bu yükün altına girə bilmərik, gücümüz çatmaz. Eh, sən də gedib qız tapdın... Acgöz Mərdandan qız almaq olar? O bizdən dədəsinin də qiymətini alacaq. Onlar bizə bab deyil, Gülbalanı da bu fikirdən daşındırın, özümüzə münasib bir qız tapın.

Narıngül, Ülkər vəziyyətin ağırlığını Gülbalaya nə qədər başa salsalar da, ona təsir etmədi. Onun nə evdə üzü gülür, nə də dükanda ürəyi açılırdı. Bunu görən Narıngülün ana qəlbi od tutub yanırdı. Axır dayana bilməyib başıodlu bacısı Firuzənin yanına gedib dərdini ona açdı. Firuzə də Südabənin yanına getməyi məsləhət gördü. O gün hər ikisi Südabənin yanına getdi.

Elçilər gəldiyi gündən xeyli keçmişdi. Oğlan evindən cavab gəlməmişdi. Gülsüm də fikir, xəyalat dənizində boğulur, gecə-gündüz düşünürdü. Atasının tələbinin Gülbala üçün ağır olduğunu o çox yaxşı bilir və onun araya kötük dığırlamasından bərk əsəbiləşirdi.

Firuzə ilə Narıngül qapıdan girdiyi zaman sevincdən Gülsümün ürəyi döyündü, gözlərində yenidən ümid şöləsi parladı. Qudalar xoş-beşdən sonra, yenə məsələni açıb tələbin ağır olduğunu və bir qədər güzəştə getmələrini xahiş etdilər. Südabə Mərdanın bu işə heç bir vəchlə razı olmayacağını bilirdi. Qudalar bu dəfə də kor-peşman qayıtdılar.

Səfi dayı məhəllə məktəbində oxuduğundan farscanı yaxşı bilirdi. Arabir dükanda, evdə əzbərlədiyi farsca şeirlər oxuyub oğluna tərcümə edirdi. Gülbala da altı illik rüşdiyyə məktəbində oxuduğu zaman "Gülüstan" kitabından çox şeir əzbərləmişdi. Ona görə də farscanı az-çox bilirdi. Atasının farsca bildiyi şeirlərin çoxunu bir dəftərə yazıb saxlamışdı.



Toy haqqında ata-anası tərəfindən bir təşəbbüs və hərəkət olmadığını görüb Səfi dayıdan öyrəndiyi bu şeiri yazdı və bacısından xahiş etdi ki, atasına versin.

[5]Can ey pədər, to çöhreyi-xuban nədideyni.
Xali-siyah, zülfi-pərişan nədideyi.
Xali-siyah, zülfi-pərişan bəyek tərəf,
Dər on zəman rəmidəni-iman nədideyi.

Ülkər bir zərf içində şeri atasına verdi. Səfi dayı zərfi açıb şeri oxudu, əvvəlcə gülümsündü, sonra üzünü qəm buludu bürüdü, dərindən bir "ah" çəkdi. Əlinə qələm alıb oğluna cavab yazdı:

[6]Can ey pəsər, to süfreyi-binan nədideyi,
Cəngi-əyal, naleyi-tiflan nədideyi,
Cəngi-əyal, naleyi-tiflan bəyek tərəf
Dər on zəman rəsidəni-mehman nədideyi.

Səfi dayı şeiri həmin zərfə qoyub Ülkərə verdi ki, Gülbalaya çatdırsın. Ülkər məktubu qardaşına verdi. Gülbalanın dərdi daha da təzələndi.

---

[5] Tərcüməsi:
Ata can, sən gözəllərin gül camalını görməmisən,
Onların qara xalını, pərişan saçını görməmisən.
Qara xal, pərişan saç hələ bir yana,
O zaman imanın əldən getdiyini görməmisən.

[6] Tərcüməsi:
Can ey oğul, sən çörəksiz süfrə görməmisən.
Arvadın davasını, uşaqların ağlamasını görməmisən.
Arvadın davası, uşaqların ağlaması hələ bir yana,
Bu zaman bir qonağın gəlməsini görməmisən.

Narıngül və Firuzə Gülbalanın dərdinə çarə etməyi düşünürdü. Bir dəfə Firuzə Narıngülə dedi:

– Bacı, mənim fikrimə bir şey gəlir. Gəl belə eliyək: qudaların istədikləri şeyləri qohum-qardaşdan yığıb, qız evinə göndərək. Toy eləyib qızı gətirəndən sonra şeyləri yenə öz sahiblərinə qaytararıq.

– Yox, elə də şey olar? – Narıngül gözlərini bacısının üzünə dikdi.

– Ay qız, o cür adamlara belə də lazımdır. Qoy başqalarına da görk olsun. Görmürsən, yazıq uşaq şam kimi əriyir. Cavandır, dilim-ağzım qurusun, sonra başqa naxoşluq tapar.

Narıngülün ana qəlbi yerindən oynadı, ürəyi köyrəlib gözləri yaşla doldu:

– Ay bacı neyləyim?.. Heç bir şeyimiz yoxsa, heç olmasa təmiz adımız var. Durub qapılardan şey-şüy yığım ki, mən oğul evləndirirəm. Xalq bizə nə deyər? Səfi bilsə başımıza kül ələr... Yox, o bizim işimiz deyil.

Firuzə daha bir söz demədi, evlərinə dilxor qayıtdı. Əhvalatı danışdıqdan sonra oğlu Rəşidə dedi:

– Ay Rəşid, xalan oğlu yaman sınıxıb, yazıq uşaq bir dəri, bir sümük qalıb, görünür dərd eləyir. Get yanına, bir az ürək-dirək ver. Dərd çəkməyə qoyma.

Rəşid ertəsi günü Gülbalanın yanına getdi. Onu məşğul edib qəlbini açmaq istədi. Bunun heç bir fayda vermədiyini görüb öz tədbirini açıb Gülbalaya dedi:

– Kişisən, gəl bir iş eləyək.

– Nə iş?

– Qızdan razılıq al, götürüb qaçaq.

Gülbala razı olmadı.

– Atama dərd olar, – deyə bundan da boyun qaçırtdı.



Bu söhbətdən bir ay da keçdi. Qudalardan bir xəbər çıxmadı. Gülbalanın məhəbbəti Gülsümü gül kimi saraldıb-soldurmuşdu. Qızının bu halı Südabəni düşündürməyə başladı. O əhvalatı açıb Mərdana söylədi. Mərdan onun sözlərinə əhəmiyyət verməyib:

–Yox, dediyim dedikdir, – dedi, - gözümün ağı-qarası bir qızdır, onu aca, gicə verə bilmərəm. Qızı başa sal ki, bu fikri başından çıxartsın. Tiflisdə oğlandan çox oğlan var, ala it olmasın, qara it olsun.

Gülbalanın dərdi gündən-günə artırdı. Bir gün yenə xalası Firuzə onlara gəlmişdi. Gülbalanı dərdli görüb qucaqlayıb öpdü. Narıngülə dediyi sözləri təkrar etdi:

– Ay oğul, mən anana deyirəm ki, qudaların istədiyi şeyləri qohum-qardaşdan, dost-aşnadan yığıb qız evinə göndərək. Toy eləyib qızı gətirəndən sonra yenə sahiblərinə qaytaraq. Anan razı olmur. Bundan başqa çarə yoxdur.

Bu barədə xeyli fikirləşdikdən, qoy-götür etdikdən sonra Firuzə əvvəl Gülbalanı, sonra Narıngülü razı sala bildi.

İki bacı əl-ayağa düşdü, vəzncə yüngül, qiymətcə baha şeyləri qohum-qardaşdan, dost-aşnadan yığdılar və bir qismini də özləri hazırladıqdan sonra qız evinə xəbər göndərib, nişan apardılar. Nişan vaxtı Firuzə bildirdi ki, qızı bir həftə sonra aparacaqlar. Mərdanın bəhanəsi kəsildi, daha bir söz deyə bilmədi.

Hər iki tərəfin razılığı ilə təqvimə baxdırıb, saat xoşladılar. Mərdanla Südabə toya ağır xərc çəkib çalan, oxuyan da gətirmişdi. Səfi dayı isə toya ancaq yaxın qohum-qardaşı çağırmışdı. Çalıb oxuyanları isə Şorməkə Hüseyn idi.

Qız evinə oğlanın xalası Firuzə ilə bacısı Ülkər gəlmişdi. Südabə onlarla görüşdükdən sonra başını əsdirə-əsdirə:

– Qudamız, elə birinci gündən başlayıb, – dedi, – qızımı aparmağa niyə belə az adam gəlib? Pişik ha aparmırsınız? Gülsüm kimi qız verirəm. Bəs qızın yengəsi kimdir?

– Quda, iş adamın azlığında, çoxluğunda deyil. Oğlanın xalası gəlib, bacısı gəlib. Gəlinimizin yengəsi də özüm olacağam. Uzatmayın, gəlinimizi verin aparaq. – Sonra zurnaçılara: – Gəlin havası çalın! – deyə əmr etdi.

Firuzə ayağa durub, gəlinin qarşısında oynadı və sonra özünü də oynamağa çağırdı. Gülsüm ilə bərabər oynadıqdan sonra Ülkərə işarə etdi. Ülkər ayağa qalxıb gəlin ilə üz-üzə oynadılar. Oyun qurtarınca Südabə ayağa qalxdı. Hamı "Allah mübarək eləsin", – deyə gəlinə xoşbəxtlik arzu etdi, çala-çala qızı küçəyə çıxartdılar. Gülsümü şamlarla bəzədilmiş faytona mindirəndə atası Mərdan gəldi, əlini qızının başına qoyub xeyir-dua verdi. Fayton tərpəndi. Gülbalagilin qapısında faytonu bir dəstə qohum-qardaşla dayanmış Şormək Hüseyn qarşıladı. Yanıqlı qarmon sədaları altında Gülsümü Səfi dayının kasıb daxmasına gətirdilər. Toy büsatı qurtarandan sonra Firuzə Gülsümü Gülbalanın otağına apardı. Onları əl-ələ verib dedi:

Anam, bacım qız gəlin,
Əli, ayağı düz gəlin,
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

İki gün sonra Narıngül Gülsümü qucaqlayıb əhvalatı ona başa salıb dedi:

– Əziz gəlinim, atan Mərdanın istədiyi şeyləri verməyə bizim gücümüz çatmadı. Gülbala da səni görüb dəli-divanə olmuşdu. Çarəmiz kəsildi, o şeyləri başqa adamlardan bir-



neçə günə əmanət almağa məcbur olduq. İndi o şeyləri sahibinə qaytarmaq lazımdır. İncimə, Allah qoysa yavaş-yavaş hamısını düzəldərik.

Qız razı oldu. Narıngül aldığı əmanətləri bir-bir sahiblərinə qaytardı.

***

Kəndlərdə toy vaxtı cıdır oynamaq ən çox yayılmış adətlərdən idi. Cıdır oynayan minici cavanlar cıdır düzündə iki dəstəyə ayrılırdı. Hər dəstə özünə bir başçı seçirdi. Başçılar cıdır düzündə mərc təyin edirdilər. İki dəstəyə ayrılmış cavanlar at üstündə əllərində bilək yoğunluğunda uzun bir ağac olduğu halda at çapmağa başlayırdılar. Cıdırın şirin yerində iki dəstə bir-birinə əllərindəki ağacı atır, hər kəs özünü qorumaq üçün ona atılan ağacı əlilə havada tutmağa çalışırdı. Cıdır oynayan cavanlar atı çapdığı halda gah atın belində ayaq üstə durur, gah atdan sürətlə yerə düşüb, at qaça-qaça yenə atına minirdi.

Məmməd əmim cıdır oyunlarında həmişə iştirak edir və oyunlarda böyük şöhrət qazandığından həmişə dəstəbaşı seçilirdi. Cıdır haqqında bildiklərimin çoxunu da mənə əmim söyləmişdi.

Məmməd əmim xalq yaradıcılığını çox gözəl bilirdi. Nağıla qulaq asmağa böyük həvəsi olduğundan o Tiflisə gəldiyi zaman, yaxud mən kəndə, onlara qonaq getdikdə onun dizlərinin yanından ayrılmazdım. Əmimin kiçik qara saqqalını oxşayaraq: "Əmican, mənə nağıl danış", – deyə xahiş edərdim. Əmim hər gələndə mənə bir neçə nağıl danışardı. Bildiyim nağılların, tapmacaların, məsəllərin, bayatıların çoxunu ondan öyrənmişəm. Xidmətçimiz Məşədi Pəri də çox ma-

raqlı nağıllar danışardı. Ancaq əmimin söylədikləri daha şirin və təsirli olardı.

Yoxsul kəndlilər arasında toy vaxtı bir-birinə yardım etmək, iməcilik də adət idi. Kasıb bir qız ərə getdiyi, ya bir oğlan evləndiyi zaman yaxın qohum-qardaş, dost-aşna hər biri öz gücünə və bacarığına görə toy sahibinə kömək edirdi. Məsələn, öğlanın evi yoxdursa, biri arabası ilə daş-torpaq daşıyıb gətirir, biri otağın divarlarını hörür, biri qapı-bacasını qayırırdı. Yaxud biri damazlıq qoyun göndərir, arvadlar bir qədər yun gətirib qız evinə gəlir, cəhrədə yun əyirir, xana qurur, qıza cehiz üçün palaz toxuyur, xurcun qayırır, yorğan-döşək hazırlayırdılar. Buna xalq arasında el köməyi və ya iməcilik deyilirdi. İməcilik zamanlarında halqa vurub işləyən arvadlar səs-səsə verib müxtəlif bayatılar oxuyardılar:

Oturmuşdum səkidə
Ürəyim səksəkidə,
Yardan bir alma gəldi,
Bir gümüş nəlbəkidə.

Çöllər yaşıl geyəndə
Göyəm başın əyəndə,
O qızı bir də görəydim
Şamamalar dəyəndə.

## SÜNNƏT TOYU

Evdən başqa bir yer görməyən savadsız Tiflis qadınları günlərini xoş keçirmək üçün bir bəhanə axtarırdılar. Odur ki, məclislər, mərasimlər, bayramlar kişilərdən çox arvadlara xeyir verirdi. Səhərdən axşama qədər əlləşib ilan kimi qabıq qoyan kasıb kişilər gündəlik çörək pulunu zornan qazandıqları halda arvadları bəylərin və ortabab alverçilərin arvadları ilə ayaq uzadır, onlar kimi geyinib-kecinmək və onlar kimi bayram büsatı qurmaq istəyirdilər. Var, yox qanmayan arvadların bu hərəkətləri yazıq kişilərə baha otururdu. Ailə yükünü öz çiynində tək daşıyan kişilərə novruz bayramı, sünnət toyu, qız köçürmək, oğul evləndirmək kimi tədbirlər böyük fəlakətə çevrilirdi. Yazıq kişilərin bir gözü gülür, bir gözü ağlayırdı.

Səfi dayının gəlini Gülsümdən eşitdiyim bir əhvalatı xatırlayıram. O nağıl edirdi: Əmim Daşdəmir Vera küçəsində Tiflis ilə Vladiqafqaz arasında işləyən minik arabalarını təmir edən fabrikdə işləyirdi. Zəhmətinə görə çox az əmək haqqı alırdı. Buna baxmayaraq əmim arvadı Səadət hər işdə bizim ilə çəkişirdi. Novruz bayramında biz necə süfrə açsaq o da yazıq əmimə min dil töküb zornan bizimki kimi süfrə açmağa çalışırdı. Atam qardaşının yoxsul olduğunu bilib hərdən ona kömək edirdi. Buna görə də atam ilə anam arasında il uzunu deyişmə, dava olurdu və həftələrlə küsülü qalıb bir-birini danışdırmırdılar. Anam atama deyirdi: "Ay kişi, sənə nə düşüb ki, Daşdəmirə pul verirsən? O da sənin kimi kişidir. Qoy özü qazansın". Atam cavabında deyirdi: "Mən qardaşımdan canımı da əsirgəmərəm". Anam isə öz dediyində dururdu: "Daşdəmirdən mən də canımı əsirgəmərəm. Ancaq o əti acı, dili acı, paxıl Səadətə görə Daşdəmirə pul verəndə elə bil canımdan kəsirsən. Görmürsən o adamaoxşamaz bizimlə ayaq uzadır. Mən necə süfrə açsam, o da mənimlə bəhs edir".

Atam qardaşım Möhsünün sünnət toyunu səssiz-səmirsiz keçirmək istəyirdi. Anam isə iki ayağını bir başmağa keçirib: "Mən oğlumun balaca toyunu çalğı ilə eliyəcəm. Bütün qohum-qardaşı, dost-aşnanı çağıracağam", – dedi. Mübahisə

uzun sürdü. Atam axır təngə gəlib oğluna əməlli-başlı sünnət toyu elədi. Toya əmim arvadı Səadət də gəlib qonaq kimi bir tərəfdə oturmuşdu. Elə bil yaddı.

Anam qonşumuz Arakel dayı və arvadı Sonya xalanı da çağırmışdı. Sonya xala bacısının evi kimi əl-qolunu açıb, anam ilə bərabər işləyirdi. Arakel dayı həmişə atama, anama deyirdi ki, "Möhsünün kirvəsi özüm olacağam, qoy sizinlə qohum olaq". Elə də oldu.

Sünnət toyu yaxşı keçdi. Səadət durub gedəndə atama dil-ağız elədi: "Mərdan qardaş, allah mübarək eləsin, o gün olsun ki, böyük toyuna gələk". Ancaq anamla ağızucu danışdı: "Bizim Rəhim də böyüyüb, ona da sünnət eləmək lazımdır".

Anam bunun nəyə işarə olduğunu bilirdi. Odur ki, gedəndən sonra atama dedi:

– Ay kişi, sən Rəhimin sünnət toyunda onlara kömək eləsən, köpək qızıyam mən bu evdə otursam.

Anamın bu qəti xəbərdarlığından sonra atam qardaşına bir qədər ehtiyatla kömək etməyə başladı.

Çox çəkmədi ki, Səadət xala üç gün əvvəl gəlib bizi Rəhimin kiçik toyuna çağırdı. Atam bilirdi ki, Səadət xala əmim Daşdəmiri ağır xərc çəkməyə məcbur edəcək. Anamın qorxusundan ona kömək eliyə bilmədi. Qaynının xatiri üçün anam, Rəhimə bir dəst paltar, papaq və ayaqqabı alıb aparmışdı. Səadət də ağır xərc çəkib toy-büsatını bizdən pis qurmamışdı.

Mən fikir verirdim, atam çox fikirli idi. Onun qəlbi heç rahat deyildi: çünki bilirdi ki, bu sünnət toyu yoxsul qardaşına nə qədər çətinliklə başa gəlmişdir. Yəqin ki, borca düşmüşdü. Toy məclisindən qayıdandan sonra gecə anam ilə sözə gəldi. Atam deyirdi ki, "qardaşım yəqin borca düşüb, ona



kömək etmək lazımdır". Anam isə razı olmurdu. Axırda atam hövsələdən çıxıb hirsləndi. Əlini yerə vura-vura and içdi ki, "istəyirsən qal, istəyirsən get, mən qardaşımı borc altında qoymayacağam".

İki gün sonra Səadət xala gözləri yaşlı bizə gəldi. Ağlaya-ağlaya atama dedi:

– Mərdan, qardaşın dünən evə qayıtmayıb. Gedib işlədiyi yerdən xəbər tutdum, dedilər ki, bu gün Daşdəmir işdə olmayıb. Bəs bu kişi harda qalıb?

Atamın rəngi qaçdı. Dil-dodağını çeynəyə-çeynəyə cavab verdi:

– Səadət, adam yorğanına görə ayağını uzadar. Sən var, yox başa düşmürsən, qurduğun toy məclisinə Daşdəmirin iki-üç aylıq məvacibi gedib. Yəqin ki, borc ilə başa gətirib. Onun başına bir iş gəlsə gərək mənim gözümə görünməyəsən.

Səadət xala barıt kimi açıldı.

– Mən də insanam, tay-tuşdan geri qalmaq istəmirəm.

Atam üzünü ondan çevirib cavab vermədi, tez paltarını geyinib qardaşını axtarmağa getdi. Üç gün bizim evdə qan-qaralıq oldu. Atam ertəsi gün əmimdən məktub aldı. "Qardaş, mən o qanmaz arvadla bacarmadım. Çarəm kəsildi, başımı götürüb qaçdım. Can sənin, can Rəhim əmanəti. Borc aldığım adamlar sənin yanına gəlsə, de ki, Daşdəmir işləyib sizin borcunuzu göndərəcək, arxayın olsunlar".

Məktub Vladiqafqazdan yazılmışdı.

## YENİ MƏNZİLİMİZ

Biz tez-tez bir mənzildən başqa mənzilə köçürdük. Bu mənzillərin hamısından çox xoşuma gələni sonuncu dəfə köçdüyümüz, Vorontsov küçəsində olan Allahverdi bəy Yadigarovun idi. Bu Mirzəyevin bez fabrikinə bitişik üç mərtəbəli ev idi. Üçüncü qatda biz yaşayırdıq, ikincidə boyaqçılar. Bayır pəncərələrimiz və küçə eyvanımız Vorontsov küçəsinə baxırdı. Artırma sol tərəfdən burulub, böyük tut ağacları olan həyətə doğru uzanırdı. Vorontsov küçəsindən konka gedirdi. Sürücünün ağzına qədər miniklərlə dolu olan konkanın arıq və yağır atlarının bellərini qamçılaya-qamçılaya çığırması indi də qulaqlarımda səslənir.

Həyətin sağ tərəfində qırmızı kərpicdən tikilmiş bez fabrikinin uca divarı Kür çayının içinə qədər uzanıb gedirdi.

Kürdə balıqçılar hər gün qayıqlarını yavaş-yavaş üzüaşağı sürə-sürə top atırdılar. Bəzən də Kür çayı ilə taxta-şalban və başqa şeylər daşıyan böyük sallar ağır-ağır axıb gedirdi. Həyətə doğru uzanan artırmadan Kür daha aydın göründüyündən, mən hər gün orada durub, saatlarla çaya, balıqçılara və sallana-sallana axıb gedən sallara tamaşa etməkdən doymurdum. Aşağı mərtəbədə bir neçə kiçik, qaranlıq və rütubətli otaq vardı. Bu otaqlarda Əkbər, Rizvan və Qədirəli adlı qonşularımız yaşayırdılar. Əkbər əmi dalandar idi. Qədirəli podratçı usta Nəcəfin nəzarəti altında küçələrə daş döşəyir, Rizvan isə bez fabrikində fəhləlik edirdi. Əkbər əmi ilə Qədirəli Cənubi Azərbaycan kəndlilərindən idilər. Rizvan, anası Gilas nənə və arvadı Xədicə isə Tiflisin yaxınlığındakı Təklə kəndindən gəlmişdilər.

Dalandar Əkbər kişi əlli yaşını keçmiş, ortaboylu, arıq bir adam idi. Dar alnında sağ qaşının üstündən keçən dərin



çapıq yeri var idi. O, həyət-bacanı, pilləkənləri süpürüb təmizlədikdən sonra artırmanın məhəccərinə söykənər, başını sağ əli içinə alaraq ətrafı qırışıqlarla örtülmüş xırda gözlərini Kür çayına dikib uzun-uzadı fikrə dalardı. O, nə düşünürdü, mən bilmirdim, lakin həmişə qəmli görünürdü. Məktəbdən sonra, həyətdə qonşu uşaqları ilə oynadığımız vaxt Əkbər əminin qaş-qabağı açılmırdı. Biz atılıb-düşdükcə, gülüb-danışdıqca o da bir uşaq kimi sevinir, bəzən oyunlarda bizə başçılıq edirdi.

Əkbər əmi artırmaya söykənıb qəmli-qəmli düşünəndə Gilas nənə ona deyirdi:

– Ay Əkbər, sən Allah qaşqabağını sallama, nə olub, yeddi yetimlə bir dərədə qalmamısan ki!.. Qəmli adam görəndə ürəyim ağrıyır. Boş fikirlərdən bir şey çıxmaz.

Qədirəli ortaboylu bir oğlan idi. Qış-yay podratçının yanında işləyib, ayda 10 manata küçələrə daş daşıyır, köhnə səkiləri təmir edirdi. Bir az uzunsov üzü günəşdən yanıb mis rəngi almışdı.

Rizvanın da işi çox ağır idi. Bez fabrikindən ayda cəmi 12 manat alırdı. Qədirəli kimi Rizvan da işdən qayıdanda çox yorğun olurdu. Ehtiyac onları bir-birinə bağladığından bu üç qonşu bir ailə kimi yaşayırdı. Onların ağır vəziyyətdə yaşadıqları üz-gözlərindən, yamaqlı köhnə paltarlarından bəlli idi.

Gilas nənə altmışı keçmişdi, orta boylu arıq bir arvad idi. Subay qonşusu Qədirəlinin, Əkbərin qayğısını çəkir, hamı ilə şirin dillə, "qurban olum, başına dönüm" ilə danışır, hər kəsə əlindən gələn yaxşılığı etməyə çalışırdı. Səhərdən axşama qədər evdə əlləşir, xüsusən gəlini Xədicə başqalarına paltar yumağa gedəndə, evin və nəvələrinin bütün zəhməti onun üstünə düşərdi. Bu dindar qarı xəstələndiyi zamanlar-

da belə oruc, namazından qalmazdı. Məhərrəm ayında təkyələrə gedib İmam Hüseynə ağlamağı da unutmazdı.

Qədirəli Rizvanın uşaqlarını çox sevirdi. Tez-tez bir yaşlı qızını qucağına alıb artırmada, həyətdə oxşaya-oxşaya gəzdirərdi. Bir gün Gilas nənə ona dedi:

– Oğlum, vaxtın keçir, sən də evlən, oğul-uşaq atası ol!

Gilas nənənin bu sözləri Qədirəlinin dərdini təzələdi.

– Nənəcan, Rizvan gözümün qabağındadır. Beş baş külfəti necə saxladığını görürəm. Mən ayda məvacibimdən dörd manat qoca ata-anama göndərirəm. Özümə altı manat qalır. Bu pulla evlənib arvad-uşaq saxlamaq olar?!

Gilas nənə dərindən ah çəkib dərdli-dərdli dedi:

– Eh, oğlum, zəmanənin üzü qara olsun. Sizin kimi cavanları əl-qol açmağa qoymur.

Rizvanın ürək dostu Qədirəli idi. Onlar hər gün səhər tezdən işə gedib qaş qaralanda evə qayıdardılar. Yeməklərini aldıqdan sonra artırmada ya həyətdə oturub güzəranlarından danışardılar.

Bazar günü idi. Biz həyətdə oynayırdıq. Bir də gördük ki, Rizvan, Qədirəli Kür sahilinə endilər. Paltarlarını soyunub özlərini çaya atdılar. Biz dayanıb onların üzməyinə tamaşa etməyə başladıq. Qədirəli on arşın getməmiş qayıtdı. Rizvan isə qollarını geniş ata-ata, ayaqlarını suya çırpa-çırpa üzür, gah da arxası üstə çevrilib çayın üzərində uzanırdı. Rizvan o biri sahilə yaxınlaşdıqca bizdə sevinc və həyəcan artırdı. Nəhayət, sahilə çatdı. Budur, o kiçik bir qaya başında durub Qədirəlini salamlayır, Qədirəli də ona əli ilə cavab verirdi.

Gilas nənənin bu işdən xəbəri yox idi. Uşaqlardan biri Gilas nənəni artırmada görüb sevinə-sevinə dedi:



– Gilas nənə, Rizvan üzə-üzə çayın o biri sahilinə çıxıb. Odur, bax.

Gilas nənə həyəcan içində həyətə enib birbaş Qədirəlinin yanına qaçdı. Biz də onun ardınca yüyürdük... Qədirəli paltarını geyinib Rizvanı gözləyirdi. Gilas nənə üzünü o biri sahilə tutub soruşdu:

– Hanı o tərs keçi?

Qədirəli gülə-gülə:

– Çayın o tayında oturub yorğunluğunu alır. Gilas nənə, bu qədər üzgüçü görmüşəm, Rizvan kimisini görməmişəm. Çox yaxşı üzür, sən narahat olma.

– A bala, necə narahat olmayım. Su ilə, od ilə zarafat olmaz. Ha deyirəm Kürün o biri qırağına üzmə, heç məhəl qoymur. Olmadı belə, oldu elə, onda necə olsun?! Bir də ki, ay oğul, fikrini üzməyə verincə işinə verib usta olsun. Nə vaxtacan əlaltı qalacaq. Hələ cərimələr də bir-birinin üstündən gəlir.

– Gilas nənə, cərimə tək Rizvandan alınmır. Fəhlələrin hamısı o dərddədir. Bəs iş başında oturan ağalar nə ilə dolansınlar!

– Bilirəm, bilirəm, oğul, Rizvan mənə hamısını danışıb. Bu zəmanəni görüm tərsinə çevrilsin, biri acından ölür, biri toxundan, nə qədər ki, bu taxtı başına uçmuş padşah var, kasıb-kusubun üzü gülməyəcək. – Bu sözləri deyib Gilas nənə nigaran halda soruşdu: – Qədirəli, bir bax gör gəlirmi?

– Gəlir, ana, gəlir, qorxma!..

– Neyləyim, ana ürəyidir, xəyalıma min şey gəlir.

Bir az sonra Rizvan üzə-üzə gəlib çıxdı. Gilas nənə Qədirəlini məzəmmət etməyə başladı.

– Sənə deməmişəm, çayın o tayına getmə! Mənim sözümü daha saymırsan?

Rizvan cavab verməyib gülə-gülə paltarlarını geyinirdi. Rizvana gücü çatmadığından Gilas nənə Qədirəlini töhmətləməyə başladı.

– Sən necə yoldaşsan, onu o taya üzməyə niyə qoyursan?

Qədirəli cavab vermək istəyirdi ki, Rizvan yerindən qalxdı. Gilas nənəni birdən qucağına alıb çaya tərəf qaçdı. Nəvələri də gülə-gülə onun dalınca qaçdılar. Gılas nənə: "Başına dönüm, Rizvan, bəsdir, yerə qoy", – deyə yalvarırdı.

Rizvan öz uşaqlarından çox anası ilə zarafat edərdi. Qoca arvadın başına gündə bir oyun açardı. Gilas nənə nəvələrinə: "Bay sizə qurban olum", – deyəndə, Rizvan qəti səslə: "Onlar sənə qurban olsun", – deyərdi. Bu sözə Gilas nənə qaşlarını çataraq etiraz edərdi: "Elə demə, sən allah, onlara da qurban olum, sənə də".

## DAŞQIN

Dumanlı bir yaz səhəri idi, yatağımda xumarlanaraq uzanmışdım. Haradansa bərk, heç bir zaman eşitmədiyim dəhşətli gurultu eşidildi. Havanın sərinliyindən doğan bir kəsalət içində sümüklərimi qızdırmaq üçün boğazıma qədər yorğana bürünərək, yarıoyaq, yarıyatmış halda o gurultunu dinləyir, yerimdən durmaq istəmirdim. Birdən-birə "Kür daşıb, Kür daşıb", – deyə eşidilən həyəcanlı səsdən diksinib dik qalxdım. Paltarımı geyinib tez artırmaya çıxdım. Suyu bir arşın qədər qalxmış Kür çayının gurultu ilə qayalara çırpılan boz dalğaları, uzaq meşələrdən, bağlardan qoparıb gətirdiyi qollu-budaqlı ağacları qoynuna alıb aparırdı. Bazar günü olduğundan qonşularımız, o cümlədən Rizvanla Qədirəli də



işə getməmişdi. Onlar həyətin Kürə baxan divarının dibində durub danışırdılar.

Mən tez qaçıb həyətə düşdüm. Kürün iki sahilində ucalan böyük-kiçik qayaların üstü tamaşaya çıxmış kişilərlə, qadınlarla, uşaqlarla dolu idi. Birdən Rizvan əli ilə çayın yuxarısını göstərə-göstərə həyəcanlı səslə "Ora baxın, ora baxın!" – dedi. Çayın ortasında bir dəyirmançı daxmasının dalğalar üstündə yırğalana-yırğalana yavaş-yavaş aşağıya doğru gəldiyini gördük. Qədirəli:

– Vay yazıqlar, içində adamlar da var!" – dedi.

Daxma bir-birinə bitişik tirlərlə bənd edilmişdi. Tirlər ayrılsa idi, daxma o saat parçalanıb suya qərq ola bilərdi. Hamı dərin həyəcan içində dayanıb baxır, daxmadakı adamların halına yanırdı. Rizvan Gilas nənəyə deyirdi:

– Kürün kənarlarında dəyirmançı daxmaları var. Görünür xəbərləri olmayıb, sel birdən daxmanı qoparıb çaya atıb.

Rizvan sözünü qurtarmamışdı ki, daxma təsadüfən çaya batmış bir ağacın şaxlarına ilişib qaldı. Hamıda bir ümid sevinci doğdu. Daxmada bir kişi və qucağı uşaqlı bir arvad görünürdü. Dəyirmançı əllərini oynada-oynada nə isə qışqırır, arvad isə körpəsini qaldırıb ağlaya-ağlaya camaata göstərirdi. Daxmanın damındakı pişiyin ora-bura qaçması, pəncərə barmaqlığı yanında islanmış kəndirə bağlı köpəyin haf-hafı bu mənzərənin dəhşətini daha da artırırdı. Qaya üstündəki adamlardan bəziləri hay-küy salıb qışqırır, bəziləri ağlayır, ancaq heç kəs onları bu fəlakətdən qurtarmağa cəsarət etmirdi. Daxma o biri sahildən bizim sahilə daha yaxın idi. Bu zaman Qədirəli Rizvana baxdı. Rizvan onun nə demək istədiyini dərhal anladı. Gilas nənə göz yaşlarını əlinin tərsi ilə silə-silə:

– Rizvan, nə durmusan? Bu yerdə onların köməyinə gərək çatasan! – dedi.

Rizvan əlini anasının çiyninə qoyaraq:

– Doğru deyirsən, anacan, onları mən xilas etməliyəm, – dedi. – Bilirəm ki, qorxursan, ehtiyat edirsən. Ancaq bax, mən bu qonşuların paltar iplərini bir-birinə möhkəm bənd eləyib bir ucunu tut ağacına, o biri ucunu da belimə bağlayıb, özümü onlara çatdıracağam.

Gilas nənə yenə göz yaşlarını siə-silə:

– Sağ ol, oğlum, o comərd ürəyinə qurban! – dedi.

Rizvan cəld kəndirlərdən birini açmağa başladı. Əkbər əmi ilə Qədirəli də o biri kəndirləri açıb gətirdilər, onları uc-uca bağladılar. Sonra Rizvan kəndirin bir ucunu tut ağacına, o biri ucunu belinə bağlayıb özünü çaya atdı.

– Allah köməyin olsun! – deyə hamı xeyir-dua verdi. Gilas nənə əlləri titrəyə-titrəyə nə isə pıçıldadı. Daxmadakılar Rizvanın onları qurtarmaq üçün üzə-üzə gəldiyini görüb sevinirdilər. Rizvan daxmaya çatar-çatmaz, yorulmuş olduğundan qollarını yavaş-yavaş atırdı. Hamıdan çox Qədirəli həyəcanlanırdı. Rizvan daxmaya çatana yaxın sürətini artırdı, sonra əllərini ataraq tirdən tutdu. Daxmadakılar əyilib Rizvana kömək elədilər. Rizvan artıq onların yanında idi. Qoca dəyirmançı onu qucaqlayıb duz kimi yalayırdı.

– Gilas nənə, Rizvan daxmaya çatdı, – deyə Qədirəli sevincək xəbər verdi.

Gilas nənə əllərini göyə qaldırıb:

– Allah ürəyinə görə versin, oğul! – dedi.

Qonşular böyük maraq içində tamaşa edirdilər. Anam da, Məşədi Pəri də, qonşumuz boyaqçılar da Gilas nənəni məzəmmət edirdilər.



– Qarıda bir ürəyə bax, gözünün ağı-qarası madar oğlunu selin ağzına verir.

Rizvan kəndiri belindən açıb, daxmanın aşağı tərəfinə bağladı və əli ilə işarə etdi. Qədirəli və Əkbər əmi kəndiri yavaş-yavaş çəkməyə başladılar. Hətta Gilas nənə də onlara kömək edirdi. Daxma yaxınlaşdıqca qoca dəyirmançının, onun arvadının, qızının ümid sevinci ilə parlayan üzləri daha aydın görünürdü.

Daxma həyətin divarına yön aldı. Rizvan arvada qucağındakı uşağı ilə sahilə çıxmağa kömək elədi, sonra da dəyirmançını çıxartdı. Daxmanın içərisindəki islanmış yorğan-döşəyi və başqa şeyləri götürüb bir-bir çayın qırağına qoydu. Qədirəli Rizvanın qolundan tutub sahilə çıxartdıqdan sonra onun əlini Gilas nənənin əlinə verib gülə-gülə:

– Gilas nənə, al, bu da sənin oğlun, mən onun hünərini bilməsəydim, heç razı olmazdım, – dedi.

Dəyirmançı qırx beş-əlli yaşlarında bir kişi idi. Döşü sırıqlı arxalığının üstündən köhnə küləcə geyinmiş, başına yanları getmiş, qara tüklü dəridən papaq qoymuşdu. Üst-başlarından və yorğan-döşəklərindən yoxsulluq yağırdı. Dəyirmançı üzünü Rizvana tutub:

– Səni görüm, ay qardaş, dünyada heç yaman gün görməyəsən! – dedi.

Bütün qonşular sevinir, şükür eləyirdilər. Axırda Gilas nənə dəyirmançının qızını qucağına alıb:

– Rizvanın qonaqları bizə gedəcək, – dedi, – Kasıb olanda nə olar, varını verən utanmaz!

***

Mən Kür çayının sahilində əlimi suya salıb kiçik daşları oynatmağı çox sevirdim. Anam isə məni Kür sahilinə enməyə qoymazdı. O, çox zabitəli və hirsli qadın idi, bir sözü iki olmazdı. Odur ki, anamdan bərk qorxardım. Arabir evdə onun xoşuna gəlməyən bir iş görəndə acıqlanıb üstümə hücum etdiyi zaman tez qaçıb pilləkənləri enərək özümü həyətə salardım. O mənim həyətə çıxdığımı biləndə tez dalımca gəlib məni hədələyər, "Yaxşı, evə gələrsən!" – deyərdi. Mən aşağıdan ona "hələ ki, tuta bilmədin", – deyib acıq verərdim. Cürətliliyim səbəbsiz deyildi, onun xasiyyətini bilirdim. Beş dəqiqə sonra hirsi soyuyar, evə gələndə heç bir şey olmamış kimi, mənə bir söz deməzdi. Odur ki, Məşədi Pəri "Mehri xanımın elə bircə atımlıq barıtı var", – deyərdi.

Bəli, məni hər şeydən çox məşğul edən Kür çayı idi. Şeyx Sənan dağı, Gəncə bağı, onun alt-üst tərəflərindəki dərələr, təpələr, dağlar, çəmənlər də məni az məşğul etmirdi. Atamla, dayım və dayım uşaqları ilə o yerləri gəzib dolaşmadığım həftə olmazdı. Bunların hamısından uşaq hissiyatımı daha çox oxşayan Tiflisin yaxınlığında Muxran deyilən otlu, çiçəkli, sulu, meşəli yaylaq idi. Hər il yay zamanı mal-qarası olmayan yoxsul kəndlilər yaylağa köçməyib aranda qalan kəndlilərin inəklərini götürərək, yağını sahibinə qaytarmaq, ayranını isə öz uşaqları üçün saxlamaq şərtilə yaylağa köçür, orada çadır qurub yaşayırdılar. Biz də hər il yay tətilini həmin Muxran adlı yerdə, gecə alaçıqlarda keçirərdik. Təbiətcə çox zəngin olan bu yerlərdən aldığım təəssürat və xatirələr "Köç" hekayəmdə təsvir edilmişdir.



## ƏKBƏR ƏMİNİN FACİƏSİ

Bir gün həyətimizdəki tut ağacına çıxmışdım, yaxın həyət qonşumuz Həsən də o biri tut ağacında idi. Bacısı Ayna aşağıdan bizə daş atırdı. Bu arada qızın həyəcanlı səsi eşidildi:

– Əkbər əmi ağlayır!

Mən tez ağacdan enib artırmaya tərəf qaçdım. Əkbər əmi, doğrudan da uşaq kimi ağlayır, Gilas nənə isə yanında durub ona təsəlli verirdi:

– Əkbər qardaş, başqa çarə yoxdur. Get, uşaqları gətir.

Anam mənə tapşırmışdı ki, iki adam danışanda dayanıb qulaq asma. Ancaq Əkbər əminin ağlamağı ürəyimi yandırdı. Qaçıb anama söylədim. Tez artırmaya çıxdı. Gilas nənə anamı görən kimi dedi:

– Bu gün Əkbər qardaş İrandan məktub alıb. Uşaqları yazırlar ki, anaları allah rəhmətinə gedib. Kişi çox qüssə edir...

– Qoy bir bizim kişi gəlsin, bəlkə çarə tapdı, – deyə anam Əkbər əmiyə təsəlli verdi.

Atam, Əkbər əminin xatirini çox istəyirdi. Həmişə anama tapşırırdı ki, "evdə xörək olanda Əkbər əmini yaddan çıxartma".

Atam evə gələn kimi anam qonşumuza üz verən faciəni ona xəbər verdi. Atam Əkbəri yanına çağırtdırdı. Əkbər əmi gəldi. Məndə bir az kənarda oturub gözlərimi onlara dikdim. Atam nə hadisə baş verdiyini soruşdu. Əkbər əmi dərindən ah çəkdi, dedi:

– Eh, axund əmi, mənim dərdim çox böyükdür, deməklə başa gəlməz. Kəndimizdə yarı qarnı ac, yarı tox bir təhər dolanırdıq. Kənd naibinin fərraşı mənə göz verib işıq vermirdi.

Gah həyətimdən toyuğumu tutub aparır, gah qabağımı kəsir, "kişi, tez ol, bir qran ver", – deyib sıxma-boğmaya salırdı. Verməyəndə də aparıb dama salırdı. Gah da məni biyara aparıb, həftələrlə naibin zəmisində işlədirdi. O xarabada dərdini deməyə bir adam da tapmırsan. Bax, bu da o namərddən yadigardır. – Əkbər əmi qaşındakı çapığı göstərdi. –Fərraşın əlindən o qədər cana doydum ki, axırda onu öldürmək fikrinə düşdüm. Arvadım fikrimi anlayıb, məni məzəmmət elədi: "Əkbər, bu fikri başından çıxart. Özünü, balalarını ömürlük bədbəxt edərsən", – dedi. Gördüm, arvad doğru deyir. Çarəm kəsildi, ev-eşiyimdən didərgin düşüb Tiflisə gəldim. Aylığımdan hər ay beş manat balalarıma göndərirdim. Bu gün uşaqlarımdan kağız almışam ki, anamız öldü, başsız qalmışıq, acıq, özünü bizə yetir. İndi mən başıma nə kül töküm. Neynən gedim?

Bu sözləri deyib Əkbər əmi susdu. Elə bil ürəyi bir qədər sakit oldu. Ancaq mənim ürəyim Əkbər əminin faciəsinə tab gətirmədi, gözlərim doldu. Tez anamın yanına qaçdım. Əkbər əmi gedəndən sonra anam da, mən də atamın yanına getdik. Atam, Əkbər əmiyə 15 manat yol pulu verdiyini söylədi.

Başqa qonşular da kömək etdilər. Həmin günün səhəri Əkbər əmi Cənubi Azərbaycana, öz doğma kəndinə yola düşdü.

Gilas nənə günləri sayır, səbirsizliklə Əkbər əminin yolunu gözləyirdi. Bir ay keçdi, Əkbər əmidən heç bir xəbərətər olmadı.

Bir gün uşaqlarla birlikdə həyətdə oynayırdım. Bir də nə gördüm? Əkbər əmi, yanında da iki oğlu, əllərində bağlama həyətə girdi. "Əkbər əmi gəldi. Əkbər əmi gəldi!" – deyə hamımız bir ağızdan qışqırıb, onun qabağına yüyürdük. Səsimizə Gilas nənə gəldi. Əkbər əmi ilə görüşdükdən sonra oğlanlarını qucaqlayıb öpdü. Əkbər əminin gözlərindəki qüssəni görüb:



– Bunlar mənim də öz balalarımdır, göz bəbəyim kimi saxlayacağam, - dedi.

Əkbər əminin böyük oğlu Qulaməli mən yaşda, kiçiyi Qulamhüseyn isə doqquz yaşında idi. Onlar gələndən sonra həyətimiz bir az da şənləndi. Uşaqların hər ikisi qaraqaş, qaragöz oğlanlardı. Qulamhüseyn çox zarafatcıl idi. Cənubi azərbaycanlılara məxsus hazırcavablıq və istehza ilə danışmaq adəti idi. Tez-tez bizə İrandakı həyatlarından, fərraşların zülmündən danışırdı. Bir dəfə onun qəzəblə danışdığı bir əhvalat heç yadımdan çıxmır:

– Bizim bir qoyunumuz, bircə də keçimiz vardı. Hər ikisi dişi idi. Qoyunun balası erkək olduğuna görə satdıq. Bir gün naibin uzunbığ fərraşı gəldi ki, quzu hanı? Anam dedi ki, satmışıq. O, keçinin balasını – çəpişi tutub aparmaq istədi. Anam çəpişın bir ayağından, mən də ağlaya-ağlaya o biri ayağından tutub, – "Bu mənim çəpişımdir, vermirəm!" dedim. O məni də, anamı da itələyib zornan çəpişimi götürüb apardı. Atam bizi belə od içində qoyub getmişdi. Bir həftə sonra həyətdən qoyunumuzu da, keçimizi də oğurladılar. Fərraş oğurlatmışdı. Güzəranımız daha da xarablaşdı. Anamın naxoşluğu artdı. Sonra da bu müsibətlərə dözməyib naxoşlayıb öldü.

Bu sözlərdən sonra Qulamhüseyn ilə birlikdə bizim də gözlərimiz doldu.

...Həyətimizdəki bu üç yoxsul ailənin dinc və mehriban dolanmağına hamı qibtə edirdi. Gilas nənə bu üç ailənin bütün zəhmətini öz üzərinə götürmüşdü. Hər kim "Gilas nənə"

– deyə onu çağırsa: "Can, başına dönüm, nə deyirsən?", – deyib, cavab verirdi.

Rizvanın maaşından tez-tez tutulan cərimələr, mastavoy podratçısının hər ay Qədirəlinin maaşından bir manat kəsməsi onsuz da yoxsul həyat keçirən bu adamların həyat tərzini dözülməz bir vəziyyətə salmışdı. Bu insanlar sanki ancaq dərd və qüssə üçün yaranmışdılar.

Uşaqlarını gətirdikdən sonra Əkbər əminin vəziyyəti daha da ağırlaşmışdı.

Bu üç ailənin dərdi Gilas nənəni əldən salır, onun əziyyətlərini bir qat daha artırırdı.

Namuslu yaşayıb öz zəhməti hesabına dolanan zəhmətkeşlərə, ürəyi böyük "kiçik" adamlara taleyin bəxş etdiyi mükafat bir parça çörək dərdi, qəm və qüssə idi.

## GİLAS NƏNƏNİN AQİBƏTİ

Məhərrəmlik təziyələri başlanmışdı. Ərdəbillilərin təkyəsi evimizə yaxın məhəllədə, yolu dar dalandan keçən böyük bir həyətdə qurulmuşdu. Təkyə qurtaran kimi adamlar bir-birini basa-basa ensiz qapıdan dar dalana çıxmağa və oradan da özlərini geniş küçəyə atmağa çalışırdılar. Bu zaman hətta ayaq altında qalıb əzilən də olurdu. O gün təkyəyə Rizvanın arvadı Xədicə, uşaqları və qoca anası Gilas da getmişdi. Təkyə qurtardıqdan sonra Xədicə uşaqlarının əlindən tutub basırıqdan çıxarmağa can atırdı. Gilas nənəni unutmuşdu. Qarını camaat sıxa-sıxa qapıdan dar dalana çıxaranda o, özünü saxlaya bilməyərək yıxıldı, ayaq altında qalıb əzildi. Bir az sonra onu ölüm-zülüm dalandan küçəyə çıxartdılar.



Xədicə Gilas nənəni küçə ağzında gözləyirdi. Onu taqətdən düşmüş halda görəndə irəli qaçıb həyəcanlı səslə:

– Sənə nə oldu, ana? – deyə soruşdu.

Gilas nənə cavab verəcək halda deyildi. Dünyada yaxşı adamlar da var. Onu iki kişi əlləri üstündə gətirib evlərinə qoydular. Yazıq qarının sol tərəfdən iki qabırğası sınmışdı. O, güclə ağır-ağır nəfəs alırdı. Bu hadisədən sonra Gilas nənə ancaq iki gün yaşadı, üçüncü gün vəfat etdi.

Gilas nənənin ölümü hamıya çox ağır təsir etmişdi. Bütün həyət matəmə batmışdı. Rizvan, Qədirəli və Əkbər əmi Gilas nənəni basdırmaq üçün hazırlıq görürdülər. Ağlamaqdan gözləri qıpqırmızı olan Xədicə tez-tez otağa girib-çıxırdı. Əkbər əminin oğlanları dünəndən həyətdə görünmürdülər. Artırmaya çıxıb Gilas nənənin pəncərəsindən içəri baxırdım. Xədicə xala məni gördükdə xırıltılı səslə:

– İstəkli nənəniz öldü, gəl, bala, sən də onunla görüş! – deyə əlimdən tutub məni içəri apardı.

Gilas nənə taxtın üstündə yamaqlı qara çarşabın üstündə uzanmışdı. Qulaməli başının bir tərəfində, Qulamhüseyn isə o biri tərəfində oturub ağlayırdılar. Mən də Qulaməliyə yaxın oturdum. Birdən-birə ürəyim kövrəldi, ucadan hönkür-hönkür ağladım. Mənə baxıb Qulaməli ilə Qulamhüseyn də hönkürdülər.

Çox çəkmədi ki, Əkbər əmi, Rizvan və Qədirəli bir tabut gətirib artırmaya qoydular. Uşaqları otaqdan çıxarıb tabutu içəri apardılar. Bütün qonşular axışıb gəlmişdi. Bir az sonra Gilas nənəni tabut içində çıxartdılar. Onun üstünə yenə qara, yamaqlı çarşab salınmışdı. Hamı bir ağızdan ona rəhmət oxuyurdu.

Əkbər əmi ağlaya-ağlaya deyirdi:

– Ay Gilas bacı, sən yetim-yesir anası idin. Allah səni də bizə çox gördü. Balalarımı anadan yetim qoymuşdu, nənədən də yetim qoydu.

Sonra yanıqlı bir ağı dedi.

Mən uşaqlarla birlikdə küçəyə qədər tabutun ardınca getdim. Bizi qəbiristana getməyə qoymadılar. Gilas nənədən ayrılarkən Qulaməli, Qulamhüseyn şivən qopardılar. Onlara təsəlli vermək istədim, amma məni də yaş boğdu, diz üstə yerə çökdüm. Kimsə lap qulağımın dibində deyirdi:

– Allah rəhmət eləsin, yaxşı arvad idi, imam yolunda öldü, onun yeri cənnətdir.

Halbuki, Gilas nənə imamların adı ilə təkyələr quran cahillərin qurbanı olmuşdu.

Gilas nənənin ölümü oğlu Rizvana çox baha oturdu. Kişilər cənazəni basdırdıqdan sonra dağılıb getdi. Ancaq var-yox başa düşməyən arvadlar əl çəkmədi. Aşağı artırma arvadlar ilə dolub boşalırdı.

Gilas nənənin ölüm xəbəri təkyədəkilərə də çatmış olduğundan arvadlar axışıb gəlirdi. Rizvan birinci gün qara qəhvə və günortaya şirin çay-çörək vermişdi. Əkbər əmi və Qədirəli dərd bilən adam idi. Rizvanın maddi vəziyyətini bildiyindən o gecə təziyəyə gələnlər getdikdən sonra Rizvanı bir tərəfə çəkib dedilər:

– Rizvan, özünü xərcə, borca salma, allah rəhmət eləsin, o öldü getdi, sən indi qalanların dərdini çək.

– Neyləyim? Gələni qapıdan qovmaq olmaz ki. Tək bu gün altı manat xərcim çıxıb. Bu yarım aylıq maaşımdır. Onu da dost-tanışdan manat-manat borc almışam.



## XORASAN SƏFƏRİ

Xorasana getməyimizə əsas səbəblərdən biri ailəmizi gündən-günə dağıtmağa başlayan dedi-qodular oldu.

Bizim xoşbəxt ailə həyatımız uzun davam etmədi. Dünyada sabit bir şey yoxdur. Bizim də dinc həyatımız dəyişib başqa rəngə, başqa şəklə girməyə məcbur oldu.

Şərq həyatının elə qaranlıq guşələri vardır ki, oraya günəşlə bərabər ensən, yenə də onun dərinliklərinə nüfuz edə bilməzsən!

Abbas dayımın Mina bibimdən övladı olmadı. Çox nəzir verdilər, müalicə etdirdilər, Altıbarmaq Seyidə dua yazdırdılar, faydası olmadı. Abbas dayım on yeddi il gözlədi, nəhayət övladı olmaq arzusu ilə başqa qadınla evlənməyə qərar verdi. Tiflis qəzasının Dəmirçi Hasanlı kəndindən öz yaxın ana qohumlarından bir qız aldı. Dayım cavan və gözəl arvadını çox sevirdi. Bibim günüçülük həyatına dözə bilməyib boşanmağa məcbur oldu və bir il sonra vəfat etdi.

Bu ölüm, bu ağır itki bizim ailə həyatımızı alt-üst etdi. Mina bibimin ölümü hamıdan çox nənəmə və atama təsir etmişdi. Nənəm bizim evdə məskən salıb, gecə-gündüz ağlamaqdan doymurdu. İllər keçdi, yenə də onun göz yaşları qurumadı.

Atam da öz ata-anasına itaət göstərən oğul idi. Üç-dörd övladı olduğu halda valideynlərinin qarşısında uşaq kimi kiçilirdi.

Nənəm dayımdan intiqam almaq üçün atamı məcbur edirdi ki, anamı boşasın. "Cəfər oğlu Abbas sənin bacını başına vurduğu kimi, sən də onun bacısını vur başına! Südümü onda sənə halal edərəm", – deyirdi.

Doğrudur, bu sözlərin atama bir o qədər təsiri olmurdu, ancaq anamı nənəmdən soyutmağa və ürəyində ona qarşı kin və nifrət doğurmağa səbəb olurdu. Əslində anam kinli arvad deyildi, ancaq bu söz-söhbət ona o qədər təsir etmişdi ki, nənəmi görməyə gözü yox idi. İkiüzlülük, yaltaqlıq bilməyən anam nənəmə qaşqabağını tökür, hətta, bəzən sözlərinə cavab da vermirdi. Anamın nənəmə qarşı olan nifrət və hörmətsizliyi, anasına bütün varlığı ilə bağlı olan atamın xoşuna gəlmirdi. Aralarında dedi-qodu, narazılıq gündən-günə böyüməyə başladı. Anam qəti surətdə nənəmin evdən çıxıb getməsini tələb etdi, atam razı olmadı.

Anam ev çəkişmələrini, adətən dayımgildən gizlədirdi. Ancaq bu çəkişmələr kəskinləşdiyi zaman dözə bilməyib uşaqlarını da götürüb qonaq sifətilə dayımgilə gedir və bir neçə gün orada qalırdıq.

Bu kin-küdurət, bu dedi-qodu illərlə uzanıb getdi. Bir gün araları bərk pozuldu. Anam kiçik bacımı da götürüb, dayımgilə getdi və qapıdan çıxarkən: "Bu qapıya bir də qayıtmayacağam!" – dedi. Mən o zaman yeddi-səkkiz yaşında olardım. Uşaqlarının içində anam məni çox sevdiyi kimi, mən də onu həddindən artıq sevirdim. Ondan bir gün ayrılmaq mənim üçün ən böyük fəlakət idi. Qol-qanadı qırılmış quş kimi kədər içində idim. Yemir, içmir anamı düşünürdüm. Küçədə uzaqdan anamın çarşabına bənzər çarşabda bir qadın görüncə "anamdır," – deyə yanına qaçırdım.

Bir gün çarşabından, boyundan, yerişindən anama bənzəyən bir qadın gördüm. Sevinc içində qaçıb yanına getdim. Əllərimlə çarşabını açaraq, üzünə baxdıqdan sonra hönkür-hönkür ağlamağa başladım. Qadın məni tanıdı. Qucaqlayıb üzümdən öpə-öpə: "Ağlama, oğlum, ağlama bu saat gedib ananı göndərəcəyəm," – dedi. (Atam dayımın yanına dəfələrlə adam göndərib anamın geri qayıtmasını xahiş etmişdi. Anam razılıq verməmişdi.)



Həmin qadın birbaş dayımgilə gedib, hadisəni olduğu kimi nağıl etmiş, anam isə artıq dayana bilməyib elə o gecə bacımla bərabər evimizə qayıtmışdı.

Mən yenə sevimli anamın qolları arasındaydım. Sevincimdən yerə-göyə sığmırdım. Tez-tez boynunu qucaqlayıb: "Ana, dayımgilə daha getmə," – deyə yalvarır-yaxarırdım. Anam da məni qucaqlayıb köyrək səslə: "Yox, oğlum daha getməyəcəyəm," – deyirdi.

O, hər fəlakəti ancaq bizim ucumuzdan çəkirdi. Dayım dəfələrlə anamı boşatmaq istəmişdisə də, anam razı olmayıb: "Yox, mən uşaqlarımdan əl çəkmərəm", – demişdi.

Artıq elə bir vəziyyət yaranmışdı ki, anamla atam həftələrlə danışmırdılar. Ev xidmətçimiz məşədi Pəri isə bu ədavəti daha da alovlandırırdı. O, çox gəzəyən arvad idi. Səhər bazara gedəndə dörd-beş qapıya dəyməmiş evə qayıtmazdı. Hər gələndə də yeni bir xəbər gətirərdi. O anamı inandırmışdı ki, atam Sarbandan münasib bir arvad almaq istəyir.

Məşədi Pəri hər gün anama Xorasana getməsindən, İmam Rzanın qəbrini ziyarət etməsindən elə danışırdı ki, dindar anam ağlayırdı. O deyirdi: "Mehri xanım sən Xorasana gedib, İmam Rzanın zirehinə dəxil düşməsən, ondan mətləbini istəməsən, günün belə ah-vayla keçəcək".

Beləliklə, məşədi Pərinin təsiri altında anamın Xorasana gedib İmam Rzanı ziyarət etmək şövqü gündən-günə artırdı. Ev sahibimiz Hacı Rzanın mülkünü satıb ailəsilə Xorasana köçməsi də anamı bu səfərə az həvəsləndirmirdi. Axırda o, fikrini açıb atama söylədi. Atam qəti surətdə qeyd edərək: "Mən kiçik uşaqlarımı, cavan arvadımı məşədi Pəriyə qoşub Xorasana göndərə bilmərəm", – dedi.

Anam rəhmli olmaqla bərabər, çox da inad idi. Fikrindən dönmədi. Gecə-gündüz ağlayıb atamı təngə gətirdi.

Atam bilirdi ki, bu fitnələri törədən məşədi Pəridir. Onu evdən qovmaq istədi, hətta bir dəfə də məşədi Pərinin yanında dedi: "Sən arada söz gəzdirən bu fitnəkar arvadlara inanma, anam qoca arvaddır, ürəyi qızına yandığından söz deyib, sən nə üçün məsələni bu qədər böyüdürsən? Mən səni qızlığından istəyib minnətlə almışam. Allaha şükür, uşaqlarımız da var. Sənin üstünə nə deyib evlənəcəyəm. Bunlar boş söhbətlərdir".

Lakin bu sözlərin heç bir nəticəsi olmadı. Bir gün anam atama dedi:

– A kişi, sən ki, mənim xasiyyətimi bilirsən. Mən Xorasana gedib, ağamı ziyarət etməsəm, bu qara fikirlər başımdan, bu dərd-qüssə ürəyimdən çıxmayacaq. İzin ver uşaqlarımı da götürüb gedim. Sən bilirsən ki, mən Sənəmin qızıyam, kişi kimi bir şeyəm. Qoy gedim, həm gözüm-könlüm açılsın, həm də bu dərd, bu fikir-xəyalət başımdan çıxsın.

Atam bilirdi ki, anam Xorasana gedib-gəlməsə onun ailə həyatı düzəlməyəcək. Çarəsiz qalıb razılıq verdi. Biz Xorasana getməli olduq. Sevindiklərindən anamın, məşədi Pərinin əli, ayağı yerə dəymirdi. Evdə Xorasan səfərinə böyük hazırlıq gedirdi.

May ayının son günləri idi. Dördüncü sinfin imtahanlarını verirdim. Həmin günlərdə Məmməd əmim Sarban kəndindən bizə gəlmişdi. O, kəndə qayıdanda anam da özünün və atamın qohumları ilə görüşmək üçün onunla bərabər Sarbana getməyə qərar verdi. İmtahanlara hazırlaşdığım üçün kəndə getmək istəmirdim. Ancaq mənim etirazıma əhəmiyyət verən olmadı. Xülasə, əmim ilə Sarban kəndinə getdik.



Evləri yeraltı daxmalardan ibarət olan Sarban iri kəndlərdən sayılırdı. Daxmaların ortasında ocaq qalanır və damın ortasındakı baca tüstünü zor-güclə çəkirdi. Daxma içindəki avadanlıq və adamların üst-başı his qoxuyurdu. Daşdan tikilmiş evlər çox az idi.

Sarbana üç günlüyə getdiyimiz halda, qohum-qardaş bizi on gün saxladı.

Əmilərimdən ən çox işləyəni kiçik əmim Əli idi. O, Tiflisə çox az-az gəlirdi. Odur k, ona o qədər isinməmişdik. Sarbana getdikdən sonra Əli əmimi daha çox sevməyə başladım. O, çox mehriban, xoşsifət, ürəyiaçıq, və zarafatcıl kişi idi. Özünün və qardaşlarının uşaqlarını adları ilə çağırmazdı. Hər birinə ev heyvanlarından bir ad qoymuşdu. Heyvanlarına da insan adı verilmişdi.

Bir dəfə belə bir söhbətin şahidi olduq. Əmim arvadı Əslidən soruşdu:

– A Ları, Gülpəriyə yem vermisənmi?

– Arxayın ol, Gülpəriyə də, Gülbalaya da yem vermişəm.

– Çox yaxşı, onda Aslan xanıma da bir az yal qayır, tök qabağına.

Qızı Telliyə isə əmim belə tapşırıq verdi:

– Qoçaq Düyəm, get Çil xoruzu çağır, günün altında oynamasın, naxoşlar.

Anam daha dözə bilmədi:

– Ay Əli, bu nə adlardır? Gülpəri nədir, yem nədir? Aslan xanım nədir, yal nədir? Çil xoruz kimdir?

Əsli gülə-gülə bizi başa saldı.

– Mehri bacı, sənin qaynın uşaqlarımıza heyvan adları, heyvanlarımıza da insan adları qoyub çağırır. Gülpəri bizim inəkdir, Gülbala danası, Aslan xanım da bizim qancıqdır. Qı-

zı Telliyə Düyə, oğlu Vəliyə Çil xoruz, Məmmədin oğluna Qaraqoç deyir.

On gün sonra Məmməd əmim bizi Tiflisə gətirdi. Evdə bütün hazırlıq görülüb qurtarmışdı. Məşədi Pəri də bizimlə getməli idi.

İki gündən sonra qohum-qardaş ilə birlikdə dəmiryol stansiyasına getdik. O zaman Tiflis–Bakı dəmiryolu işləyirdi. Qohum-qardaşla öpüşüb vaqona mindik. Yola salmağa gələnlər qatarın hərəkət etməsini gözləyirdilər. Biz pəncərədən baxırdıq. Parovoz hərəkət fitini çalınca vaqonlar şaraq-şaraq ilə bir-birinə dəydi, qatar yavaş-yavaş hərəkət etməyə başladı. Mən pəncərənin qabağından çəkilmədən vətənim Tiflislə vidalaşırdım...

Mən Tiflisdə oxuduğum zaman dəmiryol stansiyasının olduğunu, qatarların yaxın və uzaq yerlərə yük daşıdığını bilirdim. Hətta uzaqdan parovozların səsini də eşitmişdim. Ancaq bunların heç birini görməmişdim. Odur ki, indi hər şeyə dörd gözlə baxır, özümü yeni bir aləmdə hiss edirdim. Təkərlərin ahəngdar səsi mənə anaların uşaqlarını yatırmaq üçün layla deyib beşik yırğalamasını xatırladırdı. Hər stansiyaya yaxınlaşanda parovozun tüstü buraxa-buraxa zil səslə fit verməsi də, sonra dəstə-dəstə duran kəndlilərin əllərində xurcun, bir-birini itələyə-itələyə, hay-küylə vaqonlara doluşması da, yeni, maraqlı bir mənzərə kimi mənə böyük zövq verirdi. Kəndli arvadlar, uşaqlar əllərində süd, qatıq, toyuq, cücə və hər cür meyvə satırdılar. Anam bizi stansiyalarda yerə enməyə qoymurdu. Bazarlığı bələdçimiz məşədi Pəri edirdi. Dəmiryolu boyunca rast gəldiyim kəndlərin üstü qamışla örtülmüş, divarları palçıq və samanla suvanmış alçaq daxmaları da bu yerlərin yoxsul sakinləri kimi dərdli və kədərli görünürdü. Qatar hərəkət etdikcə uca dağların ətəklərinə qədər uzanmış boz çöllərə tamaşa edir, Tiflisdə hər ay getdiyimiz Muxran yaylağını xatırlayırdım.



Teleqraf ağacları tez-tez gözdən itirdi. Mənə elə gəlirdi ki, biz Bakıya, teleqraf ağacları isə Tiflisə tələsirdi.

İkinci gün Bakıya çatdıq. Atamın tapşırığına görə Bakıda onun tanışlarından qazı Molla Cavad axundun evinə düşdük. Anam Xorasana tələsirdi. Buna baxmayaraq, tanışımız bizi üç gün qonaq saxladı. Dördüncü gün bilet alıb, gəmi ilə Təzə Şəhərə (Krasnovodskiyə) yola düşdük.

O vaxta qədər dəniz görməmişdik. Xəzəri yara-yara müxtəlif cəhətlərə gedən gəmilərə, göz işlədikcə uzanan əngin dənizə tamaşa etməkdən doymurduq.

Bu dəniz səyahəti anamı da, bizi də əvvəlcə çox sevindirdi. Lakin bir-iki saat sonra iş dəyişdi, dəniz bizi bərk "tutdu", ürəyimiz bulandı, hərə bir tərəfə yıxıldı...

Təzə Şəhərə çatan kimi bilet alıb qatarla Aşqabada hərəkət etdik. Atamın tapşırığına görə Aşqabadda şeyxülislamın qardaşı Tahirov İbad bəyin evini tapıb orada gecələdik.

Aşqabad çox isti idi. Kölgəlikdə belə adam tər tökürdü. Anam bizim xəstələnməyimizdən qorxdu. İbad bəyin bizi qonaq saxlamaq istəməsinə baxmayaraq, anam məşədi Pərini göndərib, Xorasana getmək üçün furqon tutdurdu. Səhər tezdən şeylərimizi karvansaraya apardığımız zaman İbad bəy bizə bir adam qoşdu. O, bizi faytonçuya bərk tapşırdı. Furqon döşəndikdən sonra hamımız mindik. Furqon hərəkət etdi. Qoçana çatana qədər təbiətdəki yeknəsəqlik məni sıxırdı. Qoçandan sonra bağlar, yaşıl çəmənliklər, axar sular və bülbüllərin xoş nəğmələri məni məftun etdi. Bir gecə Dürbadamda gecələdik. Bura təbiətcə, gördüyümüz yerlərin hamısından gözəldi. Bülbülün sayı-hesabı yox idi. Orda qaldığımız gecəni susmaq bilmədilər. O bülbüllərin səsini mən in-

di də unutmamışam. İran şairlərinin bu qədər güldən, bülbüldən yazmaları görünür səbəbsiz deyilmiş.

Yollarda tez-tez böyük daşlara təsadüf edirdik. Furqonçu deyirdi ki, guya bu daşlar da İmam Rzanı ziyarətə gedir. Anam və məşədi Pəri daşlara baxıb ağlayırdılar. Mən isə fikrimdə daşların necə hərəkət edib, yol getdiklərini düşünürdüm. Dördüncü gün Xorasana çatdıq. Uzaqdan şəhərin böyük darvazası görünürdü. Mən elə zənn edirdim ki, Xorasan şəhəri Tiflisdən, Bakıdan, yolda gördüklərim bütün şəhərlərdən abad və gözəldir. Böyük darvazadan Bala xiyabana girdikdən sonra, sağ və sol tərəflərdə birmərtəbəli pəncərəsiz alçaq evləri, toz-torpaqlı, zibilli küçələri görəndə bu şəhər haqqında əvvəlki təsəvvürlərim alt-üst oldu. Hər şeydən çox diqqətimi cəlb edən müxtəlif qiyafəli, müxtəlif paltarlı adamlar idi. Bəziləri başlarına qol uzunluğunda, yuxarı getdikcə daralan qara mahuddan papaq qoymuş, bəziləri də gecə papağının üstündən şal sarımışdı. Çoxu qəba deyilən yaxası açıq, uzun dona bənzəyən paltar geyinmiş, belinə şal dolamışdı. Burada kök, sağlam adam çox az-az nəzərə çarpırdı.

Məşədi Pəri:

– Mehri xanım, ora bax. İmam Rzanın qızıl günbəzi görünür, – deyib birdən ağladı.

– Can, atam-anam sənə qurban! Bu canım, uşaqlarım sənə qurban! – deyə anam da əllərini döşünə vurub ağladı.

Mən gah uzaqdan görünən qızıl günbəzə, gah da səs-səsə verib ağlaşan bu iki qadına baxıram. Bala Xiyabanda zəvvar karvansarasına çatar-çatmaz dəstə-dəstə dilənçilər furqonumuzu hər yerdən əhatə edərək:



– Məşədi, qurbanət şəvəm, pul bideh[7] – deyə yalvarmağa başladılar. Anam səxavət əlini açıb, hər birinə bir qran, yarım qran pul verdi. Məşədi Pəri dedi:

– Mehri xanım, burada qarışqanın sayı var, dilənçinin sayı yoxdur. Sən belə başlasan, bir gündə pullar qurtarar.

Fayton zəvvar karvansarasında dayandı. Şeylərimizi hambala verib, oradan birbaş atamın qohumu Hacı Məmmədəlinin evinə gəldik. Hacı və arvadı Balaxanım bizi çox səmimi qarşıladı.

Bibimin sabiq əri Hacı Məmmədəli tacir idi. Bibim öldükdən sonra atamın dayısı qızı Balaxanıma evlənmiş, bir müddət Tiflisdə qaldıqdan sonra köç-külfətini də götürüb Xorasana getmişdi. Atam bizi yola salanda tapşırmışdı ki, mütləq Hacının evinə düşün.

Hacının evi üstüörtülü, uzun və qaranlıq bir dalanda idi. Dalandan keçdikdən sonra pilləkənlə ikinci qata qalxmaq lazım idi. Hacı həmin pilləkənin başında olan iki kiçik otağı boşaltdırıb bizə verdi. Otaqların qarşı tərəfində həyətdə bir hovuz vardı. Hava isti olanda Hacının ailəsi o hovuzun yanında palaz salıb dincəlir, bəzən yeməklərini də orda yeyirdi.

Həyətin sol tərəfindəki qalın divarın ortasında kiçik bir qapı vardı. Bu qapı su anbarına açılırdı. Saqqalar (suçular) iri tuluqlarda həmin anbardan hamıya su daşıyırdılar.

Hacının mən yaşda Əbülqasım və Əbülhəsən adlı iki oğlu var idi. Əbülqasım birinci arvadından idi.

Anam, məşədi Pəri ilə şeylərimizi açıb, otaqları səliqəyə saldı. Gecəni yatdıq. Səhər çay içəndən sonra anam və məşədi Pəri İmam Rzanın qəbrini ziyarətə getdilər. Evdə darı-

---

[7] Məşədi, qurbanın olum, pul ver.

xırdım, bir az sonra Əbülqasımı və Əbülhəsəni çağırdım, küçəyə çıxdıq. Fars uşaqları mənim məktəb formamı görüncə əllərini bir-birinə vurub: "Firəngi, firəngi,"[8] – deyə gülüşdülər. Əbülqasım onlara acıqlandı, uşaqlar qaçıb tinin başında dayandılar və "firəngi," – deyə məni yenə cırnatdılar. Onların üzündən mən daha küçəyə çıxa bilmirdim.

Dalanın yanında səkidə oturub söhbət edirdik. Anamla məşədi Pəri gəldi. Məni görüncə anam həyəcanla:

– Tez evə qayıt! – dedi. Mən anamın nə üçün belə həyəcanlandığını anlamadan onun əlindən tutub, evə qayıtdım. Qapıdan girən kimi Hacının arvadı Balaxanım:

– Ziyarətiniz qəbul olsun, məşədi xanım, – dedi. – İndi sənə məşədi xanım demək olar. Hə, imamın qəbrini yaxşı ziyarət edə bildinmi?

Anam dinmədi. Məşədi Pəri dedi:

– Balaxanım, biz üstüörtülü bazardan gedəndə bir kişi şappıltı ilə yerə yıxılıb öldü. Adamlar başına yığılışıb deyirdilər ki, vəba naxoşluğu var. Vallah, heç bilmədik ağanı necə ziyarət etdik. Məşədi xanım uşaqlardan nigaran qaldı, ona görə tez qayıtdıq.

Balaxanım dedi;

– Hə, şəhərdə vəba xəstəliyi var, gündə dörd-beş adam ölür. Dünən yoldan təzə gəldiyinizə görə sizə demədim ki, qorxarsınız.

Anamın canına vəlvələ düşdü. O gündən bizi həyətdən bayıra buraxmadı. Axşamüstü Hacı əmi də gəldi, vəba xəstəliyindən danışıb, ehtiyatlı olmağımızı tapşırdı.

Xəstəlik tezliklə şiddətləndi. Gündə üç-dörd yüz adam ölürdü. Varlılar ailələrini götürüb şəhərdən qaçırdılar. Bir saat sonra salamat qalmağa heç kimin ümidi yox idi. Hamı deyirdi ki, "Xorasan əhalisinin fisqü-fücuru artdığına görə allah bu bəlanı göndəribdir. Günahsızlar da müqəssirlərin oduna yanır".

Xorasanda poçta gələn məktubları evlərə paylamırdılar. Hər kəs öz məktubunu poçtdan özü alırdı. Bizim məktubumuz və pulumuz atamın Tiflisdən tanıdığı Hacı Məmmədbağır adlı tacirbaşıya gəlirdi. O, Tiflisdə bir-neçə il yaşadıqdan sonra Xorasana köçmüşdü. Başqa yerlərlə alış-veriş etdiyi üçün ona hər yerdən məktub gəlirdi. Bir axşam Hacı əmi evə gələndə bizə atamdan bir məktub, bir də teleqram gətirdi. Zərfin üstündə "Hacı Məmmədəliyə çatacaq" sözləri yazıldığına görə Hacı Məmmədbağır məktubu və teleqramı Hacı əminin dükanına göndərmişdi.

Teleqramda atam bizim əhvalımızı soruşurdu. Məktubda isə anama təklif edirdi ki, Xorasanda vəba olduğuna görə uşaqları da götürüb, tez Tiflisə qayıtsın.

Anam:

– Bu bəlanın içində mən uşaqlarımı götürüb yola çıxa bilmərəm, – dedi.

Məşədi Pəri qayıtmaq tərəfdarı idi. O, nə qədər çalışdısa da, anamı razı sala bilmədi. Bir aydan sonra bəla sovuşdu. Xalq dəhşətli ölümün pəncəsindən qurtarıb, azad nəfəs aldı.

Xorasanın dar, tozlu-torpaqlı və zibilli küçələri, samanpalçıqla suvanmış küçə divarları, xüsusən uzun, üstüörtülü, qaranlıq dalanları məni lap karıxdırırdı. Pəncərələri küçəyə açılan bir ev belə yox idi, çünki otaqda gəzən arvad-uşağı küçədən "naməhrəm" kişilər görə bilərdilər.

Bir gün Hacı əmidən soruşdum:

– Hacı əmi nə üçün Xorasan evlərinin çoxu üstüörtülü, dar, qaranlıq dalanda tikilib?

[8] F i r ə n g i –avropalı.

– Oğlum, belə nağıl eləyirlər ki, – deyə o cavab verdi, – keçmişdə köçəri tayfalar gəlib Xorasan əhlini çalıb-çapıb gedərmiş, xalq onların qorxusundan evlərini dalanlarda tikib...

Xorasanın məşhur küçələri Bala xiyaban ilə Payin xiyaban idi. Bu iki xiyaban arasında İmam Rzanın səhni[9] yerləşirdi. Bala xiyabanın ortasında bulanıq bir çay axıb səhnə, oradan da Payin xiyabana keçirdi. Dükançılar dükanlarını süpürüb toz-torpağı bu çaya atır, namaz vaxtı əl-ayaqlarını da burada yuyurdular. Şəhərin təmizliyinə baxan yox idi. Mən o çayı görəndən sonra Hacının həyətindəki anbarın suyundan da iyrəndim. Ancaq bu çay ilə bizim anbarın suyunun heç bir əlaqəsi olmadığını öyrənəndən sonra bir az sakit oldum.

## MOLLAXANADA

Vəba xəstəliyi zamanı Hacı əminin uşaqları mollaxanaya getmirdilər. Fəlakət ötüşdükdən sonra Hacı əmi oğlanları ilə birgə məni də Molla Əlinin mollaxanasına göndərdi. Mollaxananın içərisinə həsir döşənmişdi. Uşaqlar divar dibində öz evlərindən gətirdikləri kiçik döşəkçə üzərində otururdular. Molla Əli hər uşağı tək-tək çağırır, birinə çərəkədən, birinə Qurandan, birinə şəriət kitabı olan "Cameyi-Abbasdan", "Gülüstan"dan və başqa kitablardan dərs verir, azərbaycanca mənasını izah edirdi. Tiflisdən gələndə dərs kitablarımdan bir neçəsini özümlə gətirmişdim. Molla məni yanına çağıranda "Gülüstan" kitabımı apardım. Dərs aldıqdan sonra keçib yerimdə oturdum.

---

[9] Ziyarətgah, məqbərə.



Hərəyə bir tapşırıq verəndən sonra molla uzun çubuğunu şappıltı ilə yerə vurub:

– Dərslərinizi hazırlayın! – dedi. Onun gur və dəhşətli səsi otağı bürüdü. Şagirdlər yırğalana-yırğalana ucadan hər kəs öz dərsini oxuyub hazırlamağa başladı. Bu qat-qarışıq səslərdən qulaq tutulurdu.

Mən yerdə diz üstündə oturmağa adət etmədiyimdən qıçlarım qırılırdı. Ona görə arabir ayaqlarımı azca uzadırdım. Molla Əli bunu sezdi, çubuğu ayağıma çəkib qışqırdı:

– Adam kimi otur, meşədən-zaddan gəlməmisən ki!

Mən namaz qıla bilmirdim. Günorta zamanı Molla Əli uşaqlara camaat namazı qıldırırdı. Uşaqlar səf çəkib namaz qılanda mən də onlarla əyilib qalxırdım. Bir dəfə uşaqlar başlarını əyəndə mən də əydim. Axırıncı səcdə uzun çəkdi. Elə bildim ki, uşaqlar başlarını qaldırıblar. Başımı yavaşca qaldırıb baxdım, gördüm ki, hələ hamı səcdədədir. Sən demə axırıncı səcdədə bunlar uzun bir dua oxuyurmuşlar. Namaz qurtarandan sonra Molla Əli məni çağırdı, acıqlı-acıqlı üzümə baxıb qışqırdı:

– Gədə, məgər sən adam içində böyüməmisən? Namazı da ələ salırsan?

– Molla, mən namazı haçan ələ salmışam? – deyə təəccübləndim.

– Səcdədə başını niyə qaldırırsan? Aç əllərini!..

Molla hər əlimə iki çubuq vurdu. Ağrısına baxmayaraq, özümü güclə saxladım.

O gün Molla Əli bir başqa uşağın ayaqlarını falaqqaya salıb, ayaqlarından qan çıxıncaya qədər döydü. Axşam evə gedəndə ağlayıb anama yalvardım ki: "Mən bu mollaxanaya getmirəm. Tez ol Tiflisə gedək, mən öz məktəbimizi istəyirəm". Sabahdan mollaxanaya getmədim.

***

Məşədi Pəri Tiflisə qayıtmağa tələsirdi. Hər gün anama deyirdi:

– Məşədi xanım, bəsdir, daha gedək!

Anam razı olmurdu. O hər gün çarşabını örtüb ziyarətə gedirdi.

Bir axşam Hacı əmi atamdan yenə bir teleqram, bir də məktub gətirdi. Atam əlli manat da pul göndərmişdi. Teleqramda və məktubda anamdan uşaqları da götürüb tez qayıtmasını tələb edirdi. Hacı əmi də getməyimizi məsləhət gördü. "Yazıq kişi evdə tək korluq çəkir," – dedi. Anam yerindən tərpənmədi.

Mən Molla Əlinin məktəbinə getmədiyimə görə Hacı əmi oğlanlarını da, bizi də aparıb İmam Rzanın cəhnində olan Yusif Ziyanın məktəbinə qoymuşdu. Məktəb üç böyük otaqdan ibarət idi. İki otaqda dərs keçilirdi, biri də yemək otağı idi. Uşaqlar evdən gətirdikləri, ya bazardan aldıqları şeyləri günorta zamanı həmin otaqda yeyirdilər. Bu məktəbin mollaxanadan fərqi o idi ki, uşaqlar divar dibində otururkitablarını isə qarşılarındakı uzun skamyalara qoyurdular. Bir də müəllim tək-tək yox, səkkiz-doqquz tələbəyə bir yerdə dərs verir və onların birini xəlifə təyin edirdi. Xəlifə tələbələrin sakit oturmasına məsul olurdu. O biri dərs otağında isə Mirzə Yusifin maaşla tutduğu, gözəl xətti olan başqa molla dərs verirdi. Müvəqqəti olsa da, bu məktəb az-maz bizi təmin etdiyindən dərslərimizə həvəslə davam edirdik.

Xorasana gəldiyimiz bir aydan artıq idi. Məşədi Pərinin qaşqabağı yerlə gedirdi. O deyirdi: "Başına dönüm Məşədi xanım, axı mənim də Tiflisdə ev-eşiyim, qızım, kürəkənim, nəvələrim var, məni burda çox saxlama, gəl yığışıb gedək!"



Atamdan bir məktub da aldıq. O yazırdı: "Arvad, ağlını itirmə, Xorasan məktəbləri mənim uşaqlarımı xoşbəxt edə bilməz! Uşaqları tez gətir. Mən onları gimnaziyada oxutmaq istəyirəm. Bir də tək yaşaya bilmərəm. Bu kağızı alan kimi hərəkət edin və mənə teleqramla bildirin".

Bu məzmunda bir məktub da atam Hacı əmiyə yazmışdı. Hacı, məşədi Pəri nə qədər çalışdılar, anam yenə inadından dönmədi. Atama bu məzmunda bir məktub yazdırdı: "Mən Tiflisə gələsi deyiləm. Uşaqlarımın məktəbi də yaxşıdır. Bilirəm, sənə tək yaşamaq çətindir. Evlən, ancaq doğmayan bir dul arvad al ki, mən uşaqlarımı oxudub gələndə evdə dedi-qodu olmasın".

Anam məktubu məşədi Pəriyə verdi və atamın ümidini tamam kəsmək üçün məşədi Pərini Tiflisə yola saldı. Biz Xorasanda qalıb oxumalı olduq.

Məşədi Pəri anamın göndərdiyi məktubu aparıb atama vermiş və əhvalatı açıb söyləmişdi. Atam bir ay bizə məktub yazmadı. Nəhayət, yumşalıb, Xorasanda qalmağımıza razı oldu.

Xorasan məktəbləri mənim xoşuma gəlmədi; Mirzə Yusifin məktəbində az-çox yenilik vardısa da, hər halda köhnə üsulda olan məktəblərə çox bənzəyirdi. Burada hətta falaqqa və çubuq da var idi. Uşaqları çox bərk döyürdülər. Tiflisdəki uşaqlıq həyatım, məktəbim, yoldaşlarım, Kür sahilindəki evimiz heç yadımdan çıxmırdı...

Mirzə Yusifin məktəbində mən fars dilində yazılmış "Nisab", qardaşım isə "Tarixi-möcəm" və "Tarixi-vəssab" kitablarını oxuyurduq. Bu kitablar mənim mənəvi ehtiyacımı təmin edə bilmirdi. Uşaqlıqda şeirə marağım olduğundan şair olmaq arzusunda idim. Hətta hamıdan gizlin, çox çətinliklə bir neçə qəzəl də yazmışdım. O vaxtadək əsas fikrimi

fars dilində olan kitabları oxumağa verdiyim üçün indi mənə azərbaycan dili və ədəbiyyatını öyrənmək lazım idi. Bir gün fikrimi Mirzə Yusifə açıb söylədim. O, tez ayağa qalxdı. Divardakı şkafı açıb, oradan iki kitab çıxartdı. Kitabın birini vərəqləyə-vərəqləyə mənə dedi:

– Dili öyrənmək üçün bu kitabı oxumaq lazımdır. Sabahdan o mənə sərf və nəhv kitabından dərs verməyə başladı.

Qardaşım Yusif ilə iki il Yusif Ziyanın məktəbində oxuduq. Bizim Tiflisə qayıtmağımızdan ümidini kəsdikdən sonra atam Yusif Ziyaya bir məktub yazaraq bizi ona tapşırdı. Qardaşıma isə belə yazdı: "Madam ki, orada qalmalı oldunuz, onda qoy Abdulla həmin məktəbdə oxusun, sənsə mədrəsədə yaxşı bir alimdən şəriət dərsini oxu, heç olmasa mənim ixtisasımı al". Atamın tapşırığı ilə qardaşım, Yusif Ziyanın məktəbini tərk etdi və Mirzə Cəfər mədrəsəsində müctəhid Molla Əlinin dərslərinə davam etdi.

Mirzə Yusif əlli-əlli beş yaşlarında bir kişi idi. Xına yaxdığından bığı və saqqalı həmişə qıpqırmızı olurdu. Əsli Cənubi Azərbaycanın Urmiya şəhərindən idi. Özünün sonralar bizə söylədiyinə görə o, Urmiya mədrəsəsində əvvəlcə mollalığa hazırlaşırmış. Ata-anası vəfat etdikdən sonra mollalığı xoşlamadığından ata evini satıb, təhsilini artırmaq məqsədilə Misirə getmiş, orada bir necə il oxuduqdan sonra Bağdada sonra isə İstanbula köçmüşdü. İstanbulda mülkiyə məktəbində ədəbiyyat müəllimi olmuşdur. Çox hirsli və zabitəli idi. Bir gün İstanbulda ikən Sultan Əbdülhəmid tərəfdarı olan məktəb müdiri ilə sözə gəlmiş, müdir onu təhqir etdikdə:

– "Köpək xəfiyyə, sən bizim qəlbimizi, vicdanımızı da gəmirməkmi istəyirsən?" – deyə əlindəki kitabı onun başına



vurmuş və məktəbi atıb getmişdi. İki ay həbsdə qaldıqdan sonra müdir onu yenidən məhkəməyə vermiş, Mirzə Yusif qorxudan kitabları yığışdırıb, oradan birbaş Xorasana gəlmiş və burada bir fars qızı ilə evlənmişdi. Qulamrza adlı oğlu, Məsudə adında qızı vardı.

Mirzə Yusifin gözəl xətti olan maaşlı bir müavini də vardı. Hər gün ondan təlim alırdım. Arabir Yusif Ziya[10] farsca məktub müsəvvədəsi[11] yazır, müavini gözəl xətlə üzünü köçürəndən sonra savadlı tələbələr onun üzündən yazırdılar. Bu gün Yusif Ziya məktəbindən xatirə olaraq qalan yalnız üzünü köçürdüyüm məktublardan mütəşəkkil tumardır.[12]

Atamın Mirzə Yusifə məktubundan sonra o, mədrəsəmizə xüsusi fikir verirdi. Anam son zamanlar onun evinə gedir, bəzən müəllimin arvadı da uşaqlarını götürüb bizə qonaq gəlirdi. Aramızda ailə dostluğu başlamışdı Arvad mənə damad deyərdi.

Mirzə Yusif yaxşı bir ədəbiyyat müəllimi, gözəl bir alim olduğu kimi, həm də yaxşı tənqidçi idi. O, öz biliyi ilə Xorasanda şöhrət tapmışdı. Şairliyi də vardı. Təxəllüsü Ziya idi. Bu məktəbə Yusif Ziya məktəbi deyilirdi.

Xorasan mollaları "dinə, şəriətə ziddir" deyə fəlsəfəyə xor baxırdılar. Fəlsəfə oxuyan tələbələri və fəlsəfədən dərs verən alimləri, kafir adlandırırdılar. Xorasanda fəlsəfədən dərs deyən Fazili-yekçeşm adlı bir müəllimə də eyni münasibət vardı. Buna baxmayaraq, onun dərslərinə otuzdan artıq tələbə davam edirdi. Fazili-yekçeşm Xorasanda yaxşı bir şair kimi də tanınmışdı. Onun şeirləri əllərdə gəzir, hamı bir-bi-

---

10 Mirzə Yusifin təxəllüsü Ziya idi.

11 Qaralama.

12 Həmin Tumar ədibin başqa əlyazmaları ilə birlikdə Azərbaycan SSRİ Dövlət Arxivində saxlanılır.

rindən üzünü köçürüb saxlayırdı. Bu məşhur alimin adını mən də eşitmişdim, ancaq üzünü görməmişdim.

Bir gün dərs otağına gözü eynəkli bir adam girdi. Mirzə Yusif onu görən kimi tez qalxıb, hörmətlə görüşdü. Hər ikisi yan-yana oturub, bir qədər söhbət etdikdən sonra əsl məsələyə keçdilər. Fazili-yekçeşm qoltuğundan yeni yazdığı bir şeiri çıxarıb, Mirzə Yusifə oxudu. Müəllimimizin çox xoşuna gəldi. Amma şeir yazılmış vərəqi alıb, özü diqqətlə oxuduqdan sonra bir neçə yerini dəyişdirməyi məsləhət gördü. Onlar baş-başa verib yavaşdan danışırdılar. Mirzə Yusif ona hər göstəriş verəndə Fazili-yekçeşm əlini döşünə qoyub: "Dürüst əst, təşəkkür mikunəm,"[13] – deyirdi. Söhbət qurtardıqdan sonra Fazili-yekçeşm ayağa qalxdı. Mirzə Yusifin əlini ikiəlli sıxa-sıxa ona təşəkkür etdi və hörmət üçün əyilərək, xudahafizləşib getdi. Mən bu şəxsin Fazili-yekçeşm olduğunu bildikdən sonra onun bütün hərəkətinə böyük maraqla diqqət yetirirdim. Onun gedərkən Mirzə Yusifə etdiyi hörmətdən başa düşdüm ki, müəllimimizin göstərişlərindən məmnun qalmışdı.

Xorasanda Fazili-yekçeşm kimi məşhur şair yox idi. Buna baxmayaraq, mollalar onun şeirlərini də oxumağa razı olmurdular. Xorasan mollaları olduqca mövhumatçı və mütəəssib idilər. Onlar hətta Cəlaləddin Ruminin "Məsnəvi" əsərində yazılmış bir neçə təmsil və mənzuməyə görə onu kafər adlandırır, "Məsnəvi"ni oxumağı qadağan edirdilər. Onun kitabını əl ilə yox, maşa ilə götürüb bir yana atırdılar.

Bu münasibət səbəbsiz deyildi. Doğrudan da "Məsnəvi"də dini mövhumatın tənqidi güclü idi. Məsələn burada aşura günündə olan təziyəyə həsr olunmuş belə bir əhvalat

[13] Doğrudur, təşəkkür edirəm.



nağıl edilir: bir şair aşura günü təsadüfən gəlib Hələb şəhərinə çıxıb, böyük bir meydandan keçərkən görür ki, burada xeyli adam yığılıb, səs-küydən qulaq tutulur. Şair düşünür ki, bu gün ya şəhərin ən möhtərəm adamlarından biri toy edir, yaxud da böyük bir şəxs vəfat etdiyindən xalq ona təziyə saxlayır: "Hər ikisi mənim üçün xeyirlidir. Toy olsa bir qəsidə deyib ənam alaram, təziyə olsa mərsiyə yazıb yaxşı pul alaram". Şair bu xəyal ilə sürətlə irəliləyib izdihama yaxınlaşır. Görür ki, adamlar boyunlarında kəfən bir-birinin belindən tutub: "Şaxsey-vaxsey," – deyə-deyə yavaş-yavaş sağdan sola yeriyirlər. Şair dərhal başa düşdür ki, xalq kimə isə təziyə saxlayır. Odur ki, yanında duran bir kişidən soruşur:

– Şəhərinizdə vəfat edən kimdir,

Həmin kişi acıqlı-acıqlı ona baxaraq soruşur:

– Bəs sən müsəlman deyilsən?

Şair cavab verir:

– Əlhəmdullah, müsəlmanam.

– O halda bəs sən bilmirsən ki, bu gün aşuradır, İmam Hüseynin qətlə yetirilən günüdür.

Şair təəccüblə kişiyə baxıb deyir:

– Aha, yadıma düşdü, yezid dövrünü deyirsən? Bu xəbər sizə nə gec çatıb? Siz onun ölümü xəbərini bu gün eşitmisiniz?

Belə fikirlərinə görə Cəlallədin Rumini də kafir hesab edirdilər.

Xorasanda hər yerindən qalxan şairlik iddiasına düşmürdü. Belə ki, bir dəfə Payin-xiyabanın qapısı ağzında ləbləbi-kişmiş alveri edən bir fars mirzə Yusifin yanına gəldi. Görüşdükdən sonra qoynundan bir parça kağız çıxarıb yaz-

dığı qəzəli Mirzə Yusifə oxudu. Mirzə gülə-gülə ona göstərişlər verdi.

Müəllimin şeirə verdiyi əhəmiyyət məndə şeir yazmaq həvəsini daha da artırdı. İki gün sonra Azərbaycan dilində yazdığım qəzəli aparıb Mirzə Yusifə göstərdim. Mirzə Yusif oxuduqdan sonra qəzəli mənə qaytarıb dedi:

– Abdulla, bəs sən bilmirsən ki, qəzəl dövrü çoxdan keçib?! Təbin var, çalışsan şair olarsan, get çalış, yeni mövzuda bir şeir yaz!

Mən onun "yeni mövzuda şeir" nəyə dediyini başa düşmədiyimdən bir-iki ay heç nə yazmadım. Bir gün Krılovun "Sazəndələr" təmsilini farscaya tərcümə edib, utana-utana Mirzə Yusifə apardım. O, tərcüməni oxuduqdan sonra heyrətlə üzümə baxıb soruşdu:

– Bunu sənmi yazmısan?

Mən onun fikrini başa düşməyib iftixar ilə:

– Müəllim, mən yazmışam, – dedim.

O, təmsili bir də oxuduqdan sonra dedi:

– Bu ki, lap Lafontenin təmsillərinə bənzəyir!

Mən öz səhvimi başa düşdüm:

– Müəllim, bu mənzumə rus şairi Krılovdan tərcümədir.

– Mən də təəccüb elədim. Gözəl təmsildir... Ancaq mənə de görüm, sən farssan, ya azərbaycanlı?

– Əlbəttə, azərbaycanlıyam!

O qəti bir səslə:

– O halda, apar bu təmsili azərbaycanca yazıb gətir. – dedi.

Çox çalışdım, lakin Azərbaycan dili və ədəbiyyatını hələ yaxşı öyrənmədiyimə görə tərcümə edə bilmədim. Mən bu zəif cəhətimi bütün həyatımda ilk dəfə o zaman dərk etdim. Günlər, aylar keçdikcə mən bu barədə ciddi düşünürdüm...



Bir neçə gün sonra Mirzə Yusif onun tapşırığına əməl edib-etmədiyimi soruşdu. Mən öz acizliyimi boynuma alıb, üzr istədim. Ancaq arabir qəzəl yazmaqdan əl çəkmədim. Hətta özümə təxəllüs də seçmişdim: "Valeh". Mirzə Yusifdən gizlin Krılovun "Qurd və pişik", "İki öküz", "Meymun və gözlük", "Qarğa və pendir" təmsillərini də fars dilinə tərcümə etmişdim.

1910-cu ildə fars dilində yazdığım "Gülşəni-ədəbiyyat" dərsliyində Krılovdan tərcümə etdiyim bu təmsilləri vermişəm. Ancaq farscaya birinci tərcümə etdiyim "Sazəndələr" təmsilini çox axtardım, tapmadım.

Hacı Məmmədəlinin əvvəlki var-dövləti əlindən çıxdığına görə çini qab-qacaq dükanı açıb, bununla da ailəsini idarə edirdi. Saxsı çölməkdə hər gün piti asılırdı. Hacı axşamüstü evə qayıtdıqda, Balaxanım əl-əl üstündə onun xidmətində durur, əbasını çiynindən götürür, başmaqlarını cütləyib bir tərəfə qoyur, tez altına döşəkçə salırdı. Hacı bardaş qurub oturur və yeməyi gözləyirdi. Balaxanım tez çölməyin suyunu bir qaba boşaldıb içinə çörək doğrayırdı. Əbdülhəsən və Əbdülqasımın ayrıca qabı vardı. Hacı öz əli ilə onların payını qablarına qoyub qarşılarına itələyirdi. Balaxanım ilə özü də bir qabdan piti suyu ilə islanmış çörəyi yeyirdilər. Bu qurtardıqdan sonra Balaxanım çölməyin ətini qaba töküb Hacının qabağına qoyurdu. Hacı kiçik bir toxmaq ilə əti, noxudu əzir yenə oğlanlarının payını ayırıb verdikdən sonra arvadı ilə bir yerdə həmin qabdan yeməyə başlayırdılar.

Hacı Məmmədəli boydan çox uca, vücuddan zəif bir kişi idi. Vücuduna nisbətən kiçik başı var idi. Qulaqlarının ucundan çənəsinə doğru uzanan seyrək saqqal saxlayırdı. Qırxılmış başına tacirlərə məxsus olan, gülləri portağal rəngində, qalın, ipək sapdan toxunmuş şaldan əmmamə qoyardı. Ağ

boğazsız köynəyinin üstündən İranda adət olan yaxasıaçıq, uzun don geyinir, belinə əmmaməsinin malından qurşaq bağlayır, donun üstündən uzun, enli mahud əba salırdı.

Hacı çox ağır təbiətli bir kişi idi. Yemək vaxtı bir kəlmə də danışmazdı. Başqa vaxtlarda da onun arvadı və uşaqları ilə deyib-güldüyünü az görmüşdüm. Çox dindar idi. Namaz qılanda alnında möhürün yeri, yumru qara bir ləkə kimi görünürdü.

Atam ayda bizə 25 manat, bayramqabağı isə 30 manat xərclik göndərirdi (bizim 1 manat İranın 5-6 qranına bərabər idi). Xorasan ucuzluq olduğundan ayda 25 manat bizim yeməyimizi, geyinməyimizi görürdü. Hacı əmi İsfahanı sevməzdi. Hər şeyə qənaət etməyə vərdiş etmişdi. Bir gün anam dedi:

– Məşədi bacı, bura Xorasandır, qəriblikdir, bir az qənaət eləmək lazımdır.

Anam cavabında:

– Hacı qardaş, mən ev-eşiyimi atıb iki balamı burada oxuduram. Onlara korluq verə bilmərəm! Çox sağ olsun atalarının canı, nə qədər göndərir, o qədər də xərcləyirəm, - dedi. Bu sözlər Hacının xoşuna gəlmədi.

Mən Xorasana özümlə bərabər rusca müntəxəbat kitabımı da aparmışdım. Axşamlar arabir Puşkinin, Lermantovun şeirlərini və Krılovun təmsillərini oxuyurdum. Bir gün Hacı əmi rusca oxuduğumu eşidib məni çağırdı. Tez dışarı çıxdım. Yuxarıdan aşağı acıqlı-acıqlı üzümə baxıb kəskin səslə dedi:

– Abdulla, bura Xorasandır, Tiflis deyil. Burda rusca oxumaq günahdır! – dedi.

Bir zaman Tiflisdə iki il yaşamış bu adamın bu qədər mövhumatçı olduğunu bilmirdim. Ondan sonra rusca müntəxəbatımı gizlin oxuyurdum. Hacı əminin bu sözü anamın xoşuna gəlməmişdi, çünki atam da məktublarında ruscanı yaddan çıxarmamağı bizə dəfələrlə tapşırmışdı.



Atam məktublarının birində yazmışdı: "Məşədi xanım uşaqlara korluq vermə, necə istəyirsən onları elə yaşat". Hacı məktubu açıb oxumuşdu. Məktubu anama verəndə belə demişdi:

– Məşədi bacı, mən elə bilirdim Molla Mustafa kişidir, sən arvad. Ancaq indi bildim ki, kişi sənsən.

Anam isə ona kəskin cavab vermişdi:

– Hacı qardaş, sən ki, yaxşı bilirsən, mən Sənəmin qızıyam. Molla Mustafa mənə arxayın olmasa idi, uşaqlarım ilə bu qərib ölkəyə gəlməzdim. Bir də ki, sizdən təvəqqe edirəm, bizim məktublarımızı alıb oxumayın.

Bu kimi hadisələr bizi Hacıdan və Hacını da bizdən incik salmaqda idi. O, bizim hər işimizə qarışırdı.

Biz gecələr lampa işığında dərslərimizi oxuyub hazırlayırdıq. Dərslərimizlə yanaşı başqa kitablar da oxuyurduq. Yeni kitablar almaq üçün anam bizdən pul əsirgəməzdi. Bizim belə çalışmağımız Hacını narahat edirdi. Arvadı Balaxanıma:

– Bax, o uşaqlarını necə çalışdırır? – deyib oğlanlarını döyürdü. Onun bizə qarşı açdığı cəbhə hamımızı rahatsız edirdi. Hacı təmiz, sakit və salamat adam olduğu halda onda belə sifətlər də var idi.

Mən dərsdən qayıdanda hər gün Payin xiyabanında sabah üçün bazarlıq edirdim. Yenə bir gün dərsdən sonra Payin xiyabanına bazarlıq üçün gedəndə gördüm ki, bir kişi əlində bir xoruz və bir toyuq tutub satır. Hər ikisi lari cinsindən idi. Xoruz ağ, toyuq isə qırmızı idi. Qiymətini soruşdum. İkisinə beş qran istədi. Bu adi toyuq yaxud xoruzun

qiymətindən üç-dörd dəfə baha idi. Uşaqlıqdan quşları, toyuq-cücəni çox sevirdim. Bu toyuqla xoruz da çox xoşuma gəldi. Yanımda pulum olmadığından kişidən təvəqqe etdim ki, mən evdən gələnəcən bunları satmasın. Tez evə qaçdım. Yalvarıb anamdan beş qran alıb qayıtdım. Kişi yolumu gözləyirdi. Sevinə-sevinə xoruzu və toyuğu qoltuğuma vurub, tövşəyə-tövşəyə evə gətirdim. Onlar çox ağır idi. Xoruzun məhmizi hələ təzəcə düymə bağlamışdı; deməк hələ lap cavan idi. Həyətə girən kimi dərhal hər ikisini yerə atdım. Mənim xoruzum ilə Hacının xoruzu bir-birinə hücum edib, davaya başladılar. Həyətdəkilər tamaşaya çıxdı. Mənim xoruzum gövdəcə böyük olsa da yaşca cavan olduğundan qorxurdum ki, basılsın. Ancaq vuruş davam etdikcə xoruzumun qalib gələcəyinə ümidim artırdı, çünki o hər dimdik vurduqca Hacının xoruzu bərkdən bağırıb özünü itirirdi. Vuruşma uzun sürmədi. Qanadlarını sallayıb bağıra-bağıra qaçmağa başlayan Hacının xoruzu nəhayət hövlündən özünü həyətdəki quyuya atdı. Onu quyudan yarımcan çıxardıq. Bu zaman Hacı gəldi, əhvalatı bildikdən sonra qanı qaraldı, qaşları çatıldı. Xoruzun başını kəsərkən mənə dedi:

– Yaxşı, Abdulla, indi ki, belə oldu, sabah mən də bir xoruz gətirəcəyəm, görək xoruzun ona nə cavab verəcək? Hazır ol, sabah da sən xoruzunun başını kəsəcəksən.

Ertəsi gün məktəbdən qayıdıb həyətdə oynayırdıq. Axşamüstü Hacı gəldi. Əbasının altında iri, quzu boyda bir ları xoruz çıxarıb həyətə atdı:

– İndi buna cavab versin. Bu larını hələ Xorasanda basan xoruz olamyıb, – dedi.

Hacının dedikləri həqiqətə oxşayırdı. İri, qırmızı rəngdə ları xoruz idi. Uzun məhmizləri neştər kimi iti idi. Həyətə buraxılan kimi qanadlarını ayaqlarına sürtə-sürtə toyuqlara



tərəf getdi. Xoruzlar bir-birinə yaxınlaşdıqda şiddətli bir döyüş başladı. Bu dəfəki vuruş uzun sürdü. Hər iki düşmənin başı qan içində idi. Hacının xoruzu yavaş-yavaş yorulurdu. Mənimki ona aman verməyib bir-birinin ardınca dimdik vurmağa davam etdi. Başına enən qəti zərbələrə davam gətirə bilmədiyindən Hacının xoruzu qanadlarını sallayıb qaçmağa başladı. Anam isə: "Hacı qardaş, xoruzun elə görkəmi var, içi çürükmüş", – dedi.

Hacının qanı yaman qaralmışdı. Xoruzu tutdurub tövləyə saldı. Səhər dükana gedəndə xoruzu əbasının altına alıb apardı. Onun üz-gözündən kin qığılcımları yağırdı.

Mən sonralar "Molla Nəsrəddin" səhifələrində, yazıçılarımızın felyetonlarında xoruz döyüşdürənlərin, it boğuşduranların tənqidinə rast gələndə həmişə Hacı əminin bu vəziyyətini yadıma salırdım.

## HACI ƏMİNİN VƏ ƏLƏKBƏR BƏYİN SÖHBƏTLƏRİ

Hacı ilə təxminən dörd il bir həyətdə yaşadıq. Biz əvvəllər onu ancaq bir xəsis, dünya işlərindən lap xəbərsiz adam kimi tanıyırdıq. Ancaq sonralar aramızda olan söhbətlər onu bizə daha yaxından tanıtdı.

Mən uşaq ikən şüurum daha yaxşı inkişaf etmədiyindən, bir çox hadisələrin əsl mənasını, həqiqətini dərk edə bilməyib ancaq zahiri tərəfinə aldanırdım. Bəli, bir dəfə dükanda gözəl və nəfis kağızda çap olunmuş kiçik "Quranlara rast gəldim. Bu nəfis Quranlar qoltuq cibinə qoymaq üçün müxtəlif ölçülərdə çap edilib ucuz qiymətə satılırdı. Camaat

bu Quranları almağa daha çox meyl və həvəs göstərirdi. Odur ki, mən də həvəslənib bu Quranlardan iki nüsxə aldım: birini özümə, birini də Hacının oğlu Əbdülhəsənə verdim. Əbdülqasım Əbdülhəsəndən bir yaş böyük olduğuna və altı-yeddi il məktəbə getməsinə baxmayaraq, Quran oxuya bilmirdi. Əbdülhəsən Quranı atasına göstərəndə o soruşdu: "Bu Quran səndə hardandı?" Əbdülhəsən cavab verib deyir: "Abdulla bağışlayıbdı". Bunu eşidən Hacı məni yanına çağırdı. Onun ilk sözü belə oldu:

– Abdulla, bu Quranlar bilirsənmi hardandı?

– Yox, Hacı əmi bilmirəm.

– Bunları ingilislər öz vilayətlərində çap etdirib bura göndərirlər. Kitabfüruş tacirlərin sifarişidir. Mən bu Quranlara pul verib almaram. Çünki İran çapında öz Quranlarımız var.

Mən çini qab-qacaq dükanlarında bir-birinə uyğun, gözəl naxışlı qəlyan başları, uzunsov qəlyan küpələri, sinilər, kasalar görürdüm. Bunların üzərinə mahir rəssamlar tərəfindən İran hökmdarları Nəsrəddin şahın, Müzəffəriddin şahın şəkilləri mənim nəzərimi cəlb edirdi. Belə şəkilli qab-qacaqdan Hacı əminin də dükanında çox idi. Hacı əmi sözünü bitirərkən bunu da əlavə etdi:

– Bax, mənim dükanımda gördüyün o çini qablar da ingilis malıdır. Bəzisinin üstündə aydın yazılıb: "Sifarişi-dövləti-aliyyeyi-İran".[14] Bizim heç bir şeyimiz yoxdur.

Mən maraqlanıb soruşdum:

– Hacı əmi, bəs niyə ingilis qabları satırsan?

– Bəs neyləyim? Özümüzdə heç bir şey olmadıqdan sonra ehtiyac məni də o qabları satmağa məcbur edir. İran azərbaycanlıları çox bacarıqlı, zəhmətsevən xalqdır. Tiflisdə yəqin görmüsən, əliboş, cibidəliyin biri Arazı keçib gəlir. Pulu olmadığından əvvəlcə kiçik işdən yapışır. Bir müddət əlində xırda şey-şüy satır. Sonra görürsən bir dükanın küncünü icarəyə götürüb, alver eləyir. İki-üç il sonra isə əməlli-başlı dükan sahibi olur. O qazandığı puldan İranda qalan arvad-uşağına da göndərir, özü də yaşayır. Buna görədir ki, bizimkilər qənaətcildirlər, israf sevməzlər. Şəriətimiz də israfçılığı haram buyurub. Bizim hər gün ətimiz, çörəyimiz olur, ac qalmırıq. Mən bir şahı da artıq yerə xərcləmirəm. Bu xəsislik deyil, həyatın tələbidir. Sizin Tiflis camaatı isə gündə qazandığın qoyur qarnına. Bu israfdır.

Hacının bu sözündən qızardım. Çünki anam Balxanım bibiyə bir neçə dəfə demişdi ki, "Hacı qardaş deyəsən bir az xəsisdir".

Çox az danışmağa adət etmiş Hacı əminin öz oğlu yerində olan bir oğlan ilə bu qədər uzun söhbəti məni təəccübə gətirdi. Onunla etdiyim belə söhbətlər Hacı əmini də, İranın vəziyyətini də öyrənməyə mənə kömək edirdi.

Rusiya Səfarətxanasına tabe olan xüsusi teleqrafxanada Ələkbər bəy adlı bir nəfər işləyirdi. Anama qohumluğu çatırdı. Bayram günlərində ildə iki-üç dəfə rəsmi geyimdə bizi görməyə gəlir və hər gələndə də İranın, eləcə də Xorasanın geriliyini, oradakı çirkinlikləri açıb göstərən söhbətlər edirdi. Ələkbər bəy siyasətdən danışmağı çox sevirdi; xüsusən ingilis hökumətinə dərin nifrəti vardı. Gələn kimi hal-əhval tutub hamımızı, vəziyyətimizi soruşduqdan sonra çox zaman İngiltərədə müstəmləkəçilərin siyasətindən danışırdı.

Ələkbər bəy bizə gəlib getdikcə məndə yeni fikirlər doğur, bəzi siyasi məsələlər barədə düşünməyə başlayırdım.

[14] Ali İran dövlətinin sifarişi.

Bakıda müəllimlik etdiyim illərdə amerikan və ingilis missionerinin buradakı fəaliyyətini, Ələkbər bəy demişkən məzhəb dəllallığını öz gözümlə gördüm. Məşhur xəfiyyə Laurensin və onun kimi ingilis diplomat və siyasətçilərin bütün dünya millətlərinə, xüsusən Şərq millətlərinə qazdıqları quyuları və yaratdıqları fəlakətləri müxtəlif kitablardan, bu sahədə məlumatı olan adamlardan öyrəndim. 1918-ci ildə ingilis ordusu Bakıya girdiyi zaman, onların Azərbaycanı, bütün Zaqafqaziyanı qan ocağına çevirdiklərinin şahidi oldum. Bu hadisələri xatirələrin "Bakı" hissəsində gördüyüm kimi yazmışam.

Çar Rusiyasının tələblərini yerinə yetirən çar missionerləri və jandarmları məzhəb dəllallığında, insanları heyvan kimi damğalamaqda ingilis və amerikan müstəmləkəçilərindən geri qalmırdılar. Nəhayət, bildim ki, imperialist dövlətlərin hamısı bir-birinin eynidir. Ancaq ingilis siyasəti daha yırtıcı, daha əzici və dəhşətli idi. Hökumətlər arasında müharibələr başladığı zaman hamı deyərdi: "burada ingilis barmağı var".

## TƏZƏ MƏNZİLDƏ

Bir gün evimizin yanındakı su anbarının ağzında səs-küy qopdu. Təzə anbar tərəfə qaçdım, adamlar yığılıb su anbarının içinə baxırdılar. "Nə olub?" – deyə soruşdum. Məlum oldu ki, qoca bir suçu tuluğunu doldurarkən, pillələnlər yaş olduğundan ayağı sürüşmüş və üzmək bilmədiyindən boğulmuşdur. Bu xəbər bütün məhəlləyə yayıldı. Daha o anbardan su aparmadılar. Həmin xəbər bir ay sonra hökumət idarəsinə də çatdı. Anbar bir ay da bağlı qaldı. Xeyli sonra



anbar təmizləndiyi zaman dibindən o qədər lil, palçıq, zir-zibil çıxdı ki, onları ancaq iki günə daşıya bildilər.

Hacının kiçik həyəti, qaranlıq dalanı, su anbarı və küçənin natəmizliyi bizi çox darıxdırmışdı. Ona görə də nisbətən təmiz küçədə yaxşı ev tutmağa qərar verdik. Bir gün bu məsələni Hacıya açdıq. Hacı razı olmadı. Biz ona hörmət üçün iki həftə də gözlədik. Sonra Ərk məhəlləsində təzə bir ev tutduq.

Təzə mənzilə köçəndən sonra atam məktubları poçta yazırdı. Hər həftə poçta gedib, Tiflisdən gələn məktubu alırdım. Son məktubunda atam yay tətilində bizi görməyə gələcəyini yazıb bildirmişdi. Bu xəbər evdə hamıdan çox məni sevindirirdi. Günləri sayırdım. Poçtun bizim evdən çox uzaq olduğuna baxmayaraq, yay tətilinə yaxın hər iki gündən bir gedirdim. Atamdan məktub almadan suyu süzülə-süzülə, kor-peşman evə qayıdırdım. Bir gün poçta gedib, atamdan teleqram aldım. Teleqramda o, Tiflisdən yola düşdüyünü xəbər verirdi. Beş il idi ki, atamı görməmişdim. Onun məhəbbəti qəlbimdə coşub-daşır, surətini xəyalımda canlandıraraq, onu görmək arzusu ilə yaşayırdım. Sonra Aşqabaddan, daha sonra Qoçandan teleqram aldıq. Xorasana daxil olduğu gün atamı qarşılamaq üçün məktəbə gedib, Mirzə Yusifdən izin istədim. Atam Mirzə Yusifə bir-iki dəfə məktub yazıb, məni ona tapşırmışdı. Məktub vasitəsi ilə onlar bir-birini tanıyırdılar. Mirzə Yusif atamın gəldiyini eşidincə gülə-gülə:

– Mən də gedəcəyəm, – deyə ayağa qalxdı.

O, məktəbi müavininə tapşırdı. Fayton ilə gedib, Xorasandan bir mənzil o yanda atamın yolunu gözləyirdik. Fayton göründü. Atamı uzaqdan tanıdım. Bilmirəm, o nə hal idi! Uçmaq istəyirdim. Yalnız qanadlarım yox idi. Qollarımı ona tərəf uzadıb: "Ata, ata!" – deyə elə vəhşi bir səslə bağırdım

ki, yanımdakılar qorxdular, iki qolumdan tutaraq: "Səbir elə, fayton bura gələcək," – deyə məni saxladılar. Xorasana gəldiyimiz ilk gündən keçən beş il ərzində bəlkə birinci dəfə idi ki, belə sevinirdim.

Fayton gəlib çatanda hamıdan əvvəl atamı mən qucaqlayıb, sevincimdən ağlamağa başladım. Kişi çox mütəəssir oldu. Özünü zorla saxlaya bildi.

Atam hamı ilə görüşdükdən sonra faytonlara minib evə gəldik. Atam bir ay Xorasanda qaldı. Bu bir ay mənim həyatımda ən bəxtiyar günlər idi.

Atam gələndə İranın Tiflisdəki konsulundan Xorasan valisi Asifüddövləyə bir məktub gətirmişdi. Bir gün həmin məktubu Asifüddövləyə vermək üçün getdi. Qayıtdıqdan sonra orada baş verənləri bizə nağıl etdi.

– Məktubu Asifüddövlənin fərraşına verdim. Bir az sonra fərraş gəlib: "Buyurun, ağa, vali sizi görmək istəyir", – dedi. İçəri girdim. Vali mənə yer göstərdi. Oturdum. Ailəni Xorasana nə məqsədlə gəldiyini soruşdu. Mən ona bu xüsusda məlumat verdim. Az sonra çox kiçik armudu stəkanlarda çay gətirdilər. Mən stəkanlara baxıb gülümsədim. Vali bunu hiss edərək soruşdu:

– Ağa, stəkanlara baxıb nə üçün güldünüz?

Mən əvvəlcə ürəyimdən keçəni demək istəmədim. O, ikinci dəfə soruşdu. Mən stəkanı götürərək:

– İn badəha key kifayət dəhəd bəməstiyi ma[15], – deyə cavab verdim.

Vali güldü:

[15] Bu badələr bizi keflәndirməyə kifayət etməz.



– Ağa, qənd, şəkər bizim vilayətimizdə Qafqazdan daha ucuzdur. Siz evdə böyük stəkanlarla üç-dörd stəkan içirsinizsə burda on stəkan için.

Mən cavab verdim:

– Vali həzrətləri, mən çox şadam ki, İranda belə kiçik stəkanlarda çay içirlər, çünki İranın öz qəndi yoxdur. Siz məmləkətin həyat damarı olan qızıl pul verib, qəndi başqa hökumətlərdən alırsınız. Ona görə də qəndə qənaət etmək lazımdır.

Valini bu söz çox tutdu. Ancaq gülümsəyib cavab vermədi. Mən ayağa qalxıb xudahafizləşəndə:

– Ağazadələrin nə işi olsa, mənim yanıma gəlib, "Qafqazlı alimin oğluyuq", – desinlər.

## HƏRKİ-HƏRKİLİK YAXUD ANARXİYA

O zaman İranda şahın sərəncamı ilə hər vilayət mədaxilinə görə qiymət edilib müəyyən şəxslərə satılırdı. Xorasan vilayəti də mərkəz şəhəri və ona tabe olan kəndləri ilə satılmışdı. Bu vilayəti alan vali Asifüddövlə şaha verdiyi pulu çıxartmaq və üstəlik ikiqat da qazanmaq istədiyindən hər kəndi başqa-başqa şəxslərə satmışdı. Özü şəhəri, kənd hakimləri də, kəndləri çalıb-çapırdılar.

Xorasanda validən başqa bir neçə "hökumət" də vardı. İmam Rzanın xüsusi əmlakını, var-dövlətini idarə edən mütəvəlli özünə məxsus, ayrıca bir "hökumət" düzəltmişdi. Vali onun işlərinə qarışa bilməzdi. Bundan başqa, müctəhidlərin və onların dəstəsində olan mollaların, mədrəsə tələbələrinin də ayrıca bir "hökumət"i var idi. Hərə istədiyini edirdi. Xorasanın valisi, məşhur tacirlər, böyük məmurlar möhtə-

kirlik edirdilər. Yay zamanı bunlar buğdanı alıb anbarlara vurur, qışda taxıl qıtlaşanda çıxarıb baha qiymətə satırdılar. Ona görə elə vaxtlar olurdu ki, çörəkçilər un tapa bilmir, xalq günlərlə ac qalırdı.

Bu şəhər əhli yoxsul, dinc, Cənubi Azərbaycanlılara nisbətən daha mövhumatçı idilər. Onlar aclığa tab gətirib deyirdilər: "Allahın bəlasıdır, pis əməllərimizə görə bizə mübtəla olubdur".

Lakin adam aclığa nə qədər dözər! Bir gün xalqın səbri tükənirdi. Başı çarşablı, üzü rübəndli Xorasan arvadları əllərində daş, ağac dəstə-dəstə çörəkçi dükanlarına gəlib, çörək tələb edirdilər. Çörəkçi onları görüncə qaçıb gizlənməyə məcbur olur, arvadlar dükanı daşa basırdılar. Sonra da qapını sındırır, dükana girib tapa bildikləri unu bir-birinin əlindən qapırdılar. Valinin, mütəvəllinin, möhtəkir tacirlərin anbarlarının ağzında isə əlləri tapançalı və xəncərli adamlar olduğundan camaat o anbarlara hücum etməkdən qorxurdular.

Qış zamanı elə olurdu ki, yandırmağa bir parça odun da tapılmırdı. Satmağa odun gətirən kəndlilər şəhərə girməmiş möhtəkirlər onların qabağını kəsir, odunları ucuz qiymətə alıb anbarlarına doldururdular.

Çörək qıt olduğu zamanlar çörəkçilər unun içinə müxtəlif şeylər qarışdırırdılar. Çörək adamın dişləri arasında xırçıldayırdı. Bu qıtlıq zamanlarında ac və yoxsul qadınlar tez-tez üsyan edir, çörəkçi dükanlarını dağıdırdılar. Bəzən də əliağaclı fərraşlar arvadlara hücum edib bu üsyanı dağıtmaq istəyirdilər. Qadınlar daş ilə özlərini qoruyur, fərraşları vurub yaralayır, "öldürün bizi, ac ölməkdənsə, birdəfəlik əlinizdə ölmək yaxşıdır," – deyirdilər.



Xalqın yaşayışı belə olduğu halda vali və mütəvəlli başda olmaqla möhtəkirlər kef çəkirdilər. Onlar camaatın başında dəyirman işlədirdilər. Şəhər valisi küçələrdən at üstündə keçərkən, yan-yörəsindəki fərraşlar əllərində toppuz "Rahbədəhid bedəhid!"[16] – deyə bağırır, adamları divar dibinə tərəf itələyirdilər. Xalq divar dibinə çəkilir, vali keçəndə ikiqat əyilir, təzim edir və o gedənə qədər durduğu yerdə mıxlanmış kimi qalırdı.

Xorasanda yaxşı yorğa eşşəklər olurdu. Varlılar bu eşşəklərin belinə atlasdan palan qoyur, gümüş zəngi və gümüşü parçalar ilə bəzənmiş cilov taxırdılar. Bu eşşəklərə ancaq varlı adamların arvadları və evlərə çağırılan həkimlər minirdi. Şəhər valisinin arvadı eşşəyə minib küçədən keçəndə bir fərraş eşşəyin cilovunu çəkir, başqa fərraşlar da əllərində gümüş toppuz adamlara bağırırdılar: "Bu begərdanid!"[17]. Kişilər, arvadlar üzlərini divara çevirib, hörmət üçün ikiqat əyilib dururdular.

Xorasan arvadlarının vəziyyəti bizim Azərbaycan qadınlarının vəziyyətindən daha pis idi. Onlar paltar üstündən çaxçur geyir və gözlərini də gizlətmək üçün çarşafın üstündən başlarına rübənd taxırdılar. Rübəndin göz tərəfində incə saplarla işlənmiş xırda deşliklər olurdu.

***

Şəriətdə haram olduğundan şərabı Xorasanda gizlin içirdilər. Mütəvəllibaşıdan tutmuş İmam Rzanın məzarı üstündə zəvvarlara ziyarət duası oxuyan rəzəvi seyidlərə qədər

---

16 Yol verin!

17 Üzünüzü o yana çevirin!

hamı içkiyə aludə idi. Tiryək, anaşa düşkünləri şəhərdəki tiryəkxanalara yığışıb, huşlarını itirincəyə qədər tiryək və anaşa çəkir, məst olur, ölü kimi bir küncdə qalırdılar.

Hökumət bu işə cinayətkarcasına yanaşırdı. Şəhər valisi bəzi müqəssir və cinayətkarlara qanuni cəza vermək əvəzinə, onları Ərk həbsxanasında dustaq edib, zorla tiryək çəkməyə alışdırırdı. Həbsxananın öz işçiləri vasitəsilə dustaqlara tiryək satdırırdı. Həbsxanadan azad olan adamlar əmək qabiliyyətini itirir, dükan-dükan gəzib dilənməyə məcbur olur və hər yetəndən tiryək istəyirdilər.

Biz Ərk məhəlləsinə köçdükdən sonra məhəllə uşaqları ilə birgə bir gün musiqi təlimi alan sərbazlara tamaşaya getdik. Musiqi alətləri tütək, balaban və şeypurdan ibarət idi. Bir neçə fars havası dinlədikdən sonra dustaqlara tamaşa etmək üçün həbsxanaya tərəf getdik.

Məşədi Həsən lotu, qoçu idi. Belə qoçuları Xorasanda dəstəbazların hər biri öz tərəfinə çəkməyə çalışırdılar. Məşədi Həsən lotu mütəvəllibaşının ən yaxşı müridlərindən və dostlarından idi. Mütəvəllibaşıya arxalanan bu lotu xalqı çalıb-çapırdı. Şəhər hakimi Asifüddövləyə həmin lotunu tutdurub Ərk həbsxanasına saldırmışdı. Mütəvəllibaşı validən onu azad etməsini xahiş etmişdisə də vali razı olmamışdı. Çünki rəyasət üstündə hakim və mütəvəlli həmişə bir-birinə düşmən idi. Asifüddövlə Məşədi Həsən lotunu tədric ilə tiryəkə alışdırmışdı. Mən onu həbsdən əvvəl böyük bazarda görmüşdüm. Məşədi Həsən keçərkən hamı təzim edib salam verərdi. O isə heç kəsə əhəmiyyət verməyib yanlarından ötərdi.

Həbsxanaya çatınca gördü ki, bir nəfər yerdə oturub özünü günəşə verir. Adamlar onun ətrafına toplaşıblar. Biz də yaxınlaşdıq. Bu Məşədi Həsən lotu idi. Əvvəlcə mən onu



tanımadım, vücudu o qədər ərimişdi ki, bir dəri, bir sümük qalmışdı. Onu dərin çuxura düşmüş gözlərindən tanıdım; arabir əlini adamlara uzadıb tiryək istəyirdi. Bir-iki ay sonra hakim onu azad etmiş olduğundan Məşədi Həsən lotu da dükan-dükan gəzib pul və tiryək dilənirdi.

Feodal hakimin özünəməxsus "orijinal" cəza üsulu bax belə nəticələnirdi.

***

Xorasanda müqəssirlərin adətən başlarını kəsirdilər. Bu qanlı faciələr çox zaman Payin-xiyabanda olurdu. Mən bu haqda çox eşitmişdim. Ancaq görməmişdim. Bir dəfə günorta üstü məktəbdən çıxıb uşaqlarla birlikdə Payin-xiyabana getdim. Bulanıq çayın o tərəfi adamla dolmuşdu. Biz də maraqlanıb oraya qaçdıq. Çayın sol tərəfində bir kişinin qollarını üçhaçalı, qalın bir kötüyə bağlamışdılar. O başını ortadakı haçaya dolayıb iztirab və qorxu dolu gözlərini gah açır, gah da bağlayırdı. Onun başı üzərində qırmızı küləcə geyinmiş, qurşağına iri bir behbud keçirmiş "Mirqəzəb" (cəllad) durmuşdu. O, tamaşaçılardan pul yığırdı.

Yoldaşlarımdan biri yanındakı farsdan soruşdu:

– Əmi, bu kişini nə üçün öldürmək istəyirlər?

Kişi uşağı əli ilə bərk itələyərək dedi:

– Oğlan, rədd ol burdan! Sən bura nə üçün soxulmusan?!

Mirqəzəb pul yığıb qurtarandan sonra belindəki behbudu qınından çıxartdı. Birdən iki barmağını kişinin burun deşiklərinə soxub, başını özünə tərəf qanırdı və dərhal behbudu onun boğazına çəkdi. Bir anda qan fışqırdı. Mən bu dəhşətli mənzərəni gördükdə gözlərimi yumub özümü itirmiş halda tez məktəbə qaçdım. Daha nələr olduğunu bilmədim.

Axşam məktəbdən qayıdanda halım çox pərişan idi. Ürəyim döyünür, bədənim əsirdi. O gecəni sübhə qədər sayıqladım.

Üç gün yorğan-döşəkdə yatdım. Mirzə Yusif mənim məktəbə getməməyimin səbəbini uşaqlardan öyrənmişdi. Məktəbə getdiyim gün o mənə bərk acıqlandı. "Bir də elə yerlərə soxulsan, ayaqlarını falaqqaya qoyacağam," – dedi.

Orta əsrlərdən qalma vəhşilik məni dəhşətə gətirmiş, sarsıtmışdı.

## CAĞƏRQ

Xorasanın ab-havası ağır, küçələri zibilli, suyu natəmiz və yayı çox isti olduğundan yayda hər növ xəstəlik baş verirdi. Odur ki, anam məni, eləcə də başqa uşaqlarını yay zamanı küçəyə çıxmaqdan, meyvə yeməkdən səylə qoruyurdu. Buna baxmayaraq, bir yay mən bərk xəstələndim.

O il bəzi yoluxucu xəstəliklər şəhəri bürümüşdü. Xəstəlikdən sonra çox zəifləmişdim. Zəif olduğumdan yoluxucu xəstəliklərin məni yaxalaya bilməsini nəzərə alaraq həkimlər bir ay Cağərq kəndində istirahət etməyimi məsləhət gördülər. 1898-ci ilin yayını Cağərqdə keçirməli olduq.

Cağərq kəndlilərinin meyvə gətirib satdıqları karvansarada Kəblə Sadıq adlı bir çarvadarla danışıb, onun qatırlarında şəhərdən çıxdıq. Yük qatırlarının kobud palanı bizi o qədər incidirdi ki, yola çıxmağımıza peşman olmuşduq. Yolların kələ-kötür, daşlıq, dərə-təpə olması əziyyətimizi bir qat daha artırırdı.

Bir saat sonra Cağərq çayına çatdıq. Qatırlar gah çayın sahilindəki dar cığırlarla gedir, gah da cığır olmadığı üçün çayın içi ilə keçməyə məcbur olurdu. Çayın hər tərəfindən



ağaclarla əhatə olunmuş sahilləri və sərinlik yolun əziyyətini qismən unutdururdu. Ancaq az qala qatırların daşlar üzərindən ayaqları sürüşə-sürüşə getməsi bizi daha çox narahatsız etməyə başlamışdı. Bu əziyyət və zəhmətlə axşam saat altıda Cağərqə çatdıq. Gecəni Kəblə Sadığın evində qaldıq. O qədər yorulmuşduq ki, çatan kimi yorğan-döşəyimizi salıb yatdıq. Səhər ala-qaranlıqda Kəblə Sadığın həyətində qopan səs-küydən oyanıb tez eşiyə çıxdım. Ucaboy, enlikürək bir kişi Kəblə Sadığın əlindən tutub:

– Düş qabağıma gedək! – deyə qışqırırdı.

Anam o kişiyə yalvarıb deyirdi:

– Ay qardaş, qaçmır ki, bizim xatirimizə ona möhlət ver.

Kənd hakimi Sübhanverdi xan inad edib:

– Yox, möhlət verə bilmərəm! – deyirdi.

Yolda Kəblə Sadıq kənd hakimi Sübhanverdi xandan və onun kənddə özbaşınalıq edən əlaltılarından elə yanıqlı-yanıqlı danışmışdı ki, məndə onlara qarşı dərin bir kin yaranmışdı. Odur ki, bir an belə ləngimədən irəli yeriyib dedim:

– Xan, biz qafqazlıyıq. Rusiya təbəsiyik. Dincəlmək üçün burda bir ay sizə qonağıq. Amma siz birinci gündən bizi incitməyə başlayırsınız.

O, məni heyrətli baxış ilə süzərək:

–Xeyr, ağa, – dedi, – bizim sizinlə işimiz yoxdur, istəyirsiniz bir il qalın.

– Evinə düşdüyümüz adamı incitmək elə bizi incitməkdir.

Cavan bir oğlanın belə qəti etirazı deyəsən xanın xoşuna gəlmədi. O, üz-gözünü turşudub:

– Ağa, – dedi, – öz kəndlərimizdən vergi almağım nə üçün sizi narahat eləyir? Vali həzrətləri bu kəndin vergisini

mənə satıb. İndi haqqını tələb edir. Mən o pulu gərək bunlardan alıb verim. Cibimdən verməyəcəm ki!

Söhbətə anam da qarışdı:

– Vali həzrətlərinin yəqin heç bu saat pula ehtiyacı yoxdur. O pulu siz bir-iki ay sonra da ala bilərsiniz.

Kişi arvad-uşağa rast gəlib, onlarla danışmalı olduğundan daha da qəzəblənib, indi bir az da ciddi əda ilə dedi:

– Yox, mənə indi lazımdır.

Mən hakimin bir az qorxaq və təpərsiz olduğunu görüb, cəsarətə gəldim.

– Mən bu kişini sənə xoşluqla verməyəcəyəm! – Güc göstərsən, həzrətə şikayət yazacam, ondan bir kömək olmasa Tehran rüznamələrinə yazıb sizi rüsvay edəcəyəm.

Xan acıqlı-acıqlı mənə baxdı:

– Yox əşi, sən Alla bir bunlara bax, Rusiya təbəəsi olanda nə olar. Məni qorxuda bilməzsiniz. Gəl düş qabağıma, – deyə Kəblə Sadığın qolundan tutub çəkə-çəkə apardı.

Vəziyyəti belə görən qardaşım at kirayə edib şəhərə getdi.

Sübhanverdi xan çarvadarı öz anbarında həbs etmişdi. Qardaşım Şahsevən Asifüddövlənin yanına gəlib, əhvalatı ona təfsilatı ilə nağıl etmiş və xanın vəhşi hərəkətlərini söyləmişdi. Vali Sübhanverdi xana bu məzmunda bir əmr yazmışdı: "Əmrimi alan kimi çarvadarı azad et və istirahət üçün Cağərqə getmiş olan qafqazlı qonaqlar şəhərə qayıdıncaya qədər ora ayaq basma!" Xan məktubu oxuyanda rəngi qaçmış, sonra üzünü qardaşıma tutmuş: "Baş üstə ağa, gedək!" – demişdi.

Həmin saat Kəblə Sadığı həbsdən azad etmişdir. Bu xəbər çox sürətlə kəndə yayıldı.



Kəblə Sadığın evində toy-bayram idi. O gündən bizim ev ziyarətgaha döndü. Arvad-kişi, yoxsul kəndlilər hər gün bizim görüşümüzə gəlir, hər gün bizi bir bağa qonaq çağırırdılar. Sübhanverdi xanların zülmü altında inləyən əhali bizə hörmət edir və heç bir şeydən çəkinməyərək bütün dərdini açıb söyləyirdi. Onların dediyinə görə Sübhanverdi xan kəndxuda, koxa və bir neçə də varlı Hacı bu kəndi soyub talayırdı. Bunlar həmişə bir-birinin tərəfini saxlayır, lazım olan yerdə bir-birinə güzəştə gedirdilər.

Üst-başı cındır məzlum bir kəndli nağıl edirdi ki, onların əkin yerləri çox azdır. Hər kəndlinin özünə görə kiçik bir bağçası var. Yayda bağçanın məhsulunu şəhərə aparıb satır və onun qazancı ilə həm hökumət vergisini verir, həm də kəndxudanın və koxanın "ağzına bir şey atır", həm də il boyu ailəsini dolandırır.

– Biz Sübhanverdi xandan təvəqqe edirik ki, hər il vergini bizdən payızda yığsın, – deyə kəndli sözünə davam edirdi. – O isə bu qulağından alıb, o qulağına verir. Çünki kəndlilərin əlində olan bağları əlinə keçirib öz malı etmək istəyir. Kəndistan əhli yaza çıxan kimi Sübhanverdi xan kəndə cumur, gözaltı elədiyi bağın sahibini yaxalayıb deyir ki, "Tez vergini ver!" Bağ sahibi iki-üç ay möhlət istəyir. Sübhanverdi xan razı olmayıb deyir: "Yox, möhlət ola bilməz. Gərək mən şəhər valisi Asifüddövlənin haqqını verəm". Elə ki, bağ sahibi vergini verə bilmədi, onda xan kəndxudanı, koxanı kəndin adlı-sanlı hacılarını çağırtdırır, bağı istədiyi kimi qiymət eləyib öz ixtiyarına keçirir.

Soruşdum ki, bəs bağı əllərindən çıxan kəndlilər ailələrini necə dolandırırlar? O acı-acı gülümsəyərək:

– Eh, – dedi bəs Xorasanda zəvvarların dalınca düşüb çörəkpulu istəyən dilənçilər kimlərdilər?

Bu söhbətə qulaq asan başqa bir kəndli əllərini ovuşdura-ovuşdura dedi:

– Allah sizə ömür versin. Nə yaxşı ki, siz valiyə şikayət etdiniz. Yoxsa indi Sübhanverdi xanın qılıncının dalı da kəsirdi, qabağı da. İndi əlinə beş-on bağ keçirtmişdi. Üstəlik hər gün koxanın, kəndxudanın qapısında bir-iki kəndli döyülürdü.

O zaman həmin yoxsul, sadədil adamlar da mənim özüm kimi başa düşmürdülər ki, valinin əmrindən sonra ağalarda əmələ gələn "mərhəmət" ancaq müvəqqəti, keçici bir haldır. Bu çox davam etməyəcəkdir. Sabah o biri gün onlar yenə dişlərini qıcayacaqlar. Valiyə şikayətlə işlər düzəlməyəcək ki!

***

Valinin Sübhanverdi xana məktub göndərməsi də bir hiylə idi.

Kəblə Sadığın vasitəsilə kiçik bir bağ tutmuşduq. Buraya gəlməyimizdən üç-dörd gün sonra bağ sahibinə beş qran verib çaxmaqlı bir ov tüfəngi kirayə etdim. Bir gün axşamçağı tüfəngi götürüb, bağçamızın dalında bağa çıxdım. Bir kəklik rast gəldi. Nişan alıb vurmaq istəyərkən havalanıb uçdu və yüz qədəm o yanda yerə qondu. Asta-asta o tərəfə getdim. Qırx-əlli qədəm qalmış yerə oturub kəkliyi nişan aldım, quş yenə uçub başqa yerə qondu. Əl çəkməyib arxasınca getdim. Bir az yaxınlaşınca nişan alıb vurmaq istədim. Kəklik yenə uçdu. Xülasə, bu qərar ilə quş məni aldada-aldada çox uzağa çəkib apardı.

Artıq hava yavaş-yavaş qaralmağa başlamışdı. Kəklikdən ümidimi üzüb evə qayıtmağa məcbur oldum. Dağın döşü ilə gələrkən, bir yerdə balaca-balaca heyvanların oynaşdığını gördüm. Bunlar çaqqal balaları idi. Hənirtimi alan kimi hamısı qaçıb yuvaya girdi. Yuvanı bələdləyib, o axşam evə ovsuz qayıtdım.



Səhər oldu. Əhvalatı bağ yiyəsinin oğluna danışdım. Çaqqal balalarını tutmaq üçün bel və külüng götürüb getdik. Yuvalardan birinin divarı nazik olduğundan bel ilə dağıtdıq. Yuvanın küncündə divara sıxılmış bir çaqqal balası gördük. Belin ucu ilə onu çəkib çıxartdıq. Tez boynuna ip bağladıq. O biri yuvanın divarı qalın olduğundan qaza bilmədik. Çaqqal balasını götürüb bağa gətirdik. Yazıq heyvan qorxudan titrəyirdi. Onu otağımızın qabağında bir ağaca bağladıq. Anam çox dedi: "Ay oğul, yazıqdır, burax getsin". Söz verdim ki, sabah aparıb yuvasına buraxaram.

O gecə çaqqallar bizim evə basqın etmişdi. Gecə yarısı onlar evin ətrafında ulaşırdılar. Səsə oyandıq. Anam dedi:

– Yəqin ata-anasıdı, gəlib... Qalx, burax getsin.

Gecə elə qaranlıq idi ki, göz-gözü görmürdü. Həm də, elə bil ki, otağımızı yüzlərcə çaqqal hər tərəfdən əhatə edərək, ağız-ağıza verib ulaşırdı. Doğrusu canıma vahimə düşmüşdü. Eşiyə çıxmağa qorxurdum. Ulaşma bir saata qədər davam edib, sonra birdən kəsildi. Məni haçan yuxu apardığını bilmədim.

Səhər hamıdan əvvəl oyanıb çaqqal balasının yanına getdim. Ağacın altında qəribə bir mənzərə gördüm. Çaqqallar ipi dişləri ilə kəsib balanı aparmışdılar. Torpaqda xeyli ayaq yeri qalmışdı.

Günlər beləcə gəlib keçirdi. Kəndlilər məndən tez-tez soruşurdular: "Siz şəhərə haçan gedəcəksiniz?" Onlar fürsətdən istifadə edərək bağ məhsulunu şəhərdə satıb Sübhanverdi xanın borcunu verirdilər. Bilirdilər ki, biz getdik-

dən sonra hakim özünü kəndə salıb əzrayıl kimi onların üstünü alacaqdır.

Cağərqdə ay yarım qaldıqdan sonra yenə şəhərə köçdük.

## PİR FABRİKİ

Xorasanda elə bil pir və ocaq fabriki vardı. Gündə bir pir meydana çıxırdı.

Bir gün məktəbdən günorta yeməyinə çıxarkən eşitdim ki, qəbiristanda imam nəvəsinin qəbrini tapıblar. Böyük Səhni, saxsı qab-qacaq qayrılan kiçik bazarı keçib qəbiristana çatdıq. Bir dərviş böyük bir qəbrin ətrafını tamaşaya gəlmiş adamlara qazdırıb təmizlədirdi. İrəli keçib qəbir daşına baxdıq. Yazı silinmişdi, zor-güclə ancaq tarixi oxunurdu.

İki gün sonra yenə gələndə gördük ki, dərviş qəbirin üstünə türbə tikdirmiş, içində də şam yandırmışdır... Ziyarətə gələn adamlar danışırdılar ki, guya qəbirdə əsrlərlə yatan ölü, dərvişin yuxusuna girib ona demişdir ki, "nə vaxta qədər mənim qəbrim toz-torpaq içində qalacaq? Mən İmam Rzanın nəvəsiyəm. Mənim qəbrim üstündən bu zibilləri təmizlət, qoy camaat məni ziyarətə gəlsin".

Dərviş yuxusunu mütəvəllibaşıya söyləmiş, o da adam göndərib qəbirin üstündəki zibilləri təmizlədib, qəbri aşkara çıxartmışdır.

Sonralar gözüaçıq adamlar nağıl edirdilər ki, həmişə qəbiristana gəlib qəbirlərin üstünü oxuyar, nə isə axtararmış. Bir gün bu qəbiri tapmış, sonra da "yuxu görüb" onu ziyarətgah etmişdir. Beləliklə bu hiylə ilə fırıldaqçı dərviş həm özünə, həm mütəvəlliyə yaxşı qazanc tapmışdır.



Həmin mütəvəlli haqqında başqa bir əhvalat da eşitmişdim. Danışırdılar ki, Xorasan müctəhidlərindən biri haradasa mütəvəllinin şərab içdiyini və evində "İmam Rzanın bağlarından gələn küplərdə şərab hazırlandığını bilirmiş. Onu rüsvay edib, xalq içində hörmətdən salmaq üçün müctəhid məsələni öz müridlərinə açıb söyləmişdir. Müctəhidin tapşırığı ilə mollalar və mollanümalar mütəvəllibaşının evinə qəfildən basqın edib, anbardan doqquz küp çaxır çıxartmışdılar... Camaat arasında biabır olan mütəvəllibaşı rüsvay olduğuna görə vəzifəsindən istefa verməyə məcbur olmuşdur.

Müctəhid öz rəqibindən belə intiqam almışdır. Xorasandakı dəstəbaşılar, mənsəb sahibləri öz nüfuz və rəyasətlərini qüvvətləndirmək üçün bir-biriləri ilə xoş rəftar edirdilərsə də, əslində siyasət aparır, bir-birinə qarşı kin bəsləyirdilər.

Belə şeyləri eşitdikcə, gördükcə çoxları kimi mənim də mənsəb sahibləri və din xadimləri haqqında təsəvvürüm xeyli dəyişmişdi. Özünü zahirən mötəbər və dindar göstərən, camaatı daim din və şəriətə sadiq qalıb, sadə, sakit həyat sürməyə, çox da bu dünyaya bağlanmamağa, aza qane olmağa çağıran mütəvəllibaşının əslində bir əyyaş olduğunu bilmək nə qədər təəccüblü və ibrətamiz idi...

## DİN HÖKMRANLIĞININ FƏLAKƏTLİ NƏTİCƏLƏRİ

Bütün islam aləmində olduğu kimi, Xorasanda da ruhanilər bir neçə dərəcəyə bölünürdülər. Kərbəla mədrəsələrində uzun müddət dini təhsil alıb, bəzi məsələlər haqqında

özünün ayrıca rəyi, nəzəriyyəsi olan ruhanilərə "müctəhid" deyirdilər. İranın başqa şəhərlərində, mədrəsələrində beş-altı il təhsil alanlara isə "molla" deyilirdi.

Xorasanda dörd-beş müctəhid var idi. Bu müctəhidlərin hər əmri mömin müsəlmanlar üçün qanun idi. Onların sözündən çıxmaq Allahın, Məhəmmədin əmrindən çıxmağa bərabər idi. Onların nüfuzu şəhər valisinin, mütəvəllinin nüfuzundan daha artıq idi.

Bir il hökumət qəlyan, çubuq və sığara tənbəkisinə gömrük qoymuşdu. "Gömrük almaq şəriətdə haramdır", – deyə müctəhidlər tənbəki çəkməyi haram etdilər. Bundan bir gün sonra cahil adamlar tənbəki dükanlarına hücum etdilər, dükançıları döyüb qovdular, çini qəlyan başları və qəlyan altlarını bir-birinə vurub qırdılar, tənbəkiləri küçədə ayaq altına atıb ayaqladılar. Müctəhidlərin əmri olduğuna görə nə vali bir söz deyə bildi, nə də mütəvəlli.

Müctəhidlər hökumət içində ayrıca bir hökumət qurmuşdular. Onlar istədikləri kimi ağalıq edir, istədikləri fitvanı verir və əməl etdirirdilər. Bu müctəhidlərin sayəsində Xorasanda mövhumatçı xalqa dua yazan, fala baxan müftəxorların sayı o qədər çox idi ki, hər tin başında biri otururdu. Müctəhidlərdən birinin fitvası ilə yandırılmış bir "babı" heç yadımdan çıxmır. Hadisənin təfsilatı belədir:

Məktəbimizin yerləşdiyi Səhn iri daşlarla örtülmüş böyük bir açıqlıq idi. Rəml atıb fala baxan dərvişlər və falçılar burada altlarına kiçik bir keçə salıb oturur, yanlarından keçən zəvvarları: "Bura gəlin falınıza baxım deyə", – deyə çağırırdılar. Meydanının ortasından axan çayın yuxarı və aşağı başında böyük qapı var idi. Aşağı qapı Payin-xiyabana açılırdı. Bu xiyaban məktəbimizə yaxın olduğundan biz yeməli şeyləri oradan alırdıq. Burada dükanları yan-yana olan dükançılar və çayın sağ-solunda tabaqlarda şey satan alverçilər öz mallarını tərifləyib, min bir fəndlə müştəri çağırırdılar.



Bir gün günorta çağı yemək almaq üçün Cəhnə endikdə gördük ki, adamların bir qismi Bala Xiyaban tərəfə qaçır, bir qismi də dönüb o səmtə baxır. Yeni bir hadisə üz verdiyini bildim. Maraqlanıb, Bala Xiyaban tərəfə qaçdım. Yolda xəbər tutduq ki, müctəhid babı olmuş bir nəfərə ağır cəza verməyi əmr etmişdir; müctəhidin adamları babının üstünə neft töküb yandırırdılar. Biz o zaman çatdıq ki, artıq "günahkar" yandırılmışdır. Kişinin bütün bədəni yanıb qapqara qaralmışdır. O, ayaqlarını qarnına sıxaraq, yumru top kimi sürətlə fırlanırdı. Bu dəhşətli faciəyə tamaşa edənlərdən bəziləri ucadan bağırırdılar: "Xoda lənətəş konəd!"[18]

Bu hadisə mənə və yoldaşlarıma elə pis təsir etmişdi ki, hətta yoldaşlarımdan biri evlərində həmin hadisəni anasına nağıl etdiyi zaman fitva verən müctəhidi söymüşdü də. Yadımdadır, anası oğlunun gənclik həyəcanını, müctəhidi lənətləməsinin pis nəticələrindən qorxaraq, ərinə onu çuğullamış və o gecə yoldaşım atasından bir neçə şillə almışdır. Lakin bəla onda idi ki, şillə almaq nə qədər acı olsa da, həyatda gördüklərimiz ondan qat-qat acı və dözülməz idi. Elə gün olmurdu ki, elə bir vəhşiliyin şahidi olmayaq.

Bir gün yenə Bala Xiyabanda bir kişinin üzünə, başına qatıq sürtüb, tərsinə eşşəyə mindirmişdilər: Kişinin üzü eşşəyin quyruğuna tərəf idi. Eşşəyin quyruğuna bağlanmış ipi də kişinin əlinə vermişdilər. Bir başqa kişi eşşəyin noxtasından çəkə-çəkə aparır, arabir ucadan bağırırdı.

---

[18] Allah ona lənət eləsin.

Bu məlun naməhrəm arvada hörmətsizlik eləyib...

Deyirdilər ki, hələ kişidən bununla əl çəkməyəcəklər, onu belinə qədər torpağa basdırıb daş-qalaq edəcəklər.

Şahidi olduğum bu hadisələrin üstündən beş-on il keçəndən sonra orta əsrlər tarixinə dair Bakıda rusca oxuduğum bir kitabda Qərbi Avropa inkvizitorlarının törətdiyi fəlakətlərlə tanış olduğum, hətta Leonardo da Vinçi kimi dahilərin də bu qanlı özbaşınalıqdan canlarını xilas edə bilmədiklərini öyrəndiyim zaman Xorasan faciələri bir-bir yadıma düşmüş və o faciələrin mənasını daha yaxşı başa düşməyə başlamışdım.

***

Məhərrəm ayı müctəhidlərin, mollaların və mərsiyəxanların çox sevdikləri "şərafətli" bir ay idi. Əvvələn ona görə ki, bu təziyə ayı onlar üçün çörək ağacı, qazanc vasitəsi idi, ikincisi də ona görə ki, mömin müsəlmanları daha dərin qəflət yuxusuna vermək üçün Məhərrəm ayında yad edilən dini mövhumi hadisələr "mənəvi ataların" məqsədlərinə tamamilə uyğun idi.

Məhərrəmə on gün qalmış hər yerdə böyük hazırlıqlar başlanır, təkyə və dəstə başçıları gecə-gündüz çalışırdılar. Məhərrəmin 1-dən 20-nə qədər təziyə saxlanır, ağaların əmrinə üstüörtülü böyük bazarda və bir çox başqa yerlərdə təkyə qurulur, gediş-gəliş, alış-veriş kəsilirdi.

Dəstələrin önündə növhəxan növhə oxuyur, dəstələr zəncir və sinə vura-vura gəzirdilər. Təkyələrdə mollalar, mərsiyəxanlar Kərbəla hadisəsini odlu və mübaliğəli bir dillə danışıb camaatı ağladırdılar. Aşura günü isə bu dəstələrdə başyaranlar ağ kəfən geyinib xəncərlə başlarını yarırdılar.



Bir gün qəribə bir hadisə baş verdi. Üstüörtülü bazarda məhərrəmi saxlayan iki dəstə üz-üzə gəldi. Hər iki dəstənin qabağında "ələm" (bayraq) var idi. Bu dəstələrdən biri keçmək üçün o birinə yol verməli idi. Lakin heç birisi geri çəkilmək istəmədi. Çox deyişmə və çəkişmədən sonra hər iki dəstə bayraq ağaclarını qırıb, bu ağacın parçaları ilə vuruşmağa başladı. Bir çoxlarının başı yarıldı; Qaçhaqaçda bir çox adam ayaq altda qalıb əzildi.

Deyirlər ki, baş yarma adəti Fazili Dərbəndidən qalmışdır. Guya cavan ikən Dərbənddə bir adam öldürən Fazili hökumət təqib etdiyi üçün o, Kərbəlaya qaçır. Orada bir müddət boş gəzdikdən sonra mədrəsədə otaq tutub, ruhani olmaq məqsədilə təhsilə başlayır. O, uzun illər oxuyub müctəhid olur, sonra Kərbəladan Dərbəndə qayıtdığı zaman Təbrizdən keçərkən Məhərrəm ayı olduğundan Təbriz dindarları onu saxlayırlar. Fazil cavanlığından belinə xəncər bağlamağı xoşlayırmış, hətta Kərbəlaya gedəndə və qayıdanda da həmin xəncəri şalın altından bağlayarmış. Aşura günü Fazil Təbrizdə minbərə çıxıb İmam Hüseyn faciəsini danışır. Vəzini qurtaran kimi xəncəri çıxarıb başını yarır və o vaxtdan xəncər vurmaq, baş yarmaq adət olub hər tərəfə yayılır.

***

Xorasanda ağıza qədər bığ uzatmaq, üz qırxdırmaq, musiqi çalmaq, mahnı oxumaq haram sayılırdı. Heydərşah adlı bir seyid var idi. Əlində bir dəstə çubuqla küçələri gəzir, bu çubuqları havada oynadaraq ucadan: "Şərab içənə lənət! Qumarbaza lənət! Tiryək çəkənə lənət! Üzünü qırxanlara lənət! Bığını uzadana lənət!" – deyə bağırırdı. Saqqalını qırxdırmış bir adama küçədə rast gələn kimi hücum edərək: "Kişi, nə

üçün saqqalını qırxdırmısan?" – deyə onu çubuq ilə vurmaq istəyirdi. Kişi üzr istəyib Heydərşahın ovucuna bir-iki qran qoyduqdan sonra seyid əl çəkirdi.

Dilənçinin sayı-hesabı yox idi. Onlar dəstə-dəstə zəvvarların, xüsusən Qafqazdan gələnlərin dalınca düşüb:

– Məşədi, əhli-əyal darəm, bəmən sədəqə bideh,[19] – deyə yalvarır, ya da qapı-qapı gəzib dilənirdilər.

Xorasanlılar çox yoxsul güzəran keçirirdi. Camaatın çoxu məhrumiyyət içində yaşayırdı. Çox ev aylarla ət üzü görməzdi. Gecələr hisli çıraq yandırırdılar. Kiçik bir saxsı qabın içinə quyruq əridib tökür, piltə salıb yandırırdılar. Odur ki, yoxsul xalqın fəlakətini təsvir edən bir şairin aşağıdakı şeiri ağızlarda dolaşırdı:

– Yek sir guşt darəm, zənəkə, to bar kon,
Çirağ nədarəm, dünbəşə to ab kon,
Mehman həm darəm, abeşra ziyad kon,
Diləm ris mizənd, ris mizənd yekxorde kabab kon,

Yəni:

Yüz qram ət almışam arvad qalx onu bişir,
Gecəyə çırağımız yoxdur, quyruğunu ərit çirağa tək,
Qonağım da var, suyunu bir az artıq elə.
Ürəyim əzilir, əzilir bir tikə də kabab bişir, ver yeyim.

Yoxsullar belə aclıq və fəlakət içində çırpınarkən, ağalar onları soyub qazandıqları puldan qudurur və eyş-işrətdən başları açılmırdı.

Ruhanilər xalqı axirət əfsanələri ilə tərkidünyalığa öyrətməyə çalışdıqları, çalıb-oxumağı haram elan etdikləri halda, özləri günlərinin çoxunu kefdə, çalğı və mütrüb məclislərində keçirirdilər. Yəni Xorasan müqəddəsləri də "şəriət

[19] Məşədi, əhli-əyalım var, mənə sədəqə ver.



avamlar üçündür" fikrində idilər. Bir yandan xalqa vəzlər oxuyur, əmmamə və qurşaqları ilə fəxr edir, yanlarında Quran gəzdirir, o biri tərəfdən də şərabın küpünə girirdilər. Məsələ şəraba gələndə əmmamə-filan da büsbütün yaddan çıxırdı. Yeri gəlmişkən əmmamə haqqında bir-iki söz:

Xorasanda yoxsullardan və hökumət adamlarından başqa hamısı başına əmmamə qoyurdu. Mollaların əmmaməsi ağ, tacirlərin və alverçilərin əmmaməsi sarımtıl parçadan, seyidlərin əmmaməsi göy tənzifdən olurdu. Sahiblərin nəzərində əmmamə nə qədər hörmətli olsa da bəzən bu bir parça ipək, ya tənzif onlara yaman mane olurdu: Məsələn şərab və əmmamə axı bir-biri ilə tutmur!..

Kef məclislərində süfrəyə yemək və içki büsatı gəldiyi zaman musiqi çalınır və mütrüb ortalığa atılıb rəqs edirdi. Mütrüblər oğlanlardan olurdu. Onlar qadın paltarı geyinib barmaqlarına keçirdikləri sarı mis parçalarını bir-birinə vura-vura oynayırdılar. Qədəhləri qaldırmaq zamanı gələndə ağalar əmmaməyə hörmət üçün başlarından əmmaməni götürüb yerə qoyur və sonra maneəsiz, "sakit vicdanla" əyyaşlıq edirdilər.

## İMAM RZANIN QƏBRİ

İmam Rzanın qəbri və onun ətrafındakı tikintilər böyük bir sahəni tuturdu. Bu sahənin ortasında İmam Rzanın qəbri yerləşirdi ki, ona "zireh" deyirdilər. Bu zireh yuxarıdan dar, aşağıya doğru müvazi şəkil alan divarları və səqfi büllurla döşənmiş böyük binanın ortasında idi. Qapıları qızıldan olan bu binaya dörd tərəfdən yol var idi. Zireh isə yoğun, qızılı barmaqlıq və qalın dördguşəli böyük şüşələrin içində idi. Şü-

şələrin arxasında qiymətli daş-qaş saxlanırdı. Qızıl qapıların üstündən və büllur divarlardan, padşahlar ziyarətə gəldikləri zaman İmam Rza məqbərəsinə bağışladıqları qızıl, cavahirat ilə bəzənmiş taclar asılmışdı. Qızıl Qapılara çatmamış zirehin binasından daha böyük, onun kimi səqfi büllurla döşənmiş binalar var idi. Bu binalarda qoyulmuş minarələrdə müctəhidlər, mollalar moizə edir, mərsiyəxanlar mərsiyə oxuyurdular.

Doğrusu, o zaman mən bu dəbdəbəni görəndə gözlərim qamaşmış, ağlım heyran qalmışdı. Mən zirehə müqəddəs bir yer kimi baxır, hətta onun ətrafında gəzəndə də ürəyimi qeyri-müəyyən bir qorxu alırdı. Görkəmindən ciddiyyət yağan zəhmli ruhanilər adamın ağlını bu binanın sirli aləminə daha möhkəm bağlayır, müqəddəslik məfhumu bütün fikir və xəyala hakim kəsilirdi. Burada hər şey, hər ayin elə qurulmuşdu ki, hətta bəzən gözüaçıq adamlar da bu cah-calalı görüb onun müqəddəs olduğuna inanmaqda çətinlik çəkirdilər. Mən də elə olmuşdum. Ancaq ömrümdən keçən uzun illər mənim bu qənaətimi alt-üst edib, mənə anlatdı ki, bütün cah-calal, zinət hamısı din xatirinə, ağlı "heyran" edib yuxuya vermək xatirinə olan şeylərdir. İmam Rza məqbərəsinin özü də hər iflərin əlində vasitədir. İmam Rzanın şah saraylarına meydan oxuyan büsatını, mütəvəlli tərəfindən idarə edilən ən böyük mülkədarların varidatından daha artıq olan əmlak və təsərrüfatını görüb heyrət etdiyim kimi, onun sərvət və sahmanını eşidib İranın hər guşəsində Xorasana gələn minlərlə kor, şil, topal və əlsiz-ayaqsızın küçələrdə diləndiyinə, müqəddəs adlanan bu şəhərin zülm, haqsızlıq, fitnə və fəsad yuvası olduğuna təəccüb edirdim.

Dedik ki, zirehin yerləşdiyi binanın qapıları qızıldan idi. Bu qapıların yanında rəzəvi seyidlər durub, zəvvarlara ərəbcə ziyarət duası oxuyur, nəzir alırdılar. Guya İmam Rzanın nəslindən olduqlarına görə rəzəvi adlanan bu seyidlər şəhadət barmaqlarını zirehə tərəf uzadıb deyirdilər: "İmam Rzanı ziyarət edirəm: atamçün, anamçün, bacımçün, qardaşımçün, əmimçün, dayımçün, bibimçün".



Sonra onlar ərəb dilində ziyarət duası oxuyur, zəvvarlar da tutuquşu kimi onu təkrar edərdilər. Sonra zireh olan binaya girib İmamı ziyarət edər, qızıl barmaqlığı öpərdilər. Gündə ziyarətə gələn minlərcə adam o qızıl barmaqlığı öpməsə guya ziyarəti qəbul olmazdı. Zəvvarlardan bəzisi mətləb hasil olmaq üçün İmam Rzaya dəxil düşər, boynuna bağladığı dəsmalın bir ucunu da zirehə bağlayıb səhərə qədər ondan kömək istəyərdi.

İmam Rzanın məzarına gedən yolların arxasında yoğun və uzun şalbanlar ilə yolları tutmuşdular ki, heyvanlar içəriyə girə bilməsin. Şalbanlardan o yana "bəst" deyilirdi. "Bəst" farsa bağlı deməkdir. Müqəssir adamlar o şalbanların altına keçib özlərini o bəstə salanda, hakimlər ona cəza verə bilmirdilər.

Bir gün dəvəni yiyəsi çox döydüyünə görə dəvə sahibinin əlindən qurtarıb, Payin Xiyaban tərəfdən qaça-qaça şalbanlara yaxınlaşır, canının hövlündən özünü səhnə təpir. Avam camaat: "Bax, bu heyvan da ağaya daxil düşmüşdür" – deyə dəvəni əhatə edir, yazıq heyvanın yununu yoluşdurub təbərrük götürürlər.

Mövhumatın dərəcəsinə bir bax!

1899-cu ildə ailəmiz Tiflisə köçdü. Mən isə təhsilimi davam etdirmək üçün Xorasanda qaldım. O vaxtadək mən Mirzə Yusifin məktəbində, fars dili, fars ədəbiyyatı, fars və azərbaycan dilinin sərf-nəhvi, məntiq, elmi-əhvali-ruh[20] və ümumi tarix fənlərini oxumuşdum. Dərs kitablarının bəziləri osmanlı dilində idi. Mirzə Yusifin daha başqa kitabı olmadığından artıq indi oxuduqlarımı təkrar edirdim.

Məqsədim ədəbiyyatçı olmaq idi. Ona görə də qayıtmaq zamanı gələndə mən anamgil ilə bərabər Tiflisə getmək istəməyib, heç olmazsa ərəb ədəbiyyatını və ərəb dilini də mükəmməl öyrənmək üçün burada qalmağa güclə izn almışdım. Sarban kəndindən bizim yaxın dostumuz olan Molla Məhəmmədəli mədrəsədə yaşayırdı. Ailəmiz getdikdən sonra mən Mirzə Yusifin məktəbindən çıxıb, Molla Məhəmmədəli ilə bir otaqda qaldım. Mədrəsədə ərəb dilini öyrənmək məqsədilə Bakılı Mirzə Əbdülkərimdən ərəb dilində məntiq, Molla Məmmədbağırdan isə poetikadan bəhs edən "Mütəvvəl"i oxudum. Dərslərim yaxşı gedirdi.

Anam Tiflisə gedərkən mənə və Molla Məhəmmədəliyə yayı Xorasanda qalmayıb, Cağərqə getməyimizi tapşırmışdı. Hətta bizə firuzə qaşlı bir qızıl və bir də saat vermişdi ki, pulumuz qurtarsa onları satıb xərcləyək.

Yay gəldi. Yenə karvansarada Kəblə Sadığı tapıb Cağərqə getdik. Kəblə Sadıq gecə bizi öz evində qonaq saxladı. Səhər Hacı Məhəmməd adlı bir mülkədarın evinə köçdük. Kənd böyük bir çayın sahilində salınmışdı. Bu çayın o biri tərəfi isə gözəl bağlıq idi. Bizim ev də kəndin yaraşıqlı bir yerində, çayın qırağında idi.

[20] Psixologiya elmi o zaman belə adlanırdı.



Hacı Məhəmməd bizə çox hörmət edirdi. Onun gözünün ağı-qarası on beş-on altı yaşında bir qızı var idi. Səhərlər arabir kiçik qapını döyüb: "Ağa Mirzə Abdulla!" – deyə səslənərdi. Mən gedib qapını açan kimi böyük bir qaba doldurulmuş meyvəni uzadaraq gülə-gülə: "Bunu atam sizə göndərdi," – deyərdi. Qapıya Molla Məhəmmədəli gedəndə qız üzünü ondan gizlədib: "Ağa Mirzə Abdullanı istəyirəm", – deyərdi.

Axşamlar çox vaxt Hacı bizimlə söhbətə gələrdi. Bir gün söhbət arasında o, Cağərqdə əllidən artıq gözəl bağı, böyük meşəsi və Aşqabad şəhərində dörd-beş böyük evi olduğunu söylədi. Qalxıb gedərkən:

– Sabah sizə bağlarımı və meşəmi göstərəcəyəm, – dedi.

Ertəsi gün səhər tezdən Hacı gəldi. Əvvəlcə bizi birbaş meşəsinə apardı. Növbənöv uzun, qocaman ağaclardan ibarət olan qalın meşə getdikcə qurtarmırdı. Bir xeyli gəzib söhbət edəndən sonra qayıdıb bağlara gəldik. Hacı bağlarından otuza qədərini bizə göstərdi. Sonra bizi gözəl qəsrli bir bağa gətirdi. Qəsrin qabağından kiçik çay axırdı. Hacı üzünü bizə tutaraq:

– Sizi bu bağa köçürmək istəyirəm, – dedi. – Buranın ayrı hulusu var. Yayı burda dincələrsiniz.

Molla Məhəmmədəli:

– Hacı biz bir aydan artıq qala bilmərik. Bu bağa bir ayda bizdən nə alacaqsınız? – deyə soruşdu.

Hacı qaşlarını çataraq:

– Bu nə sözdür? Mən bu bağı Ağa Mirzə Abdullaya pulsuz verirəm. Ondan mən pul almaram, – dedi.

Biz razı olmayıb, "pulsuz gəlmərik," – dedik.

Eşitmişdik ki, Hacı yaman xəsis adamdır. İndi onun comərdliyi bizi heyrətə gətirdi. Ertəsi günü Hacı bizi zorla həmin bağa köçürdü.

Bir gün Kəblə Sadıq bizi görməyə gəlmişdi. Hacını çox təriflədi. Bir az söhbət etdikdən sonra gülə-gülə:

– Bu gün sizə çox xoş xəbər gətirmişəm, – dedi. – Hacı Məhəmməd gözünün ağı-qarası olan qızını Ağa Mirzə Abdullaya vermək istəyir. Qız gözəl qızdır. Alsa xoşbəxt olar. Hacının oğlu yoxdur, o bütün var-yoxunu Ağa Mirzə Abdullanın adına keçirtmək istəyir.

Molla Məhəmmədəli:

– Kəblə Sadıq Mirzə Abdullanının ata-anası razı olmaz. Çünki biz vətənimizə gedəcəyik, – deyə cavab verdi.

Kəblə Sadıq çox çalışdı biz razılıq vermədik.

Lakin bu əhvalat həm məni, həm də Molla Məhəmmədəlini çox təəccübləndirmişdi. Biz ikilikdə bir-birimizdən bu əhvalatın sirrini soruşub düşünürdük ki, görəsən burda nə hikmət var ki, Hacı birdən-birə heç bizim xəbərimiz olmadan belə bir işə qərar verib.

Bir neçə gün sonra "sirr" açıldı. Demə Hacının öz qızını mənə verməkdə məqsədi hökumət vergisindən azad olmaq imiş; çünki əmlakını mənim adıma keçirsə İran hökuməti Rusiya təbəəsi olduğuma görə məndən vergi ala bilməzdi. Hacının bizə etdiyi hörmətin və tez-tez qızı ilə meyvə göndərməyinin səbəbi demə bu imiş!



## VƏTƏNƏ QAYIDIRAM

1900-cü ildə anam yenə Xorasana gəlmişdi. "Oğlum sənsiz yaşaya bilmirəm, səni aparmağa gəlmişəm", - deyirdi. Mən bir il daha qalmaq və ərəb ədəbiyyatını oxuyub öyrənmək istəyirdim. Üç ay idi ki, ərəb şairlərindən Əmrəl-Qeysin parça-parça şeirlərini əzbərləyir və Əlinin divanından dərs keçirdim. Nə qədər çalışdımsa da bir şey çıxmadı, anam yalvar-yaxar məni Tiflisə köçməyə razı etdi.

Görüşmək üçün anamla birlikdə müəllimim Mirzə Yusifin evinə getdik. Söhbət arasında Mirzə Yusif mənə dedi:

– Bir həftə əvvəl üç nəfər hökumət adamı yanıma gəlmişdi. Onların dediyinə görə, başqa bir binada yeni üsulla məktəb açmaq, məni də müdir təyin etmək istəyirlər. Görək nə olacaq.

Sonralar Bakıda ikən eşitdim ki, Mirzə Yusifin məktəbini Bala Xiyabanda olan başqa bir binaya köçürmüş, özünü də müdir təyin etmişlər. Xorasanda yaşayan bakılı uşaqlardan bir neçəsinin həmin məktəbdə oxuduğunu da eşitdim.

Bəli, uzun ayrılıqdan sonra Tiflisə qayıdırdım. Yol uzunu ürəyim amansız çırpınırdı. Tiflisdə görəcəyim yeniliklərin mənə nə cür təsir edəcəyini indidən duymaq istəyirdim. Mənə elə gəlirdi ki, indi bu şəhər, oradakı adamlar, ev-eşiyimiz, atam büsbütün dəyişib başqalaşmışlar. Kim bilir, uşaqlıq dostlarım indi haradadırlar, nə edirlər? O mühit mənə nə qədər doğma olsa da elə bilirdim ki, mən hələ bir müddət orada sıxılacağam. Bir sözlə ürəyimdə dumanlı bir nigarançılıq vardı. Çox qəribədir ki, Tiflisə bir-iki stansiya qalmış bu həyəcan və nigarançılığımın səbəbi gözlənilmədən açılıb mənə aydın oldu. Anam nağıl eləyirdi ki, Tiflisə qayıtdıqdan sonra analığım ilə yola getmədiklərindən o, gah dayımgildə,

gah da bacısının yanında qalmağa məcbur olmuşdur. Ürəyi dərdlə dolu olan arvad məyus-məyus deyirdi:

– Oğlum, mənim necə ana olduğumu heç kəs bilməsə də siz yaxşı bilirsiniz. Cavan ömrümü sizin yolunuzda qoydum. Amma atan və analığın məni əlimlə, dırnağımla yığıb düzəltdiyim ev-eşiyimdən ayırdılar. Keçən gün atana dedim: "Evlənmisən, cavan arvadın var. Bundan sonra sən mənim qardaşımsan. Səndən mənə və uşaqlarıma hörmətdən başqa heç bir şey lazım deyil. Arvadına da "qızım", – dedim. Məni görməyə gələn dost-aşnanın, qohum-qardaşın: "Məşədi Mehri, həmişə evində-eşiyində", – deməklərindən günüm xorladı. Evdə hər şey qarışmışdı bir-birinə... Evin böyük arvadı olduğum üçün qayda-qanun qoymaq istədim. Arvad buna darıldı və açıq-açığına mənə günüçülük elədi. Gündə dava saldı. Atana dedim: "Arvadının başına ağıl qoy." O da çox danışdı, vuruşdu, başa gəlmədi. Axırda mənə dedi ki, "Sən evin böyük arvadısan, xanım kimi otur heç bir işə qarışma. Qoy özü bişirib-düşürüb hər işi özü görsün". Yaxşı deyiblər: "Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım." Dedim ki, a kişi mən zəhmət çəkim, ev-eşik qurum, indi o sahib olub otursun, mən uzaqdan tamaşa eləyim? Bu ola bilməz!" Atanın axır cavabı bu oldu: "Mən neyləyim? Öz təqsirindir. Onu lap bu gün ataram. Körpə uşaqları var. Onları neyləyim?" Axırda öz evimdən çıxdım. İndi oğlum, mən qardaşlarımın və bacılarımın yanında oluram.

Biz bunun belə olacağını çoxdan bilirdik. Anamın bir çox yaxşı sifətləri vardısa da, pis xasiyyətləri də az deyildi. Çox dikbaş, rəyasət sevən, öz mənliyini hər şeydən üstün tutan hirsli bir qadın idi. Onun bu söhbəti məni tamam sarsıdırdı.

O mənim pərişan olduğumu görüb:



– Oğlum, – dedi, – heç fikir eləmə, mən heç bir şey itirməmişəm. Sizin kimi oğullar böyütmüşəm. Yaman günün ömrü az olar. Bu gün-sabah əliniz çörəyə çatar, yenə rahat yaşayarıq. – Bir qədər susduqdan sonra əlavə etdi: – Atan da bərk xəstədir. Ürəyi ağrıyır.

Tiflis şəhəri uzaqdan görünürdü. Bütün uşaqlıq xatirələrim gözlərimin qabağında canlandı. Fəqət qəlbim kimi bu dəfə Tiflis də kədərli görünürdü. Şəhərə yaxınlaşarkən keçirdiyim təəssüratı "Vətənə qayıdarkən" adlı şeirdə ifadə etmişəm.

Bakıdan çıxanda atama teleqram vurmuşdum. Stansiyada bizi atam və yeznəmiz Mirzə Tağı qarşıladı. Görüşdük. Anam kişi ilə danışmırdı. Atam məni öz evimizə, yeznəmiz də anamı bacımın evinə apardı.

Atamgildə mən qanadıqırıq bir quş kimi yaşayırdım. Dərd-qəm ürəyimi deşirdi. Söz yox ki, mən atamı da bir ata kimi sevir və ona lazım olan hörməti edirdim. Ancaq anamı daha qızğın sevirdim. Bilmirəm ona görəmi ki, bu cəfakeş qadın bizə həm ata, həm ana olmuşdur, ya nə isə başqa bir səbəbə görəmi. Bir ana kimi öz idrak və şüuruna görə analıq vəzifəsini yerinə yetirmişdi. Mən onu görməyə getdiyim zaman ürəyim açılır və bütün dərdimi unudurdum.

Yay girmişdi. Atam öz yeni ailəsi ilə məni və böyük qardaşımı da Mıxran yaylağına göndərdi. Bu gözəl yerlər bu dəfə mənə keçmiş bəxtiyar uşaqlıq günlərimi xatırlatmaqdan başqa yeni bir şey vermədi.

Atam bərk xəstə idi. Əsəb və ürək xəstəliyi gündən-günə artırdı. Vəziyyəti ağır olduğundan həkim ona hətta işi atıb dincəlməyi məsləhət görmüşdü. İndi məni bir tərəfdən atamın, o biri tərəfdən anamın dərdi almışdı. Böyük ailə sahibi olan atama maddi və mənəvi yardım etmək, bütün

gəncliyini uşaqlarının uğrunda fəda edən anamızı qardaş və yeznə qoltuğundan çıxartmaq vaxtı çatmışdı.

Böyük qardaşım Yusif avqust ayında Bakıya gedib orada şəhər dumasının maarif şöbəsi tərəfindən şəhər məktəblərinə müəllim təyin edilmişdi. Yaylaqdan qayıtdıqdan sonra anamı da, məni də Bakıya dəvət edirdi. Məktublarından birində o mənə yazırdı: "Atamın uşaqları var, gələndə atamın evindən bir dəst yorğan və döşəkdən başqa heç bir şey gətirmə! Anam da atamın evindəki şeylərini almasın!" Qardaşım öz zəhməti ilə ona yeni ev quracağını vəd edirdi.

Anamı bacım və dayılarım Bakıya getməyə qoymadılar.

1900-cü ilin sentyabrında Bakıya hərəkət etdim.

## KÖHNƏ BAKI

Şəhərə girdiyim zaman xəzri vıyıldaya-vıyıldaya əsir, daşla döşənmiş küçələrin tozunu bura-bura havaya sovurur, göydən insanların başına qum və kağız parçaları yağırdı. Xəzər dənizi də coşub-daşır, getdikcə dağ kimi ucalan əsəbi, şıltaq uşaqlar tək dalğalar bir-birini qova-qova sahilə yaxınlaşır, iri, kələ-kötür qayalıqlara çırpıldıqdan sonra parçalanıb şiddətli gurultu ilə məğlub ordu kimi geri çəkilərək küləyin səsinə səs verirdi. Toz-torpaq göy üzünü bürümüşdü.

Bakı məni belə gündə qəbul etdi. İçərişəhərdə qaranlıq dar dalanda, aşağı qatda kiçik bir otaq tutub qardaşımla birlikdə fəqir həyat keçirirdik. Otağımızın təzyinatı iki dəmir taxt, bir kiçik masa, üç kürsü və bir xalçadan ibarət idi.

Tarixi qanlı müharibələrin şahidi olan İçərişəhər hər yandan qalın barılar və bürclər ilə əhatə edilmişdi. İran şəhəri kimi dar, toz-torpaqlı və qaranlıq küçələri var idi. Evlərdə ancaq neft lampaları yanırdı.



Küçələrdə fənər yanmadığından İçərişəhərdə gecələr bayıra çıxmaq mümkün deyildi. Qaş qaralandan sonra küçəyə çıxanlar ancaq əl fənərləri gəzdirirdilər. Hasarın bayır tərəfindəki bəzi küçələrdə isə neft lampaları yanırdı. Şəhər duması tərəfindən tutulmuş xüsusi adamlar bu lampaları axşam yandırır və səhər söndürürdülər.

İçmək üçün şirin su olmadığından şəhər dumasının qərarı ilə dəniz suyu iri borular vasitəsilə dağ başında qoyulan böyük çənlərə vurulur, orada duzu təmizləndikdən sonra şəhərin bir neçə yerində tikilmiş su anbarlarına buraxılırdı. Su anbarlarından ancaq yaxın evlər istifadə edə bilərdi. Uzaq evlərdə isə suçular palanlı eşşəklərə yüklədikləri səhənglərdə su daşıyırdılar. Həyətində quyu olanlar quyu suyu işlədirdilər.

Bakıya gəldiyim ilk günlərdə diqqətimi cəlb edən hadisələrdən biri də neft səltənəti Bakıda xalqın neft almaq üçün çəkdiyi çətinlik oldu. Bakı milyonçularının çoxu neft hesabına varlanmışdı. Nefti tonlarla xaricə satıb milyonlar qazanan bu ağalar, yerli xalqın neft ilə təmin edilməsi üçün heç bir tədbir görmürdülər. Sərt Bakı qışını yoxsullar dərd və qüssə ilə qarşılayırdılar. Bakıda adi neft dükanları belə yox idi. Neftçilər bellərində, palan üstündə gəzdirdikləri böyük dəmir qablar ilə küçə-küçə, qapı-qapı gəzib neft satırdılar. Bəzən arabalarda da neft satırdılar. Arabalar İçərişəhərin dar küçələrindən keçə bilmədiyindən arabaçılar atın cilovundan çəkə-çəkə bir meydançada dayanır və ucadan: "Ay nöyüt alan, ay nöyüt alan", – deyə qışqırırdı. Çarşablı qadınlar əllərində kiçik neft qabı qaça-qaça gəlib növbəyə dururdular.

O zaman İçərişəhərdə yeni üsul ilə tikilmiş binalar barmaqla sayılacaq qədər az idi. Evlər, küçələr İran şəhərlərini xatırladırdı. Yeni binalar, geniş küçələr və böyük mağazalar ancaq Bayırşəhərdə idi ki, bunlar da şəhərin minlərlə nizamsız tikilmiş, alçaq, arxitektura cəhətdən ibtidai binalar, tozlu-torpaqlı küçələri içində görünməz olurdu.

Bakıda nəqliyyat işləri də çox yarıtmaz idi. Pulu olanlar ora-bura faytonla gedib-gəlirdi. Bundan başqa dəniz kənarında yerləşən indiki Neft Nazirliyi binasının yanından Bakı Dəmiryolu stansiyasına qədər ikiatlı konka işləyirdi. Tramvaya bənzəyən konkalar relslər üzərində atlar vasitəsilə hərəkətə gəlirdi. Atlar üçün ayrılan arpanı konka idarəsində xidmət edən qulluqçular yediyindən yazıq heyvanlar həmişə arıq və cansız olurdu. Bəzi duracaqlarda konkaya o qədər adam dolurdu ki, sürücünün bütün ciddi-cəhdinə baxmayaraq, atlar konkanı yerindən tərpədə bilmirdi. Özündən çıxmış sürücü atların yaralı bellərini qamçılayır, ağrının təsirindən atlar ya şıllaq atır, ya da dartıb konkanı yoldan çıxarırdılar. Bu zaman miniklər həyəcan içərisində bir-birini basabasa, itələyə-itələyə özlərini yerə atırdılar, köməkləşib sürücü və biletsatanla birlikdə güclə konkanı relsin üstünə qoyurdular. Beləliklə, işə tələsənlər gecikir, duracaqlarda konkanı gözləyən adamlar da gözləməkdən yorulur, piyada getməyə məcbur olurdular.

O zaman moda düşkünü olan bəzi qadınlar başlarına qazan kimi yanları iri şlyapa qoyurdu. Bu şlyapaların içini öz saçları doldura bilmədiyindən üstündən parik saçlar qoyub, onu öz saçlarına bərkitmək üçün şlyapanın ortasından bir başı düyməli, o biri başı iynə kimi uzun bir sancaq taxırdılar. Bu sancaqlar o qədər uzun olurdu ki, ucları şlyapanın alt tərəfindən iki-üç barmaq dışarı çıxırdı. Belə şlyapalı qadınlar konkaya mindikləri zaman vəziyyət daha da çətinləşirdi; çünki şlyapa həm çox yer tutur, həm də iynəsi ilə minikləri sancırdı.



Bir gün mən Sabunçu məktəbinə getmək üçün konkaya minib vağzala gedirdim. Konka ağzına qədər dolmuşdu. Belə bir şlyapalı qadın da konkanın baş tərəfində durmuşdu. Adamlar bir-birini sıxarkən şlyapalı qadının yanında duran bir cavan rusun başı şlyapanın altına girdi. Cavan başını nə qədər şlyapanın altından çıxarmağa çalışdısa, mümkün olmadı. Bu lövhə hamının nəzər-diqqətini cəlb etdi. Cavan oğlan birdən başını şiddətlə özünə tərəf çəkdi. Bu zaman iynənin ucu onun alnını qulaqlarının ucuna qədər yaraladı. Qan su kimi axmağa başladı. Cavan bir əli ilə alnının yarasını tutub, o biri əli ilə qadının şlyapasını dartıb birbaş küçəyə atdı. Qadının parik saçları yerə töküldü. Qadın pariklərini yığışdıra-yığışdıra cavanı söydü və konkanı dayandırıb şlyapasını götürməyə getdi.

Konkanın belə vəziyyətlərinə dözməyənlər yolu uzaq olsa da konkaya minməyib piyada getməyə məcbur olurdular.

Köhnə Bakı xaricən belə idi, dərdli, qüssəli. Onun içərisinə, küçələrinə ayrı-ayrı guşələrinə daxil olmadan, nüfuz etmədən Bakını, bu tarixi şəhəri öyrənmək, duymaq olmazdı.

XIX əsrin sonlarına doğru Bakıda neft sənayesi, fabrik-zavodlar, balıqçılıq, gəmiçilik, daşçılıq və iqtisadiyyatın başqa sahələri sürətlə inkişaf edirdi, ticarət bankları açılırdı. Bununla əlaqədar olaraq Bakıda fəhlə sinfi artıb bəlli-başlı bir sinif kimi meydana çıxır, zəhmət ilə kapital daha aydın bir şəkildə üz-üzə gəlirdi. Altı neft ilə dolu yerlər Bakı kəndlilərindən minbir fırıldaqla satın alınır, xaricdən Bakıya maşınlar gətirilir, yeni neft quyuları qazılırdı.

Bakının iri sənaye şəhərinə çevrilməsi buradakı sinfi ziddiyyətləri də kəskinləşdirmiş, burjua məfkurəsi ilə proletar məfkurəsinin mübarizəsi daha da şiddətlənmişdi. Bu zaman Bakıda inqilabi fikirlərin kök salıb yayılması üçün münasib bir şərait yaranmışdı. Fəhlələrin iqtisadi vəziyyətinin ağırlığı onları tətillərə, çarpışmalara sövq edirdi. Qüvvətli təşkilata istinad etməyən bu tətillər və çıxışlar sahibkarların əmri ilə çağırılmış hökumət süngüsü gücü ilə yatırılır, həbslər və sürgünlər davam edirdi. Buna baxmayaraq yenə də polis ilə fəhlələrin ardı-arası kəsilməyən çarpışmalarının davam etməsi üzündən irtica olduqca qüvvətlənmiş, liberal mətbuat susdurulmuş, maarif naziri tərəfindən məktəblərdə, kitabxanalarda və qiraətxanalarda təftiş və nəzarət işləri sıxlaşdırılmışdı. Proletar balalarını məktəbə qəbul etməmək üçün əmrlər verilmiş, orta və ali məktəblərdə təhsil haqqı artırılmışdı.

XX əsrin başlanğıcında kənd təsərrüfatı böyük bir tənəzzülə uğradı. 1902-ci ildə kəndlərdə böyük bir hərəkat başladısa da hökumət tərəfindən yatırıldı.

1904-cü ildə rus-yapon müharibəsi başladı. Çar ordusunun məğlubiyyət xəbəri rus dövlətinin nə qədər çürük olduğunu ortaya çıxartdı. Menşeviklər tərəfindən nazir Pleve öldürüldü. Liberal və demokrat ziyalılar bundan cəsarətlənərək hökumətdən "məclisi-məbusan" çağırmağı və bu kimi siyasi azadlıqlar tələb etdilər. Hökumət əfkari-ümumiyyəni sakitləşdirmək məqsədilə irəli sürülən tələbləri qəbul etməyə söz verdi. 1905-ci il manifesti elan olundu.

Yeni-yeni qüvvətlənməyə başlayan fəhlə tətilləri tərəqqipərvər adamlara bu sinfin qüdrətini hiss etdirməyə başlayırdı. Odur ki, Bakı XIX əsrin sonlarından başlayaraq siyasi xadimlərlə yanaşı, qabaqcıl elm və sənət adamlarının da nəzərini cəlb edirdi. Sənət adamlarını öz isti qanadları altına almış Bakı, həm də rus və Avropa mədəniyyətindən əmdiyi qida vasitəsilə gündən-günə canlanır, mədəniləşirdi. Artıq əsrlərdən bəri qalın bürclər və hasarlar arasında sıxılıb qalmış olan qocaman Bakı köhnə, dar hüdudu, dar çərçivəsi içərisinə sığmayıb qalın hasar içinə alınmış İçərişəhərin xaricinə çıxmaq, öz hüdudlarını genişləndirmək məcburiyyətində qalmışdır. XX əsrin əvvəllərində Bayırşəhərdə yeni binalar tikilir, küçələr, məhəllələr salınır, təzə ticarət müəssisələri, dükanlar, bazarlar meydana çıxırdı.



Sənaye kapitalizminin inkişaf etməsi köhnə Bakıya iqtisadi-ictimai, siyasi və mədəni yeniliklər də gətirmişdi. Bu yenilikləri həzm edə bilməyən mühafizəkar feodal qalıqları öz köhnə adət, həyat və görüşlərindən ayrılmaq istəmirdilər. Mütərəqqi ziyalılar ilə köhnəlik arasında mübarizə açıq və gizli şəkildə davam eləyir, gündən günə kəskinləşirdi. Bu mübarizə müxtəlif şəkillərdə, həyatın müxtəlif sahələrində öz əksini tapırdı.

Maarif sahəsində bu mübarizə əsasən müxtəlif növlü tədris ocaqlarına olan münasibətdə özünü göstərirdi. Qabaqcıl ziyalılar gənc nəsli yeni üsullu məktəblərdə, müasir elmləri təlim edən tədris ocaqlarında oxumağa dəvət etdiyi halda, mollalar, mühafizəkar ziyalılar uşaqları mollaxanalarda, mədrəsələrdə, müctəhid və axundların yanında təhsil almağa çağırır və qabaqcıl ziyalıları Allahın yolundan çıxmaqda təqsirləndirirdilər.

Bu zaman Bakıda maarif sahəsində əsas işi Qori seminariyasını bitirmiş müəllimlərimiz və qabaqcıl fikirli ziyalılarımız görürdü. Elmdə, maarifin inkişafında bu adamların böyük xidmətləri olmuşdur. Onlar Mirzə Fətəli Axundovun açdığı yeni yol ilə gedərək xalqda intibah hissi oyadır, yeni icti-

mai həyat və mədəniyyət mənimsəmək uğurunda əl-ələ verərək çalışır və bu yolda duran maneələrə qarşı yorulmadan mübarizə aparırdılar. Onlar bunun üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Belə vasitələrdən biri də teatr idi. Hələ teatr binası olmadığı zaman M.F.Axundovun, N.Nərimanov, Ə.Haqverdiyevin, N.Vəzirovun pyeslərini müxtəlif binalarda özləri oynayıb xalqın gözünü açmağa çalışırdılar.

Ruhanilər və cəhalətpərəstlərlə mübarizə ziyalılardan çox böyük iradə, cəsarət və mətanət tələb edirdi. Çünki xalqın böyük bir hissəsi ona inanır və dediklərinə əməl edirdi. Mürtəcelər, xüsusən ruhanilər hər cür yeniliyin qarşısını almaq üçün əllərindən gələni əsirgəmir, köhnə və yeni müsəlman[21] məsələsini ortaya ataraq aranı qarışdırırdılar. Onlar müxtəlif vasitələrlə qabaqcıl ziyalıları nüfuzdan salmağa çalışırdılar. Cahil qoçular və mütəəssiblər başına şlyapa qoyan, qalstuk bağlayan ziyalıları küçələrdə saxlayıb qalstukunu açırdı, şlyapasını başından alıb yerə atırdılar. O zaman qız gimnaziyalarında oxuyan qızların ayaqlarından tuflilərini çıxarırdılar. Hətta bir dəfə namdar aktyorumuz Mirzəağa Əliyevin qalstukunu çıxartmaq istəmişdilər.

Bir gün küçədən keçərkən bir ziyalı qızın ayağından tuflisini çıxartdıqlarını gördüm. Qız ağlamsınaraq: "Bəs evə ayaqyalın necə gedim?" – deyə bir köhnəpərəstə yalvarırdı. Bunu görüncə yanaşıb: "Qızın ayağından tuflisini nəyə görə çıxarırsan!" – dedim. O mənə acıqlı baxıb: "Sən yolunla düz get!" – deyə etinasız cavab verdi. Mən bizdən bir az uzaqda duran qaradovoyu səslədim. Köhnəpərəst qorxudan yoluna düzəlib getdi. Sonralar o qızın Nəriman Nərimanovun qardaşı qızı Asiya xanım olduğunu öyrəndim. XX əsrin əvvəllərindən xalqın şüurunda əmələ gələn intibahı görüb ruhanilər də öz əsl simalarını gizlətməyə, özlərini xalqın xeyirxahı kimi göstərməyə, bir növ müasirləşməyə çalışırdılar. Onlar din və şəriətin adabını müasir ictimai həyatın tələbləri ilə uyğunlaşdırmaq üçün müxtəlif vasitələrə əl atırdılar. Bakının ən məşhur dindar və mütəəssib mollalarından Axund Mirzə Əbu Turabın minbərdə İmam Hüseyn təziyəsinin bəzi nöqsanlarından danışarkən dediyi sözlər buna yaxşı misaldır. 1906-cı ildə "Həyat" qəzeti səhifələrində "Bizə hansı elmlər lazımdır?" məqaləsilə çıxış edib "din elmlərini" həqiqi müasir elmlərə qarşı qoyan bu dindar molla minbərdən deyirdi: "Mindiyimiz konkanın atlarını açaraq onun dörd tərəfindən tutub Qasım otağı adı ilə küçələrdə gəzdirmək nəyə lazımdır? Belə cahil işlərdən əl çəkməyin vaxtı gəlib çatmışdır".

[21] XX əsrin əvvəllərində islam dinini müasirləşdirməyə çalışanlara işarədir.



Bu sözlərin əsl mənası əlbəttə ki, qabaqcıl ziyalılar üçün aydın idi.

Ziyalıların geniş təbliğatı ruhanilərə də təsirsiz qalmırdı. Təəccüblü burasıdır ki, bəzi axundlar və gözüaçıq seyidlər cahillərdən gizlin uşaqlarını gimnaziyada oxudurdular. Bu uşaqlar gimnaziyaya yaxın yerdə, bir tanışın dükanında güləcəsini, papağını soyunub məktəb libasını geyinir, məktəbdən çıxanda yeni gimnaziya libasını həmin dükanda soyunub köhnə paltarında evə qayıdırdılar. Axund Mola Ruhulla iki qızını qız məktəbinə verib, xalqı da bu işə tərcih və təşviq etdiyinə görə cahil mollaların müridləri onu namaz qılarkən güllə ilə vurub öldürmüşdülər.

Öz qəddarlığı və dindarlığı ilə məşhur olan mollalardan biri də o zaman Qubada yaşayan Molla Baba idi. O həm molla, həm də qolçomaq idi. Yeniliyə meyl göstərən adamları öz otağına çağırıb öz yoğun əsası ilə döyərmiş. Fikriaçıq ziyalı-

ların ən böyük düşməni idi. Bakıda yaşayan bir ziyalı həmin Molla Babanın bu hərəkətini eşidib yanına getmiş, onun tutduğu əməlləri bərk tənqid etmişdi. Molla Baba adəti üzrə: "Ay kafir!" – deyə əlini əsaya aparmaq istədikdə ziyalı cibindən tapançasını çıxarıb: "Mən sənə başqaları deyiləm, ağaca əl aparsan gülləni başına çaxaram", – demişdi. Molla Baba yumşalıb: "Oğlum, sizin bir parça çörəyiniz var, yeyirsiniz, qoyun mən də bir parça çörəyimi yeyim", – deyə ona yalvarmağa başlamışdı. Cavabında həmin ziyalı demişdi: "Siz çörəyinizi xalqın qanına bulaşdırıb yeyirsiniz. Yolkəsən quldurlar sizin kimi mollalardan yaxşıdır. Çünki quldur bir-iki adama ziyan verir, ancaq siz bütün xalqın gözünü mövhumat pərdəsi ilə örtüb, tərəqqi yollarını bağlayırsınız".

***

Bakıda alverin ən qızğın yeri Bazar küçəsi (indiki Hüsü Hacıyev küçəsi) idi. Baqqallar, bəzzazlar yay-qış burada alver edirdilər. Qoçuların da gəlir və qazanc mənbəyi həmin bu bazar meydanında idi. Bazar küçəsində və bazar meydanında qoçular ağalıq edirdilər. Yaxın uzaq kəndlərdən satılmaq üçün gətirilən mal-qara, qoyun-quzu, ərzaq və meyvə onların əli ilə satılmalı idi. Yoxsa kəndliləri döyüb mallarını da əllərindən alırdılar. Kəndlilər və bazar adamları onların əlindən cana gəlmişdilər. Şikayət etmək faydasız idi. Çünki polis idarələri şikayətçilərin özlərini borclu çıxardırdı.

Zəhmətsiz pul qazanmağa dadanmış qoçular arasında böyük rəqabət gedirdi. Buna görə də onlar öz ətraflarına dəstə yığmağa çalışırdılar. Bir-birinə düşmən olan dəstələr küçələrdə qarşı-qarşıya gələndə atışma başlanır, çox zaman arada günahsız adamlar da ölür və ya yaralanırdı.



Qoçular istər çar hakimlərini, istərsə də yerli milyonçuların işinə yaradıqları üçün onların törətdiyi cinayətlər də çox zaman örtülüb basdırılırdı. Ona görə də qoçuluq gündən-günə artırdı. Mədənçilər və başqa varlıların bir çoxu özlərini, dövlətlərini qorumaq, sözlərinin nüfuzunu artırmaq məqsədilə yanlarında maaşlı qoçular saxlayırdılar. Qoçuluq elə sürətlə artmağa başlamışdı ki, hətta bəzi cahil ailələr oğlanlarını uşaq vaxtlarından qoçuluğa hazırlayırdılar. Bakıda qoçuların sayı artdıqca, baş verən cinayətlərin, nahaq tökülən qanların, ədalətsiz tutulan divanların, qaçırılan qızların, öldürülən cavanların sayı da çoxalırdı.

## ZƏHMƏT HƏYATIN CÖVHƏRİDİR

Bakıya gəlməkdə məqsədim hazırlaşıb müəllimliyə imtahan verməklə və məktəblərdə dərs götürüb öz zəhmətimlə anamı, özümü idarə etmək, xüsusən xəstə, qoca atama maddi kömək göstərmək idi. O zaman bu mənim ən böyük arzularımdan biri idi. Bu müddətdə anam da Tiflisdən buraya köçüb bizimlə birlikdə olurdu.

Mən hələ kiçik ikən Nəriman Nərimanov Qori seminariyasını qurtarıb Tiflisə qayıtdığı zaman atam ilə görüşə gəlmişdi. N.Nərimanovu ilk dəfə o zaman görmüşdüm. Lakin kiçik olduğumdan sonralar onun siması hafizəmdən silinmişdi. Ailə dostluğumuz olduğuna görə Bakıya köçdükdən sonra anam ilə Nərimanı və anasını görməyə getdik. O zaman Pazinovski küçəsində (indiki Engels küçəsində) Cəfərovların evində yaşayırdı. Anası ilə görüşdükdən sonra məni öz iş otağına apardı. Bura kiçik və qaranlıq bir otaq idi. Çoxlu kitab, qəzet və məcmuələrlə yüklənmiş köhnə yazı masasının yanında oturduq. Atamı soruşdu. "Bakı xoşuna gəlir-

mi?" – deyə xəbər aldı. Mən müəllimliyə imtahan vermək üçün hazırlaşmaq istədiyimi açıb söylədim. Bu fikrimi o çox bəyəndi və özü yazmış olduğu kiçik sərf kitabını mənə verib dedi: "Al, bunu yaxşı öyrən!" Mən Azərbaycan dilinin sərf-nəhvini o kitabdakından daha geniş bilirdim. Nəriman mənə metodika, didaktika və Azərbaycan ədəbiyyatını öyrənməyi tapşırdı. Bir az sonra anası Həlimə nənə gəldi. Həlimə nənə qılıqlı, təmizürəkli, qonaqsevən və mehriban bir qadın idi. Nərimanın xasiyyətinə onun böyük təsiri var idi.

N.Nərimanov ailəsinə və qohum-qardaşına olduqca bağlı, qəlbigeniş, dostluqda sadiq və xeyirxah bir insan idi. Qoca anasını, xalasını, iki dul bacısı və onların uşaqlarını, qardaşı uşaqlarını öz himayəsi altına almışdı. O, gecə-gündüz çalışır, çapalayır, on iki nəfərdən ibarət olan böyük ailəsini çətinliklə idarə edirdi. Gəncliyin bütün zövq və nəşəsini yalnız onlara fəda edərək bacısı və qardaşı uşaqlarını oxudub bir yana çıxartmaq istəyirdi.

N.Nərimanov həmin illər birinci gimnaziyada ana dili müəllimi idi. Gimnaziyadan aldığı maaş kifayət etmədiyindən axşamlar Sabunçuya gedib kurslarda rusca dərs verirdi.

İmtahana hazırlaşarkən N.Nərimanovun dediklərinə əməl etdim.

Əlavə olaraq müəllim Abbas Minasazovdan rus dilində üsuli-tədris (metodika) və fənni-tərbiyə (didaktika) üzrə dərs oxumaqla, gecə-gündüz çalışmağa başladım.

1901-ci ildə orta məktəblərdə Azərbaycan dili (o zaman "tuzemnıy yazık"[22] deyilirdi) müəllimi hüququnu almaq üçün 1-ci Aleksandrovski gimnaziyasına imtahan verdim. Komissiyada Nəriman Nərimanov, üç nəfər də başqa rus dili

[22] Yerli dil.



və ədəbiyyatı müəllimi iştirak edirdi. Nəriman Nərimanov mənə Azərbaycan dili və ədəbiyyatına dair, rus müəllimləri isə rus dilində metodika və didaktikaya aid suallar verirdi. Suallara bir-bir cavab verdim. Cavablarımdan müəllimlərin razı qaldıqlarını güləş və açıq simalarından duyurdum. İmtahan qurtardıqdan sonra: "Gedə bilərsiniz, üç gündən sonra gəlin imtahan şəhadətnamənizi aparın", – dedilər. Hamısı ilə görüşdükdən sonra sevinə-sevinə evə qayıdıb anamı şad etdim. Ancaq bu üç gün mənə çox uzun göründü. Günləri, saatları sayırdım. Nəhayət, dedikləri vaxt gimnaziyaya gedib şəhadətnaməmi aldım. Qiymət "əla" qoyulmuşdu[23]. Bu ilk müvəffəqiyyət məndə ruh yüksəkliyi doğurdu və hələ gənc ikən zəhməti mənə sevdirdi. Şadlığımdan yerə-göyə sığmırdım. 1901-ci ildə Bakı nəzdində olan maarif şöbəsi müdiriyyətinə ərizə verib müəllimlik etmək üçün yer istədim. Həmin il məni müvəqqəti olaraq ehtiyat müəllim təyin etdilər. Şəhər məktəblərində Azərbaycan dili müəllimləri xəstələndikləri zaman onların yerinə gedib dərs verirdim. Çox cavan idim. Bığımın yeri yenicə tərləyirdi. İlk dəfə məni altı sinifli şəhər məktəbinə göndərdilər. Birinci dərslərim aşağı siniflərdə olduğundan ilk pedaqoji təcrübəm pis keçmədi. Ancaq son dərslərim yaşca, boyca məndən uca və böyük olan qrup tələbələrinə idi. Mən onları tənəffüsə çıxarkən artırmada gördüyüm zaman canıma qorxu düşmüşdü. Məktəb müdiri Sultan Məcid Qəniyev cavanlığımı və tələbələrin nadincliyini nəzərə almış olduğundan məni sinfə özü apardı. Tələbələrə tanışlıq verdikdən sonra dərs zamanı özlərini sakit aparma-

[23] N.Nərimanovun və başqa müəllimlərin imzası ilə təsdiq olunan həmin sənəd indi də məndə durur.

larını tapşırdı. Buna baxmayaraq, tələbələr özlərindən yaşca və boyca kiçik müəllimlərinə itaət etmək istəməyib səs-küy saldılar. Hətta pəncərələrin pərdələrini salıb sinfi qaranlıq etdilər. Mən tez qapıya tərəf yönəldim. Bir neçə tələbə tez qarşımı kəsib dedi: "Müəllim vallah səs-küy salmayacağıq. Gəlin dərsinizi deyin!" Onların bu çirkin hərəkəti heysiyyətimə toxunduğundan razı olmayıb sinifdən çıxmaq istədim. Onlar pərdələri qaldırdılar, hər tərəfdən məni dövrəyə alıb üzr istədilər, yalvardılar. Nəhayət, sinifdə qalmağa məcbur oldum. O gün onlara epik, lirik və dram ədəbi növləri barədə danışdım. Tələbələr sakit oturub maraqla dərsimi dinləyirdilər. Elə bil heç bayaqkı tələbələr deyildilər. Zəng vuruldu. Mən sinifdən çıxmaq istəyərkən tələbələr ətrafımı dövrəyə alıb təkrar məndən üzr istədilər və "Bundan sonra dərsinizdə sakit oturacağıq", – deyə mənimlə müəllimlər otağının qapısına qədər getdilər. Mən müdirə heç bir söz demədim. Bundan sonra o sinifdə yenə bir neçə dərsim oldu. Tələbələr sözlərinin üstündə dayanmışdılar.

Həmin il bir neçə məktəbdə xəstə müəllimlərin yerinə dərs verdim. O cümlədən ikinci şəhər məktəbində dərs verdiyim zaman yazıçı Əbdürrəhimbəy Haqverdiyev ilə tanış oldum. O, politexniki institut tələbəsi formasında idi. Uca boyu, enli kürəyi, sağlam və xoş siması var idi. Köhnə filosoflar kimi saçlarını uzadıb arxasına tökmüşdü. Müəllimlər içərisində hamıdan istiqanlısı, mehribanı o idi. Əlimdən tutub yanında oturtdu. Diqqətlə mənə baxdıqdan sonra gülə-gülə dedi:

– Çox cavansınız, bu nadinc uşaqlarla necə bacarırsınız?

Tənəffüs zamanlarında şirin-şirin danışıb, dadlı lətifələri ilə bizi güldürərdi. Əsərlərini hələ oxumamışdım, danışığından satirik yazıçı olduğunu anladım.



1902-ci ildə görkəmli maarifpərvər Həbib bəy Mahmudbəyovun müdir olduğu altı sinifli məktəbin aşağı siniflərinə ana dili müəllimi təyin edildim.

Atamın xəstəliyi şiddətlənib onu taqətdən salmışdı. Həkimlər ona həm müəllimliyi, həm də ruhani idarəsindəki vəzifəsini atıb, uzun müddət istirahət etməyi məsləhət görmüşdülər. Atam ruhani idarəsindən istefa verib çıxmağa məcbur olmuşdu. Xəstə olduğuna baxmayaraq, məktəbdə birtəhər çalışır və müəllimlikdən aldığı məvaciblə ailəsini, körpə balalarını idarə edirdi. Qardaşım ayda ona 20 manat, mən də 15 manat göndərirdim. Anam bizə xeyir-dua verib deyirdi: "Oğlanlarım, atanın belə vaxtında kömək eləmək hər oğulun borcudur. Siz də ata olacaqsınız. Allah min əvəzini versin".

Dərslərim az olduğundan 1903-cü ildə Sabunçuda altı sinifli məktəbdə ana dili dərsləri mənə tapşırıldı. Günaşırı Sabunçu məktəbinin yolu zəhmətli olsa da, mənə hər cəhətdən faydası oldu. Mən burada neft fəhlələrinin həyatı, əməyi, dünyagörüşləri, onların azadlıq meyilləri ilə tanış oldum, bəzi fəhlə tətillərini gördüm. Dərs verdiyim kəndli uşaqlarının psixologiyasını öyrəndim ki, bunlar da sonralar mənə təsirsiz qalmadı.

1903-cü ildə altı sinifli şəhər məktəbindən azad olunub üçüncü gimnaziyaya müəllim təyin edildim. İndi atama daha çox kömək edə bildiyimdən qəlbim, vicdanım bir az rahat idi. Biz tez-tez atamdan xəbər tuturduq. Əfsus ki, bu hal çox davam etmədi...

Atamın əhvalının ağırlaşdığını bilib qardaşım Tiflisə getdi. Mən də getmək istədikdə qardaşım razılıq verməyib dedi:

– Sən getmə, atamın vəziyyəti qorxulu olsa teleqram vuraram.

Qardaşım gedib konsilium düzəltmiş, atamı müalicə etdirmişdi. Yeni dərmanlar yaxşı təsir etdiyindən o özünü bir az yaxşı hiss etməyə başlamış, qardaşım isə geri qayıtmalı olmuşdu.

İki həftə sonra atamın yenə ağır vəziyyətdə olduğu xəbərini aldıq. Qardaşım yenə getməli oldu. Bu dəfə: "Mən də gedəcəyəm", – deyə çox yalvardım. Ancaq heç kəs anamı tək qoymağı məsləhət görmədi.

Üç gün sonra qardaşımdan aldığım teleqramda məni də çağırırdı. Müdirdən icazə aldım; anamı da götürüb getdim. Əfsus ki, atam ilə görüşüb danışa bilmədim. Mən gedincə atam ikinci arvadından bir-birindən kiçik dörd yetim qoyub 63 yaşında vəfat etmişdi.

Mən Tiflisə çatan gün atamı dəfn etdik. Onun son dəqiqələrində ata-oğul kimi görüşüb-danışa bilmədiyim qəlbimdə unudulmaz bir ağırlıq əmələ gətirmişdi.

Atamın dəfnində bütün mərasim qaydalarına əməl olundu. Əmilərim də gəlmişdi. Üçüncü gün ev əşyalarının siyahısını tutub əmilərimin əli ilə analığıma tapşırdıq.

Atamın dörd otaq dolusu ev əşyasından ancaq kitab şkafından başqa heç nə götürmədik. Atamın qəflətən ölümü sağalmaz bir yara kimi uzun müddət qəlbimi ağrıtdı. Mənə ancaq əziz anamı yaşada bilmək az-çox təsəlli verirdi. Hər ay maaşımı alıb anama verdiyim zaman o deyirdi:

– Çox şükür bu günə də razıyam. Oğlanlarımın yavan çörəyi, kasıb daxması mənə hər şeydən ləzzətlidir.

Biz çox məşəqqət ilə keçindiyimiz halda anam həyatından məmnun idi. Xalqa xidmət etmək arzusu və ata-ana məhəbbəti cavanlığımdan zəhməti mənə sevdirdi. Bildiyimi və



təcrübəmi artırmaq üçün sərf etdiyim böyük zəhmət nəticəsində qazandığım müvəffəqiyyətlər əməyin böyük qüdrətini mənə anlatdı. Mən, zəhmətin həyatın cövhəri və hər müvəffəqiyyətin açarı olduğuna o zamandan inandım.

## AH, GƏNCLİK

Qış idi. Bakıya bir arşından artıq qar yağmışdı. Səhər yatağımdan qalxdım. Quşbaşı qar yağmaqda davam edirdi. Anam dərsə getmək üçün hazırlaşdığımı görüb ciddi bir tövrlə dedi:

– Yox oğlum, bu gün səni evdən çıxmağa qoymayacağam.

Mən uşaqlıqdan qarı və qarlı havada gəzməyi sevirdim. Yalvar-yaxar anamı razı saldım. Gənclik həvəsi və vəzifə məni məktəbə tərəf çəkirdi. Qarı yara-yara yola düşdüm. Faytonlar, konkalar hərəkətdən qalmışdı. Dəmiryolu stansiyasına qədər ayaqla getdim. Qatarlar da işləmirdi. Yollar təmizləndikdən sonra birinci qatarla Sabunçuya hərəkət etdim. Sabunçu stansiyasında vaqondan endim, üzümə küləkli qar vura-vura məktəbə getdim. Məktəbin qapısına böyük bir qıfıl vurulmuşdu. Müdirimiz və müəllimlərdən biri məktəbə yaxın bir binada yaşayırdı. Adını və familini indi unutmuş olduğum həmin müəllimlə dost idim. Ona görə də onun yanına getməyə qərar verdim.

Dostum məni görüncə heyrətlə:

– Şəhərdənmi gəlirsən? Dərsəmi gəlmisən? - deyə soruşdu.

– Bəli, şəhərdən gəlirəm, – dedim.

O, sürəkli qəhqəhələrdən sonra iri yumruğunu divara vuraraq:

– Sergey Mixayloviç, Sergey Mixayloviç! – deyə qonşu otaqda yaşayan müdiri səslədi və mənim şəhərdən gəldiyimi xəbər verdi. Müdir bu hadisədən maraqlanaraq yanımıza gəldi. İçəri girincə müəllim məni göstərib gülə-gülə:

– Talıbzadə vəzifəsini ifa etməyə gəlmişdir, – dedi.

Müdir heyrətli nəzərlərlə mənə baxaraq:

– Necə gəldiniz? – deyə soruşdu.

Əhvalatı təfsilatı ilə danışdım. O, qoca başını tərpədərək: "Ah, gənclik, gənclik!" – deyə inlədi.

Bakıda dərs dediyim progimnaziyada (bu məktəb sonralar 3-cü gimnaziyaya çevrilmişdi) 15 nəfərə yaxın azərbaycanlı tələbə var idi. Mən məktəbdə belə az azərbaycanlı olduğunu ancaq buraya müəllim təyin edildikdən sonra öyrəndim və müdirin 15 tələbəyə ayrıca müəllim çağırmasına heyrət etdim. Çünki hər sinifə iki-üç azərbaycanlı tələbə düşürdü. Hətta ikinci ehtiyat sinfində yalnız bir tələbəm var idi. Siniflər kifayət etmədiyindən həmin tələbə ilə müəllimlər otağında dərs keçməyə məcbur olurdum.

Bir gün dərs keçərkən müdir içəri girdi. Bizi görüncə gülə-gülə:

– Bir müəllim, bir tələbə! – dedi.

Sonra vəziyyətini pozmayaraq əlavə etdi:

–Student olduğum zaman bir fəndən böyük auditoriyada professorumun leksiyalarını mən də tək dinləmişəm.

Yenə bir dəfə müəllim otağında heç kəs olmayanda mənə yanaşıb dedi:

– Talıbzadə, Bakı sizin vətəninizdir, nə üçün tatar uşaqları (o zaman azərbaycanlılara "tatar" deyirdilər) məktəbdən qaçırlar. Onlar bütün məktəblərdə əksəriyyət təşkil etməlidirlər. Sən çalış, mümkün qədər çox tatar tələbələri gətir, mən onları qəbul etdirərəm.



Müdirin azərbaycanlı tələbələrlə və mənimlə olan xoş rəftarından, bizə göstərdiyi qayğıkeşlikdən onun demokrat ruhlu bir müəllim və gözəl bir insan olduğunu anlamışdım. O çox zaman mənim dərslərimə gəlir, oturub dinləyir, ana dilinə xüsusi əhəmiyyət verirdi. Yeni tədris ili başlananda progimnaziyada azərbaycanlı tələbələrin sayı otuz beş nəfərə çatdı.

Zaqafqaziya məktəblərinin baş müfəttiş popeçitel Rudolf Tiflisdən Bakıya gəlmişdi. Hər məktəbdə olduğu kimi, müəllimlik etdiyim üçün gimnaziyada da bütün müəllimlər böyük həyəcan içində onu gözləyirdi. O, bütün Bakı məktəblərini təftiş etdikdən sonra bizim gimnaziyaya gəldi. Böyük tənəffüsdə müəllimlər, müəllimlər otağında olduqları zaman müdirimiz Nikolay Stepanoviç Sazanov ilə Rudolf içəri girdilər. Müəllimlər ayağa qalxıb salam verdilər və görüşmək üçün müfəttişə yaxınlaşdılar. Rudolf heç kəsə əl verməyib salama cavab olaraq ancaq başını tərpətdi və keçib baş tərəfdə oturdu.

Onun məğrur və müstəbid hərəkətindən hamı susmuş, gözlərini yerə dikib durmuşdular. Beş-on dəqiqə keçdi. Rudolf ağzını açıb bir kəlmə də danışmadı. Onun bu hərəkəti məni son dərəcə əsəbiləşdirdi, azadlıq aşiqi olan qəlbim sıxıldı. Masa üzərindəki qrafindən stəkana su töküb içdim. Rudolf bunu görüncə acıqlı-acıqlı mənə baxıb barmağı ilə işarə edərək: "Bura gəl!" – dedi. Ayağa qalxıb yanına getdim, sağ əlimi masanın qırağına dayayıb, cavanlara məxsus bir qürur ilə durdum. O, amiranə bir səslə: "Əllərini yanına sal", – dedi. Müəllimlərin yanında verilən bu haqsız əmr mənə çox ağır təsir etdi. Çünki o, mənim şəxsiyyətimlə yanaşı, ana dili müəllimi olduğum xalqımı da təhqir edirdi. Mən özümü saxlaya bilməyib ciddi və kəskin bir səslə:

– Popeçitel həzrətləri, mən Qafqaz tatarlarının ana dili müəllimiyəm, – dedim.

O, mənə əyri-əyri baxaraq istehza ilə:

– Pah, nə böyük adamsanmış! Yaxşı, get otur! – dedi.

Zəng vurulduqdan sonra hamımız siniflərə getdik. O, bizdən sonra gimnaziyanı tərk etmişdi. Daxilimdəki həyəcan qəlbimi çox rahatsız edirdi. Mən dərslərimi qurtarandan sonra müdirimiz Sazanovun kabinetinə gedib dərdimi azaltmaq üçün ona şikayət etdim.

Dinlədikdən sonra adəti üzrə gülə-gülə:

– Onun mənə bərk acığı tutmuşdu. Bakıya gələndə məndən başqa bütün müdirlər onu Bakı vağzalında qarşılamışdı, mən isə bunu lazım bilmədim. Yəqin mənim bu hərəkətim Rudolf həzrətlərinin xoşuna gəlməyib. Görmədin, bizim gimnaziyaya bütün məktəblərdən sonra gəldi. Sən müəllimlərimizin içində hamıdan cavan olduğuna görə dilinin zəhərini sənə tökdü.

Mən oradan birbaş rus dilində nəşr olunan "Kaspi" qəzeti idarəsinə getdim, həmin əhvalatı məsul müdir Əlimərdan bəy Topçubaşova söyləyib qəzetdə yazmağını xahiş etdim. O, üz-gözünü turşudub dedi: "Yox, belə şeyləri qəzetdə yazmaq olmaz!" Mən əsəbiləşərək: "Belə qorxaqlığın, yazmamağın nəticəsidir ki, xalqımız ən adi hüquqlardan məhrum edilmişdir", – dedim və dərhal otaqdan çıxdım.

Popeçitelin məni təhqir etməsini uzun müddət unuda bilmədim. Ertəsi gün dərsə getmişdim. Müəllimlər otağında müəllimlərdən Fyodor İvanoviç ilə görüşdüm. Bu arıq bir kişi idi. Uzun, qara saqqalı var idi. Müdirimizdən xoşu gəlmədiyindən arabir müəllimlər içində onun dalınca danışırdı. Fyodor İvanoviç mənə yuxarıdan aşağı əyri-əyri baxaraq:



– Sizin dünənki hərəkətiniz mənim heç xoşuma gəlmədi, – dedi.

Mən acı-acı gülümsədim:

– Qaba hərəkətə qaba da cavab verərlər...

O, acıqlı-acıqlı:

– Rudolf həzrətləri görün nə qədər alicənab insandır ki, sizi məktəbdən çıxartmadı. Müdir mən olsaydım, sizi bir saat da bu məktəbdə qoymazdım, – dedi.

– Siz də elə cənab Rudolfun tayı olardınız, – deyə mən ona çox sərt cavab verdim. O, heç bir söz demədən üzünü məndən çevirib getdi.

Rudolf hadisəsindən sonra Nikolay Stepanoviçə olan hörmətim məhəbbətə çevrildi.

Mən bayramlarda arabir təbrik üçün Nikolay Stepanoviçin evinə gedərdim. Arvadı da özü kimi demokrat görüşlü, açıq fikirli bir qadın idi. Əri kimi mənə hörmət edər, dərslərimlə maraqlanar, bəzən Rudolf hadisəsini xatırladıb istehza ilə gülərdi.

Lakin çox təəssüf ki, mənə çox yaxşı təsir bağışlayan Nikolay Stepanoviçlə dostluğumuzu uzun zaman davam etdirə bilmədim. Rudolf ona bəslədiyi kini unutmamışdı. Həmin il öz vəzifəsini böyük həvəslə ifa edən Nikolay Stepanoviçi gimnaziyadan çıxarıb Kars şəhərində realnı məktəbinə müdir müavini təyin etdi.

İkisi də qaranlıq anbarda yerləşmiş meyxanada bir masa başında üz-üzə oturub içirdi. Birisi qədəhini qaldırıb dostunun qədəhinə vurduqdan sonra sözə belə başladı:

– Əlabbas, yaxşı dost adama qardaşdır, bəlkə qardaşdan da artıqdır. Elə sirr var ki, adam onu öz doğma qardaşına deyə bilmir, amma yaxın dostundan heç bir şeyi gizlətmir. Mənim üç qardaşım var, səni onlardan ayırmıram. Bu bakalı mən sənin sağlığına içirəm...

Sükut içində bifşteksdən bir tikə yedikdən sonra Əlabbas qədəhləri yenə də doldurdu, dostunun sözlərini cavabsız buraxmayaraq dedi:

– Hüseynbala, biz neçə ildir dostuq. Neçə dəfə sözə gəlmişik, bir-birimizdən küsüb ayrılmışıq, üç gündən sonra yenə barışmışıq. Heç bir şey bizim dostluğumuzu poza bilməz. Bilirsən ki, mən anamın gözünün ağı-qarası bir oğluyam, and olsun dayım Məhəmmədağanın başına, mən səni özümə qardaş bilirəm. Mən də bu bakalı sənin sağlığına içirəm. Sağ ol qardaşım, Allah səni dostluqdan əskik eləməsin.

Qədəhlər içildi, masanın üstü boş şüşələrlə doldu, iki dostun arasındakı söhbət get-gedə qızışdı. Artıq, başı havalanmağa başlayan Hüseynbala üzünü Əlabbasa tutaraq:

– Dayın Məmmədağanın boy-buxununa, qədd-qamətinə qoçuluq nə yaraşır! Başına dəstə yığıb o da qoçubazlıq etsəydi, qabağına bir kişi çıxa bilməzdi, – dedi.

Əlabbas öz dayısının qoçulardan acığı gəldiyini, məhəllədə qoçuluq həvəsinə düşən bir neçəsini çağırtdırıb nəsihət və məzəmmət etdikdən sonra onları bu fikirdən uzaqlaşdırdığını, məhəllədə hamının ona hörmət etdiyini söylədi. Sonra məzəmmətedici bir tövr ilə Hüseynbalanın qoçuluqdan və



Teymur bəyin dəstəsindən əl çəkməsini xahiş etdi. Hüseynbala bir an düşündükdən sonra bu sözü dost sözü kimi qəbul edib, Teymur bəyin qoçu dəstəsinə necə düşdüyünü təfsilatı ilə ona anlatdı. Yaxşı bir fürsət düşsə özünü bu tələdən qurtaracağına söz verdi.

Dostunun bu sözü Əlabbası çox sevindirdi, əlini masaya vuraraq o gün onun üçün böyük bir bayram olduğunu söylədikdən sonra dayısı Məhəmmədağanın Hüseynbala haqqında olan fikrini belə izah etdi:

– Dayım deyir ki, Bakıda dörd-beş qoçu dəstəsi var. Bu qoçular iki cürdür. Bəzisi polis adamları ilə əlbir olub çalıb-çapmaqla məşğuldur. Bəzisi də sənin dostun Hüseynbala kimi ancaq şöhrət üçün bu dəstəyə girmişdi. Bu vaxta qədər Hüseynbala nə talana gedib, nə də bir adam öldürüb. Təmiz oğlandır, ona görə sənin onun ilə dostuq etməyinə bir söz demirəm. Ancaq Teymur bəyin dəstəsinə girməyi, necə olsa, onu ləkələyir, hayıfdır, çalış, onu o dəstədən ayır.

Hüseynbala dostunun sözünü kəsərək dedi:

– Canın üçün elədir ki, var. Bu vaxta kimi mən əlimi nə qana bulamışam, nə də bir adama ziyan vurmuşam. Dayım dediyi kimi, mən şöhrət üçün, həm də bir "mən ölüm"ə bu dəstəyə girmişəm. Fürsət axtarıram, mən bu peşənin sahibi olmayacağam, arxayın ol...

O axşam iki dost gecə yarısına qədər yeyib-içdi. Artıq hər ikisi sərxoş idi. Əlabbas xidmətçini çağırıb haqq-hesab istədi. Xidmətçi hesab vərəqəsini gətirib masanın üstünə qoydu. Əlabbas dərhal yoldaşına imkan vermədən göstərilən məbləği xidmətçinin qabağına atdı. Hüseynbala pulu masanın üstündən götürüb Əlabbasa qaytararaq:

– Əli, mən olan yerdə gərək sən əlini cibinə salmayasan.

Əlabbas masaya dayanaraq çətinliklə ayağa qalxdı, Hüseynbalaya tərs-tərs baxıb inad etdi:

– Niyə? Səndən əskik oğulam? Yox, bu gecənin pulunu gərək mən verəm.

O pulu yenə hesab vərəqəsinin üstünə qoydu. Hüseynbala pulu bu dəfə də qaytardı. Əlabbas pulu dostunun ovcuna basdı.

– Hüseynbala, yaxşı eləmirsən, yoxsa bundan sonra bir də səninlə bir stolda oturmaram.

– Adə, sən lap qudurmusan?

– Sən qudurmusan, yoxsa mən?!

Əlabbasın sözləri və rəftarı qoçu təbiətli Hüseynbalanı lap hövsələdən çıxartdı. O, masanın üstündəki pulları götürdü, xırda-xırda cırıb yerə tulladı. Əlabbas Hüseynbalanın bu hərəkətinə gülümsədi, cibindən yenidən pul çıxarıb, çoxdan bəri ayaq üstündə dayanan, qorxusundan səs-səmirini çıxarmayan xidmətçinin ovcuna basdı. Bundan sonra Hüseynbala acıq eləyib sürətlə onlardan uzaqlaşdı, meyxananın məxmər pərdəli qapısında yox oldu. Onun arxasınca da Əlabbas çıxdı. İki-üç dəqiqə sonra meyxanadakılar iki güllə səsi eşitdilər...

Əhvalat belə olmuşdu: Hüseynbala evinə qayıdarkən yolda Teymur bəyin qohumu Rüstəmə rast gəlir. O, əlində tapança kimi isə axtarırmış. Hüseynbala ona yaxınlaşıb kimi axtardığını soruşur. Rüstəm hövlnak evinə gəlmiş oğrunun dalınca getdiyini söyləyir. Hüseynbala da gecənin qaranlığında Rüstəmə qoşulur. Bu zaman Rüstəm uzaqda bir kölgənin sürətlə irəlilədiyini görüb onu nişan alır. Kölgə bir-iki dəfə səndələyib yerə yıxılır. Hər ikisi vurulan adama tərəf qaçır; yaxınlaşdıqda gözlərinə inanmırlar. Hüseynbalanın bütün vücudu titrəyir. Vurulan Əlabbas idi. Hüseynbala yerə çöküb: " Əlabbas, Əlabbas!" – deyə onu nə qədər silkələyirsə cavab gəlmir. Əlabbas canını təslim etmişdi.



Hüseynbala: "Rüstəm, belimi qırdın, mənə qardaşdan yaxın olan dostumu öldürdün. Mən onun anasına, dayısına nə cavab verəcəyəm!" – deyə başını itirmiş halda Rüstəmə baxır. Rüstəm isə əvəzində başına gələn qəzanı nağıl edir: məlum olur ki, gecəyarısı oğru pəncərədən girib daş-qaş, qızıl-gümüşü böyük bir dəsmala yığır, qaçmaq istəyəndə Rüstəm oyanır. Tez özünü onun üstünə atır. Əlbəyaxa olurlar. Səsə arvad-uşaq oyanır. Oğru vəziyyətin çətinləşdiyini görüb birtəhər Rüstəmin əlindən çıxır. Dəsmala yığdığı qiymətli şeyləri götürüb pəncərədən küçəyə atılır. Rüstəm tapançasını götürüb onun dalınca qaçır; ancaq qaranlıqda oğrunu gözdən itirir. Az sonra meyxana yaxınlığında qaraltı görüncə onu oğru bilib atəş açır...

Rüstəmin bu söhbətini Hüseynbala eşitmirdi. O, intiqam alovunu boğa-boğa Rüstəmə bunu deyə bildi:

– Rüstəm, kim olur-olsun Əlabbasın qanını ondan alardım. Neyləyim ki, Teymur bəyin qohumusan.

Hüseynbala indi nə edəcəyini düşünürdü. Əlabbasın nəşini evlərinə aparmaq çox xatalı idi. Çünki anası və dayısı hər ikisindən şübhələnə bilərdi. Ona görə də səhər tezdən Əlabbasın nəşini başqa adam vasitəsilə evlərinə göndərməyə qərar verdilər.

Gecə anası Əlabbasın yolunu çox gözlədi. Səhərə qədər gözünə yuxu getmədi. Onun ana ürəyinə min qara xəyal gəlirdi...

Səhər tezdən küçə qapısı ağzında bir fayton dayandığını eşidən ana yatağından dik qalxdı, tez qapıya çıxdı. Qarşısındakı mənzərədən bütün bədəni uçundu. İki nəfər cavanın Əlabbasın nəşini gətirdiyin görüncə: "Vay, yazıq balam!" –

deyə saçlarını yolmağa, dizlərinə döyməyə başladı. Cəsədi otağa gətirib qoyduqları zaman ana onu qucaqlayıb hıçqıra-hıçqıra ağladı. Adamlar arvada təsəlli verirdilər, lakin ana başını o qədər itirmişdi ki, nə onların təsəllisini eşidir, nə də oğlunun harada, nə üçün, kim tərəfindən vurulduğunu soruşurdu. Bu ağır dərdə şərik olmaq üçün qardaşı Məmmədağaya xəbər göndərdi. Məmmədağa başıalovlu bacısının yanına gəldi. Bacısı ağlaya-ağlaya:

– Ay qardaş, – dedi, – başıma gələni görürsən? Bu yetimi bir yaşından sənin köməyinlə böyütdüm, cavan ömrümü onun yolunda qoyub bu boya, bu yaşa çatdırdım. O Hüseynbalanın oğlumu çağırtmağa gəldiyi yerdə ayaqları qırılaydı. Mənim balamı kim öldürdü. Düşmənimi səndən istəyirəm!

Məmmədağa bacısı oğlunun Hüseynbala ilə birlikdə hansı meyxanada içdiklərini öyrənib birbaş həmin meyxanaya getdi. Əhvalatı xidmətçilərdən soruşdu. Xidmətçi meyxanada baş verən hadisəni bütün təfsilatı ilə danışdıqdan sonra, Məmmədağa bacısı oğlunun Hüseynbala tərəfindən öldürüldüyünü yəqin etdi.

Hüseynbala səhər Teymur bəyin yanına getdi və əhvalatı ona nağıl etdikdən sonra, Əlabbasın anası və dayısı Məmmədağanın bu cinayəti ondan görəcəklərini söylədi.

Məmmədağanın məhəllədə böyük hörməti və nüfuzu vardı.

Teymur bəy məsələni eşidəndə dedi:

– Bu, heç yaxşı iş olmadı. Məmmədağanı inandırmaq çətindir. O, bu işi səndən görəcək. Aramız yaman dəyəcək. Bir az səbir elə görək nə olur.

Hüseynbalanı hər şeydən çox məhəllə adamları arasında onu öz dostunu öldürən cani kimi baxacaqları həyəcanlandırırdı. O, nəhayət Əlabbasın anasına bir məktub yazıb meyxanada baş verən hadisəni nəql etdikdən sonra Əlabbası öldürmədiyinə and içdi və onun ölümündən nə qədər əzab çəkdiyini bildirdi.



Məmmədağa məktuba inanmadı. Əvvəlcə əhvalatı gedib Teymur bəyə söyləmək istədi. Sonra düşündü ki, hər halda Teymur bəy öz qoçusu Hüseynbalanı müdafiə edəcək. Bu faciəni namusuna sığışdıra bilməyib, işi məhkəməyə verdi, meyxana xidmətçilərini də şahid göstərdi. Müstəntiq meyxana xidmətçilərini danışdırıb sözlərini qeydə götürdü. Çox çəkmədi. Hüseynbalaya çağırış vərəqəsi gəldi. O, məsləhət üçün yenə Teymur bəyin yanına getdi. Teymur bəy müstəntiqə ancaq meyxana hadisəsini söyləməyi tapşırdı və iş çətinə düşsə məhkəmə məmurlarını "görəcəyinə" söz verdi.

***

Məhkəmə salonu ağzına kimi dolmuşdu. İşsiz, peşəsiz adamlar adlarını "qoçu" qoyub veyil-veyil dolanan bığıburma cavanlar məhkəmə salonunun əsas sakinləri idi. Məhkəmədə Salman adlı bəyi öldürən bir dağıstanlının işinə baxılırdı. O, qardaşını öldürən Salman bəydən intiqam almışdı. Üç gün davam edən məhkəmə bu gün son qərarını verəcəkdi. Teymur bəy də salonda oturub məhkəmənin gedişini dinləyirdi. Müqəssiri müdafiə üçün vəkilə söz verildi. Vəkil çox təsirli bir dil ilə danışdı:

– Ədalətli məhkəmə, mənim müdafiə etdiyim Ramazan Bəkir oğlu şübhəsiz ki, müqəssirdir. Ancaq bu adam kimi öldürmüşdür? Və nə kimi şərait daxilində öldürmüşdür? Ədalətli məhkəmə heyəti ləzgilərin milli adət və ənənələrini nə-

zərdən qaçırmamaq şərti ilə bu sualları dərindən tədqiq və təhlil etməlidir. Ramazan Bəkir oğlu doğma qardaşlarının qatilini öldürmüşdür. O, öz qardaşının qanını almasaydı adətlərinə görə ən alçaq adam sayılaraq "namussuz" adını almalı idi. Hamı nifrətlə ondan üz çevirib dostluq əlaqəsini kəsəcəkdi. Azad çöllərdə dolanan bu adam hökumətin məhkəmə qanunlarından tamamilə uzaqlarda yaşamışdı. O, yalnız bir şey bilir: namus! Cahil adam kor olar. O, bu gün bizim yaşadığımız mədəni şəhər həyatından bixəbərdir. Bizim məktəblərimizin bilik şəfəqləri oraları işıqlandırmayır. Odur ki, o, nə etmişsə, bilmədən, düşünmədən etmişdir. Siz gözəl bilirsiniz ki, şüurlu edilən bir cinayətlə, bilməyərəkdən edilən cinayət bir deyil. Bu cahil, gənc Ramazanın etdiyi cinayət, əlində tapança açılan və təsadüfən yoldan keçən bir nəfəri öldürən adamın cinayəti kimidir. Ədalətli məhkəmə üzvləri bu dediklərimi nəzərə alarsa, müqəssirin etdiyi cinayət nə qədər kiçilmiş olar! Bir oğlu öldürülmüş, ikinci oğlunun da işi məhkəməyə verilmiş olan yazıq və bədbəxt qoca ata və anasının qurumaq bilməyən göz yaşlarının, xüsusən, məhəbbətlə parlayan qara gözlərini Ramazanın üzündən götürməyib şam kimi yanan günahsız gənc nişanlısını xatırlayın. Bu məzlum, yazıq insanlar sizdən mərhəmət gözləyirlər. Baxınız, nə qədər bədbəxt insanın müqəddəratı sizin ədalətli əlinizdədir.

Vəkilin nitqindən sonra bütün tamaşaçılarda Ramazana qarşı dərin bir mərhəmət hissi oyandı. Vəkil sözünü qurtarıb yerinə oturduqdan sonra sədr son sözü müqəssir Ramazan Bəkir oğluna verdi. Ramazan son söz deməkdən boyun qaçırtdı. Qərar çıxartmaq üçün məhkəmə heyəti yan otağa keçdi. Hamı səbirsizliklə məhkəmənin qərarını gözləyirdi. On dəqiqədən sonra məhkəmə heyətinin üzvləri içəri girib öz



yerlərində oturduqları zaman bütün tamaşaçılar dərin sükut içərisində göz-qulaq kəsildi. Hakim qərarı oxudu:

– Dağıstan əyalətinin Aşağı Qazaniç kəndində yaşayan Ramazan Bəkir oğlu yüksək silkə mənsub olan Salman bəyi öldürdüyünə görə məhkəmə heyəti qərara alır: Ramazan Bəkir oğlu 48 saat içərisində edam edilsin.

Məhkəmənin qərarı, Ramazanın faciəli taleyi bütün salondakılara, hətta Teymur bəyin daş ürəyinə də təsir etmişdi. O, bir an gözlərini yerə dikərək düşündü. Çox çəkmədi ki, gözlərində ümid qığılcımı parladı. Çətin işin içindən çıxmış adamlara məxsus bir görkəm aldı. O, salondan çıxıb birbaş məhkəmə sədrinin kabinetinə getdi. Xoş-beşdən sonra sözə başlayaraq dedi:

– Cənab sədr, mənim dostum Hüseynbala Nəcəfov haqqında sizə ərizə verilibdir.

Sədr başını tərpədərək:

– Doğrudur, verilmişdir, – dedi. – Mən işi uzadıram. Məmmədağa tez-tez gəlib ərizəyə cavab istəyir. Mən bu günlərdə həmin işə baxmalıyam. Şahidlər məhkəmə salonunda da müstəntiqə söylədikləri sözləri təkrar etsələr dostun Hüseynbalaya azı on beş il veriləcəkdir.

– Cənab sədr, mən əsl həqiqəti sizə söyləməyə gəlmişəm. Öldürülən cavanın qatili Hüseynbala deyildir. Mən yəqin etdiyimə görə...

– Kimdir?

– Bu gün işinə baxdığınız Ramazan Bəkir oğludur.

– Siz bunu sübut edə bilərsinizmi?

– Bunu qatilin özü etiraf edir.

Məhkəmə sədri əlavə pul almaq üçün işıq yeri görüb əl-ayağa düşdü. Məhkəmə heyəti ilə görüşüb Ramazanın öl-

dürülməsinin ləngidilməsi haqqında razılığa gəldi. Elə oradaca həbsxana rəisi Qoku əhvalatdan xəbərdar etdi.

Sədr ilə razılığa gəldikdən sonra Teymur bəy oradan birbaşa həbsxana rəisi Qokun yanına getdi və Dağıstanlı Ramazan Bəkir oğlu ilə görüşməyə izn istədi. Qok əvvəlcə razı olmadı Teymur bəy onu zor-güc razı etdi. Teymur bəyi qəbir kimi qaranlıq, soyuq bir zirzəmiyə gətirdilər. O, tanışlıq verəndən sonra mətləbə keçdi:

– Ramazan, mən bir dost kimi sənin yanına gəlmişəm. Səni ölümdən xilas etmək, qoca ata-ananı övlad ayrılığı dərdindən qurtarmaq istəyirəm. Bu şərtlə ki, gərək mənim dediklərimə əməl edəsən.

Ramazanın gözləri parladı:

– Onsuz da mən ölümə məhkum edilmişəm. Danışığından mərd adama oxşayırsan. Mən razıyam, de görək nə istəyirsən.

Teymur bəy Əlabbasın öldürülməsi hadisəsini ona danışdı. Hüseynbalanı xilas etməkdən ötrü Əlabbasın öldürülməsini öz boynuna götürməyi Ramazana təklif etdi. Bu fədakarlığı etsə onu ölümdən xilas edəcəyinə söz verdi.

Ramazanın gözləri yenə dumanlandı. O, acı-acı gülümsəyərək:

– Bu necə olar? Bir adam öldürəndə edam, iki adam öldürəndə bəraət! – dedi.

Teymur bəy məhkəmə üzvləri ilə çox yaxın əlaqəsi olduğunu və onlara külli miqdarda pul təklif edəcəyini bildirdi. Onu mütləq ölümdən xilas edəcəyinə söz verdi. Teymur bəy Ramazanın ata-anasına da üç il ehtiyaclarını ödəyəcək qədər pul verəcəyini vəd etdi. Ramazan başını sallayıb bir an düşündükdən sonra:



– Bunun mənə bir zərəri yoxdur. Onsuz da mən ölümə məhkum edilmişəm, razıyam, – dedi.

Teymur bəy evinə qayıtdıqdan sonra bir qoca göndərib Məmmədağanı yanına çağırtdırdı. Məmmədağa əvvəlcə getmək istəmədi. Qoca təkid etdi:

– Məmmədağa, Teymur bəy Əlabbasın qatilini tapıbdır. Ona görə səni çağırtdırır.

Məmmədağa qaşlarını çataraq:

– Onun qatili məlumdur, – dedi.

Teymur bəy bu əhvalatı eşidən kimi Hüseynbalanı çağırtdırıb ağzına gələni dedi. Hüseynbala and içdi, aman elədi ki, Əlabbası mən öldürməmişəm. Teymur bəy ondan əl çəkmədi. Axırda Teymur bəyin başına and içdi.

– Sən bu fikri başından çıxar, – dedi. Hüseynbala öz dostunu öldürməz!

Məmmədağa istər-istəməz Teymur bəyin yanına gəldi. Teymur bəy onu görüncə:

– Gözün aydın, Məmmədağa, Əlabbasın qatilini tapmışam, – dedi. Sonra əhvalatı açıb ona söylədi.

Bundan sonra Teymur bəy Ramazanla bir də görüşdü, lazım olan cavabları tutuquşu kimi ona öyrətdi. Ramazanın dilindən "yuxarıya" ərizə verib, məhkəmənin çıxardığı qərara razı olmadığını bildirdi...

Məhkəmə başladı. Hakim müqəssirə suallar verməyə başladı. Salman bəyin nə üçün öldürülməsi sualına cavab verərkən o, keçən məhkəmədə vəkilin çıxışındakı dəlilləri bir qədər də təsirli və inandırıcı şəkildə təkrar etdi. Onun cavabları salondakıları həyəcana gətirdi. Məhkəmə heyəti bəzi şahidləri danışdırdıqdan sonra ikinci məsələyə – Əlabbasın öldürülməsi məsələsinə keçdi. Hakim:

– Sən iki ay əvvəl Bakıya gəlmişdinmi?

– Gəlmişdim.

– Nə üçün?

– Toyum üçün pal-paltar almağa.

– Kiminlə gəlmişdin?

– Öz nişanlım və qayınanam ilə.

– Bakıda olduğun zaman kimlərlə görüşürdün?

– Burada yaşayan dağıstanlı tanışlarım ilə.

– Aldığımız məlumata görə Bakıda olduğun zaman Əlabbas adlı bir cavanla da tanış olmusan.

– Yox, mən onu tanımıram.

– Əlimizdəki məlumata görə səninlə yerli cavanlardan biri arasında çox ciddi bir münaqişə olmuşdur?

– Doğrudur, olmuşdur.

– Bu münaqişənin səbəbini söyləyin.

– Bir dəfə şəhərin qələbəlik yerində yarısərxoş bir cavan mənə yaxınlaşıb: "Ədə, bunun bu şələ papağına bax!" – deyə məsxərə elədi. O, bununla kifayətlənməyib nişanlıma da söz atdı. Bu hadisə mənə çox ağır təsir etdi. Yaxınlaşıb onu vurmaq istədim. Lakin bir anda yoldaşları məni əhatə edib, öz dostlarını aradan çıxartdılar.

Ramazanın buraya qədər söylədikləri, doğrudan da, iki-üç ay əvvəl onun başına gəlmişdi. Lakin o vaxt onu Əlabbas yox, bir başqası təhqir etmişdi. Bundan sonra söylədiyi sözlər isə Teymur bəyin və vəkilin ona öyrətdikləri idi.

Hakim:

– O adam ilə sonra bir də görüşdünmü?

Ramazan:

– Görüşdüm. Mənim namusuma sataşan, papağıma gülən bir adamla mən görüşməyə bilməzdim. Damarında ləzgi qanı axan bir dağıstanlı bu namussuzluğa dözmədi. Çox axtardım, axırda bir dəfə onu başqa bir cavanla gördüm. Onlar



meyxanaya daxil oldular, xeyli gözləməli oldum, meyxanadan əvvəlcə yoldaşı, bir qədər sonra özü çıxdı. Dalınca getdim. Bir az sonra yaxınlaşıb düz qabağında dayandım. Məni dərhal tanıdı. Mən onu bərk döymək istəyirdim, lakin o imkan vermədi, dərhal tapançasını çıxarıb məni nişan aldı. Mən əlimi atıb tapançanın istiqamətini dəyişdim. Tapança onun əlində açıldı və güllə həmin adamın özünə dəydi.

– Həmin adam öldümü?

– Bilmədim. O yerə yıxıldı, mən uzaqlaşdım.

– Onun sifəti, boyu, geyimi xatırınızdadırmı?

– Ortaboy, sarışın bir cavan idi. Qaşının ucunda bir çapıq da var idi. Başına xurmayı dəridən bir papaq qoymuşdu.

– Məmmədağa müttəhimin təsvir etdiyi adam sizin Əlabbasdırmı?

– Bəli, sədr həzrətləri lap özüdür.

Bunu deyib, Məmmədağa Ramazana hücum etmək elədi. Məmmədağa ağzı köpüklənə-köpüklənə:

– Sədr həzrətləri bacım oğlunu öldürən bu adamı mənim ixtiyarıma ver, cəzasını mən özüm verəcəyəm.

Məmmədağanı güclə sakit etdilər. Hakim üzünü yanındakılara tutub:

– Məsələ aydındır. – dedi. – Məncə, şahidləri danışdırmağa ehtiyac yoxdur. – Sonra vəkilə müraciət edərək soruşdu:

– Siz danışmaq istəyirsinizmi?

– Bəli möhtərəm hakim istəyirəm, – deyə vəkil cavab verdi və natiq qurumu alaraq sözə başladı.

O birinci məhkəmədə söylədiyi nitqinə son hadisələri də əlavə etdi. Ramazanın bu işdə də müqəssir olmadığını vəkillərə məxsus bir inandırıcılıqla sübut etməyə çalışdı.

Son söz müqəssirə verildi. Ramazan Salman bəyi öldürməkdə haqlı olduğunu sübut etməyə çalışdı. Çıxışını bu sözlərlə bitirdi:

– Ağalar, mənə deyirlər ki, sən gərək onları öldürməyib, işlərini məhkəməyə verəydin. Məhkəmə Salman bəylər, bu gün adını öyrəndiyim Ələbbaslar üçün deyil, məhkəmə mənim kimi cibiboş, motalpapaqlar üçündür. Mən Salman bəyi öldürməsəydim siz məhkəmə üzvləri ona cəza verərdinizmi? O, bığlarını bura-bura papağını yan qoyub mənim qabağımda gəzəcək, mən də namussuz qardaş kimi onun yanından keçib gedəcək idim. Yox, yox bizim xalq bu namussuzluğa dözməz, məni ölüm qorxutmur, ürəyimi ağrıdan məni qurtarmaq ümidi ilə bütün var-yoxunu satıb vəkilə verən qoca ata-anamdır. İki oğlu və bütün var-yoxu əlindən çıxmış bu iki bədbəxt qoca necə yaşayacaq?

Ramazanın gözləri yaşardı. Sözünü qurtara bilməyib susmağa məcbur oldu. Məmmədağa özünü saxlaya bilməyib yerindən bağırdı:

– Ay köpəkoğlu.

Budəfəki mühakimə də Ramazana rəğbət şəraitində keçdi. Məhkəmə üzvləri qəsdən elə suallar verirdilər ki, bu sualların cavabları Ramazana ancaq mərhəmət və rəğbət doğururdu.

İstintaqdan sonra məhkəmə üzvləri məşvərət otağına keçdilər. Hamı səssiz, dərin intizar və həyəcan içində məhkəmənin qərarını gözləyirdi. Bir az sonra məhkəmə üzvləri salona daxil olub öz yerlərini tutdular. Hakim Ramazanı iyirmi il katorqa cəzasına məhkum edən qərarı oxudu. Qərar salondakıların alqışına səbəb oldu. Lakin Ələbbasın dayısı Məmmədağa yerindən sıçrayaraq:



– Yox, mən bu qərara razı deyiləm. O it oğlunu qoyun kimi şaqqalayacağam, – dedi.

O zaman ağızlarda dolaşan bu macəranı təfsilatı ilə mən həmin hadisənin yaxın iştirakçılarından birindən eşitmişdim. Köhnə Bakıdakı cinayətləri məhkəmələrin, çinovniklərin dövlətlilər əlində bir oyuncaq olduğunu, hər şeyin pul ilə ölçüldüyünü göstərmək üçün bu macəranı nağıl etməyi lazım bildim.

## XANIMAĞANIN FACİƏSİ

Bakıda qadınların vəziyyəti, cəmiyyətdə onlara münasibət Tiflisə nisbətən daha pis idi. Çoxarvadlılıq, qadına yüngül münasibət Bakıda daha dərin kök salmışdı. Xüsusən milyonların hesabına qudurmuş və əxlaqsızlaşan Bakı burjuaziyası qadın haqqında xüsusi bir siyasət yeridirdi. Onlar rəsmi olaraq evləndikləri müsəlman qadınlarına bir kəniz kimi baxır, onları hamıdan çarşab altında gizlədir, çarşabsız gəzməyi böyük həqarət sayır, digər tərəfdən qıraqda başqa arvad saxlayır, günlərini onlarla keçirirdilər. Onların bəzisi arvadlarının namusunu qorumaq üçün qapılarını qıfıllayır, ya da qapılarında qoçulardan bir nəfər gözətçi qoyurdular. Ancaq özləri gecə-gündüz kefdə, işrətdə, klublarda əyyaş qadınlarla gün keçirirdilər.

Qıraqda saxlanc arvad saxlamaq şöhrətbaz varlılar üçün bir adət olmuşdu. Onların saxlanc arvadları geyinib-kecinib, daş-qaşını taxıb küçəyə çıxanda baxanların gözü qamaşırdı. Milyoner Ağa Musa ilə milyoner Şəmsinin saxlancları geyinib-kecinməkdə bir-biri ilə yarışa girmişdilər. Yarışda milyonçu Şəmsinin saxlanc arvadı birinciliyi qazanmışdı. Gecə-gündüz zəhmət çəkməkdən ilan kimi qabıq qoyan, hətta canını belə çox zaman qurban verən fəhlələrə qarşı qıyımsız və xəsis olan mədənçilər saxlanc arvadlarına qarşı çox comərd və əliaçıq idilər.

Milyonçuların və sərvətdarların oğulları atalarının qoyduğu körpüdən keçib onların yolu ilə gedirdilər. Evlərində cavan, gözəl arvadları olduğu halda mehmanxana nömrələrində hərəsinin bir aşnası var idi. Onlar da ataları kimi öz aşnalarını təmtəraqlı geyindirməkdə bir-biri ilə yarışa girirdilər. Hətta deyilənlərə görə aşnalarına kağız pul ilə (əsginas) qaynanmış samovar çayı içirtməkdən də çəkinmirdilər. Onlar qumar başında beş manat pul üstündə bir-birini öldürür, maarif-mədəniyyət üçün isə pul sərf etməyə can çəkirdilər.



Yeniyetmə qızların ərə verilməsi də çox faciəli bir mənzərə təşkil edirdi. Qızın öz arzusu ilə ərə getməyə haqqı yox idi. Onun bütün ixtiyarı atasının əlində idi.

O zaman pul hər şeyi həll edirdi. Pulu olan insan idi, olmayan yox. Odur ki, mənfəətpərəst atalar heç nə ilə hesablaşmadan qızlarını adətən dövlətli adamlara ərə verirdilər. Bu isə 60-70 yaşlı, saqqallı, hənalı Məşədi İbadların 13-14 yaşlı qızlarla kəbin kəsdirməsi üçün çox münasib bir şərait yaradırdı. "Arşın mal alan" operettasında Soltan bəy boş yerə demir ki: "Mənim bu uçutel-muçutel, incinar-mincinar, doxtur-moxtur xoşuma gəlmir". Doğrudan da vəziyyət belə idi. Ziyalıları adam yerinə qoyanlar çox az idi. Onlar ancaq aşağı təbəqədən çıxmış az-çox oxumuş qızlarla evlənə bilərdilər.

Tiflisdə olduğu kimi biz Bakıda da tez-tez bir evdən başqa evə köçürdük. Bir müddət də Aşağı qəbiristan (Nijni kladbişşenski) küçəsində Kəblə Mirzənin evində yaşadıq. O, Bakının məşhur zərgərlərindən biri idi. Qocalıb gözləri işıqdan qaldığına görə zərgərlik sənətini atmağa məcbur olmuşdu. Öz adına olan "Mirzə hamamı"nı satıb pulunu xərclədikdən sonra maddi vəziyyəti çox çətinləşmişdi. Son zaman ağır güzəran keçirdiyindən ona "Lüt mirzə" deyirdilər. Qərib olduğumuza görə özü və ailəsi bizə çox hörmət edirdi. Kəblə Mirzə xoşsöhbət, gülərüzlü həm də nisbətən açıqfikirli bir şəxs idi. Anam ilə ailəsi o qədər

dostlaşmışdı ki, onu bir saat evdə oturmağa qoymurdular. Özü də arabir mənim yanıma söhbətə gəlirdi.

Kəblə Mirzənin evinə Fəridə adlı paltaryuyan bir dul arvad gəlirdi. Fəridə evlərdə çalışır, öz əlinin zəhməti ilə on beş yaşında olan qızını saxlayır, hara getsə onu evdə tək qoymayıb özü ilə bərabər aparırdı. Qızı anadan olmamış əri vəfat etdiyindən hamilə olduğu zaman ehtiyac onu evlərdə paltar yuyub işləməyə məcbur etmişdi. Bu ağır vəziyyətə baxmayaraq onun ən böyük arzusu oğlan doğmaq idi; ancaq arzusuna qovuşmayıb qız doğmuşdu. Fəridə qızı dünyaya gəldikdə oğul doğmaqdan ümidini kəsib ona həm oğlan, həm də qız adı olan Xanımağa adını qoymuşdu. Fəridəni istəyənlər oldu, ancaq o razı olmayıb deyirdi: "Xanımağa mənim həm qızım, həm də oğlumdur. Mən onu öz əlimin zəhməti ilə böyüdüb saxlayacağam".

Xanımağa on beş yaşına çatmış, camallı bir qız olmuşdu.

İyun ayının küləkli bir günü idi. Xəzri küləyi zibilli küçələrin toz-torpağını havaya sovurur; coşub daşan Xəzər dənizinin də nəriltisi hər yanı bürüyürdü. Şamaxı küçəsində böyük əllaf dükanı qarşısında eşşəkləri və arabaları ilə növbəyə durmuş olan müştərilərin səs-küyü küləyin vıyıltısına və dənizin nəriltisinə qarışmışdı. Bu zaman ortayaşlı, çarşablı bir arvad "dükan sahibi kəblə Əbdüləlini görəcəyəm", – deyə müştəriləri yara-yara irəliləyirdi. Ancaq müştərilər dükanın qabağını tutmuş olduğundan kəbleyini görə bilmirdi. Kiçik əllaflar çuval-çuval arpa, buğda və saman alıb arabalara doldurub və ya eşşəklərə yükləyirdilər. Çarşablı arvad bir qədər irəli soxuldu. Bir kişinin arxasından kəblə Əbdüləliyə diqqətlə baxmağa başladı. Kəbleyinin başı alverə bərk qarışmışdı. Köməkçisinin doldurduğu çuvalları qapana qoyub özü çəkdi. Çarşablı arvad kəbleyiyə doyunca baxdıqdan sonra geri çəkildi. Onun var-dövlətini bilmək üçün qonşu dükanlardan soruşdu. Dükançılardan biri qarnını sığallaya-sığallaya dedi:



– Dükan ağzındakı müştəriləri görmürsən? İçimizdə onun qədər qazanan yoxdur. O donuzdan da yağlıdır.

Kəbleyinin bir il idi arvadı ölmüş, əl-ayağına dolaşa biləcək qızını köçürmüşdü. Anası öləndən sonra oğlu da atasından ayrılıb başqa evdə yaşayırdı. Kəblə Əbdüləli bir də evlənmək istədi. Dərdini bacısına açıb dedi: "Bacı tək yaşaya bilmirəm, mənə cavan bir qız al". Bacısı ona çox dedi ki: "Ay qardaş, qocalmısan, yaşın altmışı keçib, sənə qız yaraşmaz, qoy sənə layiq bir dul arvad tapım". Kəbleyi razı olmadı. O iki ayağını bir başmağa soxub fikrində inad etdi: "Yox, Səkinə, dul almaram, mənə qız gərəkdir", – dedi.

Bir gün Fəridə qızı Xanımağanı da götürüb Səkinəgilin qonşusuna paltar yumağa gətirmişdi. Səkinə Fəridəni və qızını görüncə qardaşı Kəbleyinin tapşırığı yadına düşdü. Qıza müştəri gözüylə baxıb bəyəndi. Xanımağa qaraqaş, qaragöz, məlahətli bir qız idi. Bir bəhanə ilə qonşuya gəlib Fəridə ilə söhbətə başladı, qızın yaşını soruşdu. Sonra yavaş-yavaş Fəridəyə söz açdı. Xanımağanı qardaşı Əbdüləliyə almaq istədiyini bildirdi. Sonra əlavə etdi: "Qardaşımın əllaf dükanı aşıb-daşır, varlı-dövlətli, qurulu ev-eşiyi, həm də gözəl xasiyyəti var. İpək kimi bir insandır. Qoca olanda nə olar? Məsəldir: "Cavan yumruq yedirdər, qoca quyruq". Qızın qardaşıma getsə xoşbəxt olar".

Fəridə sevincək olmuşdu. Səhər gedib Kəblə Əbdüləlinin əllaf dükanını tapdı. Gələcək kürəkəninin alverini görüb qızını ona verməyi qərara aldı. İki gün sonra axşamçağı Səkinə Fəridənin evinə gəldi. Fəridə onu bir quda kimi qarşıladı. Səkinə razılıq aldıqdan sonra üç, dörd günə toy edəcək-

lərini bildirdi. Fəridə çox gözlədi, Səkinədən xəbər çıxmadı. O, elə zənn etdi ki, Kəbleyi razılıq verməyibdir. Öz-özünə deyirdi: "Hanı məndə bu baxt. Tək kişi idi. Qızımı da götürüb köçərdim evinə, birtəhər yaşayardıq".

Kəblə Əbdüləli isə başqa fikirdə idi. Qızın anasını evinə gətirmək istəmirdi. Ona görə də bacısı Səkinəyə: "Sənin onsuz da kişidən övladın yoxdur. Boşan, gəl mənim evimə, arvadıma göz-qulaq ol", – deyirdi. Bacısı isə razı olmur, "Mən öz ərimi, ev-eşiyimi atmaram", – deyirdi. Qardaşı ona acı-acı tənələr vurdu, çox çalışdı, çox kələklər qurdu, axırda bacısını ərindən boşanmağa məcbur etdi.

Kəbleyinin bacısı boşanıb qardaşı evinə gəldikdən sonra, Fəridənin yanına gedib sabah qızı aparmaq istədiklərini bildirdi. Fəridə razı oldu. Kəbleyi qoca olduğuna baxmayaraq dəbdəbəli bir toy etdi. Fəridə düşünürdü ki, "kürəkənim qızı evdə tək qoymaz, bir həftəyə qədər məni də aparar". Ancaq çox gözlədi, gözlədiyi gözündə qaldı. Kəbleyi birinci gündən bacısına bərk-bərk tapşırdı: "Bacım, Xanımağanı həyətə qonşu arvadları ilə, suçu ilə, nöyütçü ilə danışmağa qoymayacaqsan. Hamama da özün aparıb, özün gətirəcəksən".

Anası ilə evlər gəzən, az-çox insan üzü görən Xanımağaya Kəbleyinin evi zindan oldu. Baldızının hər saat, hər dəqiqə: "Pəncərədən baxma, qapıya çıxma, suçuya görünmə, həyətə niyə boylanırsan, fikrin nədir?" – deyə Xanımağaya dediyi sözlər qızın qəlbini neştər kimi deşirdi. Xanımağa düşündü ki, bəlkə bunlar hamısı baldızının işləridir. Gecə Kəbleyiyə baldızını şikayət edib məsələləri açdı. Kəbleyi acıqlı-acıqlı: "Yaxşı eləyir, mən tapşırmışam, elə də lazımdır. Cavan arvad gərək öz namusunu özü saxlasın, baldızıvun sözündən çıxsan...", – deyə ona gözlərini ağartdı. Həmin gecə



Xanımağa yorğan-döşəkdə gözlərinin yaşını silə-silə yatdı. O, dərdlərini açıb söyləmək üçün anasının yolunu gözləyirdi. O, isə gəlib çıxmırdı. Çünki adətə görə kürəkən qayınanasını qonaq çağırıb ayaqaçdı etməli idi. Fəridə yenə çox gözlədi. Kürəkəni tərəfindən bir hərəkət görmədi. Nəhayət, ana ürəyi tap gətirməyib qızını görməyə gəldi. Qız iki qolunu açdı, anasının boynuna sarılıb ağladı.

Fəridə pərişan oldu. Onun gözləri doldu. Boğunuq səslə:

– Qızım, niyə ağlayırsan? Nə olub ki? – deyə soruşdu.

Baldızı tez cavab verdi: "Bir aydır səni görməyib, ürəyi kövrəlibdir, yoxsa Allaha şükür, nə olacaq, yeyir, içir, geyir". Fəridə istehza ilə: "Taxsır kimdədi? Gərək kürəkənim ayaq açmaq üçün əvvəlcə məni qonaq çağıraydı, mən də gələydim. Eh, kasıb olanda kürəkən də adamı saymır", – dedi.

Fəridə xeyli oturdu. Baldız onların yanından ayrılmadı. Gözlərini onların ağzına dikib durdu. Fəridə Xanımağanın ürəyində gizlin bir dərd olduğunu hiss etdi. Xudahafizləşib gedərkən qızının şüşəbəndə çıxmayıb otaqda görüşməsi onun şübhəsini daha da artırdı.

Fəridə gecəni qovrula-qovrula səhər etdi. Ana qəlbi dayanmadı. Qızının halını bilmək üçün onların həyətinə gəldi. Üzr istəyib, qonşulardan birinin evinə girdi. "Mən Kəblə Əbdüləlinin qaynanasıyam", – dedi. Arvadlar maraqlanaraq ona yer göstərdilər. Fəridə oturdu. O, sözə başlamadan əvvəl ev sahibi gülə-gülə dedi:

– Ay arvad, qızın adamayovuşmazdır. Bir aydı gəlib, bir dəfə üzünü də görməmişik.

Qoca arvad əlavə etdi:

– İki dəfə baldızı ilə hamama gedəndə görmüşəm. Onda da çarşafda. Elə bürünmüşdü ki, gözlərini də görmək olmurdu.

Fəridə bu töhmətlərlə razılaşmadı:

– Görünür əri qısqancdır, bayıra çıxmağa, qonşuya getməyə qoymur. Yoxsa mənim qızım istiqanlı, adama qarışıb qatışandır.

Qoca arvad başını bulaya-bulaya:

– Hə, hə yaxşı tapmısan, – dedi, – Kəbleyi çox əzazil kişidir, rəhmətlik Nisəni də bir yerə buraxmazdı. Biz otuz il onunla qonşu olduq, bir gün də bizimlə oturub danışmağa qoymadı.

Fəridə iki əli ilə dizlərinə vurdu:

– Yazıq balam... hisliklə, pisliklə saxladım. Axırda öz əlimlə balamı oda saldım.

Ev sahibi Fəridənin dərdini bir az da artırdı:

– Ay bacı, bəs bacısı Səkinəni ərindən boş yerə boşatdırıb evinə gətirdi? Onu sənin qızına gözətçi qoyubdur. O Səkinə də Səkinədir, rəhmətlik Nisənin başına od ələyirdi. Dağ kimi arvadı dağladıb öldürdü. Mən bilirəm yazıq qızın onun əlindən nə çəkir. Hələ Nisənin anasını evdən qovmuşdu. Qızıyla görüşməyə qoymurdu. Kişinin boyu bərabəri oğlu və qızı var. Analarını incidib öldürdüyünə görə heç biri atasını danışdırmır. Ah bilsən, yazıq Nisə onları nə əziyyətlə böyüdüb boya-başa çıxartdı.

Fəridə gözlərinin yaşını silə-silə:

– Yaxşı deyiblər: "Yetim yarımaz, yarısa da qarımaz". İndi mən başıma nə kül töküm? Balamı bu odun içindən necə qurtarım?

Fəridə ordan birbaşa Kəblə Mirzənin arvadının yanına gəlib əhvalatı olduğu kimi başdan-başa nağıl etdi. Sonra ağlaya-ağlaya dedi:

– Başına dönüm, mənə bir çarə göstər, indi mən neyləyim? Balamı o zindandan necə qurtarım?



– Bir az səbir elə, qoy görüm nə olur? – deyə Kəblə Mirzənin arvadı Fərideni sakit etmək istədi. Fəridə fəryad qopartdı:

– Yox, mən səbir edə bilmərəm. Mənim kasıb evimdə qızın sifəti gül kimi açılmışdı. İndi görsən, tanımazsan. O gül üzü sapsarı zəfərana dönübdür. Yazıq qız getmirdi, zornan verdim.

Üç gün sonra Fəridə yenə qızını görməyə getdi. Səkinə yenə gözünü onların ağzına dikib yerindən tərpənmədi. Axırda Fəridə səbir edə bilməyib dedi:

– Səkinə, bəlkə, ana-qız səndən gizlin bir sözümüz var, mən gələndə sən bizə göz verib işıq vermirsən.

– Sizin məndən gizlin nə sözünüz ola bilər? – deyə Səkinə çox ötkəm bir cavab verdi.

Fəridə onu başdan əkmək məqsədilə:

– Səkinə, ürəyim yanır, bir stəkan çay hazırla.

Səkinə onun fikrini anlayıb gülə-gülə:

– Fəridə bacı, ev işləri qızına baxır, mən qardaşımın evində ancaq tamaşaçıyam, – deyə cavab verdi.

– Tamaşaçı yox, gözətçi. Kəblə Əbdüləli səni ərindən boşadıb qızımın üstündə gözətçi qoyub.

– Bunu sənə kim dedi?!

– Divarın da qulağı var, bunu bütün şəhər danışır. Mən qızımı ərə vermişəm ki, ağ gün görsün, zindanda dustaq olmağa verməmişəm. Mən buna razı olmayacağam.

– Razı olmayıb nə edəcəksən, əlindən nə gəlir? Çox üzlülük eləyərsən, qızının evindən ayağını kəsərəm.

– Dünya başlı-başına deyil ki, mənə də Fəridə deyərlər, – deyə Fəridə ayağa qalxdı. Xanımağa gözləri yaşlı anasına sarılıb, yalvara-yalvara dedi:

– Qurban olum, ay ana, məni də apar.

Səkinə qızın qolundan çəkib onu yan tərəfə itələdi. Sonra ağzı köpüklənə-köpüklənə bağırdı:

– Ər evinə gələn köpəkqızı evində oturar.

– Ey, ağzını yığışdır. Köpəkqızı sənsən, – deyə Fəridə bu sözlərdən sonra üzünü qızına tutub dedi:

– Xanımağa, çarşabını sal başına, gedək.

Qız çarşabını gətirdi. Səkinə cəld ayağa qalxıb çarşabı Xanımağanın əlindən alıb yerə atdı, özünü də itələyib o biri otağa saldı.

Fəridə ağlaya-ağlaya evə qayıtdı.

Axşam Kəblə Əbdüləli evə gələndə bacısı gündüzkü əhvalatı təfsilatı ilə ona söylədi. Kəbleyi iri, enli qaşlarını çataraq mızıldandı:

– Atası evində görmədiyini görüb, qudurubdur, yeyib, içib harınlayıb. Onun bir az tovunu almaq lazımdır.

Bu sözləri deyib Kəblə Əbdüləli qıza hücum etdi. "Köpəkqızı, sənə deməmişəm ki, mənim evimdən bayıra çıxmayacaqsan?" – qıza bir-iki ymruq da vurdu.

Səkinə aranı bir az da qızışdırmaq istədi.

– Anası ağzını çox dağıtdı, qovdum, bir də bu qapıya gəlmə dedim.

– Yaxşı eləmisən, elə aralıq arvadlarını mənim evimə qoyma.

O gündən Səkinənin zülmü daha da artdı.

Xanımağa arabir oturub ağlaya-ağlaya oxuyurdu:

Qız idim, soltan idim.
Nişanlandım xan oldum.
Ərə getdim qul oldum,
Tazılara çul oldum.

Qız bu əzablara tab gətirmədi, bir gün Səkinə eşiyə çıxanda Xanımağa çarşabını başına salıb həyətdən qaçdı.



Səkinə gəlib qızı çox axtardı, tapmadı. Bildi ki, qaçıbdır. Əhvalatı tez qardaşına xəbər verdi. Kəblə Əbdüləli məhəllə polis idarəsinə getdi, rəisə pul basıb arvadını gətirməyi ondan xahiş etdi. Rəis Xanımağanı gətirmək üçün iki polis göndərdi. Polislər bir az sonra qızı qabağına salıb gətirdilər. Kəbleyi Xanımağanı qabağına salıb evə gətirdi, onu Səkinəni əlinə tapşırıb, dükana qayıtdı.

Ana, qız üç il ah-vay və fəlakət içində həyat keçirdi. Dördüncü il Xanımağa bərk xəstələndi, yorğan-döşəyə düşdü. Həkimsiz, müalicəsiz qalan gəlin vərəmdən vəfat etdi. Səkinə həmin gün Fəridəyə xəbər göndərdi. Bir saat sonra Xanımağanın gəlinlik evindən Fəridənin ürək yandıran ağıları, fəryadları eşidilirdi.

## QANLI FİTNƏ

1904-cü ilin yay tətilində bacımı görmək üçün anam ilə bərabər Tiflisə getdim. Yay tətilini bacım Ruqiyyə və dayım qızı Nüşafərin ilə Qarakilisdə keçirdik. Palos adlı qoca bir erməninin həyətində iki otaq tutduq. Hamı ona Palos baba deyirdi. Palos babanın Liza adlı bir qızı Bakıda yaşayırdı. Liza da həmin yayı üç uşağını da götürüb ata-anasını görmək üçün Qarakilisə gəlmişdi. Palos baba xoşsöhbət bir qoca idi. O, Azərbaycan dilini, mahnı və bayatılarını heyrət ediləcək qədər yaxşı bilirdi. Gecələr həyətdə oturub şirin söhbətlər edir, arabir mahnı oxuyub bizi əyləndirirdi. O, bizi birinci gündən kirayənişin kimi yox, qonaq kimi qəbul etmişdi. Bizə əlindən gələn hörməti əsirgəmirdi. Hətta gecələr azərbaycanca uzun və maraqlı nağıllar da danışırdı.

Həyətin baş tərəfində yeri yaşıl yonca ilə örtülmüş böyük bir alma bağı var idi. Palos baba bir gün bütün ailəmizi o bağa apardı. İri almaların yaşıl budaqlardan sallanışı bağın gözəlliyini bir qat daha artırmışdı. Bağı gəzib qayıdarkən Palos baba dedi:

– Gedincəyə qədər bu bağı sizə verirəm, hər gün palaz salıb oturun, istəyirsiniz lap yeməyinizi də burada yeyin.

İki böyük ailə həmin yayı bir ailə kimi olduqca şən keçirdik. Dörd tərəfdən meşəli dağlarla qucaqlanmış Qarakilis təbiətcə gözəl bir kənd idi. Gündüzlər və axşamlar "Semeyni sad" dedikləri bağçada stansiya parkında gözəl havalar çalınır, hər gün bacım və dayım qızı ilə bərabər gedib musiqidən zövq alırdıq. Gömrüdən (indiki Leninakandan) ora bir erməni qızı gəlmişdi. O, elə incə bir çiçək idi ki, onu görən gənc, yaşlı qadın və erkək gözlərini o qızın üzündən ayırmaq istəmirdi. Xüsusən gənc tələbələr onun ətrafında pərvanə kimi dolaşırdı. Hüsnilə məğrur olan bu gözəl qız – bu gözəl Anuş ipəkli günlüyünü əlində saxlayaraq hər kəsin qarşısından etinasız axıb gedirdi. Mən də ona vurulmuş bəxtiyarlardan biri idim. Onu gördüyüm zaman göylər başıma dönər, yer ayaqlarımın altından qaçar kimi olurdum. Mən həyatımda məhəbbətin qüdrətini ilk dəfə dərindən ancaq o zaman hiss etmişdim.

Bu eşq macərasını "Qarakilis xatirələri" adlı hekayədə təsvir etmişəm. Qarakilisdəki hissiyatıma tərcüman olan bir neçə şeir yazmışdım. Daha sonra "Gömrü çiçəyi" yaxud "Qarakilis xatirəsi" başlıqlı bir mənzumə də yazdım. Həmin mənzumə belə başlayırdı:

Bu dörd fəsildə könüldən fəda olum yayə,
Mənim güzarımı saldı Qarakilisayə.
Həqiqi cənnət idi ormanı, dağı, dərəsi,



Edərdi fəxr gözəllikdə ərşi-əlayə.
Çiçəkli bağçası vardı, geniş xiyabanı,
Kim toplanırdı hamı o səfalı məvayə,
Çalırdı çalğı, qız, oğlan həvəslə oynardı,
Durardı seyrə dalanlar bütün tamaşayə,
Nə gördüm orda: bir ahu baxışlı, rəna qədd,
Ki tellərini yığıb başlamışdı qövsayə.
Baxıb o hüsni-camala deyirdim, eşq olsun,
O incə fırçalı rəssamə, mahir ustayə.

Qarakilisdən ayrılmaq zamanı gəlmişdi. Palos baba çox qəmgin görünürdü. Yola düşdüyümüz vaxt o, gözlərindən axan yaşı silə-silə bizə yanaşdı, kövrək səslə:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı,
Gəlişin çox gözəldir,
Gedişin olmayaydı –

bayatısını oxudu. Bizim ilə bir ata kimi görüşdü, hər il Qarakilisə gəlməyimizi xahiş etdi.

Biz o mehriban ailədən, xüsusən həmişə qayğımıza qalan Palos babadan dərin həsrət və kədərlə ayrıldıq.

***

Rus-yapon müharibəsi davam edirdi. Yeni müstəmləkə qazanmaq məqsədilə xalqı qırğına verən bu müharibənin ağırlığı və inqilab hərəkatının getdikcə daha da şiddətlənməsi çar mütləqiyyətini qorxutmuşdu. İnqilabın qarşısını almaq üçün müxtəlif tədbirlər görülür, çarələr düşünülürdü. O tədbirlərdən biri də ermənilər ilə müsəlmanlar arasında milli ədavət törədib, əsrlərdən bəri qardaş kimi yaşayan bu iki xalqı bir-birinə qırdırmaq idi. Nəhayət, çarizm bu qara

fikrini həyata keçirməyə müvəffəq oldu. 1905-ci il inqilabı ərəfəsində iki dost və qardaş xalqın tarixində fitnəkarlıqla törədilmiş, həmişə nifrətlə yad ediləcək bir faciə baş verdi.

Səhər tezdən Sabunçuya dərsə getmişdim. Evə qayıtdığım zaman şəhərdə böyük qarışıqlıq düşdüyünü eşitdim. Anamın təbiətini bildiyim üçün tez özümü evə çatdırmalı idim. Qatara minib şəhər stansiyasına gəldim. Ermənilər və azərbaycanlılar vağzalda baş-başa verib: "Canım, bu nə işdir? Biz ki, qədimdən bəri qardaş olmuşuq", – deyə bir-birilə dərdləşir və fitnəkarların dalınca söylənirdilər. Mən evə getmək üçün çarə düşündüm. Bir kişi mənə yaxınlaşaraq:

– Bacıoğlu, mədəndən gəlirsən? Deyəsən evə getməyə qorxursan. İstəyirsən mən aparım, – dedi.

Onun məni mədən sahiblərindən hesab etməyini bilib səsimi çıxarmadım. İstər-istəməz onunla getməyə razı oldum.

Yola düşdük, hər gün küçələrdə ox kimi gözümüzə batan qaradovoy və kazaklardan əsər belə görünməyirdi. Mən həyatımla oynadığımı yola çıxdıqdan sonra anladım. Atılan güllələr arasından dolaşıq küçələrlə gedib Tatar küçəsinə çatdıqda böyük bir yığıncağa təsadüf etdik. Kişi üzünü mənə tutub:

– Daha qorxma, bundan o yana bizimkilərdir, – dedi. Bu zaman dörd-beş atlı kazak göründü. Onlar çox kasıb geyinmiş bir ermənini qabaqlarına salıb gətirirdilər. Yığıncaqdakılardan qoçuvəz bir adam kazakların qabağına yeriyib onları saxladı. Sonra cibindən pul çıxarıb kazaklara verdi.

Bir kişi:

– Bax, kazaklara pul basıb yazıq erməninin başını əkmək istəyir, – dedi.

Bu zaman kazaklar atlarını qamçılayıb gözdən itdilər.



Camaat həyəcan içində idi. Hamının bu günahsız adama ürəyi yanır, ona kömək etmək istəyirdi.

Bu zaman bir nəfər erməniyə hayan durub:

– Öldürməyə qoymaram, neçə vermisən, pulunu verirəm, – deyə ermənini kazaklardan alan qoçuya müraciət etdi. O, dəhşəti görməmək üçün oradan tez uzaqlaşmaq istəyirdim. Buradan evə getməyin o qədər qorxulu olmadığını bildiyimdən cibimdə olan iyirmi beş manatı çıxarıb məni gətirən kişinin ovcuna qoyaraq dedim:

– Əmi, çox sağ ol, mən özüm gedə bilərəm.

O, acıqlı baxışlar ilə məni süzərək, pulu ovcuma qoyduqdan sonra:

– Atam yoxdur, mən kasıb bir müəlliməm. Varım-yoxum da budur ki, sənə verirəm, – deyə pulu ona qaytardım. O, pulu könülsüz alıb başını bulaya-bulaya getdi. Mən də uzaqlaşmaq istəyəndə yenə erməniyə hayan duran adam bağırdı: "Vallah, qoymaram öldürəsən. Al, bu da sənin pulun!.." Bu qışqırıq bir vicdan nidası kimi qulaqlarımda səsləndi. Bu saat anamın nə halda olduğunu bilə-bilə, işin nəticəsini öyrənmək və erməniyə kömək məqsədilə geri döndüm. Ermənini öldürmək istəyən cibindən bir dəstə pul çıxardıb:

– Ey, mənə pul göstərmə! Bax, sənin də qan bahanı verə bilərəm, – dedi. Bu sözdən sonra o biri kişi acı bir cavab versəydi, böyük vuruşma olacağı şübhəsiz idi. Yaxşı ki, o çox yumşaq və mehriban bir səslə:

– Nə deyirəm, allah daha da artıq eləsin, oğlanlarının toyunda xərcləyəsən, – deyə cavab verdi. Sonra əlini onun çiyninə qoyub əlavə etdi: – Mən sənə pul göstərmirəm. Bilirəm çox comərd oğlansan. Səni kim tanımır? Mən deyirəm

ya o kazakalara verdiyin əlli manatdan keç, ya pulunu al, bunu mənə bağışla!

– Yox, sənə bağışlamaram. Bağışlardım, ancaq sən mənim qabağıma iddia ilə çıxmısan.

Adamlardan biri dedi:

– Yaxşı, ona bağışlamırsan, Ağakişiyə bağışla.

Ağakişinin adını eşidən kimi kişinin qolları yanına düşdü. İçində doğan adi bir dəyişiklikdən siması başqa rəngə girdi. Əlini ermənini çiyninə qoyub:

– Daha qorxma, sən Ağakişinin qonağısan. Heç köpəkoğlu sənə bir söz deyə bilməz, – dedi.

Erməninin ətrafına yığılmış və onu hər vasitə ilə bu nadanın əlindən xilas etməyə çalışan azərbaycanlılardan ibarət bu insan toplusu sevinc içində çalxalandı.

Oradaca öyrəndim ki, Ağakişi qoçuvəz adamın oğludur. Erməni sağ əlini onun belinə keçirib:

– Başına dolanım, Allah sənə kömək olsun, – deyə xeyirdua verirdi. Adamlardan biri haradan gəldiyini və kazaklarla necə dostlaşdığını soruşdu.

– Mən konduktoram. Konkada işləyirdim. Dava başlananda bir podyezdə girib gizləndim. Qorxdum məni görüb öldürərlər. Gördüm kazaklar gedir. Onların arasına girib yalvardım: "Məni qurtarın, yoxsa öldürəcəklər". Onlar razı olmadı. Bilet satmışdım. Sumkada 12 manat pul vardı. (Bu sözləri o elə tövr və hərəkətlə dedi ki, qələbəlik gülüşdü). Pulu çıxardıb onlara verdim. Məni bura qədər gətirdilər. Sonra qoyub qaçdılar. Onlar elədir. Öz işləri xarabdır, ona görə bizləri vuruşdururlar.

Bir nəfər:

– Bəs çantan hanı?

– Vay, onu da aparmışlar, – deyə cavab verdi.



Erməninin sevinci yerə-göyə sığmırdı. Mən ondan xatircəm olduqdan sonra yola düzəldim.

Evə yetişdiyim zaman qardaşım evdə yox idi. Anam da başını açıb ağlayır, qonşu arvadlar da ona təsəlli verirdi. Qapıdan içəri girincə qardaşımın rəfiqəsi: "Muştuluğumu ver, Abdulla gəldi", – deyə bağırdı. Anam məni görüncə qollarını boynuma salıb öpdü, qoxuladı, sonra boğunuq səslə:

– Bu vaxta qədər hardasan? Məndə can qalmadı, bir az da gec gəlsəydin ölmüşdüm, – dedi. – Qardaşın ora-bura telefon etməkdən yorulub. Məktəbdən cavab verdilər ki, burdan çoxdan çıxıb. Sabunçu vağzalına zəng etdik, orda da olmadın. Bakı vağzalında da yox idin.

Mən hər an, hər dəqiqə gözümün qabağına ölümü gətirərək, qorxu və həyəcan içində gəlib öz anama qovuşmuş, onun göz yaşlarını qurutmuşdum. Ancaq nə qədər erməni, azərbaycanlı oğlanlarının ata-anası, bacı-qardaşı göz yaşı töküb ağlayır, əbədi olaraq öz əzizlərindən ayrılıb və bu qırğına səbəb olanları qarğışlayırdı.

Bakıda iki xalq arasında törədilən ədavətin əsas səbəblərindən biri Azərbaycan və erməni burjuaziyası arasında iqtisadi rəqabətin getdikcə şiddətlənməsi idi. Çar hökuməti isə bu rəqabətdən öz məqsədi üçün, alovlanmağa başlayan inqilabı söndürmək üçün istifadə etmişdi.

Qanlı fitnə üç-dörd gün davam etdi. Bu odu söndürmək üçün küçələrdə bir nəfər polis və kazak belə görünmürdü: onlar milyonçu Tağıyevləri, Mantaşovları və onların malikanələrini mühafizə edirdilər. Arada müsəlman millətçilərinin və erməni daşnaklarının fitnəsinə uymuş əlsiz-ayaqsızlar tələf olurdu. Buna baxmayaraq əsrlərdən bəri qardaş kimi yaşayan, bir-birinə "can" deyib, "can" eşidən erməni və azərbaycanlıların böyük bir hissəsi bu qırğında iştirak etmir,

ermənilər azərbaycanlıları, azərbaycanlılar isə erməniləri müdafiə edib öz evlərində saxlayır, onları burjuaziyanın quyruğu olan qoçuların və daşnakların şərrindən qoruyurdular.

Məhəlləmizdə Hüseynqulu adlı igid, comərd, xalq arasında sözü ötən bir nəfər var idi. Onunla görüşərək, məhləmizdə yaşayan erməniləri müdafiə etməyi xahiş etdim.

– Bu çirkin, qanlı işə bizim məhəlləmizin əli bulaşmasın gərək! – dedim.

Hüseynqulu mənimlə razılaşdı:

– Mənim də fikrim odur, arxayın olun, bu xüsusda Balabəy ilə birlikdə tədbir görmüşəm. Mən öz məhləmizdən arxayınam. Qorxuram ki, başqa məhəllələrdən gələn qoçular bizdən xəbərsiz qətl-qarət eləsinlər. Ona görə də bu dava qurtarmayıncaya qədər bizim və bizə yaxın məhəllələrdə erməni ailələrini azərbaycanlı ailələrində yerləşdirmək lazımdır.

Razılığa gəldik. Onun tapşırığı ilə ayrı-ayrı evlərdə yaşayan iki böyük erməni ailəsini biz öz evimizə köçürdük. Dava qurtarıncaya qədər bizim evdə qaldılar. Hüseynqulunun[24] və Balabəyin[25] köməyi ilə, bizim məhləmizdə bir erməninin də burnu qanamadı.

Əmin-amanlıq bərpa olunduqdan sonra qonaqlarımız bizdən razılıq edib evlərinə köçdülər. Sülhün birinci günü Qarakilisdə evində yaşadığımız Palos babanın qızı Liza qapıdan girdi. Biz bir hadisə üz vermiş olduğunu düşündük və çox qorxduq. O, bizim həyəcanımızı görüb:

---

[24] Şair Süleyman Rüstəmin dayısıdır.

[25] Süleyman Rüstəmin xalası əridir.



– Qorxmayın, – dedi, – bizim ailəmiz də salamatdır. Bu neçə gün mən sizi düşünmüşəm. Gecələr gözlərimə yuxu getmirdi. Çox şükür sağ-salamatsınız.

Çar mütləqiyyətinin 1905-ci il inqilabı ərəfəsində hazırladığı və sonralar davam etdirməyə çalışdığı erməni-müsəlman qırğını hər iki qardaş xalqın arasındakı tarixi dostluğu poza bilmədi. Hər iki xalq əvvəllər olduğu kimi yenə mehriban yaşayır, bir-birinin qayğısına qalır, çarizmə qarşı mübarizədə də birgə iştirak edirdilər.

1905-ci il yay tətilini ana və bacımgil ilə birlikdə Gürcüstanın təbiətcə zəngin və məşhur qalası olan Suramda keçirdik. Gürcü dili bilmədiklərindən anam və bacım özlərinə həmsöhbət tapa bilmədilər.

Gəldiyimizin ikinci günü parkda oturub musiqi dinləyirdim. Haman skamyada mənimlə birlikdə səliqəli geyinmiş cavan bir gürcü də oturmuşdu. Bir qədər musiqini dinlədikdən sonra o mənə yaxınlaşaraq:

– Bizim havalar xoşunuza gəlirmi? – deyə soruşdu.

Mən:

– Xoşuma gəlir, – deyə cavab verdim.

Bundan sonra aramızda söhbət qızışdı. O, məndən kim olduğumu, haradan gəldiyimi soruşdu. Müəllim olduğumu öyrəndikdən sonra mənə daha da yaxınlaşaraq: "Mən də müəlliməm", – dedi. Hər ikimiz əlimizi uzadıb tanış olduq. Adı Vaxtanq, familiyası Mikadze idi. Məktəb və müəllim həyatından uzun-uzadı danışdıq.

Bir neçə gün sonra bacım da bir erməni ailəsi ilə tanış olmuşdu. Ailə üzvləri gözəl azərbaycanca danışırdılar. Qadının əri hər şənbə günü işini qurtarıb gəlir, bazar ertəsi yenə Tiflisə qayıdırdı. Bizdən dörd-beş ev o yan olurdular. Bacım onlara öz evlərinin ünvanını vermiş, şənbə günü əri gələn kimi onu da götürüb gətirməsini xahiş etmişdi. Bir şənbə axşamı artırmada oturub çay içirdik. Pilləkəndə ayaq səsi və ermənicə danışıq eşidildi. Az sonra ucadan erməni ləhcəsilə:

– Qonaq istəmirsiniz, – deyə bir səs ucaldı.

Onları qarşılamaq üçün ayağa qalxarkən anam hamıdan əvvəl:



– Qonağı kim istəməz, xoş gəlmisiniz, – deyə qonaqları qarşıladı. Görüşüb tanış olduq.

Kişinin adı Sandro, arvadının adı Sofya idi. Qonaqlara çay tökməsi üçün anam başı ilə bacıma işarə edərkən Sandro gördü. Tez ucadan:

– Bacı, mənim çayımı bir az tünd elə, – deyə bacımın dalınca səsləndi.

Qonaqların azərbaycanca bilməsi anamın kefini yaman açmışdı. Bunu hiss edən Sandro üzünü anama tutub dedi:

– Ana, Tiflisdə bizim müsəlman tanışlarımız çoxdur. Onlar Sofiyaya Sona xanım deyirlər.

– Bala, elə bu cür yaxşıdır, adamın dili də yatır, – deyə anam məmnun halda cavab verdi.

Söhbət əsnasında Sandro ermənilərlə azərbaycanlıların dostluğundan, hər iki xalqın musiqisinin bir-birinə çox yaxın ruhda olmasından, Şərq musiqisindən, xüsusən Azərbaycan xalq mahnılarından son dərəcə xoşlanmasından danışdı. Həmin günü çox şən keçirdik. Axıra yaxın bacım qarmon çaldı.

Sandronun xahişinə görə sabah onu da evlərindən götürüb parka getdik. O, mənə üç yaşında olan oğlundan, anasından və onların arasında olan məzəli işlərdən şirin-şirin danışıb gülürdü. Bir az sonra Mikadze də gəldi. Mənimlə görüşərkən onu Sandro ilə tanış etdim.

Günlər keçdikcə bizim dostluğumuz da möhkəmlənirdi.

Mikadze həmişə Suramda olduğundan onun ilə hər gün görüşürdüm. Onu gürcü dostları "knyaz" deyə çağırırdılar. Bir gün o əynindəki vəznəli çərkəzini göstərib bunun səbəbini belə izah etdi.

– Vəznəli knyaz çərkəzini geydiyim üçün dostlarım mənə zarafat ilə knyaz deyirlər. Bir də mənim adım Vaxtanqdır.

Vaxtanq da gürcü tarixində bir knyaz adıdır. Yoxsa mən knyaz-minyaz deyiləm.

Bir gün Sandro yenə gəlmişdi. Suramda bir çalğı dəstəsi olduğunu haradansa öyrənib günortaya vədəsini almışdı. Mikadzeyə də xəbər verdik. Bizim təklifimizi Knyaz məmnuniyyətlə qəbul etdi. Kabab üçün hazırlıq görüb ailəmizlə bərabər yaxın meşəyə getdik.

Çalğı dəstəsi gürcü və ermənilərdən: zurna, tar, kamança və xanəndədən ibarət idi. Vaxtanq bu dəfə arvadını da gətirmişdi. Xanəndə erməni idi. O, həm gürcü, həm də erməni mahnılarını oxuyurdu. Sandro azərbaycanca muğamat oxumağı təklif etdi. Xanəndə cavab vermədi. Sandro ucadan: bir segah oxu, – deyə xanəndəyə müraciət etdi. Tar, kamança dilə gəldi, ancaq xanəndə oxumaq istəmədi. Qaşqabağını tökərək:

– Mən müsəlman mahnılarını oxumuram, – dedi.

Sandro məsələni başa düşüb qəzəbləndi:

– Ay qanmaz, beş-on dənə sənin kimi lotu-potu Nikolayın hiyləsinə inanıb bu iki dost xalqın arasında o qırğını saldı. Burada mənim, ya da o müsəlmanların nə xətası var?

Sonra əli ilə məni göstərib:

– Mən erməni olduğum halda bax bu müsəlmanı yüz dənə elə erməniyə dəyişmərəm, – dedi. Mikadze də Sandronun sözlərinə qüvvət verdi. Sandro ilə Mikadzenin izahatlarından sonra xanəndə, nəhayət, bir segah, bir neçə Azərbaycan mahnısı oxudu. O günümüz çox xoş keçdi. Xəyalımda dərin izlər buraxan həmin tarixi günü və o silinməz xatirəmi heç bir zaman unutmaram.



***

Bakıya qayıdarkən Hacıqabul stansiyasında yenə şəhərdə erməni-müsəlman nifaqı başladığını öyrəndim. Hamı həyəcan içində idi. Şeylərimizi vaqondan düşürüb stansiyada qalmağa qərar verdik. Stansiya rəisi çox mərhəmətli bir gürcü idi. Ailəmizin stansiyada qalmasına razı olmayıb bizi öz evinə apardı. Gecəni onun evində keçirdik. Özü, arvadı və baldızı bizə çox hörmət etdi və həyəcan kəsilincəyə qədər onların evində qalmağımızı xahiş etdilər. Otaqları azlıq etdiyindən rəisin və ailəsinin istirahəti pozulmuşdu. Bunu hiss edərək, biz də rahatsız olduq, orada qala bilmədiyimizi bildirdik. Rəis və ailəsi bizi buraxmırdı. Çox üzr gətirib, onları birtəhər razı saldıq. Hayıf ki, mən o qayğıkeş və nəcib insanın adını, familini unutmuşam.

Bakıda Şamaxı müəllimlərindən Əlicabbar Orucəliyevin ailəsilə iki il bir həyətdə qonşu olmuşduq. Bu iki ailə bir-birinə o qədər səmimi bağlanmışdı ki, analarımız bir-birinə bacı, Əlicabbar ilə mən də bir-birimizə xalaoğlu deyirdik. Anamın israrı ilə Şamaxıya getməyə qərar verdik. Hərəkət edərkən Əlicabbara teleqraf vurduq. Keçmişdə Azərbaycanın sənət və mədəniyyət ocağı olan, Xaqani, Fələki, Bahar və Seyid Əzim kimi böyük və klassik şairlər yetişdirən Şamaxı şəhərini görmək ən böyük arzum idi. Beş-altı gün Əlicabbarın evində qaldıq.

Bakıda baş verən milli nifaq Şamaxıda hər iki dost xalq arasında böyük həyəcana səbəb olmuşdu. Bakıda Yeganov familyalı bir erməni ailəsi ilə ailə dostluğumuz var idi. Əlicabbar da o ailəni tanıyırdı. Mənim xahişimlə Yeganovları görmək üçün Əlicabbar ilə birlikdə şəhərin erməni hissəsinə getdik. Bizi görüb dostlarımız çox şad oldu və Bakıda baş ve-

rən hadisələrə çox təəssüf etdilər. Şamaxıda bu fitnənin baş verməməsi üçün müəllimlərlə birlikdə təbliğat apardıq.

Əlicabbar boylu-buxunlu, xoşsima və məşhur bir müəllim idi. Müəllim olmaqla bərabər olduqca cəsur və mərd bir insan, gözəl bir natiq idi. Əlicabbarın apardığı təbliğat daha çox təsir edirdi.

İstər Hacıqabul stansiyasında, istər Şamaxıda çox çalışdıq, yenidən başlanan fitnənin necə və nə üçün meydana çıxdığını öyrənə bilmədik. Bakıya qayıtdıqdan sonra ancaq məsələnin əsas köklərini öyrənə bildim.

## İNQİLAB DALĞALARI

İnqilab birdən-birə başlamadı. Bakıya köçdükdən sonra az sonra, xüsusən 1901-ci ildən etibarən Bakıda bir-birinin ardınca fəhlə tətil və nümayişləri keçirilmişdi. Çar üsul-idarəsinin amansız istibdadı, kapitalistlərin acgözcəsinə istismarı və V.U.Leninin o zaman Rusiyada fəhlə hərəkatına rəhbərliyi Bakıda nümayiş və tətillərin getdikcə inqilab dalğaları şəklinə düşməsi üçün zəmin hazırlayırdı. Tətillər hələ mütəşəkkil şəkildə keçirilməsə də, ziyalıların nəzərini cəlb edirdi. Mən hələ bu çıxışlara müəyyən bir təşkilat tərəfindən rəhbərlik edildiyini bilirdim. Lakin fəhlə sinfinin, ümumiyyətlə, zəhmətkeş xalqın istibdada, mövcud quruluşa qarşı hər bir etirazı demokrat ziyalılara çox xoş təsir bağışlayırdı. Fəhlə tətil və nümayişlərinin sayı artır, nə isə xalqda, ziyalılarda azadlığa doğru böyük bir ehtiras oyanmağa başlayırdı.

Təxminən 1903-cü ilin sonlarında Məmmədbəy adlı bir tanışım yanıma gəldi. O, rus ordusunda zabit idi. Oturub bir az danışdıqdan sonra həftədə üç dəfə ona fars dilindən dərs



verməyimi xahiş etdi. Mən səbəbini soruşdum. O, belə cavab verdi: "Xüsusi əmr var ki, hamı fars dilini öyrənsin. Kim öyrənsə rütbəsi artacaq. Mən də ona görə oxumaq istəyirəm." Mən razı oldum. O, günaşırı yanıma gəlib fars dilini çox həvəslə öyrənir və dərslərini gözəl hazırlayırdı. Bir-iki ay dərsə davam etdi, sonra birdən gəlmədi. Zənn etdim ki, o artıq oxumaq istəmir. Bir həftədən sonra Məmmədbəy gəldi və gülə-gülə:

– Bilirəm nigaran qalmısan, – dedi, – gəldim ki, əhvalatı danışıb səni arxayın eləyim. Hökumətimiz Şərq ölkələri ilə maraqlanırdı. Ona görə bütün zabitlərə, xüsusən müsəlman zabitlərinə fars dilini öyrənmək əmri verilmişdi. İndi isə vəziyyət dəyişib. İngilis siyasətçiləri Yaponiya ilə birlikdə işləri elə qurdular ki, bizim üzümüzü Şərqə çevirdilər. Yaponiya ilə müharibə gözlənilir. Odur ki, bizim diviziyanı da Port-Artura göndərirlər. Bu günlərdə hərəkət edəcəyik.

Bu görüşdən sonra, 1904-cü ilin yanvarında Rus-Yapon müharibəsi başlandı. Qəzetlər yapon donanmasının Port-Artur qalasına qəflətən hücum etdiyini, Rusiyanın bir neçə gəmisini batırdığını və Yaponiya ilə müharibəyə başladığını xəbər verdi. Müharibəyə bütün Rusiyada olduğu kimi Azərbaycan fəhlələrindən də əsgər göndərilirdi. Çar hökuməti bu müharibədən ölkədəki inqilabi əhvali-ruhiyyəni söndürmək üçün də istifadə edirmiş.

Uzaq Şərqdə yeni müstəmləkə qazanmaq məqsədilə başlanan bu qanlı müharibənin xalq üçün heç bir xeyri yox idi. Odur ki, inqilabi və demokratik mətbuat müharibə əleyhinə məqalələr yazır, vərəqlər nəşr edir, ordu içində qızğın təbliğat aparır və bu müharibədə çar hökumətinin məğlub olmasına çalışırdı.

Azərbaycanda yerli fəhlələrlə bərabər demokratik ruhlu ziyalılar da gündən-günə artır və inqilab işlərində fəal iştirak edirdilər. Çar hökumətini istər demokratik ruhlu, istərsə də millətçi ziyalıların artması və tutduqları xətti-hərəkət qorxudurdu. Əvvəlləri mütəəssib ruhanilərdən hürkmüş olan çar hökuməti indi onlarla barışmış, bu dəfə hər yerdə ziyalıları şiddətlə izləməyə başlamış və mühüm tədbirlər görmüşdü. Deyilənləri təsdiq edəcək vəsiqələrdən biri də Rusiya daxili nəzarət, polis şöbəsinin üçüncü kargüzarlıq dairəsinin 1900-cü ildə dekabrın 31-də 13421 nömrəli təhrirat ilə Gəncə valisinə göndərilən müraciətnamənin xülasəsidir. Müraciətnamədə deyilirdi: "Gəncə qubernatoru həzrətlərinə! Polis departamentində olan məlumata görə son zamanlarda tatar ədəbiyyatında (o zaman azərbaycanlılara "tatar" deyilirdi - müəllif) yeni bir cərəyan müşahidə olunur. Bu cərəyan Rusiya tatarları və müsəlmanları həyatında böyük bir dəyişiklik vücudə gətirəcəyindən bizim üçün çox təhlükəlidir. Bu qorxu əvvəllər yeni üsul ilə təlim dairəsində idi. Bu da 1884-cü ildə krımlı İsmayıl bəy Qaspirinskinin sövti üsul üzrə yazmış olduğu qiraət kitablarından ibarət idi. Bu kitablar oxumaq və yazmağı az zamanda öyrətdiyindən hər yerdə sürətlə yayılır; bu sürətlə təlim işləri ruhanilərin əlindən alınaraq gənc müəllimlərə təslim edilir; fikri və ictimai inqilab yaradan, yeni ədəbiyyata icrayi təsir edən yeni tərəqqipərvər bir zümrə meydana gəlir. Tatarlar arasında yenilik və köhnəlik tərəfdarı olan iki zümrə arasında kəskin mübarizə davam edir. Köhnələr bizim üçün faydalı olmadığı kimi, yenilər də çox qorxuludur. Çünki onlar Rusiyadan ayrılmaq fikridədirlər. Ona görə də hərəkətləri, onların izlədikləri fikri və qayəni tədqiq və təhqiq edərək aydınlaşdırmanızı departament zati-alilərindən rica edirik. Bizə tapşırılmış vilayətdə,



müsəlman əhalisi içərisində yeni tərzdə əsər yazan ədəbiyyat xadimlərini öyrəniniz! Onların şəxsiyyətləri haqqında, ictimai və mülki vəziyyətləri xüsusunda müsəlmanlar arasında qazanmış olduqları mövqeləri və harada təhsil aldıqları xüsusunda məlumat toplayınız! Müdir: Julyanski Kargüzar: Letyujnikov".

Bu təhrirat ilə bərabər başqa əmrlər də verilmişdi. Bu səbəblərə görə idi ki, azərbaycanlı fəhlə və kəndlilərlə bərabər tərəqqipərvər ziyalılar da çar hökumətinə və üsuli-idarəsinə qarşı dərin kin və nifrət bəsləyir, eləcə də Azərbaycan sərvətdarları çar siyasətinə qarşı hərəkət etməyə məcbur olurdu. Müxtəlif fikirli sinif və zümrələrin məqsədi çar üsuli-idarəsini yıxmaq, yerinə öz iqtisadi və ictimai mənafelərinə müvafiq yeni bir üsuli-idarə qurmaqdan ibarət idi. Bu vəziyyət "millətçilik" və "vətənpərvərlik" hissi oyatmışdı. Öz iqtisadi vəziyyətini doğrultmaq üçün millətçilik və vətənpərəstlik sərvətdarların, mütərəddid ziyalıların əlində ən kəskin bir silah idi.

Rus-Yapon müharibəsi çarizmin məğlubiyyəti ilə qurtardı. Lakin bu müharibə də inqilabi hərəkatın gücünü zəiflədə bilmədi.

1905-ci ilin əvvəllərində artıq Rusiyada gündən-günə genişlənən inqilabın təsiri ilə Bakıda da fəhlə tətilləri qüvvətlənir, sayca artırdı. Biz ziyalılar ancaq bu zaman fəhlə sinfinin gücünü, qüdrətini dərk etməyə başladıq.

1905-ci il inqilabı çarizmi titrətdi, onu böyük bir vahiməyə saldı. Odur ki, o təcili olaraq heç bir zaman görmədiyimiz bəzi azadlıqlar verməyə məcbur oldu. Çoxdan arzusunda olduğumuz mətbuat, söz, vicdan və sairə azadlıqlar əldə etdik. Çarizmin hiylə olaraq işlətdiyi bu tədbirləri mən o zaman böyük bir xeyirxahlıq kimi qəbul etdim. Bir çox mü-

asirlərim kimi mən də hürriyyət haqqında şeirlər yazmağa başladım. Mirzə Cəlilin dediyi kimi, bu dövr elə bir dövr idi ki: "əsrin padşahının başını xoruza oxşadıb şəklini qəzetlərə vururdular". Belə bir dövrdə biz də cəsarətə gəldik, bizi düşündürən məsələlərdən yazıb-yaratmaq istədik. Lakin bir qədər sonra aydın oldu ki, bunlar hamısı kələk və fırıldaq imiş!

***

Bakı mətbuatı Rusiyadakı inqilabi hərəkatı çox geniş işıqlandırırdı. Artıq 1905-ci ilin sonlarına doğru inqilab dalğaları bütün ölkəni bürümüş, kəndlərə və ordu içərisinə qədər yayılmışdı. Bu zaman Qaradəniz və Kronştadt bəhriyyəlilərinin çox qüvvətli üsyanı oldu. Bu üsyan yatırılmamış ümumi posta və teleqraf tətilləri başladı.

Peterburq fəhlə təşkilatı inqilabi hərəkatın mərkəzi idi. Hökumət özünü bu ağır vəziyyətdən qurtarmaq üçün parlament çağırmaq və məclisi-məbusan layihəsini hazırlamağa məcbur oldu. Layihədə fəhlələr seçki hüququndan məhrum edilmişdi. Sosialist partiyaları buna qəti surətdə etiraz etmişdilər. Keçən ili başdan-başa tətillər ilə keçirmiş olan Rusiya yeni tətillərin meydanına çevrildi, payızda ali məktəblərin çıxışları oldu, Oktyabrın əvvəllərində Peterburq və Moskvada başlanmış tətil dairələri genişlənərək başqa şəhərlərə də keçdi.

Çarizm vəziyyətin son dərəcə ağırlaşdığını görüb xüsusi tədbirlər gördü. Oktyabrın 17-də xalqa müraciətlə manifest verdi. Həmin manifestdə xalqa söz, mətbuat, yığıncaq, vicdan azadlığı, məclisi-məbusun üzvlərinə yeni hüquqlar vəd edildi. Manifestdən sonra müxtəlif firqələr və siyasi qruplar tərəfindən yeni qəzetlər, məcmuələr, kitabçalar, intibahnamələr nəşr edilir, həbsxanalardan siyasi dustaqlar buraxılır, küçələrdə al bayraqlar ilə böyük izdihamlı nümayişlər keçirilir, yığıncaqlar təşkil edilirdi; çar üsuli-idarəsi əleyhinə atəşin nitqlər söyləyir, hər firqə öz şüar və məramnaməsini açıqdan-açığa elan edirdi. Bakıda bir-birinin ardınca külli miqdarda müxtəlif məsləkli qəzet və məcmuələrin çıxması da bu dövrə təsadüf edir.

1905-ci il inqilabı bütün sinif və zümrələrə, partiya və siyasi qruplara öz fikirlərini, öz məramnamələrini elan etməyə imkan vermişdi. Ziyalılarda nə isə bir ruh yüksəkliyi, coşqunluq, ümid hiss edilirdi. Dövlət idarəsində xidmət etmək, öz mədəniyyətini inkişaf etdirmək imkanından məhrum edilmiş qabaqcıl Azərbaycan ziyalıları da bu inqilaba coşqun bir sevinclə sarıldı.

İnqilab Rusiyada olduğu kimi Azərbaycanda da bir çox sinif və zümrənin ruhunu oxşayan bir inqilab oldu. Bu mübarizədə ayrı-ayrı sinif və zümrələr iqtisadi və ictimai vəziyyətlərini doğrultmaq üçün inqilabdan istifadə etmək istəyirdi. Hətta zahirdə inqilabda iştirak etmirmiş kimi yerli sərvətdarlar da bu inqilaba böyük ümid bağlamışdılar. İnqilabdan onlar öz siyasi mənafeləri üçün istifadə etməyə, hüquqlar qazanmağa, öz mövqelərini möhkəmlətməyə çalışırdılar. Lakin inqilabın ciddi şəkil aldığını görüncə onlar hər cür demokrat tədbirlərdən üz döndərdi, irtica cəbhəsinə keçdilər. Nümayiş və çıxışların qüvvətləndiyi dövrdə Azərbaycan burjuaziyası, o cümlədən bir çox xırda burjuaziya ünsürləri açıqdan-açığa çar hökumətini müdafiəyə qalxmışdı. Hətta Bakı sərvətdarlarından bir neçəsi inqilab illərində ətrafına qaragüruhçu dəstələri, qoçu və veylləri toplayıb, əks-inqilabi bir nümayiş təşkil etmiş, nümayişçilər əllərində "yaşasın padşahımız" sözləri yazılmış bayraqlarla rus kilsəsinə gedib

müsəlmanların padşaha sadiq olduqlarına dair nitqlər söyləmiş, keşiş ilə öpüşmüş və bununla da hökumətə sadiq olduqlarını bildirməyə çalışmışdılar.

Fəhlə nümayişlərinə qarşı çevrilmiş belə padşahpərəst çıxışlardan birinə Sabunçu məktəbindən, dərsdən qayıtdığım zaman rast gəldim. Bakıda ümumi tətil elan edilmişdi. Lakin nədənsə Bakı dəmiryolçuları bu tətildə o gün iştirak etmirdilər. Odur ki, nümayişə çıxmış fəhlələr mənim mindiyim qatarı daşa basır, qatarın hərəkətini dayandırmağa çalışırdılar. Sərnişinlər qorxularından skamyanın altında gizlənmişdilər. Qatar böyük çətinliklə Bakı stansiyasına yetişdi. Qatara minib Telefonnı küçə ilə (indiki 28 Aprel küçəsi) evə qayıdarkən, Qaraşəhərdən gələn fəhlə nümayişi ilə padşahpərəst izdihamın üz-üzə gəldiyini gördüm. Padşahpərəstlər Nikolayın rəsmini uzun bir ağacın başına keçirib dəstənin qabağında aparırdılar. Fəhlələr dərhal Nikolayın rəsmini atəşə tutdular, qızğın atışma başladı. Konka iki atəş arasında qaldığından dayanmağa məcbur oldu. Sərnişinlər dərhal konkadan düşüb hərə bir yerdə gizləndi. Mən də bir neçə sərnişinlə qaçıb yaxınlıqdakı un anbarına girdik. Çox çəkmədi ki, küçə polis və atlı kazak dəstələri ilə doldu. On dəqiqə sonra atışma kəsildi. Mən un anbarından çıxdığım zaman nümayiş etmiş fəhlələr öz əvvəlki təmkinləri ilə küçə boyu irəliyə doğru yeriyirdi. Kazaklar nümayişçilərin yanı ilə gedir, onlara mane olmağa cəsarət etmirdilər.

Bu nümayiş mənə fəhlə sinfini, zəhmətkeşlərin gücünə böyük inam doğuran ilk hadisələrdən biri idi.

Evə axşam 8 radələrində çatdım. Anam taxtında oturub uşaq kimi ağlayırdı. Məni görüncə qucaqlayıb öpdü, sonra qəti şəkildə dedi:



– Ac qalacağam, ancaq səni bir də o məktəbə getməyə qoymayacağam.

Dərs dediyim üçüncü gimnaziya evimizə uzaq olduğundan o qarışıq zamanlarda gedib-gəlmək qorxulu idi. Küçələrdə tez-tez atışmalar olurdu. Ona görə də 1906-cı təhsil ilində gimnaziyadan istefa verib Bakı realni məktəbində dərs götürdüm.

Oktyabr inqilabına qədərki dövrdə heç bir siyasi, ictimai hadisə bizim fikri inkişafımıza, ədəbiyyatımızın tərəqqisinə 1905-ci il inqilabı qədər təsir etməmişdi. Mən 1905-ci il inqilabının şahidi olmuşam və heç bir vaxt o hadisənin o zaman Azərbaycanda, Bakıda əmələ gətirdiyi oyanmanı, təlatümü, yeniliyi, azadlığa doğru olan meyli yaddan çıxara bilmirəm. 1905-ci il hadisələri elə bil bizim gözümüzün qabağındakı pərdəni qaldırdı. Məndə və mənim bir çox yoldaşlarımda yazmağa, yaratmağa, söz deməyə yeni qüvvə, yeni energiya yaratdı. Hərə öz gücünə görə, öz bacarığına görə xalqa xidmət etməyə, onun tərəqqisinə kömək etməyə başladı. 1905-ci ildən sonra ədəbi həyatımızda əmələ gələn inqilab – bu həqiqətən inqilab idi, – 1905-ci il inqilabı ictimai-siyasi həyatın bütün sahələrində olduğu kimi, mədəniyyət aləmində də bir intibah yaratdı. Azərbaycan ziyalılarının öz qüvvələrini birləşdirməsinə, qabaqcıl mədəniyyət uğrunda birgə mübarizə aparmasına, gələcəkdə də bu mübarizəni davam etdirməsinə səbəb oldu.

# İLK ƏDƏBİ FƏALİYYƏTİM

1905-ci il inqilabından hava və qida alaraq mən də yeni həyata və onun kəskin silahı olan ədəbiyyata qızğın və təmiz bir ürəklə sarıldım. Siyasi savadı az və qəlbi sadə bir gənc olduğumdan mən də bir çoxları kimi verilmiş azadlığın əbədi olacağına inanıb o gündən vətənimə bir müstəmləkə, özümə və xalqıma da çar hökumətinin əli-dili bağlı köləsi kimi deyil, vətənimə azad bir ölkə, özümə isə azad bir vətəndaş kimi baxmağa və gələcəyə sağlam və parlaq ümidlər bəsləməyə başladım. Əfsus ki, bu "azad və bəxtiyar günlərin" ömrü az oldu. Atalar doğru deyib: "Dadanmış qudurmuşdan da yaman olur". Xalqları ağır boyunduruq altında əzməyə alışmış çar mütləqiyyətinin vermiş olduğu azadlıq yerinə yenə də istibdad kabusu bütün qüvvəti ilə hakim olaraq əzici, boğucu qara qanadlarını üstümüzə sərdi. Azadlıq tərlanı qonan ağaca yenə zülm və istibdad bayquşu qondu. Dil və qələm damğalandı.

Ancaq tarix və zaman öz işini görmüşdü. Azadlıq zövqünü dadmış və yeni cərəyana girmiş olan dil və ədəbiyyat fəaliyyətdən geri qalmadı. Şairlərimiz, yazıçılarımız qapalı və açıq olaraq öz fikirlərini yaymaqda davam etdilər. O zaman mən də əsrimin şairləri kimi uçurmuş olduğumuz sevimli azadlığı və başımız üzərində bizi qamçılamaqda olan istibdad bayquşunu şeirlərimdə, əsərlərimdə tərənnüm və təsvir edərək, "Niyə uçdu?", "Zamanın inqilabçılarına", "Yad et", "Hər şey köhnə", "Hamımız bir günəşin zərrəsiyik" və "Simurq quşu" sərlövhəli azadlığı tərənnüm edən, gələcəyə böyük ümid bəsləyən şeirlərimi yazdım.

Həyat vücuddursa, dil və ədəbiyyat onun qəlbidir. Vücud xəstə olarsa ruhun da, qəlbin də ondan mütəəssir olacağı qətidir. Dil, vicdan azadlığı olmayan istibdad dövründə yazmış olduğum bəzi şeirlərimdəki bədbinlik, şübhə və kədər bundan irəli gəlirdi.



Ədəbi fəaliyyətə başladığım ilk illərdə məni ən çox məşğul edən sahələrdən biri xalq ədəbiyyatı idi. Folklora hələ uşaq ikən məndə ilk dəfə maraq oyadan Yusif əmi olmuşdur. Borçalı qəzasının mərkəzi olan Sarban kəndindən gəlmiş bu kimsəsiz, yoxsul qocanı atam bir ata kimi sevir və ona çox hörmət edirdi. O, bizim evdə ancaq bazar işlərini görürdü. Yusif əmi hər gecə bizə şirin-şirin nağıllar danışır, çox qəribə tapmacalar söyləyirdi. Onun danışdıqlarını böyük həvəslə dinləyirdim. Ancaq çox kiçik olduğumdan söylədiyi nağılları lazımınca öyrənə bilmədim. Sonralar Məhəmməd əmimdən və qulluqçumuz Məşədi Pəridən öyrəndiyim nağıllar məndə folklora olan marağı daha da qüvvətləndirdi. Bakıya köçdükdən sonra xalq ədəbiyyatını daha ətraflı öyrənməyə başladım. Bildiyim nağılları, tapmacaları, bayatıları və atalar sözlərini bir böyük dəftərə yazdım. Yay tətili zamanı müxtəlif qəzalardan gəlmiş tələbələr evlərinə qayıdarkən onların hər birinə bir dəftər verib xalq nağılları, atalar sözləri və tapmacalar yazıb gətirmələrini tapşırdım. Bununla da kifayətlənməyib, Cənubi Azərbaycan folklorunu toplamaq məqsədilə divar diblərində oturub özlərini günə verən bir neçə qoca hambal ilə tanış oldum. Xörək bişirtdirib onları bir neçə dəfə evə apardım. Onların söylədiklərini dəftərə köçürtdüm.

O zaman Tiflisdə Baş Maarif şöbəsinin tapşırığı ilə gürcü, erməni və azərbaycan müəllimləri tərəfindən rusca yazılmış xalq ədəbiyyatı nümunələri kitab şəklində nəşr edilmişdi. Realni məktəbin müəllimlərə məxsus kitabxanasından onları bir-bir alıb oxuyurdum. Bu sayaq bir çox nağıl, minə

qədər atalar sözü, beş-altı yüz tapmaca və minə qədər də bayatı toplamışdım. Uzun tədqiqatdan sonra, Orucovlar tərəfindən nəşr olunan "İqbal" qəzetində birinci olaraq el ədəbiyyatına dair bir neçə məqalə çap etdirdim.[26]

Sonralar topladığım el ədəbiyyatı nümunələrini, yazmış olduğum dəftərlərin bir qismini folklorçu Hümmət Əlizadəyə verdim. O biri dəftərlərimi isə oxuyub istifadə etmək üçün alanlar qaytarmadılar. Məndə ancaq bir qədər qaralama qalmışdır.

Xalq şairləri, el aşıqları öz fikirlərində və dastanlarında Çavanşir, Babək, Koroğlu, Kərəm, Nəbi, Həcərlər kimi xalq qəhrəmanlarının sarsılmaz iradə və cəsarətini, mətin xarakterlərini canlı boyalar ilə bədii şəkildə əks etdirmişlər. Zəngin Azərbaycan folkloru Azərbaycan tarixinin bir hissəsini təşkil edir. Xalq, bədii ədəbiyyat öz qüvvəsini bir tərəfdən folklordan almışsa, lirik ədəbiyyatımızın ustadı olan Füzuli, Vaqif, Vidadi kimi böyük klassik şairlərimizin sevgi, gözəllik, əxlaq və humanizmi tərənnüm edən əsərləri də Nizami, Məshəti, Xaqani kimi şairlərin təsiri ilə müəyyənləşmişdir. Bu iki böyük ədəbi qüvvət Azərbaycan xalqının əsas xarakterini yaratmışdır. Folkloru öyrənmək mənə xalq dilini, xalq zövqünü, xalq adət və ənənələrini öyrətdi. Hər şeydən çox xalqımı və vətənimi daha dərindən sevdirdi.

Bakıda müəllimliyə başladıqdan sonra ədəbiyyatımızı öyrənməyə müşahidə və tədqiq etməyə başladım. İlhamını xalqdan alan, xalqın dilini, xalq şeirini, vəzni və şəkillərini əsas olaraq qəbul edən Vaqif, Vidadi və Zakirin şeirləri məndə daha gözəl təsir oyatdı. Vaqif Azərbaycan şeirini təqlidçi

[26] "Dilimiz və ədəbiyyatımız" adı ilə çap olunmuş məqalə nəzərdə tutulur. "İqbal" qəzeti, 18, 21 oktyabr 1913-cü il, № 483, 485



şairlərin təsirindən qurtaran, öz mühitini coşqun və səmimi duyğularla tərənnüm edən, xalqçılığı, realizmi ibtidai tərzdə olsa da ilk dəfə ədəbiyyatımıza gətirən şairdir. Onun şeirlərində hər şey sadə, hər şey adi görünməklə bərabər, dağ çeşmələri qədər təmiz və səmimidir. Onun şeirləri rəng, qoxu və hərarətini yalnız öz mühitindən, Azərbaycanın zəngin təbiətindən və gözəlliklərindən alır.

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası hayıf ki, yoxdur.
Üzü tər cıqqalı, siyah tellərin,
Hərdən tamaşası hayıf ki, yoxdur.

Ucu əşrəfili bulud kimi saç,
Dal gərdəndə hər hörüyü bir qulac.
Kəlağayı gülgəz, qəsəbə, qıyqac
Altından cunası hayıf ki, yoxdur.

Çünki yorğunuyam mən bu yolların
Qaydasın bilirəm hər üsulların.
Gümüş biləklərin, bəyaz qolların,
Sarı kəhrəbası hayıf ki, yoxdur.

Vaqifin təsvir etdiyi bu gözəllər sinif ədəbiyyatı[27] ("klassik ədəbiyyat" deməkdir). Şairlərini ümumi sifətlərlə anlatmaqda olduqları simasız, cansız, əfsanəvi şərq gözəlləri deyildir, onlar Azərbaycan gözəlləri, Qarabağ gözəlləridir. Çünki şair ilham və qüvvətini həyatda və təbiətdə gördüyü, duyduğu gözəlliklərdən alır; həyata və təbiətə olan açıq baxışı da gözəlliyə olan qızğın və səmimi eşqindən doğur.

[27] Burada epiloqçu formalist şeir mənasında işlənmişdir.

Vaqif, Vidadi ədəbi məktəbini davam etdirən Zakir də mənzum ədəbiyyatımıza ilk dəfə satirik realizmi gətirmişdi.

Heyf ki, Vaqif, Vidadi və Zakirlə başlanan bu sağlam cərəyanı daha genişlətmək, daha dərinləşdirmək, mühit və zamana görə onu daha yeniləşdirmək lazım gəlirkən sxolastik mədəniyyətin təsiri altında olan, yeni həyat və mühiti, xalqı və onun zövqünü tanımaq istəməyən şairlərimiz sinif şairlərini ziyalı təsirlərindən qurtara bilməyib, yenə əsirlərdən bəri çeynənməkdə olan köhnə klişeləri bütün sönüklüyü və zəifliyi ilə bərabər tənqid və təkrar etməkdə davam edirdilər.

Feodalizm münasibətlərinin kapitalizm münasibətləri ilə əvəz olunmağa başladığı bu keçid dövründə iqtisadi və ictimai amillər, həyati görüş və sinfi ideologiyalar bir-birindən fərqli olduğundan ədəbiyyat da iki cərəyana ayrılaraq yan-yana yaşamağa davam edirdi. Birinci, son günlərini yaşayan "klassizm"dən, ikinci Mirzə Fətəli Axundovun ədəbiyyata gətirmiş olduğu satirik realizmdən ibarət idi. Birincilər sönməkdə olan zadəganlığın ideologiya və psixologiyasını mənzum olaraq: qəzəl, qəsidə, mərsiyə, məsnəvi şəkillərində tərənnüm edir; ikincilər xalqın, gündən-günə canlanmaqda olan xırda burjuaziyanın həyata olan görüş və münasibətini hekayə və dram tərzlərində göstərirdilər. Birincilərin əsərləri kağız parçaları üzərində qalaraq həvəskarlar arasında oxunur, qoltuqlarda dolaşır, geniş xalq kütləsi içərisinə yol tapa bilmirdi. İkincilərin əsərləri isə "Əkinçi" qəzeti mətbəəsinin şriftlərini almış olan Bakı vilayəti qubernatorluğunun mətbəəsində, ya da daş basma ilə təb və nəşr edilib geniş yayılırdı. Birincilərin Bakıda son qafiyəsi: Mirzə Həbib Qüdsi, Əbdülxalıq Cənnəti, Yusif Cənnəti, Ağadadaş Müniri, Azər və başqaları idi. İkincilər Mirzə Fətəli Axundovun ədəbi məktəbini davam etdirən: Nəcəfbəy Vəzirov,



Nəriman Nərimanov, Əbdürrəhimbəy Haqverdiyev, Süleyman Sani və başqaları idi. XX əsrin böyük simaları hələ məşhurlaşmamışdılar, əsərləri meydanda deyildi. Vaqif və Vidadi ilə başlanan ən parlaq mənzum ədəbi cərəyan heyf ki, inkişaf etməyib yalnız el aşıqlarına məxsus olaraq qalmaqda idi.

Qəzəl və qəsidə dövrü çoxdan keçmiş olduğundan birincilərə yaxınlaşmadım. İkincilərə gəldikdə, bu yazıçılarımızdan ilk dəfə Nəriman Nərimanovun əsərlərini oxudum və o zaman bu əsərlərin dili mənə çox qəribə göründü. N.Nərimanovun dili sadə olsa da, cümlələrinin quruluşunda Azərbaycan dili üçün təbii olmayan rus dili qrammatikasına məxsus cəhətlər var idi. Sonralar Nəcəfbəy Vəzirovun, Ə.Haqverdiyevin Süleyman Saninin əsərlərini oxuduqda Nəriman Nərimanovun əsərləri haqqında olan fikrimi dəyişdim. Anladım ki, bu yalnız Nərimanova məxsus olmayıb. Azərbaycan mühitində rus məktəblərinin təsiri altında yaranmış müəyyən bir dövrün bədii məhsulunun dilidir. Rus məktəblərində təhsil almış bu yazıçılar rus ədəbi dilinə məxsus sadəliyi, bədiiliyi dilimizə gətirməklə yanaşı, bəzən, istər-istəməz forma xüsusiyyətlərini də gətirir, bu isə nəticə etibarilə iltisaqi dillərə daxil olan Azərbaycan dilinin təbiiliyinə xələl gətirirdi. Yeri gəlmişkən deməliyəm ki, eyni dil xətaları təhsillərini fars və ərəb dillərində almış yazıçıların əsərlərində də nəzərə çarpırdı. Bu nöqsan nədən irəli gəlir? Bu ondan irəli gəlir ki, fars və ərəb dilləri də rus dili kimi eyni quruluşlu dillər sisteminə yəni inkisari dillər sisteminə daxildir. Bu dillərdə kəlmələrin kökləri dəyişib şəkilçilər başa, ortaya və sonlara gətirilir. Bundan əlavə Azərbaycan dili nəhvi dildir, rus, fars və ərəb dilləri isə sərfi dillər zümrəsindəndir. Azərbaycan cümlə quruluşu ilə rus, fars və ərəb

cümlə quruluşlarında olan fərq də bundan irəli gəlir. Məsələn, farsca və ərəbcə təhsil almış yazıçıların danışıq və yazı dilləri ilə, rus məktəblərində təhsil almış yazıçılarımızın dili arasında cümlə quruluşu etibarilə heç bir əsaslı fərq yoxdur. Ona görədir ki, mürəkkəb cümlələri ruscadan farscaya, ərəbcəyə kəlməsi-kəlməsinə tərcümə etmək mümkün olduğu halda, Azərbaycan dilinə tərcümə edildiyi zaman cümlənin quruluşu tamamilə dəyişməli olur.

O zamankı əsərlər içərisində ən çox xoşuma gələn "Məhəmməd şah Qacar" ilə "Dağılan tifaq" dramları idi. Bu əsərlərin ruhu da, qəlbi də baş qəhrəman rolunu ifa edən mərhum artist Ərəblinski idi. O, öz sənətini sevən ciddi və qiymətli bir sənətkar idi. Türk səhnəsi həyatında məktəb müəssisəsi idi ki, sonra gələn artistlərimiz ondan çox şey almış və onun məktəbini davam etdirmişdilər.

Dil etibarilə nəzərimə çarpan nöqsanlarına baxmayaraq, realist ədəbiyyat o zaman ədəbi inkişafımızda çox böyük rol oynayırdı. O vaxta qədər mən də yalnız qəzəl yazmaqla az-çox təcrübə qazanmışdım.[28] Bu əsərlərlə az-çox tanış olduqdan sonra qələmimi bu yolda sınamaq fikri ilə İranın ərəblər tərəfindən fəthinə dair "Rüstəmi-səbati" adlı bir faciə və məktublardan mütəşəkkil bir roman yazdım. Ancaq hər iki əsərimdə müvəffəqiyyət qazanmadığımdan onları nəşr etdirmədim.

[28] İlk qəzəllərimi "Valeh" təxəllüsü ilə yazırdım.



## "FÜYUZAT" MƏCMUƏSİ

1905-ci il inqilabı ərəfəsində Azərbaycanda çox gərgin, inqilabi coşqunluqla dolu, siyasi hadisələrin tez-tez dəyişdiyi bir vəziyyətd yaranmışdı. Bu dövr Rusiyada yaşayan müxtəlif millətlərin, o cümlədən Azərbaycan xalqının milli azadlıq uğrunda cəsarətlə mübarizəyə qalxdığı bir dövr idi. Sərmayəsinə güvənən, artıq öz hakimliyini hiss etməyə başlayan və qazandığı müvəffəqiyyətdən məst olan yerli burjuaziya coşub-daşır, köhnə qınına sığmaq istəmirdi. Ticarət və sənaye kapitalizmi Bakıda sürətlə irəliləyirdi. İqtisadi və ictimai vəziyyəti tez-tez dəyişən, az zaman içərisində müxtəlif sinif və siyasi zümrələri öz içərisində əridən gənc Azərbaycan burjuaziyası və onun ideologiyasını təbliğ edən millətçi ziyalılar hələ aydın sinfi görüşə, müəyyən fikir və psixologiyaya malik deyildi.

Bu zaman Bakıda daşnakların və gürcü menşeviklərinin əks-inqilabi təşkilatları öz fəaliyyətlərini davam etdirir, yerli irticapərəst ziyalıların sərvətdarlar ilə birlikdə təşkil etdikləri "Difai" adını daşıyan terror dəstəsi inqilabçılara qarşı vuruşmalar hazırlayırdı.

Azərbaycan burjuaziyası inqilabın əmələ gətirdiyi şəraitdən istifadə edərək öz mətbuatını da yaratmağa başlamışdı. Az zaman içərisində, inqilab illərində külli miqdarda müxtəlif məsləkli qəzet və məcmuələr çap olunmağa başlamışdı. 1905-ci il inqilabına qədər mətbuatımız 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən Bakıda nəşr edilən "Əkinçi" qəzeti, sonra Ünsizadə qardaşları tərəfindən Tiflisdə nəşr edilən "Ziya", "Ziyayi-Qafqaziyyə" qəzetləri, "Kəşkül" məcmuəsi, Məhəmməd ağa Şahtaxtinski tərəfindən 1903-cü ildə Tiflisdə

nəşr edilən "Şərqi-Rus" qəzetlərindən ibarət idi. Bu qəzetlərin və məcmuənin də ömrü çox az olmuşdur.

1905-ci ildən başlayaraq 1917-ci ilə qədər Azərbaycanda bir çox qəzet və məcmuə nəşr edilmişdi. Əldə edilən imkanlardan istifadə edərək müxtəlif sinif və siyasi qruplar öz mətbuatını artırdı, öz məslək və məqsədlərini açıq elan etməyə başladı. Onlar öz mövqelərini möhkəmləndirmək məqsədi ilə çar hökumətinin siyasətinə qarşı hər cür siyasi, iqtisadi məzmunda məqalələr yazmaqdan da çəkinmirdilər. Ona görə də qəzet və məcmuələr hökumət senzoru tərəfindən tez-tez bağlanırdı. Bu zaman bir tərəfdən bolşevik və fəhlə qəzetləri çıxır, "Molla Nəsrəddin" kimi demokratik jurnal çap olunur, bir tərəfdən də mürtəce istiqamətli qəzet və jurnallar nəşr edilirdi. Bakıda burjua mətbuatının əsasını qoyanlardan biri yerli milyonçu Hacı Zeynalabdin Tağıyev olmuşdur. Onun maddi köməyi ilə əvvəlcə rus dilində "Kaspi" qəzeti nəşr edilirdi. Sinfi mübarizənin getdikcə kəskinləşdiyi və demokrat ruhlu ziyalılar ilə irticapərəst ziyalılar arasında mübarizənin daha da şiddətləndiyi dövrdə irticapərəst ziyalıların təşəbbüsü ilə əvvəlcə "Həyat" qəzeti, sonra "Füyuzat" məcmuəsi nəşrə başladı.

"Həyat" və "Füyuzat"ın baş redaktoru Əlibəy Hüseynzadə idi. O, Qafqaz şeyxülislamı salyanlı Şeyx Əhmədin nəvəsi idi. Tiflisdə gimnaziyanı bitirdikdən sonra Peterburq Universitetinin riyaziyyat və təbiiyyat şöbəsində oxumuş, Mendeleyev, Menşutkin, Vaqner və Beketov kimi məşhur rus professorlarının mühazirələrini dinləmişdir. 1889-cu ildə universiteti bitirdikdən sonra İstanbula gedib orada tibb institutuna girmiş, zöhrəvi xəstəliklər üzərində çalışmış, professor diplomu almış və bəzi dostlarının təsiri ilə türk ədəbiyyatına meyl və rəğbət göstərmişdir. Özünün dediyinə görə Türkiyə üsuli-idarəsinin istibdadına tab gətirməyib Bakıya gəlmiş və özü ilə bərabər Azərbaycan xalqına xeyri olmayan ziyanlı fikirlər, panislamizm və pantürkizm ideyaları, üstəlik xalqın anlamadığı, ərəb, fars kəlmə tərkibləri ilə dolu olan bir dil də gətirmişdi. Hötenin "Faust" dramatik poemasından tərcümə etdiyi bu parçanın ilk misraları onun dilimizi hara çəkdiyini aydın göstərir:

Ənzari-şəbabimdə bədidar olan ey zill,
Ey zilli-tluat, oluyorsan yenə peyda.

Ə.Hüseynzadədən soruşanda ki, "Siz bu şeirinizi və məqalələrinizi kimin üçün yazırsınız? Bizim xalq ki, onu başa düşmür", o cavabında: "Mən bunları ancaq ziyalılar üçün yazıram. Onlar ki, anlayır kifayətdir", – deyirdi.

Doğrudur, Ə.Hüseynzadə həmişə vətəndən, xalqdan danışırdı, ancaq onun nə əsərlərində, nə də hərəkətlərində Azərbaycan dilinə və Azərbaycan xalqına olan məhəbbətini görmədik. Azərbaycan xalqının inqilab illərində keçirdiyi günlərə dair o heç bir şey yazmadı.

Əlibəy Hüseynzadə Azərbaycan zəminəsilə bağlı olan yerli tərəqqipərvər müəllifləri tənqid edirdi. O bizim milli ədəbiyyatımızı lazımi dərəcədə qiymətləndirə bilmirdi. Birinci müəllimlər qurultayının tapşırığı ilə Süleyman Sani, Süleyman Əbdülrəhmanbəyov, Mahmud Mahmudbəyov, Fərhad Ağayev, Əlaəddin Əfəndiyev və mən yığışıb yazdığımız "İkinci il" dərsliyinə Ə.Hüseynzadə istehza edərək: "Bu, nə dildir? Bu savadsız müəllimlər uşaqlarımızı bədbəxt edir", – deyirdi. O, mətbuatda "Yazımız, dilimiz, ikinci ilimiz" adlı məqalə ilə çıxış edərək Səhhətin və mənim sadə Azərbaycan dilində yazdığımız və həmin dərslikdə çap olunan şeirləri tənqid etmişdi. O, tələb edirdi ki, dilimizi "Füyuzat" jurnalının dilinə oxşadaq. Buna görə də o, məcmuənin heyəti-təh-

ririyyəsinə[29] Türkiyədən gəlmiş Əhməd Kamal kimi sərxoşları cəlb edirdi.

Əlibəy Hüseynzadə və onun tərəfdarları Azərbaycanda özlərinə yer tapa bilmədilər. Yerli qabaqcıl ziyalılar tərəfindən ciddi müqavimətə rast gələrək bir-bir Türkiyəyə qayıtmağa başladılar. Türkiyədə Soltan Əbdülhəmidi cavan türklər taxtdan düşürüb Salanik qələsində həbsə aldıqdan sonra Ə.Hüseynzadə də Türkiyəyə getdi.

Əlibəy ona yaxın Şərq və Qərb xalqlarının dilini bilirdi. Alim, rəssam, musiqişünas, ədəbiyyatçı idi. Çox hazırlıqlı idi və o zamankı Azərbaycan ədəbiyyatına nə isə bir yenilik gətirmək, ədəbiyyatı məhdud çərçivədən kənara çıxarmaq istəyirdi. Bizi, gənc yazıçı və ziyalıları Qərb klassiklərinin sənət və yaradıcılıqları ilə tanış etməyə çalışırdı. Onun ədəbi, ictimai-siyasi fəaliyyəti gəncliyə müəyyən təsir göstərmişdi.

Bu o dövr idi ki, Mirzə Fətəli ilə parlayan mənsur ədəbiyyatımız get-gedə zəifləməyə başlamış, dil və sənətcə lazımınca inkişaf edə bilməmişdi. Mənzum ədəbiyyatımızda isə Vidadi və Vaqiflə başlayan cərəyanı daha da genişləndirmək lazım gəlirkən şairlərimiz hələ əski təsəvvür və saray ədəbiyyatının təsirindən qurtula bilməyir və dörd əsirdən bəri çeynənməkdə olan əski cərəyanı, əski kleşeləri bütün sönüklüyü və zəifliyi ilə bərabər təqlid edib dururdular. Əlibəy yazdığı və məcmuədə nümunə olaraq göstərdiyi parçalarla ədəbi dilimizi islah etməyə, ədəbiyyatımızı üslub və sənət etibarilə yüksəltməyə çalışırdı. Şeir və sənətin nə olduğunu gəncliyə anladırdı, qəzəl və məsnəvi şəklini dar çərçivəsi içərisində sıxışmış olan nəzmin yeni şəkilləri ilə aşina edirdi. Əskidən bəri ruhunun yeganə munisi olan alman şairi Hötenin "Faust"undan parçalar tərcümə edərək "iblis" mövzusu ilə gəncliyi maraqlandırırdı. Xüsusən o vaxta qədər bir beyt belə yazmamış olan Hadini dilləndirdi.

[29] Redaksiyasına



Ə.Hüseynzadə ilə sonralar, 1926-cı ildə, Bakıda keçirilən türkoloji qurultayda görüşdük. Azərbaycan yazıçıları cəmiyyətinin 5 martda olan təntənəli iclasında o, nitq söyləyərək dedi: "Bundan iyirmi sənə əvvəl burda çalışdığımız zaman ədəbiyyatımızın geridə qaldığını buna ətf etmişdim ki, biz nümunə olaraq həp Şərq asarını ixtixaz ediyoruz, daima Şərqə təvəccöh ediyoruz. Binaənəleyh Qərbə təvəccöh lüzumuna qail oldum. Mən nə ədib, nə də şair idim. Fəqət Qərb asarını nümunə edərək göstərə bilərdim ki, bu yolda bir az çalışdım. Ağac əyri idi. Əks cəhətinə ikmal lazım idi ki, düzəlsin. Vaqiən, ağac düzəldi. Bir də yüksəlməsi icab edirdi. Xəta edərək zənn etmişdim ki, doğrudan-doğruya yüksəyə müraciət etməyə kafidir. Xeyr, əvvəla aşağılara enmək lazım idi. Bunu məndən sonrakılar yapdılar.

Bir gün sokakda bir çocuk gördüm, topla oynayırdı. Topu yuxarı atdıqca top dönüb aşağı düşürdü. Fəqət topu əvvəl yerə vurduqca top əqibincə yüksəliyordu. Ədəbiyyat da böylədir. Xalqa enmədikcə yüksəlməz! Əvvəla xalqa, göylüyə, aməleyə, vəlhasil böyük kütləyə qədər enməli, sonra bunlarla bərabər yüksəlməyə çalışmalıdır."

Əlibəy Hüseynzadə bu nitqində öz səhvini başa düşdüyünü, ədəbiyyatımızı dərə-təpəyə saldığını etiraf etdi.

Əli bəy "Füyuzat" məcmuəsi vasitəsilə gəncliyi rus və Qərb ədəbiyyatı nümunələri ilə tanış edirdi. Məsələn, o zaman Azərbaycanda ziyalılar arasında tolstoyçuluq çox yayılmışdı. Belə bir vaxtda Əlibəy "Füyuzat"da "Tolstoyçuluq nə deməkdir?" sərlövhəsi ilə məqalə yazmış və bu isə ölkədə tolstoyçuluğun daha da qüvvətlənməsinə səbəb olmuşdu.

Çünki Əlibəy bu məqaləsində böyük ədib Tolstoyun bədii yaradıcılığından, sənətindən daha çox onun təriqətindən yazmışdır.

XX əsrin əvvəllərində Azərbaycanda olan tolstoyçu ziyalılar Tolstoy ilə tez-tez məktublaşır və ondan cavab alırdılar. Tolstoyun vəfat xəbəri qəzetlərdə görünən kimi bir çox ziyalı onun məzarını ziyarətə getdi...

## "MOLLA NƏSRƏDDİN"

"Molla Nəsrəddin" məcmuəsinin çox ardıcıl ədəbi, ictimai-siyasi istiqaməti var idi. Mətbuatımız tarixində çox mühüm yer tutan, ictimai-siyasi həyatımızın, ədəbiyyatımızın inkişafında böyük əhəmiyyəti olan bu məcmuənin ilk nömrəsindən aldığım təsiri heç bir qəzet və jurnaldan almamışam...

Bazar günü idi. Şəhər bağçasında oturub yoldaşlarımla danışırdım. Birdən-birə satıcı uşaqların hərəsinin əlində bir neçə məcmuə "Molla Nəsrəddin" – deyə çığırdıqlarını eşitdim. Məcmuənin ilk səhifələrində, əsrlərdən bəri şirin lətifələri ilə xalq içərisində məşhur olan Molla Nəsrəddini mahir bir rəssam fırçasından çıxmış şəkli verilmişdi. Məcmuəni alıcılar bir-birinin əlindən qapırdılar. Mən də aldım. Orijinal karikaturaları, məzhəkəli və mənalı tənqidləri məndə başqa hal və sevinc oyatdı. Məcmuənin ictimai və siyasi əhəmiyyətini anlayan gənclər o gün çox nəşəli və şən görünürdülər.

Məcmuə Mirzə Cəlil Məmmədquluzadə tərəfindən nəşr edilirdi. Birinci gündən başlayaraq yüzlərlə azərbaycanlılardan biri tək mən də bu məcmuənin oxucusu oldum. Demək olar ki, onun bütün nömrələrini aldıqdan sonra, səfərdən qayıdan, atasının yolunu gözləyən bir uşaq kimi o biri nömrəni gözləyir, günləri sayırdım. Mən tək deyildim, çoxları belə idi.

İctimai nöqsanlarımızı açıq və aydın şəkildə, böyük cəsarətlə tənqidə tutan bu mübariz məcmuə gündən-günə gözümüzdə böyüyür, macəralarla dolu şirin bir dastan kimi oxunur, dillərdə gəzirdi. Xalqın gözünü bağlayan və tərəqqimizə mane olan din nümayəndələri, yerli istismarçılar, çar məmurları, bəy və xanlar, İran və Türkiyə mürtəceləri, maymaq ziyalılar məcmuədə kəskin boyalarla tənqid edilir, bu yolla köhnə adət-ənənələrin aradan qalxmasına, xalqın oyanmasına səbəb olurdu. Odur ki, məcmuənin hər nömrəsini oxuduqda qəlbim böyük iftixar hissi ilə döyünür və ona xalqımızın mövhumat, gerilik və xurafatdan qurtarmaq istəyən bir xilaskar kimi baxırdım.

Əngin, dərin bir dənizə, ucsuz-bucaqsız fəzaya və yaxud gözəl üslub ilə tikilmiş möhtəşəm bir binaya baxdığımız zaman o ənginlik, genişlik, əzəmət bizdə ülvi, nəcib hisslər oyadır. Bəzən isə bunun əksinə olaraq zərərli bir həşərata təsadüf etdikdə, həyatda heç bir faydası olmayan cansız bir varlıqla qarşılaşdıqda bizdə dərin nifrət hissi oyanır. Biz həyatda bəzən dəniz kimi əngin, fəza kimi geniş təbiətli, möhkəm iradəli, dərin düşüncəli və istedadlı insanlara təsadüf edirik, bəzən də həşərat kimi həyatda heç bir əhəmiyyəti olmayan dar fikirli, dar təbiətli insanlarla üz-üzə gəlirik. "Molla Nəsrəddin" məcmuəsinin redaktoru Cəlil Məmmədquluzadəni də mən məhz belə böyük, qüdrətli bir insan kimi tanımışdım. Hələ gənc ikən o məndə ülvi hisslər, yeni fikirlər oyatmışdı. Odur ki, onun sözünə bəslədiyim hörmət, məndə satiraya da dərin rəğbət oyatmışdı... Bundan sonra mən də satira sahəsində qələmimi sınamağa başladım. C.Məmməd-

quluzadə yalnız Azərbaycanda deyil, bütün Şərq aləmində özünü sevdirən böyük ədəbi sima idi.

Satirik şeir ya felyeton yazmağa istedadım olmadığına baxmayaraq, "Molla Nəsrəddin"ə "Keçəl" və başqa imzalarla üç-dörd kiçik felyeton yazıb göndərmişdim. "Keçəl" sərlövhəli felyetonumun çap olunmağı xatırımdadır.

"Molla Nəsrəddin" məcmuəsi mənim yazılarıma da bəzən öz münasibətini bildirirdi. Məsələn, mətbuatda çap olunmuş "Nişanlı qız" adlı bir şeirimi məcmuə öz üslubuna məxsus yol ilə təhlil etmişdir. Şeirdə qaranlıq gecədə dizlərini qucaqlayıb ağlaya-ağlaya barmağındakı nişan üzüyünü oynadan və ata-anasının onu sevmədiyi qoca bir varlıya verdiyindən şikayətlənən bir qızın acı taleyindən bəhs edilirdi. Həmin şeir haqqında Mirzə Cəlil məcmuədə yazmışdır: Şair, bu qız onun üçün ağlamır ki, onu qoca varlıya verirlər. Onun üçün ağlayır ki, niyə onun atası Fridrix, anası Mariya olmadı ki, onu qoca kişiyə ərə verəndə razı olmayıb danışmağa dili və haqqı olaydı. Ancaq bir şey var ki, o nişanlı qızın atası Fridrix, anası Mariya olsaydı, o qız da onlar ilə bərabər cəhənnəmə gedəcək idi... Mənə qalsa başı çərşablı tükəzbanlar ilə məşədilər, kəbleyilər ilə behiştə getməkdənsə, Fridrix və Mariyalar ilə cəhənnəmə getmək daha yaxşıdır".

Mirzə Cəlil çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyət göstərir və Şərq həyatının yaralı, xəstə cəhətlərini cəsarətlə öz felyetonlarında açıb göstərə bilirdi. Məcmuənin təsir qüvvəsi çox geniş idi. Hər bir felyeton, karikatura müxtəlif sinif və zümrələrə çox tez təsir edir, əhali arasında müzakirə və mübahisələrə səbəb olurdu. Belə hallarda Mirzə Cəlilin özü də ziyan çəkmirdi. Məsələn, məcmuənin ilk nömrəsinin əfkari-ümumiyyədə qopardığı fırtınanı da mən indi də yaddan çıxarmamışam. Səs-küyə səbəb olan iki məsələni də xatırlayıram. Bunlardan biri Şərq qadınlarının açıq gəzməsini təbliğ edən, çarşaba qarşı çevrilmiş bir felyeton, digəri isə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin həmən məcmuədə çap olunmuş rəsmi idi. Felyetonda Mirzə Cəlil açıqdan-açığa qadın məhkumluğunun əleyhinə çıxır, medallarla general formasında çəkilmiş Hacının şəklində isə Bakı milyonçusunu xalqı çarizmə satan bir sərvətdar kimi tənqid edirdi.



Bu iki məsələ o zaman mürtəcelər içərisində böyük çaxnaşmaya səbəb olmuşdu. Yenilik düşmənləri Mirzə Cəlilin arxasınca söyür, onu öldürməklə hədələyir və çirkin məzmunlu məktublar yazıb göndərirdilər. O cümlədən Dərbənd şairlərindən Mirzə Səməndər bir həcv yazıb C.Məmmədquluzadəyə göndərmiş və həmin həcvin başqa nüsxələrini isə Bakı köhnəpərəstləri arasında yaymışdı. Onlar həmin həcvi məclislərdə, qumarxana və kazinolarda oxuyur, bu yolla Mirzə Cəlili hörmətdən salmağa çalışırdılar.

Mirzə Cəlil siyasi, kəsərli felyetonları ilə sərvətdarların, çar məmurlarının, köhnəpərəstlərin nüfuzunu qırmağa, ümumi ictimai məsələləri zəhmətkeşlərin və qabaqcıl ziyalıların mənafeyinə həll etməyə, onlarda təşəbbüs, iradə və fəaliyyət doğurmağa çalışırdı.

"Füyuzat" məcmuəsi də öz səhifələrində nəşr etdiyi şeir və məqalələrdə "Hürriyyəti" müdafiə edirdi. "Molla Nəsrəddin" məcmuəsi də. Ancaq bu hara, o hara.

Fars şairi yaxşı deyir:

Şəkkəri-Mazəndəranü şəkkəri-Hindustan,
Hər do şirinənd, əmma in koca vo on koca.

Yəni:

Mazandaran şəkəri və Hindistan şəkəri,
Hər ikisi şirindir, ancaq bu hara, o hara.

"Füyuzat"da hürriyyət məsələləri sərvətdarların, varlıların mənafeyinə uyğun olaraq izah olunurdu. "Molla Nəsrəddin" məcmuəsində isə bu məsələnin həlli demokratik istiqamətdə idi.

Mirzə Cəlil XX əsrin çox böyük ədəbi siması idi. O, Mirzə Fətəli Axundov məktəbini davam etdirən yazıçılarımız içində dan ulduzu kimi parlamış, nüfuzedici şəfəqlərlə yaxın və uzaq ölkələri işıqlandırmışdı.

Doğrudur, böyük ədib bir çox qabaqcıl müasirləri kimi hələ o zaman inqilab qığılcımının fəhlə hərəkatı və tətillərinin zaman-zaman böyüyüb şölə şəklini alaraq çar hökumətini kökündən devirəcəyini və yerində proletar hakimiyyəti quracağını bilmirdi. Onlar ancaq fəhlələrin zəhmət haqqının artmasına, həyatının yaxşılaşmasına, səkkiz saatlıq iş gününə keçilməsinə, kəndlilərin mülkədar zülmündən xilas olmasına, çalışır, xalqı əsarət pəncəsində əzən Nikolayı, Məmmədəli şahı, bəyləri, xanları, varlıları, mollaları ifşa edirdilər. Məcmuədə "Füyuzat" məcmuəsi, xüsusən onun dili də kəskin tənqid olunurdu.

C.Məmmədquluzadənin və "Molla Nəsrəddin" məcmuəsinin yerli istismarçılara, çar məmurlarına, köhnəpərəstlərə qarşı, İran və Türkiyə hökmdarlarına qarşı, Şərq ətalətinə, dinə və mövhumata qarşı apardığı mübarizə Azərbaycan zəhmətkeşlərinin öz istiqlaliyyətləri uğrunda mübarizə etmək üçün ayağa qalxmalarına çox böyük fayda göstərmişdi.



## İKİ DOST

Böyük satirik şairimiz Mirzə Ələkbər Sabiri 1905-ci ilə qədər görməmişdim. Adi bir təsadüf onunla görüşüb tanış olmağıma səbəb oldu. 1905-ci ilin yayında Suramdan geri qayıdanda ailəmizlə birlikdə çoxdan görmək arzusunda olduğum Şamaxıya getməli olduq. Bir neçə gün Bakıdakı qonşumuz müəllim Əlicabbar Orucəliyevin evində qaldıq. Bir çox Şamaxılı müəllimlər kimi, o da ailəsini Şamaxıya aparırdı. Mirzə Ələkbər Sabir və Mirzə Abbasqulu Səhhət ilə ilk dəfə orada tanış oldum.

Sabir orta boylu, orta yaşıl arıq bir kişi idi. Qara arxalığı, qara küləcəsi var idi. Ayağına burnu dik, dabanı yumru başmaq geyinmiş, başına qara dəridən papaq qoymuşdu. Barmaq qalınlığında saqqal buraxmışdı.

Qiyafəcə adi insanlardan seçilməyən bu böyük istedad ilk görüşümüzdəcə, iki-üç saat içində dadlı söhbət və lətifələri ilə məni özünə bağladı. Hafizəsində qalan bir-iki qəzəl və həcv oxudu.

İki gün sonra Sabirlə görüşmək üçün evinə yox, dükanına getdik. O bizi münasib bir beyt ilə qarşıladı. Cahil mühit Sabiri evdə sabun bişirib dükanda satmağa məcbur etmişdi. Çayxana şagirdinə çay sifariş verdi. Bir-iki saat oturub danışdıq. O, Şamaxı ruhanilərini, tacir və köhnəpərəstlərini özünəməxsus bir məzah və yumor ilə tənqid etdi, Şamaxı cahillərinin mühafizəkarlığından ürəyi odlana-odlana şikayətləndi. Sonra isə Əlicabbarın xahişi ilə, mövhumatçı dükan qonşusu olan xəsis alverçiyə yazdığı həcvi oxudu. Dükançının məzah ilə o qədər canlı və təbii təsvir etmişdi ki, həmin alverçi olduğu kimi gözümüzün qarşısında canlandı. Hamı gülməkdən uğundu. Həcvdən xoşlandığımızı görüb, Sabir

əlavə olaraq mənfi şəxslərə yazmış olduğu başqa həcvlərindən də bir neçə beyt oxudu. Onun həcvlərini qəzəllərindən daha çox bəyəndim. Bu həcvlərdəki kəskinlik, təbiilik şairin bu sahədə böyük bir istedada malik olduğunu xəbər verirdi. Sabir gözümdə böyümüşdü. Hələlik qəzəl ədəbiyyatından ayrıla bilməyən bu şairin şəxsi həcvlərində ictimai nöqsanları da əhatə edə bilməsi onun böyük satirik şair olacağını bildirirdi.

Söhbətimiz zamanı onun dükanına bir nəfər də olsun alıcı gəlmədi. Bu fikir zehnimizə gəlincə böyuk ailə sahibi olan Sabirin maddi vəziyyətinin yəqin ki, çox ağır olduğunu düşünərək biixtiyar:

– Sabir, bizim ayağımız uğursuzdur, – dedim, – bir saatdan bəri söhbət edirik, dükana bir nəfər də müştəri gəlməyib, o halda siz nə alıb-satırsınız?

Sabir gülə-gülə dedi:

– O, sizin ayağınızdan deyil! Bu avam camaatın daxilini təmizləmək əlimdən gəlmir, heç olmasa zahirini təmizləyim deyə, gördüyünüz sabun dükanını açdım. Neyləyim ki, bu zalım uşaqları təmizlikdən də qaçırlar.

Sabirin ilk yazılarında müəllimi Seyid Əzim Şirvaninin çox dərin təsiri vardı. "Molla Nəsrəddin" məcmuəsinin nəşrinə qədər, o əsasən köhnə şeir tərzində qəzəl, qəsidə, mərsiyə və həcv yazmaqla məşğul olurdu. Şair ustadı Seyid Əzimin

Ey məh, bilirəm fitneyi-dövran olacaqsan.
Ey qaşı hilalım, məhi-taban olacaqsan.

mətləsi ilə başlanan qəzəlinə məhi-tabanın dilindən bu qəzəlini yazmışdı:

Sən piri-cahandidəsən, ey Seyyidi-sərkar,
Məndən çək əlini, eyləgilən pir ilə rəftar.



Olmaz sənə qismət dəxi bu dövləti-didar
Bundan sonra hicrimdə cigər-qan olacaqsan.

"Hophopnamə"nin ilk səhifəsində Sabirin rəsmini görməyən yoxdur, zənn edirəm. Onun munis və məhzun siması, düşüncəli, yorğun gözləri, zəif vücudu böyük şairin keçdiyi həyat yolunu bizə aydınlaşdırmaq üçün canlı və tarixi bir vəsiqədir. Ömrü boyu keçirdiyi iztirablar, həyatın ağır zərbələri onun munis simasına öz damğasını basdığı kimi, mənəvi aləminə də öz möhürünü vurmuşdur. Hər addımda gördüyü ictimai ədalətsizliklər onda mövcud cəmiyyətə bir nifrət hissi, ona qarşı tənqidi münasibət oyatmışdır. O, qolqanad açaraq göylərdə uça bilməzdi. Şair özü çox aydın demişdi:

Ruhum! Ey, şah-bazi-ülviyyət,
Himmətim tək fəzada pərvaz et!
Uç, uç övci-səmada pərvaz et,
Təngnayi bədəndə var xiffət,
Aşiyani-bədəndə tutma qərar,
Yanma sən də mənim kimi narə!
Bulamazsan məlalimə çarə,
Sıxılırsan, lətifsən zinhar.

Şair şeirini "Füyuzat"da çap etdirmişdi. Qaba mühit və ictimai həyat onun qol-qanadını elə qırıb yanına salmışdı ki, göylər şairi ola bilməzdi.

Sabirin dühasında hakim olan ünsür ictimai həcv idi. Lakin şair "Molla Nəsrəddin" məcmuəsi nəşrə başlayıncaya qədər, müxtəlif təsirlərə qapılaraq müxtəlif yollarda dolaşmağa məcbur olmuşdu. Ancaq 1905-ci il inqilabından sonra, "Molla Nəsrəddin"in onun qəlbində yandırdığı şölə vasitəsilə o öz təbii yolunu tap bilmişdi. Ancaq bu zamandan başlayaraq, illərdən bəri məcrasını tapa bilməyən ilhamının çeş-

məsi öz həqiqi məcrasını tapdı, coşqun bir sel kimi axmağa başlayıb yeni bir ədəbi məktəbin əsasını qoydu. Yaratmış olduğu yeni ədəbi məktəbdə onu tənqid edən şairlərin heç biri Sabirin yüksəldiyi mövqeyə yüksələ bilmədi.

Mən hələ 1912-ci ildə "Gülzar" dərsliyimdə "Molla Nəsrəddin"in nəşri ilə bağlı olaraq Sabirin yaradıcılığında əmələ gələn böyük dönüşü belə xülasə etmişdim: "Həmin bu vaxtlarda idi ki, möhtərəm "Molla Nəsrəddin" məcmuəsi nəşrə başladı. Sabirin hələ uşaqkən donmuş və cərəyana bir yol tapa bilməyən təbi-səliminə "Molla Nəsrəddin" məcmuəsinin üslub və məsləki çox uydu; şairin hissiyyati-qəlbiyyəsini oyatmağa, təbi-şairanəsini dadlı-dadlı oxumağa və əhvali-ruhiyyəsində fövqəladəliklər və başqalıqlar törətməyə başladı. Çoxdan bəri donmuş və məcrasını tapa bilməyən sərçeşmeyi-təbi artıq məcrasını tapmış olduğundan bir selixüruşan kimi axıb getməyə başladı".

"Molla Nəsrəddin"in növbəti nömrələrindən birini oxuduğum zaman aşağıdakı şeir məndə məcmuənin ilk nömrəsindən aldığım təsiri oyatmışdı:

Millət necə tarac olur-olsun nə işim var?!
Düşmənlərə möhtac olur-olsun nə işim var?!
Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək oyanan varsa da haqq dadına çatsın,
Mən salim olum, cümlə-cahan batsa da, batsın,
Millət necə tarac olur-olsun, nə işim var?!
Düşmənlərə möhtac olur-olsun, nə işim var?!

Şeir böyük məharətlə yazılmışdı. Ancaq bu gözəl satiranın müəllifini tanıya bilmədim. Bildiyim, tanıdığım adamlardan bu şeirin müəllifinin kim olduğunu soruşdum, bilən olmadı.



Bir gün şəhər bağçasında müəllimlər ilə oturub danışırdıq. "Molla Nəsrəddin"dəki şeir yadıma düşdü, onlardan şeirin müəllifini soruşdum. Sabirin və Səhhətin ən yaxın dostu olan müəllim Mahmudbəy Mahmudbəyov gülümsəyərək: "Sənin dostun Sabirdir", – dedi.

Satirik şeirləri ilə Sabir oxucuları o qədər özünə cəlb etmişdi ki, məcmuəni alınca onlar hər şeydən əvvəl "Hop-hop" imzalı şeiri oxuyurdular. Sabir az vaxt içərisində çox böyük şöhrət qazandı.

Sabir şeirinin təsirindən mən də kənarda qalmadım. Onun "Bəsdir, bu qədər başlama fəryada əkinçi" misrası ilə başlanan şeirinə cavab olaraq "Rəhm eylə, tərəhhüm çağıdır, xan, sənə qurban" misrası ilə başlanan "Xan və əkinçi" şeirini yazdım. Məktəblərdə tələbələr üçün müsamirələr verdiyimiz zaman bir tələbə əkinçi, o birisi xan qiyafəsində üz-üzə durub bu şeirləri bənd-bənd oxuyurdular.

Sabirin ən yaxın və səmimi dostu Abbas Səhhət idi. Səhhət Şamaxıda bütün günlərini onunla birlikdə keçirirdi.

"Molla Nəsrəddin"ə yazmağa başladıqdan sonra Sabir Səhhət ilə bərabər tez-tez Bakıya gəlirdilər. Bəzən onlar günlərlə Bakıda qalır, axşamlar çox zaman bizə gəlirdilər. O gün mənim üçün böyük bayram olurdu. Bu iki dost şairin şirin söhbətləri məni o qədər məşğul edirdi ki, onlar getdikdən sonra yatağımda həmin şirin dəqiqələri, saatları yenidən xatırlayır, həyəcandan gözlərimə saatlarla yuxu getmirdi.

Sabir ilə Səhhət bir yerdə hər məclisə yaraşıq verirdilər. Sabir özünəməxsus bir tərzdə, incə məzah ilə danışar, ancaq özü gülməzdi.

Səhhət ortaboylu, xoşsima, şirinsöhbət bir insan idi. Gözəl, təsirli danışıq istedadına malik olmaqla bərabər, kəskin hafizəyə də malik idi. Özünün və başqalarının şeirlərini əz-

bərdən bilir, o qədər gözəl oxuyurdu ki, hətta zəif şeir də onun ağzından çıxdığı zaman canlanırdı. Şamaxı ürəfası Səhhətin bu xüsusiyyətlərini Şamaxı şairlərindən Bahar Şirvaniyə bənzədirdilər.

Sabirin, Səhhətin ikinci səmimi dostu Bakıda müəllimlik edən Mahmudbəy Mahmudbəyov idi. Mahmudbəy az danışan, çox çalışan təmiz vicdanlı bir insan idi. İpək kimi yumşaq xasiyyəti var idi. Yaşca bizdən böyük olduğuna görə müəllimlər ona Mahmud əmi deyərdilər. Çox fəal bir maarif xadimi idi. Pedaqogikanın son nailiyyətlərindən xəbərdar olan bu qayğıkeş müəllim, yeni dərsliklərin yaranmasında da çox böyük xidmətlər göstərirdi.

Yay tətili münasibəti ilə şamaxılı müəllimlər Şamaxıya toplandıqları zaman Sabir ilə Səhhət üçün sanki bayram başlanırdı. Müəllimlər, eləcə də Mahmud əmi hər ikisinin ruhuna və zövqünə müvafiq rus yazıçı və şairlərinin yaradıcılığı ilə onları tanış etməyə çalışırdı. Sabir və Səhhəti uşaq ədəbiyyatı ilə də maraqlandıran Mahmud əmi olmuşdur. Mahmud əmi hər iki şairin uşaqlar üçün yazdıqları əsərləri və tərcümələri öz dərsliklərində çap edirdi. Mahmud əmidən başqa Sabirin və Səhhətin Əlicabbar Orucəliyev, Camo Cəbrayılbəyli və Firidunbəy Köçərli ilə də dostluq əlaqələri var idi.

Bir gecə Sabir və Səhhətin bizə gəldiyindən xəbər tutub Məhəmməd Hadi də gəlmiş, məclisimiz bir az da şənlənmişdi. Məhəmməd Hadi də Sabir və Səhhət kimi xoşsöhbət və məclisara idi. Aramızda çox müxtəlif məsələlər haqqında qızğın söhbət başlamışdı. Başımız söhbətə elə qarışmışdı ki, gecənin necə keçməsindən xəbər tutmamışdıq. Bir də gördük ki, lampanın işığı azalır. Mən elə zənn etdim ki, çırağın nefti



qurtarıb. Pəncərəyə baxıb gördüm ki, səhərdir, hava işıqlanır.

Sabir incə bir ədəbi zövqlə həyat hadisələrinə aydın bir münasibət bəsləmək qüdrətinə malik idi. O, Azərbaycan dilinin incəliklərini o qədər gözəl duyurdu ki, əruz vəznindən çox ustalıqla istifadə edə bilirdi. Şair seçdiyi mövzuya görə onun dilini də dərhal tapa bilirdi. Bu isə Sabirin şeirlərindəki realizmin qüvvətlənməsinə səbəb olurdu. Sinif ədəbiyyatının[30] təsiri ilə yazılmış qəzəllərin dili "Füyuzat" məcmuəsinin təsiri ilə yazılmış mənzumələrindən fərqli olduğu kimi, "Molla Nəsrəddin" məcmuəsində çap olunan şeirlərinin dili də tamam başqadır. Onda mövzuya görə hər şeirə vəzn seçə bilməyə böyük istedad və məharət vardı. Məsələn:

Kim nə deyər bizdə olan qeyrətə,
Qeyrətimiz bəllidir hər millətə, –

şeirini yüngül və oynaq vəznlə yazdığı halda, İran şahı Məhəmmədəliyə yazdığı aşağıdakı satirik şeirə də ağır vəzn intixab etmişdir:

Mən şahi-qəvi-şövkətəm İran özümündür!
Abad ola, ya qalsa da viran, özümündür!
Qanuni-əsasi nədi, fərman özümündür!
Şövkət özümün, fəxr özümün, şan özümündür!

"Molla Nəsrəddin" məcmuəsinin məsul redaktoru Cəlil Məmmədquluzadənin kəskin satirik felyetonları, hekayələri, Sabirin abdar satiraları məcmuənin bütün ruhunu, məzmununu təşkil edirdi. "Molla Nəsrəddin"in adı çəkiləndə hər şeydən əvvəl bu iki sima adamın qarşısında canlanırdı. Lakin bəzi ədəbiyyatçılar, ziyalılar Mirzə Cəlil ilə Sabir arasında bir fərq qoymağa çalışır, bəziləri Mirzə Cəlili daha çox bə-

---

[30] Epiqonçu şeir nəzərdə tutulur.

yənir, bəziləri Sabiri üstün tutur. Birincilər "Sabiri Mirzə Cəlil və onun məcmuəsi yetişdirmişdir", – deyirdilər. Belə mübahisə və mülahizələr, hətta Sovet hakimiyyəti qurulduqdan sonraya qədər də davam edirdi.

Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk illərdə "Sabir kitabxanası" müdiriyyəti Sabir haqqında bir məruzə etməyi məndən xahiş etdi. "Molla Nəsrəddin"mi Sabiri yetişdirmiş, yoxsa Sabirmi "Molla Nəsrəddin"i şöhrətləndirmişdir? Məsələni izah etməyimi də ayrıca qeyd edirdilər. Məruzəmdə mən bu suala belə cavab verdim: Bütün mühüm ədəbi hadisələri doğuran amil həyatın özüdür. Ona görə də nə "Molla Nəsrəddin" Sabiri, nə də Sabir "Molla Nəsrəddin"i yetişdirmişdir. Hər ikisini yetişdirən o zamankı ictimai mühitdir. Ancaq inkar etmək olmaz ki, "Molla Nəsrəddin" məcmuəsinin yaratdığı ümumi təsir Sabirin dahiyanə ilhamına, donub qalmış olan ictimai həcv istedadına hərəkət, qüvvət və istiqamət verdi və böyük Sabirin meydana atılması üçün şərait yaratdı. Beləliklə, Sabir o vaxtkı ictimai nöqsanlarımızı tənqid edən şeirləri ilə dərin təsirli gözəl tablolar yaratdı, məcmuənin əhəmiyyətini oxucuların nəzərində qat-qat artırdı. Azərbaycanda "Molla Nəsrəddin" girməyən ev az idi. Heç bir qəzet və məcmuə özünü bütün Şərq aləmində bu qədər sevdirə bilməmişdi. Bu böyük sevgini doğuran əsasən Azərbaycanın iki böyük siması – Mirzə Cəlil ilə Sabir olmuşdur".

Sabiri bilik və məlumatı ilə böyütmək istəyənlər onu çox kiçiltmiş olurlar. Hər kəsin munisi-qəlbi olan "Hophopnamə" şairinin böyüklüyü onun misilsiz bədii əsərlər yarada bilməsindədir.



***

Səhhət ədəbi hadisələr, ədəbiyyat tarixi haqqında çox geniş məlumata malik idi. Bu mədəni şair, həyat hadisələrindən daha çox ədəbi hadisələrin özünü öyrənməyə çalışırdı ki, bu da onun ədəbi yaradıcılığı qarşısında müəyyən çətinliklər yaradırdı. Səhhət rus ədəbiyyatını böyük bir məhəbbətlə sevirdi. O, vaxtının mühüm bir hissəsini rus dilini daha dərin öyrənməyə, rus yazıçılarından tərcümə etməyə həsr edirdi. Şair rus şairinin bir çox dəyərli əsərlərini böyük müvəffəqiyyətlə tərcümə etmiş və gənc ziyalılarımızı rus ədəbiyyatı ilə tanış etmişdi. Bu xüsusiyyətlərinə görə idi ki, hələ 1912-ci ildə çap etdirdiyim "Gülzar" dərsliyimdə Səhhəti ədəbiyyatımızın Jukovskisi adlandırmışdım.

1905-ci il inqilabının doğurduğu azadlıq günəşinin sönük zərrələri qəlbimi istədiyim qədər isitmədiyindən məndə bədbinlik əmələ gəlmişdi. Həmin təsir altında 1905-ci ilin axırlarında Şamaxıdan qayıtdıqdan sonra hər iki dostumu xatırlayıb, onlara "Vətən" sərlövhəli bir şeir yazıb göndərdim. Mənzumədə deyilirdi:

Ey çeşmimin önündə mücəssəm, vətən, vətən!
Qəlbim kimi kədərlərə həmdəm, vətən, vətən!
Axşam, səhər o gül üzünü isladan nədir?
Göz yaşlarımı, yoxsa ki, şəbnəm? Vətən, vətən!
Övladi-naxələfmi səni saldı bu günə?
Eyvay, bu dərdü möhnətə dözməm, vətən, vətən!
Aç, aç o qəmli köksünü, ey möhnət ölkəsi,
Bas bağrına bu Şaiqi möhkəm, vətən, vətən!

Sabir ilə Səhhət də həmin sərlövhədə hər biri ayrıca bir şeir yazıb məktub ilə bərabər müəllim Əlicabbar Orucəliyev vasitəsilə mənə göndərmişdilər. O şeirləri masanın qutu-

sunda sevə-sevə saxlayırdım. Əl yazıları düşkünü olan Salman Mümtaz həmin şeirləri müvəqqəti zaman üçün məndən alıb bir daha geri qaytarmadı. O iki mənzum məktubdan bu gün ancaq Səhhətin mənə göndərdiyi məktub əldə edilmişdir. Səhhət mənim şeirimə belə cavab vermişdir:

Şaiqa, neyləsin axır, söylə, biçarə vətən!
Tapmayır səhhət üçün dərdinə bir çarə vətən.
Yoxdur ümmidi-şəfa hali-pərişanında,
Oxşayır çox belə bir xəstəvü bimarə vətən!
Vətən oğlanları müstəğrəqi-xabü qəflət
Tuş olubdur neçə min zalimü xunxarə vətən!
Yenə bu dərdlərin çarəsi Bakıdan olur.
Çeşmi-ümmid tutubdur ora həmvarə vətən!

Səhhət Tehran darülfünununda oxuduğu xaman fars və fransız dillərini də gözəl öyrənmişdi. Onun həmin məktubunda mənə ithaf etdiyi şeirlə birlikdə fransız şairi Jan Ramodan etdiyi "Nəğmeyi-ordu-behişti" adlı tərcümə də var idi. "Nəğmeyi-ordu-behişti" aşağıdakı misralarla başlanırdı:

Çün gördüm olub alma ağacları çiçəkli,
Sordum, niyə olduz əcəba, böylə bəzəkli?
Ey alma ağacları, nədir sizdə bu halət?
Eylər o gümüş əlləriniz vəcdə dəlalət.

Bakıda müəllimlik etdiyim üçün Mirzə Cəlil ilə tanış ola bilməmişdim. Lakin onun əsərlərini oxuyarkən Səhhət kimi xoşsöhbət, zarafatcıl və gözəl bir natiq olduğunu təsəvvür edirdim. Mirzə Cəlil haqqında bu ilk təsəvvürümü Sabirlə Səhhət dağıtdı. Onlar bir dəfə birlikdə Tiflisə gedib "Molla Nəsrəddin" məcmuəsinin əməkdaşları və Mirzə Cəlil ilə görüşdükdən sonra Bakıya qayıtmışdılar. Adətləri üzrə bu dəfə də məni unutmayaraq bizə gəlmişdilər. Hər ikisi Tiflis səfərindən çox məmnun idi. Onlar gördüklərini, eşitdiklərini şirin-şirin nağıl edirdilər. Xüsusən Mirzə Cəlilin yavaş-yavaş danışdığını təqlid etməkdən yorulmurdular. Mən ancaq bu vaxt Mirzə Cəlilin sonralar gördüyüm kimi, az danışan, ağır təbiətli bir insan olduğunu öyrəndim.



1910-cu ildə Sabir Bakıya köçməyə məcbur olduqdan sonra Abbas Səhhət Şamaxıda tək qalmışdı. Sabir onun münisi-qəlbi, məhrəmi-əsrari idi. Bütün dərd və sevinclərini yalnız onunla bölüşürdü. Dostluqda Sabir kimi sədaqətli insan az tapılar. Səhhət bütün qəlbi ilə onu sevir və onun incə zarafatlarından zövq alırdı. Lakin Sabirin vaxtsız ölümü bu dostluğun uzun davam etməsinə imkan vermədi.

Son zamanlar Sabir qaraciyərindən şikayət edir və ağrılarının getdikcə artdığını söyləyirdi. Xəstəyə Bakıda nə qədər müalicə etdilər, şəfa əsəri görmədi. Nəhayət, şair Tiflisə getməli oldu. Mirzə Cəlil onu xəstəxanaya yerləşdirdi və əlindən gələn yaxşılığı elədi. Ancaq Sabir sağalmadı. Həkimlər xəstənin ümidsiz vəziyyətdə olduğunu və ancaq onun son günlərini yaşadığını söylədilər. Şair təkrar Şamaxıya qayıtdı, xəstəliyinin uzanmasından o qədər təngə gəlmişdi ki, özü də ölümünü arzu edirdi:

İstərəm ölməyi mən, leyk qaçır məndən əcəl,
Gör nə bədbəxtəm, əcəldən də gərək naz çəkəm.

1911-ci ilin yayında böyük şair ölümün insafsız pəncəsində canını təslim etdi. Qara xəbər çox sürətlə Azərbaycanın hər guşəsinə yayıldı. Bu böyük itki bütün Azərbaycanın qəlbini yandırdı. Səhhət də, mən də Sabirin ölümünə dair ayrıca bir şeir yazdıq.

Səhhətin yeganə münisi-qəlbi olan "Hophponamə" müəllifinin ölümü onun bütün varlığını sarsıdıb şaşqın bir hala gətirmişdi. Bu ölüm Səhhətə üç-dörd il özünə gəlməyə imkan vermədi. O, çox az yazır, söhbətlərində həmişə Sabiri xa-

tırlayır, kədərli bir həyat keçirirdi. Şair susmuş, yalnız kimsəsiz bir qərib kimi yaşayırdı. Səhhətin yaxın dostlarından olan Firidunbəy Köçərliyə göndərdiyi cavab məktubu, onun bu illərdə keçirdiyi əhvali-ruhiyyəni çox aydın ifadə edir:

"Yazmısan tazə nə şeylər? – deyə sordun məndən,
Ruhumun tarına mizrabzən oldun, qardaş.
Sabir ilə belə məktubu çox aldıq səndən,
Hər nə yazdıqca ona bani sən oldun, qardaş...
...Leyk çox çəkmədi, dövran bizə bidad etdi.
Ah, o cəmiyyətimiz tezcə pərişan oldu.
Mövti-Tərrah o səfa bəzmini bərbad etdi.
Sabir öldü, demirəm, şeir evi viran oldu.
Yazmağa mane olur təfriqə düşdüklərimiz.
"Ağlaram, xatirə gəldikcə gülüşdüklərimiz".

## UZUN SÜRMƏYƏN SƏADƏT

1906-cı il gəncliyimin ən coşqun və qiymətli bir zaman idi. Maddi vəziyyətim də az-çox təbii yoluna düşmüşdü. Ailə qurmaq haqqında indiyə qədər düşünməmiş deyildim. Fikrim ziyalı, oxumuş bir qız ilə evlənmək, şən ailə həyatı qurmaq idi. Lakin o zaman qızlara məxsus gimnaziyanı və qız pedaqoji texnikumunu bitirmiş qızlarımız o qədər az idi ki, onları barmaq ilə saymaq olardı. Xoşladığım bir-iki qıza yanaşdım. Ancaq bu qızların başları üstündə zəngin, cavan "müştərilərin"in olduğunu bilincə uzaqlaşmağa məcbur oldum.

O zaman biz Kərbəlayi Mirzə Yusifovun evində yaşayırdıq. Mirzə kirayənişinlərdən aldığı kirə ilə ailəsini idarə



edirdi. Kəblə Mirzə təmiz, mehriban, gözəl qəlbə malik xoşsöhbət bir kişi idi. Bakıda qərib olduğumuza görə özü və ailəsi birinci gündən bizi çox yaxşı, mehriban qarşıladılar. Anam onlara, onun da ailə üzvləri tez-tez bizə gəlirdilər. Bu ailə anamın çox xoşuna gəlirdi. Həmişə Kəblə Mirzənin qızı Raziyə xanımdan danışır, onu tərif edərkən dili ağzına sığmırdı. Anamın danışığından və rəftarından Raziyəni mənə almaq istədiyini hiss etmişdim. Bir gün anam mənə bu haqda söz açdı:

– Bilirsən Abdulla, oxumuş qız almaq istəyirsən, oxumuş qızlar odur ceyran arxasında. O qızlar varlı oğlanlarını qoyub sənə gələrmi? Yaşın keçir, evlənmək vaxtındır. Mən də cavan ömrümü sizin yolunuzda qoymuşam. Səni ev-eşik sahibi etmək mənim arzumdur. Raziyə xanımdan yaxşı qız tapmayacaqsan. Həm yaxşı ailədəndir, həm də xoşxasiyyət, gözəl qızdır. Sən hə de, mən günü sabah özüm elçi gedim. Bilirəm ki, verərlər. Qızın ata-anası səni öz oğulları kimi istəyir.

Bu sözləri analara məxsus o qədər şirin və mehriban dil ilə dedi ki, mən etiraz edə bilmədim. Ancaq qızı görməmişdim. Anamı başa saldım ki; əvvəlcə qızı görmək istəyirəm. O qızı mənə göstərəcəyinə söz verdi.

Son zamanlar Raziyə xanım bacımla dostlaşmışdı. Bir gün bacım onu bizə çağırdı. Mən orta qapının açar deşiyindən nə qədər baxdımsa da qızın üzünü aydın görə bilmədim. Bacım bir həftə sonra Raziyəni yenə bizə çağırdı. Bu dəfə qapı xeyli aralı idi. Anam isə qızın anası ilə söhbətə getmişdi. Raziyə xanım bacımla şirin söhbət edərkən mən guya qızın bizdə olduğunu bilməyib otağa girdim. Raziyə cəld ayağa qalxdı və üzünü yaylığı ilə örtdü. Mən tez qapını örtüb o biri otağa çəkildim. Bu dəfə o məni, mən də onu aydın

görmüşdüm. Otağa çəkildikdən sonra öz-özümə düşünməyə başladım. Qız xoşuma gəlmişdi. Anam evə qayıtdıqda Raziyə ilə evlənməyə razılıq verdim. Anamın üz-gözünü şadlıq şəfəqləri bürüdü:

– Ceyran kimi qızdır. Onun təkcə qaşı-gözü on dənə oxumuş qıza dəyər. Ancaq, bilmirəm qız nə üçün zəifdir. Bəzi qızlar ərə gedəndən sonra ətə-cana dolurlar. Raziyə bir az ətə-cana doysa heç qızlar içində misli-bərabəri olmaz.

Mənim razılığım hər şeyi həll etmirdi. Bakıda qərib, mülksüz adama qız vermək adət deyildi. Qızın anasının söz-arası Raziyəni təmiz, oxumuş bir adama vermək istədiklərini anama deməsi mənə yeganə təsəlli idi.

Üç gün sonra anam geyinib-kecinib rəsmi bir elçi kimi qızın anasının ağzını aramağa getdi. Qızın anası Tükəzban xanım Kərbəlayi Mirzə ilə danışdıqdan sonra cavab verəcəyini söyləmişdi.

İki gün sonra razılıq cavabı alındı.

1906-cı ildə Raziyə ilə evləndim.

Dünya görmüş, yaşca qoca, fikircə cavan Məhərrəm əmi[31] həmişə mənə deyirdi:

– Abdulla, oxumamış qız alma, ömrünü çürüdər.

Həyat yoldaşım Raziyə xanım savadsız olduğuna baxmayaraq, son dərəcə tərbiyəli, xoşəxlaq bir gəlin idi. Dinc və bəxtiyar bir ailə həyatı keçirirdik. Məhərrəm əmi adəti üzrə bir gün yenə bizə gəlmişdi. Oturub söhbət edərkən:

– O bakılı qızını bura çağır, görüm necə qızdır, – dedi.

[31] "Əsrimizin qəhrəmanları" povestindəki Məhərrəm əmi sürətinin prototipidir.



Mən Raziyəni çağırdım. Raziyə gəldi. Qapıdan girincə salam verdi. Məhərrəm əmi ona yer göstərdi. Oturdu. Məhərrəm əmi soruşdu:

– Qızım, oxumaq-yazmaq bilirsənmi?

– Yox, Məhərrəm əmi bilmirəm, ancaq indi yavaş-yavaş öyrənirəm, – deyə Raziyə utana-utana cavab verdi.

– Hə, qoçaq qızım, oxu-oxu!.. Savadsız, elmsiz adam kor kimidir. Bizim qızlarımız arvadlarımız oxumuş olsaydılar öz ömürlərini dörd divar arasında keçirməzdilər.

Məhərrəm əmi bizdə çox oturmadı. Onun rəyi məni çox maraqlandırdı. Ayağa qalxdıqda başını yırğalaya-yırğalaya:

– Mirzə Abdulla yanılmamısan, yaxşı qıza oxşayır, – dedi.

Lakin mənim bu böyük ümidlə qurmaq istədiyim ailə həyatım uzun sürmədi. Raziyənin qız vaxtından xəstəliyi var idi. Evləndikdən sonra bu xəstəlik daha da güclənməyə başladı. Hər nə qədər müalicə etdik, faydasız qaldı. Həkimlərin tapşırığı ilə Jeleznovodskiyə apardım. Peterburqdan gəlmiş məşhur professor Raçiniskiyə göstərdim. Professor operasiya etməyi məsləhət gördü. Mən razı olmadım. Bir həftəlik müalicədən sonra professor məni öz kabinetinə çağırıb dedi:

– Siz, kasıb müəllimsiniz. Bu qızı illər uzunu müalicə etdirməkdənsə, operasiya etdirin. Bu yolla onu bir həftəyə sağaltmaq olar.

Mən çarəsiz qalıb Raziyənin ata-anasına teleqramla məsələni bildirdim. Onlar qəti etiraz etdilər, qızı tez evə gətirməyimi yazdılar. Biz təcili olaraq Bakıya qayıtdıq.

Bakıda Raziyənin vəziyyəti daha da pisləşdi. Axırda operasiya etdirməyə məcbur olduq. Onu Qaraşəhər xəstəxanasında operasiya etdilər. Cərrahiyə əməliyyatından sonra o, ağır ağrılar içərisində vəfat etdi.

İlk ailə həyatımın dağılması mənə son dərəcə sarsıdıcı bir təsir bağışladı. Raziyənin ölümünə "Bəxtsiz rəfiqəm" adlı iki şeir, "Şair və qadın" başlıqlı birpərdəli mənzum pyes həsr etdim. Həmin şeirlərdən birində deyilirdi:

Bir dumanlı sabah idi, ürəyim
Çırpınırdı, qəm ilə həmdəm idim.
Eşq ilə çırpınan könül diyarı,
Məni çəkmişdi bir məzara sarı.
Ağlayırdım yanıqlı həsrət ilə,
Dərdləşirdim o nazlı afət ilə,
Söykənib bir yeni məzar daşına
O yaxında uçuq yuva başına,
Oturub bir quş etmədə fəryad,
Eyləyir qəmli bir nəva inşad.
O da sanki mənim kimi nalan
O da aludeyi-qəmü-hicran;
O da hər an mənim kimi ağlar,
Sanki qəlbimlə aşinalığı var.
"– Gəl quşum, birləşək səninlə bir az
Oturub dərdləşək, olaq həmraz.
Sən kimi mən də bağrı qan, yalnız,
İldırımlarla tarmar yuvamız.
Mən də sən dərdliyəm, maraq etmə,
Başqa bir aşina soraq etmə.
Odlu şeirimlə mən sənə hər gün
Söyləyim dərdli macəramı bütün."

Bu faciədən sonra uzun müddət evlənmədim.



## RUSTOV HƏYATI

Azərbaycan kəndləri ilə yaxşı tanış olmadığım üçün 1908-ci ilin yayını kənddə keçirmək fikrinə düşdüm. Anam və yoldaşım Raziyə ilə birlikdə Qubanın Rustov kəndinə getdik. Kənd koxasının böyük arvadı öz otağını bizə kirayə verdi. İki ay həmin kənddə qaldıq.

Koxanın iki arvadı var idi. Böyük arvadın uşağı olmamışdı. Kiçik arvadın iki oğlu var idi.

Azərbaycan kəndlərində həyət-baca işlərini – mal-qaraya su, yem vermək, bağı, bostanı suvarmaq, tövləni təmizləmək, ümumən bir çox təsərrüfat işlərini arvadlar görürdülər. Kişilər əsasən muzdurluq edir, ağır torpaq işlərini görür, boş vaxtlarını isə divar diblərində çırt-çubuq çəkə-çəkə söhbətlə keçirirdilər.

Rustov kəndinin camaatını üşütmə-qızdırma xəstəliyi lap əldən salmışdı. Hamının üzü sapsarı idi. Xüsusən uşaqların yarısı həmin xəstəliyə tab gətirməyib tələf olurdu. Xalq isə yoxsul idi, mövhumat, köhnə adət-ənənələr bir qayda olaraq burada da hökm sürürdü.

Koxanın böyük arvadı səhərdən axşama qədər inək sağır, tövlə və həyət-bacanı təmizləyir, mal-qaraya yem verir, atı tumarlayır, bağ-bostanı becərir, xamır yoğurur, çörək bişirir, paltar yuyur, xülasə evin bütün ağır işlərini görürdü. Kiçik arvadın vəzifəsi isə yalnız çörək bişirmək, qab-qacaq yumaqdan ibarət idi. Bunun üstündə günülər tez-tez dalaşırdılar.

Bir gün böyük arvad evdə yox idi. Kiçik arvad südlüaş bişirmişdi. Oğlu mətbəxdən yağlı bir qab gətirib, anasından

xahiş etdi ki, ona xörək versin. Anası onun istəyinə əməl etdi, onun qabına südlüaş tökdü.

Uşaq xörəyi yeyəndən bir-iki saat sonra balıq kimi yerdə çapalamağa başladı. Uşağın üzü-gözü pörtmüşdü, nəbzi sürətlə vururdu. Anası başını itirib: "Ya pir balam şəfa tapsın, səndə on iki şam yandırım", – deyib ağlayırdı.

Bu ara böyük arvad gəldi, "Balama nə olub" – deyə ağlamağa başladı.

Uşağın zəhərləndiyi göz qabağında idi. Arvadları başa saldım, çirkli qabdan zəhərləndiyini anlatdım. Böyük arvad tez çarşabını başına salıb getdi. Bir azdan qoca bir kişi ilə qayıtdı. Mən əhvalatı kişiyə danışdım. Qoca: "Hə ola bilər. Mən bu saat dərman gətirərəm", – deyə getdi. Həkim ona əlac qayırıb içirtdi. Oğlan iki-üç dəqiqə sonra yamyaşıl qusdu. Sonra həkim ona qatıq içirtdi, əlacdan bir də verdi. Qatıq laxta-laxta ağzından töküldü. Üç gün sonra uşaq sağaldı. Ancaq rəngi sapsarı zəfərana dönmüşdü.

Kəndin yaxınlığında meşəyə bənzər ağaclı bir təpə vardı. Bir gün gəzə-gəzə həmin təpəyə dırmaşdım. Gəzərkən bir ağaca çoxlu əski bağlandığını gördüm. Bu pir idi. Ağacın altında bir çox qəribə daşlar qoyulmuşdu. Bu daşların içində gözümə yupyumru, üzü parlaq bir daş ilişdi. O daşı götürüb evə gətirdim. Koxanın böyük arvadı daşı əlimdə görüncə yaxasını yirta-yırta: "Ay bala bu pirin daşıdır. Onu götürmək olmaz. Tez, tez apar qoy yerinə, yoxsa naxoşlayıb ölərsən", – dedi. Mən onun sözünə əhəmiyyət vermədim. Anam yalvarıb: "Oğlum, sən mənim canım, apar qoy yerinə, o daşlara əl vurma. Tez, tez apar", – Anamın xasiyyətini bildiyim üçün aparıb daşı yerinə qoydum.

Koxanın böyük oğlu on iki yaşında idi. Onu Qonaqkənddən bir qıza nişanlamışdılar. Evdə toya hazırlıq gedirdi.



Qızın isə on yaşında olduğunu deyirdilər. Bir axşam həyəti gəbə, palaz, xalça ilə döşəyib toy büsatı qurdular. Hamı qonaqları gözləyirdi. Mehtab gecə idi. Göydə sanki ay da, ulduz da toy məclisi qurub şənlikdə iştirak edirdilər.

Arvad, kişi yavaş-yavaş gəlirdi. Toya balaban, zurnaçı və o zaman məşhur olan aşıq Talıbı çağırmışdılar. Zurnaçılar çalır, qızlar, oğlanlar oynayırdılar. Qızı gətirmək üçün Qonaqkəndə beş-altı atlı göndərmişdilər. Gecə saat on radələrində gəlini at üstündə gətirdilər.

Gəlini qarşıladılar. Toy məclisi qızışdı. Oğlanın və qızın qarşısında anası, yaxud qohum-qızlar oynayırdı. Bəy ilə gəlinin yuxusu gəldiyindən onları yatırtdılar. Aşıq Talıb ortaya atılıb əlində saz aşıqlara məxsus hərəkətlər ilə çalıb-oynamağa başladı. O vaxta qədər mən aşıq məclisi görməmişdim. Aşıq Talıb sazını çalaraq ayaqlarını oynada-oynada məclisi dolanıb və özünəməxsus şirin bir əda ilə "Gül sumaxa neylədi?" dastanını danışır və arabir yeri gəldikdə sazını çalıb oxuyurdu. Hamının gözündən yuxu çəkilmiş, böyük maraq ilə dastanı dinləyirdik. Aşıq Talıb məni elə cəlb etmişdi ki, gecənin nə vaxt olduğunu bilmirdim. Aşıq dastanı səhərə yaxın qurtardı. Qonaqlar dağıldı, biz də istirahət üçün otağımıza çəkildik.

Səhər oyandığımızda oğlan ilə qızın artırmada palaz salıb otaq bəzədiklərini gördük. Gəlin gələrkən özü ilə bərabər gətirdiyi əskilərdən düzəldilmiş kuklasını oynadırdı. Mən uzaqdan onların oyununa və danışıqlarına diqqətlə fikir verirdim. Birdən oğlan qıza müraciətlə dedi: "Məsmə, sənin diginin qızdır. Gəl, bir oğlan digini də düzəldək. Sonra onlara toy eləyək." Qız razı oldu, oğlan tez qalxıb getdi, bir azdan əlində bir kiçik ağac və bir neçə cındır gəldi. Sevinə-sevinə:

"İndi mən sənə bir oğlan digin də düzəldərəm, anam da on paltar tikər." – deyib işə başladı.

Qız bir az oğlanın işləməsinə baxdıqdan sonra birdən ayağa qalxıb: "Mən evimizə gedirəm", – deyə ağlamsındı. Oğlan əl-ayağa düşüb: "Sən daha evinizə getməyəcəksən. Atan, anan səni mənə veribdir", – dedi. Qız ağlamağa başladı. Oğlanın böyük anası gəldi. Qızı nə qədər dilə tutdu, qız sakit olmadı, bir qədər ağladıqdan sonra palazın üstünə uzanıb yatdı.

Biz Rustovdan qayıdana yaxın böyük arvad günüsünün acığına koxaya üçüncü arvad almağa hazırlaşırdı. Koxanı dilə tutub razı salmışdı. Ancaq heyf ki, biz o komediyaları görmədik.

Həmin yay mən yaxın kəndlərdən Çiçi, Qonaqkənd və Nügədidə oldum, hərəsində bir-iki gün qalıb onların həyat tərzi ilə tanış oldum. Qonaqkəndə getdiyim zaman gümüş kəmərli, gümüş vəznəli çərkəskədə sağ əlinə meşin əlcək taxmış, barmağı üstünə qızılquş taxmış bir şəxs gördüm. Dedilər ki, kəndin sahibi Həsən bəydir. Sonra onun kəndliləri necə talamasından danışdılar. Bu bəy kəndlilərə hər manata bir manat pul, hər batman buğdaya bir batman buğda artıq almaq şərti ilə borc verirmiş. Hətta danışırdılar ki, bu bəy yoxsul bir kəndliyə bir öküz başını üç abbasıya satıb, sonra o borcu şişirdib kəndlinin bütün var-yoxuna sahib olmuşdu. Kəndli isə bu dərdə dözə bilməyib başını götürüb haraya isə qaçmışdı. Bəy əvəzində onun iki oğlunu üç il qapısında və tarlada işlətmişdi.

Rustov kəndində tez-tez kəndlilər ilə söhbət edirdim. Onlar öz başçılarından, koxadan, kəndxudadan, pristavdan çox şikayət edirdilər.

Avqustun axırlarında Bakıya köçdük.



## "KÜLTÜRƏ"

Küçədə yeni moda ilə çox şıq geyinmiş bir adamla tez-tez üz-üzə gəlirdim. Mən bu şlyapalı və qalstuklu adamın kim olduğunu bilmirdim. Qayınatam Kəblə Mirzə ilə oturub söhbət edirdik. Bu zaman qapı döyüldü həmin şlyapalı adam içəri girdi. Kəblə Mirzə məni onunla tanış etdi. Təzə tanışım bir qədər özündən danışandan sonra qoynundan bir kağız çıxarıb mənə uzadaraq:

– Al bunu oxu, – dedi.

Bu, onun Ramanıda erməni Asaturyan ilə şərikli aldığı köhnə buruğun natarius tərəfindən təsdiq edilən sənədi idi. Sənədi oxuduqdan sonra tez əlimdən alıb yenə qoynuna qoya-qoya:

– Görək, bu buruq bizə nə verəcək, – dedi.

Qaynatam:

– Allah xeyir versin, necə olsa ziyan çəkməzsən, – deyə ona təskinlik verdi. Varlı qonşumuz özünü doğruldaraq məğrur bir əda ilə söhbəti daha da qızışdırdı:

– Kəblə Mirzə, kültür olmaq asan şey deyil, onu hər adam bacarmaz. Kəstümünə yaraşan şlyapa qoymaq, ona yaraşan kəlüstük bağlamaq, özünə layiq ev şeyləri almaq, onları səliqə ilə düzmək hər kültür adamın işi deyil. Mənim yeddi otağım var. Hər otağın astanovkası (obstanovkası) özünə görədir. Üç qulluqçum var. Gecə-gündüz işləyib bu otaqları zorla səliqəyə sala bilirlər. Bizim Güləbatın xanım evdə əlini ağdan-qaraya vurmaz, toya gedən adam kimi zərzibalı paltarını geyinib divanda uzanıb oradan qulluqçulara əmr verir. Yaman kültür arvaddır. Qulluqçular ondan it kimi

qorxur. Yox, doğrudan da kültür olmaq çox çətin işdir. Hər adamın hünəri deyil.

O özünü və arvadı Güləbatın xanımı ən mədəni kişilərin və arvadların nümunəsi kimi qələmə verməyə çalışırdı. Onun mədəniyyət və mədəni insan haqqında olan bu "görüşləri" məni çox əsəbiləşdirdi. Özümü saxlaya bilməyib dedim:

– Paşa bəy, sizin mədəniyyət haqqında olan fikirlərinizə şərik deyiləm. İnsan ancaq şlyapa qoyub, qalstuk taxmaqla, otaqlarına min bəzək vurmaqla mədəni ola bilməz. Mədəniyyətin tələbləri çox dərin və genişdir. Mədəni adam heç olmasa öz dilini, tarixini, ədəbiyyatını bilməlidir. Xalqın ictimai işlərində çalışıb ona fayda verməlidir. Ancaq özünü bəzəyən, özünü düşünən adama mədəni adam demək olmaz.

Mənim sözlərimdən Paşa bəy yaman pozuldu. Qaşlarını çataraq xeyli danışmadı. Kərbəlayı Mirzə tez söhbətin mövzusunu dəyişdi. Nə qədər çalışdı Paşa bəyin qaşqabağı açılmadı. Bir az sonra o, qalxıb getdi və gedərkən mənim üzümə də baxmadı.

Kərbəlayi Mirzə gülə-gülə:

– Kişini yaman pərt elədin, – dedi – Onların sözlərinin qabağında söz danışmaq olmaz. Yaxşı ki, sənə artıq-əskik cavab vermədi. Onun necə adam olduğunu bilmək istəyirsənsə sənə bir əhvalat danışım... Bakı dumasına seçkilərin başlamasına az qalırdı. Həsənbəy[32] hər il dumaya üzv seçildiyindən bu il də seçiləcəyindən əmin idi. Bu Paşa bəy bir gün mənə yanaşıb dedi: "Kəblə Mirzə səndən bir təvəqqem var: "Gərək Həsənbəy bu il seçilməyib qaralansın." Bu söhbət məni açmadı. Çünki seçdiyimiz üzvlər içində ondan ağıllı,

[32] Həsənbəy Zərdabini nəzərdə tutur.



ondan bilikli, ondan çox xeyir verən üzvümüz yox idi. Odur ki, razılıq vermədim. Paşa bəy incik halda dedi: "Birinci dəfədir səndən təvəqqe edirəm onu da yerə salırsan? Belə dostluq olmaz! Bunu məndən dostlarımdan bir-iki nəfər də xahiş edib. Hər necə olsa bu il Həsənbəy qaralanmalıdır.

Ata-babadan Paşa bəygilə dost idik. Sözünü yerə sala bilməyib axırda çarəsiz razı oldum.

O il Həsən bəyi qaraladıq. Həmin il o, Bakı dumasına üzv seçilmədi. Bu əhvalatdan sonra Həsənbəyi küçədə görəndə üz-üzə gəlməmək üçün baş qaçırırdım. Ancaq bir gün necə oldusa onun ilə qarşı-qarşıya çıxdıq. O, əhvalatı eşitmişdi. Əlini çiynimə qoyub dedi:

– Kəblə Mirzə, Hacı Aslan çox bilir yoxsa mən?

– Əlbəttə sən!

– Xalqımıza o çox xeyir verir yoxsa mən?

– Sən!

– Bunlar bir yana o təmiz insandı yoxsa mən?

– Sən!

– O halda məni qaralayıb onu nə üçün seçdiniz? - Sonra o gülə-gülə əlavə etdi.

– Siz məni seçsəniz də birdir seçməsəniz də. Mən bundan bir şey itirmirəm. Xalq itirir. Mənim ürəyimi ağrıdan ancaq budur.

O biri il Həsənbəy hamıdan çox səs alıb yenə duma üzvlüyünə seçilmişdi.

***

Həsənbəy Zərdabi XIX əsrin son iyirmi beş ili və XX əsrin əvvəllərində öz böyük ictimai fəaliyyəti ilə qabaqcıl Azərbaycan ziyalılarının, xalqın dərin məhəbbətini qazanmışdı. O görkəmli bir xalq xadimi idi.

Həsənbəy Moskva universitetinin təbiiyyat fakültəsini bitirdikdən sonra Bakıya gəlmiş, birinci Bakı gimnaziyasında təbiiyyat müəllimi olmuş, qızlara məxsus gimnaziyanı qurtaran Hənifə xanımla evlənmişdi. 1875-ci ildə "Əkinçi" qəzetini nəşr etməyə başlayaraq kəndlilərimizə təsərrüfat işlərini öyrətməyə, Azərbaycanda qabaqcıl elmi görüşləri yaymağa çalışmışdır. O zaman oxucular az olduğundan qəzetin qazancı məxaricini ödəyə bilmirdi. Həsənbəy buna baxmayaraq qəzetin qazancından çatmayan pulu özü ödəyir, qəzet ucuz başa gəlsin deyə, Hənifə xanımla birlikdə qəzetin mürəttibliyini özləri edirdilər. Bir çox kəndlərə qəzeti Həsənbəy pulsuz göndərirdi. Bu həqiqi vətəndaş, xalqını yeni mədəni səviyyəyə yüksəltmək üçün bütün qüvvətini sərf edir və heç bir fədakarlıqdan çəkinmirdi. Qadını Hənifə xanımı da özü kimi açıqfikirli, maarifpərvər yetişdirmişdi. 1877-ci ildə hökumət tərəfindən "Əkinçi" qəzeti bağlandıqdan sonra Həsənbəy rus dilində nəşr edilən "Kaspi" qəzetində çalışır, təbiiyyat elmlərinə dair müxtəlif mövzularda məqalələr yazırdı. Bakı dumasına üzv olduğu üçün Həsənbəy yeni mədəni maarif ocaqları açdırmaq işində bu mövqeyindən də istifadə edir, maarif şöbəsinin hesabına olaraq məktəblər açırdı. Azərbaycanın maarif və mədəniyyət tarixində Həsənbəyin unudulmaz mövqeyi vardır.



Həsənbəy ağır, ciddi, zəhməti və doğruluğu sevən, sözünə sadiq, əyilmək bilməyən məğrur bir insan idi. Həm də bir az qılıqsız və sərt idi.

1906-cı ildə Azərbaycan müəllimlərinin Bakıda birinci qurultayına çağırılmış Həsənbəy sədr, Nəriman Nərimanov da müavin seçilmişdi. O zaman N.Nərimanov Odessa tibb institutunda oxuyurdu. Yay tətili münasibəti ilə Bakıya gəlmişdi. Bu qurultayda bir çox mühüm məsələlərlə yanaşı "lal metod" adlanan tədris üsulunun nə dərəcədə əlverişli olub-olmamağı müzakirə edilirdi. Bu üsul həm, Azərbaycan uşaqlarına, həm də ruscanı təlim edən Azərbaycan müəllimlərinə çox çətinlik törədirdi. Məsələn, bir müəllim uşaqlara "it hürür, pişik miyoldayır" cümlələrini rusca öyrətmək istəsəydi, bu cümlələri rusca söyləməli yalnız səs və hərəkəti ilə anlatmalı idi. Yəni müəllim uşaqların qarşısında it kimi hürməli, pişik kimi miyoldamalı idi. Ona görə də qurultay bir səslə bu üsulun ləğv edilməsini qərara aldı. Həsənbəy bu qərarı həyata keçirmək üçün qurultay tərəfindən Qafqaz valisinə bir teleqram göndərib tezliklə bu üsulun Azərbaycan məktəblərində ləğv olunmasına dair əmr verilməsini xahiş etməyi təklif etdi. Nərimanov bu təklifə etiraz etdi:

– Bu vaxta qədər biz çox xahiş etmişik, bütün xahişlərimiz yalnız kağız üzərində qalmışdır. Bundan sonra xahiş yox, biz tələb etməliyik! Teleqramda yazmalıyıq ki, müəllimlər qurultayı bu üsulun aradan qaldırılmasını tələb edir.

İnqilab ruhu ilə aşılanmış olan qurultay Nərimanın təklifini qəbul etdi. Həsənbəy etiraz etdi:

– Sən nə ilə tələb edirsən? Topun, tüfəngin var, yoxsa ordun var? Bəlkə bir-birinin canına daraşmış qoçulara güvənirsən?

Mübahisə uzandı. Müəllimlərin böyük əksəriyyəti yenə Nərimanın tərəfini tutdu. Həsənbəy: "Siz gəncsiniz, təcrübəniz azdır, güc ilə iş aşmaz!" – dedikdə, doktor Seyidov: "Ağıl yaşda deyil, başdadır", – deyə ağır cavab verdi. Bu cavablardan sonra Həsənbəy qurultayı tərk etməyə məcbur oldu.

Müəllimlərin bu hərəkəti müəllimləri və bəzi sərvətdarları yaman qorxutmuşdu.

Həsənbəy qurultaya bir daha gəlmədi.

Həsənbəy Azərbaycanda birinci olaraq təbiiyyat fakültəsini qurtarmış alim və görkəmli bir jurnalist idi. Onun "Əkinçi", "Həyat", "Dəbistan" və başqa qəzet və məcmuələrdə təbiiyyata dair yazmış olduğu elmi məqalələrindən ziyalılarımız, müəllimlərimiz bol-bol istifadə etmişdir. O, neft səltənəti adını almış olan Bakıda sərvət dalınca qaçmadı. Cavanlığından son nəfəsinə qədər xalq üçün çalışdı. Odur ki, Həsənbəy qabaqcıl ziyalılar, zəhmətkeş siniflər içərisində böyük hörmət qazanmışdı. Onun ölüm mərasimi xalqın ona bəslədiyi dərin məhəbbətin bir daha canlı sübutu oldu. O vaxta qədər Bakıda heç kəsin cənazəsi o qədər böyük dəbdəbə və təntənə ilə götürülməmişdi. Onun dəfn mərasiminə bütün Bakı axışmışdı. Dükanlar bağlanmış, şagirdlər dərsdən azad edilmiş, bütün ziyalılar, Bakı duması üzvləri, "Kaspi" qəzetinin mühərridləri, mürəttibləri – Həsənbəyi tanıyan hamı bu matəm mərasimində iştirak edirdi. Cənazəni Qasımbəy məscidinə gətirdilər. Bir müsəlmanı tabuta qoymaq üçün lazım olan dini şərtlər yerinə yetirildikdən sonra nitqlər başlandı. Bir çox səmimi və qeyri-səmimi nitqlər söyləndi. Sağlığında ona hörmət etməyən bəzi riyakarların Həsənbəyin cənazəsi önündə canfəşanlıq etməsi mənim ürəyimi ağrıdırdı. O zaman Həsənbəyin ölümünə dair bir şeir yazıb



"İrşad" qəzetində dərc etdirdim. Bu gün bilik və mədəniyyət ocağı olan vətənimizdə etibarlı və qədirşünas cavanlarımız Həsənbəyin adını daha da yüksəklərə qaldırmış, dövlətimiz onun xatirəsini əbədiləşdirmək üçün müxtəlif tədbirlər görmüşdür.

## STAVROPOL SƏFƏRİ

1907-ci ildə qışda ehtiyatsızlıq nəticəsi olaraq ciyərlərimi bərk soyuq almışdı. Bir ay müalicədən sonra həkim yayı Stravropola gedib qımız (at südü) içməyi mənə tapşırdı. İyul ayında dəniz yolu ilə Stravropola (Volqa boyundadır) hərəkət etdim. Bakı gözdən itincəyə qədər özümü gözəl hiss edirdim. Xəzər dənizinin ənginliklərinə və ülvi fəzanın dərinliklərinə dalaraq təbiətdəki əsrarəngiz qüvvət və əzəməti böyük bir maraq və heyrət içində seyr edərək düşünürdüm. Qapımızda dağ silsiləsi kimi yüksələn dalğaları yara-yara sürətlə irəliləməkdə olan gəmiyə diqqət etdikcə kiçik insandakı böyük zəkaya qarşı hörmətim bir qat daha artırdı. Ciyərlərim dənizin təmiz havasına qarşı yelkən açaraq geniş-geniş nəfəs alır, nəzərlərim qarşımda bütün ülviyyəti və ənginliyi ilə yüksələn səma ilə dənizin dumanlı uzaq üfüqlərinə dikilib qalmışdı. Bu hal çox sürmədi. Bir az sonra başım fırlanmağa, ürəyim bulanmağa başladı. Dəniz məni tutmuşdu. Kayutama gedib uzandım Sonra nələr olduğunu bilmədim. Mən ancaq Həştərxana yaxın bir qədər özümə gələ bildim. Hava sakit, dəniz durğun idi. Bir az sonra gəmi körpüyə yaxınlaşdı. Şeylərimi daşıcıya verib Edil çayı (Volqa) körpüsünə gəldik. Bilet alıb çay gəmisinə mindik. Bir saat sonra gəmi çayın mənbəyinə tərəf hərəkət etdi.

Sahillər bir-birindən gözəl idi.

Bu səyahət zehnimdə dərin və silinməz fikirlər doğurub varlığımda böyük dönüş yaradan, məndən yeni intibahlar və düşüncələr doğuran faydalı bir səyahət olmuşdu.

Göyərtədə bir iskələyə oturub sahillərdəki yaşıllıqlara baxırdım. Üçüncü klasdan gənc bir rus yuxarı çıxıb oturduğum iskələnin o biri ucunda oturdu. Bir qədər sonra:

– Vətəndaş, haradansınız? – deyə soruşdu.

– Bakıdan.

– Vəzifəniz nədir?

– Müəlliməm.

– Milliyətiniz?

– Tataram... (o zaman azərbaycanlılara tatar deyirdilər)

– Hansı fəndən dərs deyirsiniz?

– Tatar dilindən.

O, bir qədər sükut etdikdən sonra:

– Nə əcəb çar hökuməti orta məktəblərdə tatar dili keçməyə razı olur?

– Görünür şagirdlər bəy və sərvətdar balalarıdır?

– Az-çox yoxsul təbəələrim də vardır.

O, yenə sükut etdi. Bir qədər sahili nəzərdən keçirtdi. Mən daha da yaxınlaşıb nə isə ciddi şey deyəcəkmiş kimi bir vəziyyət aldı:

– Bir ziyalı kimi elmsiz, cahil tatar xalqı arasında işləmək bir müəllim kimi uşaqlara rəhbərlik etmək sizin vəzifənizdir. Çalışın ana dilini uşaqlara yaxşı öyrədin.

Bu söz ildırım kimi üzərimə endi, daxilim də, vicdanım da "vəzifənizdir", – deyə səsləndi. Yanımda sadə köynəkdə oturan bir gəncin danışığı, davranışı, mülahizələri məndə onun siyasi bir məslək həm də xeyirli bir məslək, təqib etməsi fikrini doğurdu. Ona qarşı marağım daha da artdı. Zaman 1905-ci il inqilabından sonra sosialist partiyalarının proqramı ilə az-çox tanış olmuş, nümayişlərdə mən də döşümə qırmızı lent taxıb iştirak etmişdim. Siyasi tərbiyəm zəif olduğundan ictimai köklərini yaxşı dərk etmədiyim bu proqramlar məndə bir daha millətin əksəriyyətini təşkil edən yoxsullara, zəhmətkeş insanlara rəğbət bəsləməyi, onların mənafeyini müdafiə etməyi öyrətmişdi. Mən şagirdlərin içərisində də yoxsul uşaqları daha çox sevir, onların qayğısına daha çox qalır və onları həmişə dövlətli uşaqlarından üstün tuturdum.



Gənc sözünə davam edərək:

– Sizin tatarlardan sosial demokrat partiyasına mənsub olanlar varmı? – deyə soruşdu.

– Cavab verdim ki: "Vardır, özü də deyəsən az deyil." Bu sözümdən məmnun oldu.

Yaşca məndən çox da böyük olmayan bu gəncin səsində və sözlərində elə qüvvətli bir həqiqət, coşqun səmimiyyət var idi ki, onun təsiri altına düşməmək mümkün deyildi. Onunla xeyli danışdıq, çox tez aramızda səmimi bir münasibət yarandı. Heyf ki, o zaman adını yazıb götürmədim. Bu vaxt salonda yemək zəngi çalındı. Mən onu yeməyə dəvət etdim. Gənc qəbul etmədi. Mən əlindən tutub təkrar rica etdim. O bir qədər yumşalaraq:

– Mənim aşağıda üçüncü klasda bir yoldaşım vardır, – dedi.

– Lütfən onu da çağırınız, – deyə xahiş etdi. Mən oturdum, o getdi. İki-üç dəqiqədən sonra on səkkiz yaşlarında olan bir qızla gəlib məni o qızla tanış etdi. Üçümüz də salona girib bir masa başında oturduq. Ofisiant yaxınlaşaraq onlara:

– Siz hansı klasdansınız?

– Üçüncü klasdan.

– Elə isə burada yemək yeyə bilməzsiniz?

– Neçün yeyə bilməsinlər? Siz pulunuzu alın.

Xidmətçi qadın gülə-gülə:

– Burada pul ilə yemək verilmir. Bilet alarkən yemək pulu da alınır. Siz qalxınız, – dedi.

Hamımız çox mütəəssir olduq. Gənc oğlan heç bir söz demədən ayağa qalxdı. Qonaqlarımın belə təhqir edilmə-sindən çox pərt oldum. Mən də yerimdən qalxaraq:

– Elə isə üçüncü klasa gedək, – dedim.

Bərabər üçüncü klasa gəldik. Yemək yedikdən sonra yenə yuxarı qalxıb göyərtədə yenə həmin yerdə oturduq. Bir az söhbət etdikdən sonra gənc oğlan üzünü yanındakı cavan qıza tutaraq:

– Sən yavaş-yavaş hazırlaş, indi düşəcəksən, körpüyə yaxınlaşırıq, – dedi.

Cavan qız durub getmək istəyirdi ki, oğlan gülə-gülə:

– Çamadandan muğayət ol yoxsa qızıl bilib apararlar, - sözlərini əlavə etdi. Qız getdi. Gəmi körpüyə yan alanda cavan oğlan:

– Çox sağ olun!.. Yoldaşım qayıq ilə çayın o biri tərəfinə keçəcək. Gedim onu yola salım, – deyə yerindən qalxıb tələsik getdi.

Mən də körpüyə endim. Gənc oğlan əlində çamadan qabaqda gedir bir az aralı isə qız onu təqib edirdi. Hər ikisi kənarda durmuş qayığa doğru gedirdi.

Bir qədər əvvəl gəncin çamadandan söhbət açmağı məni şübhələndirmişdi. İndi də onun çamadanı xüsusi ehtiyatla aparmasını gördükdə nədənsə məndə belə bir fikir doğmuşdu ki, bu iki inqilabçı gənc kəndlərə inqilabçı ədəbiyyat daşıyır. Odur ki, mən həmin dəqiqələr artıq on səkkiz yaşında təbliğat vərəqələri daşıyan cavan bir qızdakı cəsarət və siyasi tərbiyənin nə qədər qüvvətli olduğunu düşünürdüm.



Bu düşüncələr içində dərhal kayutuma qayıtdım. Yol üçün qoyduqları şəkərburanı torbası ilə götürüb sahilə çıxdım. Gənc öz iman yükünü çiyninə alıb qayığa yaxınlaşmaq üzrə idi. Gənc oğlan üçün şəkərbura götürüb qalanını qıza bağışladım Onlar qayığa mindilər. Gənc oğlan qızı qayığa qoyub görüşdükdən sonra qayıq hərəkət etdi. Bir az sonra oğlan geri qayıtdı, "çox şükür sağ-salamat yola saldım", – deyə yanımda oturdu. Yaxşı xatırlayıram, zənnimlə ora Kamışın idi. Oğlan mənimlə görüşərkən: "Mən də gecə saat birdə enəcəyəm – dedi – siz də gedin bir az rahat olun, məndə. Hələlik, xudahafiz."

Bir-birimizin əlini məhəbbətlə sıxıb ayrıldıq. Ancaq mən yoluzunu o sadə geyimli gənci və çamadanlı qızı düşünürdüm...

Yemək zəngi vurulduğundan hamı yemək salonuna toplanmışdı. Müəllim formasında olan yaşlı bir kişi Nikolayın divardan asılmış rəsminə işarə edərək ucadan qışqırırdı:

– Bu yaramazı gözümüzün qabağından götürün. Heç olmasa yemək yeyəndə özümüzü sərbəst hiss edək.

Bütün salonun nəzər-diqqətini cəlb edən bu yaşlı müəllim ağzından köpük daşa-daşa:

– Bu bədbəxt məmləkətdə azad nəfəs almaq üçün bir guşə yoxdu. Hara baxırsan, jandarma çəkmələrinin murdar qoxusunu duyursan, – deyirdi.

Yanımdakılardan onun Saratov realni məktəbinin müdiri olduğunu öyrəndim.

Müəllim bir qədər sakitləşdikdən sonra hamının eşidəbiləcəyi bir yüksəklikdə son siyasi hadisələrdən danışır, sağların hərəkətlərini tənqid edirdi. Gənc oğlan da burada idi. O

qoca müəllimin dediklərini təsdiq edir, onunla şərik olduğunu bildirirdi.

Ölkənin siyasi fırtınalar içində çalxalandığı belə bir zamanda Stavropola yetişdim. Hər gün dörd və beş şüşə qımız alıb şamlıqda içir və gündəlik qəzetlərdəki siyasi hadisələri izləyirdim Bir gün Bakı qəzetində "Molla Nəsrəddin" məcmuəsinin hökumət tərəfindən bağlandığını görüb mütəəssir oldum. Müalicə üçün gəlmiş qafqazlı yoldaşlarım ilə bərabər idarəyə hökumətin bu çirkin hərəkətinə qarşı etiraz teleqramı göndərdik. Məcmuə nəşrə başladıqdan sonra teleqram göndərənlər içində öz adımı görəndə ürəyim iftixar hissi ilə döyündü.

Stavropolun ətrafı bizim pirlərimizə bənzər "svyatoylar" ilə dolu idi. Şamlığı dolaşırkən çox tez-tez ağacdan asılmış "svyatoylara" təsadüf edirdim. Bu ilk səyahətimdə mən rus kəndlilərinin də bizimkilər kimi mövhumatpərəst olduqlarını öyrəndim. Çar hökuməti öz siyasətini istədiyi kimi apara bilmək üçün xalqın üzünə maarif qapılarını bağlayır, ruhanilər vasitəsilə mövhumatı yayırdı.

Bir gün Stavropol ətrafında böyük bir "svyatoylar" günü olduğunu söylədilər. O günlər onun ziyarətinə əlli-altmış min zəvvar gəlmişdi. Ziyarətdən qayıdanlar nağıl edirdilər ki, uzaq və yaxın kəndlərdən axın-axın ziyarətə zəvvarlar gəlmiş "svyatoylar" dörd ətrafında mənzil etmişlər. Əlli, altmış min bu yoxsul, çılpaq adamın içində keşişlərdən başqa üst-başı təmiz olan adam yox imiş. Keşişlər əllərində buxurdan[33] "svyatoyun" ətrafında dolaşır, ziyarətə gələnləri dualayır, bu yolla yoxsul kəndliləri insafsızcasına soyur və aldadırmışlar.

---

[33] Dini ayinlər zamanı yandırılan ətirli qətran qabıdır. Ruslar "ladonka" deyir.



Bu hadisələr mənə Fazil Dərbəndinin aşura büsatını qurmağı, mərsiyəxanların müxtəlif hiylələrlə xalqı həyəcana gətirib arvad kimi ağlatmağını, Ərəbistanın isti, qumsal çöllərini basa-basa Kərbəlaya İmam Hüseyni, Xorasana İmam Rzanı ziyarətə getməyini, məhərrəm ayında olan dəstəbazlığı, baş yarmağı, dəstələrin küçələrdə zəncirlə arxalarına döyə-döyə gəzmələrini, bədənlərinə qıfıl, nal və belbudlar keçirmələrini, molla Həsən kimi mollaların min bir fırıldağını və müridbazlığını xatırlatdı. Naçalnik, pristav və koxaların kəndlilərə olan zülmünü, bəylərin zalımanə rəftarını, sərvətdarların fəhlələri heyvan kimi ac-yalavac işlədib dərisini soymasını, xanların, darğaların zülmündən Arazı aşıb on minlərcə axıb gələn ac, yoxsul cənublu qardaşlarımızı düşündükcə mən 1905-ci il inqilabının mənə və böyük tarixi əhəmiyyətini daha dərindən dərk etdim. Mən bu zaman on səkkiz yaşlı bir qızın çamadanlarda təbliğat vərəqələri daşımasını, qoca bir məktəb müdirinin Nikolayın rəsminə qarşı "Bu yaramazı gözümüzün qabağından götürün, heç olmasa yemək yeyəndə özümüzü sərbəst hiss edək" sözlərinin əsl mənasını daha yaxşı düşünməyə başladım. Bu hadisələr məndə zəhmətkeş siniflərə qarşı olan rəğbəti artırdı. Mən də baş verən siyasi hadisələrə daha aydın yanaşma vərdişi oyatdı.

Stavropol səfərindən mən inqilabi bir xofla qayıtmışdım. Bu səfər məndə çarizmə qarşı mübarizə aparan sosial-demokratlara qarşı rəğbət oyatmışdı. Ona görə də firqəyə girməyə yol axtarırdım. "Kaspi" qəzeti idarəsində Rza Nağıyev adlı bir ziyalı işləyirdi. Onun firqəçi olduğunu bilirdim. Bazar günü şəhər bağçasında Rzanı görüb yanında oturdum. Söhbət açıb firqəyə girmək istədiyimi dedim. O acı-acı gülümsəyərək: "Yox, girmə, mən sənə məsləhət görmürəm" –

dedi. Səbəbini soruşdum. O belə cavab verdi: "Firqə başında olanlar biz azərbaycanlılara yuxarıdan baxırlar. Bizə firqə və təbliğat işlərini yox, ancaq burmaq, öldürmək kimi qara işləri tapşırırlar. Firqənin əmrindən çıxmaq olmaz, bu da ki, bilirəm sənin əlindən gəlməz." Onun bu sözü məni şübhələndirdi. Ona görə də soruşdum: "Rza sən bolşeviklərdənsənmi?" Rza: "Yox, menşevikəm." – deyə cavab verdi. Sonra əlavə etdi: "Canım, şair adamsan firqədə nə işin var, get şeirini yaz."

Mən artıq bu xüsusda Rzaya bir söz demədim. Ancaq firqəyə girmək fikri mənim başımdan çıxmayır, zəhmətkeşlərə qarşı olan məhəbbətim gündən-günə artırdı. Odur ki, həmin illərdə dərsliklərdə və mətbuatda oxucularıma zəhməti və zəhmətkeşləri sevdirmək fikri ilə "Əkinçi nəğməsi", "Xan və əkinçi" "Yetim", "Niyə uçdu?", "Yad et!", "Lay-lay", "Zamanın inqilabçılarına" və bir çox bu kimi şeirlər çap etdirdim. Mən gələcəyə böyük ümid və inamla baxır, zəhmətkeşlərin başladığı inqilabın qalib gələcəyinə inanırdım. Bundan başqa mən məşhur inqilabçıların fəaliyyəti ilə maraqlanmağa başladım.

## SƏRABLI İBA

Bakıda pəhləvan güləşdirmək adət idi. Pəhləvanlar güləşməkdən əlavə zorxanalarda mil oynadar, əlləri və ayaqları ilə müxtəlif ağır şeyləri qaldırardılar.

O zaman Bakıda cavan olmasına baxmayaraq altıaylıq pəhləvan çox məşhur idi. Onun arxasını yerə vuran hələ olmamışdı.



Bir ara eşitdik ki, Təbriz tərəfdə məşhur olan pəhləvan Sərablı İba güləşmək üçün Bakıya gəlmişdir. Güləşmək işlərini təşkil edən başçılar əvvəlcə İbanın qarşısına başqa pəhlavanlar çıxartdılar. İba meydanda gəzişdikdən sonra yaxınlaşıb bir anda qarşısındakı pəhləvanı hop qaldırıb arxasını yerə vururdu. Tamaşaçılar əl çalır, 5, 10, 25 ma-natlıqlar üstünə göydən yağış kimi yağırdı. Bu zaman üstü-başı köhnə, yamaqlı bir kişi yaxınlaşıb ona bir manat uzatdı. İba manatı aldı. Onu dodaqlarının bərabərinə tutub üç dəfə öpdükdən sonra gözlərinin üstünə qoydu.

İba ortaboydan bir az kiçik, qarayanız bir kişi idi. Onun zahiri görünüşü o qədər də güclü pəhləvan olduğunu bildirmirdi. Meydanda gəzdikcə qollarının və baldırlarının əzələləri şişirdi. Bakı pəhləvanlarının basılmasını qeyrətinə sığışdırmayan başçılar Altıaylığı İbanın qabağına çıxartmaq istədilər. O gecə Altıaylığın əzələlərini ovuşdurduqdan sonra səhər onu Sərablının qarşısına çıxartdılar. Altıaylıq iyirmi, iyirmi bir yaşında gənc bir pəhləvan idi. Buna baxmayaraq o vaxta qədər Bakıda onun arxasını yerə vuran olmamışdı.

Meydanda cavan Altıaylığı görüncə bir-iki saniyə ona diqqətlə baxdı. Sonra arxasını ona çevirib meydandan çıxdı. Başçılar nə qədər çalışdı, İba Altıaylıq ilə güləşmədi. O baş götürüb oradan Salyana getdi.

İba İranın Azərbaycan hissəsində çox məşhur idi. Onun arxasını yerə vuran olmamışdı. Hətta nəql edirdilər ki, Tehranda padşahın hüzurunda onun ən məşhur pəhləvanının arxasını yerə vurmuşdu. Birinci dəfə pəhləvanı yerə vurduğu zaman üzünü şaha tutub: "Qurban şod?" – deyə soruşduqda, şah cavabında: "Nə şod," – demişdi. yəni: "padşah oldu? – "yox olmadı!" İkinci dəfə yenə padşaha eyni sualı verdikdə padşah əvvəlki cavabı vermişdi. Üçüncü dəfə pəh-

ləvanının arxasını yerə elə bərk vurmuşdu ki, yerindən tərpənə bilməmişdi. Bu dəfə yenə İba: "Qurban şod?" – sualını verdikdə: "Nə şod!" – deyə cavab vermişdi. İba isə "Qibleyi aləm, in dəfə şod" cavabını vermişdi. Padşah qaşlarını çatıb daha cavab verməmişdi. İba padşahın qəzəbindən qorxub Tehrandan qaçmışdı.

Başçılar elə zənn etmişdi ki, İba Altıaylıqdan qorxub qaçmışdı. Odur ki, Altıaylığı da götürüb Salyana getdilər. İbanı meydanda güləşdiyi yerdə tapmışdılar. İba güləşdiyi pəhləvanı yerə vurdu, camaat "ura" çəkib onun başına pul yağdırdı.

İba başçıların Altıaylıq ilə gəldiyini görüb meydandan çıxmış, heç kəs ilə görüşmədən Xıllıya qaçmışdı. Başçılar yenə əl çəkməmiş, İbanın Xıllıya getdiyini öyrəndikdən sonra Altıaylıq ilə bərabər oraya getmişdilər. Nəhayət, onu aşxanada yemək yediyi zaman yaxalamışdılar. Başçıların bu hərəkətindən acıqlanan İba:

– Xəbər göndərin, meydan qurulsun, güləşirəm! – demişdi.

Xıllıya səs düşdü ki, İba Bakı pəhləvanı məşhur Altıaylıq ilə güləşəcək. Camaat hər tərəfdən meydana axdı. Güləşmə başlandı. Pəhləvanlar bir-birinə yanaşdı. İba bir əli ilə Altıaylığı qaldırıb havaya atdı. Altıaylıq yerə düşəndə ürəyi getdi. Camaat İbanın başına hər tərəfdən pul tökməyə başladı. İba pulları əlində bürmələdi, hamısını cırıb yerə atdı və oradan birbaş Səraba qayıtdı.





O, qaşlarını çataraq əlindəki kitabı acıqlı halda bir təfə atdı. İki əli ilə başını tutaraq masaya dirsəkləndi. Mən onun bu vəziyyətinə gülərək soruşdum:

–Səlim, yenə nə oldu? Niyə qəm dəryasına batdın?

Səlim bir əlini başından götürüb istər-istəməz cavab verdi:

– Bəxtəvər sizin başınıza, heç zaddan xəbəriniz yoxdur. Olsa da vecinizə gəlmir.

– Axı, nə olub? De biz də bilək.

Səlim kitabı yerdən qaldırıb bizə uzatdı.

– Al, oxu, gör alimlər nə yazır. Deyirlər ki, yer üzündə su getdikcə azalır. Dörd, beş yüz min ildən sonra su o qədər azalacaq ki, insanlar sudan korluq çəkəcək; hətta bəzi yerlərdə susuz yaşamağa məcbur olacaq.

Mən onun bu sözünə qəhqəhə ilə güldüm.

– Sən dörd, beş yüz min il bundan sonranın dərdini indi niyə çəkirsən? Bir də bu nəzəriyyənin nə qədər doğru olduğu məlum deyil.

– Yox, mən buna inanmaram. Bizim bu Xəzər dənizi gözümüzün qabağındadır. Bax, mən görəli sajından artıq çəkilib. Əvvəl harada idi, indi haradadır. Nağıl edirlər ki, bir zaman dənizin ləpələri Qız qalasını yalayırmış. Bu bir həqiqətdir. Yazıq bizim gələcək nəslimiz, o zaman susuz necə yaşayacaq?

Səlim yoxsul bir ailədən idi. Üç illik şəhər məktəbini qurtardıqdan sonra Məhərrəm əmi onu götürüb gimnaziyaya qoymuşdu. Hər il yetmiş beş manat məktəb haqqını da siyahı ilə tanış adamlardan yığıb verirdi. Səlimin oxumağa həvəsi az idi. Səkkizinci sinifdə qaldığı üçün məktəbdən çıx-

mağa məcbur oldu. Zəhmətli işləri sevmədiyindən tanışlarından birinin nəsihəti ilə "Zinger" tikiş maşını idarəsində qulluğa girdi. Səlim öz işlərindən çox başqa fikirlər və yeni ixtiralar ilə məşğul olmağı sevərdi. Qulluqdan qayıtdıqdan sonra evə gəlib, elmi əsərlərlə məşğul olur, gündə başına yeni bir fikir gəlirdi. O, deyirdi ki, bizim ən böyük düşmənimiz mədənçi varlılardır. Torpaq bizim anamızdır. Mədənçilər isə neft çıxarıb varlanmaq üçün quyular qazdırır və anamız olan yerin qəlbini deşirlər. Bir gün ay kimi onun da hərarəti azalıb donacaq, yer üzündə yaşayış kəsiləcək.

Səlim bir ara tolstoyçu da oldu. Tolstoyçuluq o zaman Bakıda ziyalılar arasında çox intişar etmişdi. Dostlarından biri bir gün tolstoyçuluq haqqında ona məlumat vermişdi. O gün qulluqdan qayıdınca ağzı odlu mənim yanıma gəldi. Tolstoyçuluq haqqına eşitdiklərini söylədikdən sonra:

– Bundan sonra mən dilimə ət vurmaram, – dedi.

Doğrudan da, Səlim bir müddət ət yemədi. Ancaq bu çox davam etmədi. Arabir yemək ilə bir stəkan şərab içmək adəti idi. Odur ki, "ətsiz şərabın ləzzəti yoxdu", – deyə təzədən ət yeməyə başladı.

Səlim yaman vasvası idi. Hər şeydən, hər sözdən bir məna çıxarıb özünə dərd edirdi. Onun bu təbiətini bilən dostları bir gün onu qonaq edib bərk içirtmişdirlər. Sərxoş olduğu zaman onu qızışdırmaq məqsədi ilə çar məmurlarının Azərbaycan xalqına etdiyi zülmdən danışmışdılar. Səlim də özünü saxlaya bilməyib coşa-coşa çar hökumətini, onun məmurlarını söymüşdü. Dostları ertəsi gün onu tapıb demişdilər: "Səlim, sənin dünən padşah haqqında dediklərini polisə xəbər vermişlər. Göz-qulaqda ol, səni dama basacaqlar".

Səlim qorxuya düşdü, gecə-gündüz gözünə yuxu getmədi. Yanıma gəlib əhvalatı mənə nağıl etdi:



– Heç bilmirəm neyləyim? –dedi, – görünür içlərində xəfiyyə var. Məni içirib ağzımdan söz almışlar.

Mən ona ürək və təsəlli verdim:

– Onlar səni qorxudur, fikir eləmə.

Səlim əlini çiynimə qoyub qəti etiraz etdi:

– Yox, elə deyil, onlar mənə quyu qazmağa çalışır. O qonaqlığı boş yerə verməmişdilər.

Ona nə qədər ürək-dirək verdim, təsəlli verdim, Səlim qəbul etmədi. Qorxusundan gündən-günə saralıb-suzaldı.

Dostları bu kobud zarafatın Səlimin səhhətinə çox pis təsiri olduğunu görüb and içdilər ki, onunla zarafat ediblər.

– Doğru deyirsinizsə siz də mənim yanımda həmin söyüşləri təkrar edin. Onda inanaram, – deyə Səlim dostları ilə şərt kəsdi. Dostlarının padşahın, çar məmurlarının ünvanına dedikləri tənqid və söyüşləri eşitdikdən sonra Səlimin qəlbindəki dərdi dağıldı, üzü, gözü gülməyə başladı.

Heç bir müstəqil fikrə qulluq etməyən bu adamın məsləki də naməlum idi. Bugün dediyi bir fikir və gördüyü bir əməlin sabah ziddinə söz söyləyirdi. Onun 35 yaşı olduğu halda evlənməmişdi. Dörd, beş yüz min il bundan sonra susuzluqdan korluq çəkəcək nəslimizin gecə-gündüz dərdini çəkən bu adamdan soruşanda ki, "Səlim, nə üçün bu vaxta qədər evlənməmisən?", cavab verirdi ki; "Dəlisən, mənim arvad-uşaq nəyimə gərək, gecə-gündüz işləyib qarınların doyurum, hazır onlara xərclədiyimi özümə xərcləyib rahat yaşayaram".

Səlim küçəyə baxan pəncərənin qarşısında bir qaba su töküb içinə də böyük ahənrüba qoymuşdu. Onun nə olduğunu və nə üçün qoyduğunu dəfələrlə soruşmuşdum. Səlim gülərək:

– Bir gün bilərsən, – deyib fikrini hamıdan gizlədirdi.

Sentyabr ayı idi. Şimaldan dəstə-dəstə sıx və qara buludlar uçaraq göy üzünü bürüyürdü. Səlim məni çağırdı. Getdim. Göydə uçuşan buludları göstərib məğrur bir tövr ilə dedi:

– Bu buludları mən gətirmişəm, yağış yağdıracağam.

Mən şübhəli nəzərlərlə ona baxdım. Ürəyimdə onun beyninə bir ziyan yetişdiyini zənn etdim. Sonra çox ehtiyat ilə:

– Səlim, – dedim, – sən yağışı necə yağdıracaqsan?

O, pəncərədə qoyduğu qabı və onun içindəki böyük ahənrübanı əli ilə göstərdi:

– Bəs bu nədir? Bunları boş yerə bura qoymuşam? Bunlar buludları çəkib gətirir.

Məni gülmək tutdu.

– Gül-gül, sən inanma, bir-iki saatdan sonra yağış yağanda inanarsan.

– Hər payız bu buludlar gələndə yağış yağır. Buna sənin bu qabda qoyduğun suyun və ahənrübanın nə dəxli var?

– Siz paxılsınız. Mən zəhmət çəkib ixtira eləmişəm, amma sizin gözünüz götürmür.

– Elə isə sabah yox, birisi gün yağış yağdır, görüb inanım.

Səlim razı oldu. Bir gün sonra maraq üçün Səlimin yanına getdim. Səlim mənə: "Otur, bir az gözlə, bir saatdan sonra buludlar koma-koma göy üzünü bürüyəcək", – dedi. Mən oturub xeyli gözlədim, ancaq buludlardan bir əsər görünmədi. Göy üzü sapf və şəffaf idi. Nəhayət, Səlim qızara-qızara dedi: "Aha, dərman qalıb köhnəlibdir. Ona görə təsiri yoxdur. Mən dərmanı dəyişdirim, hansı gün deyirsən sənə yağış yağdırım".



Mən bu fikri onun başından çıxartmaq istəyirdim. Ona görə də təzədən sabaha razılaşdıq. Ancaq o gün də yağışdan, buluddan bir əsər görünmədi. Səlim acığından dil-dodağını çeynəyirdi. Axırda ahənrübanı qabın içindən götürüb diqqətlə baxa-baxa: "Görünür, bu ahənrüba dərman içində çox qaldığından gücü azalıb, onu bir neçə gün dərmansız qoymaq lazımdır", – dedi. Mən ürəyimdə: "Yalançını qapısına qədər qovarlar", – deyə düşünüb soruşdum: "Yaxşı, üç gündən sonra necədir?" Səlim razı oldu. Dördüncü gün göy üzünə seyrək buludlar gəlmişdi. "İndi mənim ixtiramın doğru olduğuna inanacaqsan", – deyib göydəki buludları göstərdi.

Buludlar dəstə-dəstə gəlib keçdi, ancaq yağış yağmadı.

Səlim öz ixtirasına bərk inanmışdı. Hər yerdə: "Bu paxıl insanlar mənim zəhmətimi heçə vurmaq istəyirlər", – deyirdi.

Əli boşa çıxdıqdan sonra Səlim otaqları qızdırmaq üçün odsuz, energiyasız soba qayırmaq fikrinə düşdü. Bir müddət də bunun üstündə çalışdı. Bundan da heç bir nəticə çıxmadı. Sonra qocaları cavanlaşdırmaq üçün yeni bir şey düşündü. Deyirdi ki, "kiçik bir otaqda hamam qayırıb, qocaları dörd-beş gün hər dəfə bir saat dərmanla buxarda saxlamaq, həmin buxar və dərmanlar vasitəsi ilə hüceyrələrdə olan qanı təmizləmək, onları bu yolla qüvvətə gətirmək lazımdır."

Səlimin bu "ixtirası" da boş xəyal olaraq qaldı.

O zaman xəyal aləmində yaşayan, boş əl ilə böyük şeylər yaratmaq istəyənlər az deyildi. Bir şair demiş ki:

Hər böyük həqiqət xəyaldan doğar;
Toxtamış ay incə hilaldan doğar.

Ümumiyyətlə, yaradıcılıq işlərində xəyalın böyük əhəmiyyəti var. Ağıl ilə qəlb həyatda bir-birindən istifadə edən

doğma qardaşdır. Sağlam ağlın kontrolundan keçməyən xəyal və hiss hər zaman insanı aldadır. Səlim kimi ancaq xəyala bağlanıb qalan, ağlı və biliyi zəif olan adamlar isə ağlın məhsulu olan həqiqətləri görüb anlamaqdan məhrum olanlardır. O öz ağlını müəyyən bir elm ilə inkişaf etdirməyə çalışsaydı, bəlkə də bu arzularından birinə nail ola bilərdi.

Səlimin vəziyyəti lap o padşahla özünü tən tutan dərvişin vəziyyətinə oxşayırdı: "Bir yoxsul dərviş sarayın qapısına gəlib padşahı görmək istədiyini söyləyir. Onu qovurlar. Dərviş əl çəkmir, hər gün gəlib deyir ki, "padşahı görəcəm ona bir sözüm var". Nəhayət, qapıçı gedib padşaha xəbər verir. Padşah əmr edir ki, ona bir az pul verib yola salsınlar, getsin. Gətirib dərvişə pul verirlər. Dərviş qəbul etməyib deyir ki, "pulu neyləyirəm mənim də padşahın xəzinəsi qədər xəzinəm var".

Əhvalatı gedib padşaha nəql edirlər. Padşah maraqlanıb dərvişi hüzuruna çağırır. Dərviş baş əyib deyir:

– "Ey padşah, sənin də məmləkətin, rəiyyətin var, mənim də. Sənin də taxtın, tacın, sarayın var, mənim də. Sənin də ordun var, mənim də. Sənin də xəzinən var, mənim də. Aramızda fərq ancaq budur ki, səninki hazırda mövcuddur, mənimki xəyalımda".

## ADSIZ

Sentyabrın isti axşamlarından biri idi. İşıqlar yanmışdı. Zəng basıldı, ortaboylu, üstü-başı təmiz bir adam sağ ayağını çəkə-çəkə otağa girib nəzakətlə salam verdi. Görüşdük. Oturdu. Qısa və seyrək kirpiklərini, bulaşıq sarı gözlərini qırparaq sözə başladı:



– Mən sizin yanınıza bir iş üçün gəlmişəm, – dedi, – siz şairsiniz, yazıçısınız. Mən öz başımdan keçən bir əhvalatı sizə danışmaq istəyirəm. Siz onu yazın. Oxuyanlar qoy ibrət alsın, ancaq adımı yazmayın.

Tanışlığımız belə birdən-birə, müqəddiməsiz başladı. Artıq danışığa ehtiyac yox idi. O, gözlərini mənə zilləyib razılıq gözləyirdi. Mən sadəcə olaraq gülümsündüm. Bu ona cəsarət verdi. Bir az sükutdan sonra belə başladı:

– Atalar yaxşı deyib: "Tanımadığın adam ilə dost olma." Mənim kokain çəkən bir dostum vardı. Əvvəllər sadəcə olaraq çəkirdi, sonralar isə onun dəlisi oldu, çox çəkmədi ki, məni də öz gününə saldı.

Bir axşam nəşələnib uzanmışdım. Gözümə əvvəl qara-qara şeylər göründü. Çox çəkmədi, gördüm mən meşədəyəm, qorxunc şirlər ağızlarını iri-iri açıb hər tərəfdən hücum edir, məni parçalayıb dağıtmaq istəyirlər. Yay fəsli idi. Pəncərələr açıq idi. Mən qorxudan yerimdən sıçrayıb qışqıra-qışqıra qaçdım. Şirlər məndən əl çəkmirdi. Canımın hövlündən pəncərədən özümü aşağı atdım. Yaxşı ki, evimiz birmərtəbəli idi. Yoxsa çoxdan o dünyalıq olmuşdum.

Bunu deyib o, ayağını göstərdi.

– Sağ ayağımı da o zaman qırmışdım. Məni xəstəxanaya aparıb tamam bir ay müalicə etdilər. Ölüm, zülm sağalıb yenə qulluğa getdim. Qulluq deyəndə bir az yüngül olur. Mən Dadaşovların dokunda baş hesabdarın əlaltısıyam. Evdə yoldaşım, bacılarım ağlayıb and verdilər ki, kakain çəkməyi tərgidim. Onların göz yaşlarına yazığım gəlib kakaini atdım. Bədənim öyrənmiş olduğundan çox əziyyət çəkdim. Zəhrimarın nəşəsi gələndə mənə bir az şərab içməyi məsləhət gördülər. Mən şərab içməyə başladım, "Yağışdan çıxıb yağmura düşdüm" – buna deyirlər. Getdikcə şəraba, arağa vərdiş et-

dim. Evimizin altındakı anbarda içki dükanı vardı. Maaş aldığım gün toy-bayram idi. Səhər qulluğa getməyə halım olmurdu. Üç gün qalıb arası kəsilmədən içirdim. Yoldaşım, bacılarım əlimdən təngə gəlmişdi. Axırda pullarımı alıb gizlədirdilər.

– Bəs sənin işə getməməyinə idarədə necə razı olurdular? – deyə soruşdum.

– Mən həm düz işləyirəm, həm də yaxşı. Əyrilik, başdan sovurmalıq nə olduğunu bilmirəm. Baş hesabdar ürəyi rəhmli bir rus idi. Ona görə də mənim günahımdan keçirdi. Arabir yaxın dost kimi nəsihət də edirdi: "Sən yaxşı adamsan, özünə yazığın gəlsin, bu zəhrimar içkini at, yoxsa canını tələf edərsən".

Arvadım çox zabitəli və qocaqdır. O, dəfələrlə baş hesabdarın yanına gedib maaşımı mənə yox, ona verilməsini tələb etmişdi. Axırda öz məqsədinə çatdı. Hər maaş vaxtı gəlirdi, baş hesabdar gözümün qabağında mənim maaşımı yoldaşıma verirdi, mən ancaq qol çəkirdim.

Mətləbə yaxınlaşıram. Bunlar hamısı müqəddimə idi. Məqsədim bir əhvalatı sizə nağıl etməkdir. Doğrusu, yadıma düşəndə özümü gülməkdən saxlaya bilmirəm.

Tətil günü idi. İçki üçün ürəyimin başı göynəyirdi. Çox düşündüm, bir çarə tapmadım. Səhər yoldaşım başında çarşab zənbili götürüb bazarlığa gedəndə bacıma tapşırdı: "Bura bax, qardaşından muğayat ol, yenə özünü anbara vurmasın."

Evdə yalnız kiçik bacım idi. O, çox sadə, uşaq xasiyyətli dul arvaddı. Onu aldatmaq üçün tədbir tökdüm. Tökdüyüm tədbiri özüm də bəyəndim. Çünki bu sadə arvadı aldada biləcəyimə inanmışdım. Oturduğum yerdə birdən yerə yıxılıb: "Vay! Vay! – deyə iki əlim ilə ürəyimi tutdum. Yazıq arvad



alıcı quş kimi üstümü aldı: "Vay sənə nə oldu?" – deyə həyəcanla soruşdu. Mən tövrümü pozmayıb, "Ölürəm, ürəyim partlayır" – dedim. O özünü itirib: "Vaxsey mən neyləyim? Gedib həkim çağırımmı?" – deyə soruşdu. Mən yalandan ağlamağa başladım. Bacım da mənə qoşulub ağladı. Sonra mənə təsəlli verdi: "Ağlama qurbanın olum, bu saat gedib həkim çağıraram." Mən ağlaya-ağlaya: "Bacı, mən ölürəm... Həkim lazım deyil. Tez get molla çağır, başımın üstündə quran oxusun". Yazıq bacım ağlaya-ağlaya: "Bu saat gedib çağırım", – deyə getməyə hazırlaşdı. Otaqdan çıxmaq istərkən çağırdım, o, başımın üstündə dayanıb gözləyirdi. Ağlaya-ağlaya dedim: "Aman bacı, ölürəm. De görüm, mən ölsəm basdırmağa pulunuz varmı?" Yazıq arvad iki əli ilə saçlarını yola-yola: "Vay qardaş bu nə sözdür?" – deyib dizi üstə qabağımda yerə çökdü. Mən yenə soruşdum: "Axı, səndən.. söz... soruşuram... cavab ver, məni basdırmağa... pul... var?.." Bacım ağlaya-ağlaya: "Sən niyə ölürsən, səni istəməyənlər ölsün. Allah eləməsin elə bir iş olsa pulumuza nə gəlib." Mən dərindən ufuldaya-ufuldaya: "Yox inanmıram. Göstər." O, şifonerin gözünü sinəsində gizlətdiyi bir dəstə açarla açdı, dəsmala bükülmüş yüzlükləri mənə göstərdi. Pulu görüncə gözlərimə işıq gəldi. Dedim: "Bacı, o pulu qoy başımın... altına... arxayın... ölüm..." Bacım özündə deyildi. Bərk qorxmuşdu. Dərhal pulu dəstəsi ilə başımın altına qoyub, molla çağırmağa getdi.

Mən də elə bunu gözləyirdim. Tez geyinib aşağı düşdüm, dükandan iki şüşə araq alıb qayıtdım. Bufeti açdım, stol üstünə evdə olan yavanlıqları düzüb içməyə başladım. Özümə gəlirdim. Elə bu dəm bacım molla ilə içəri girdi. O məni stol başında yeyib-içən görüncə "Vay qardaş, bu nə işdi? Mən sənə gedib molla çağırmışam", – dedi. Yerimdən

qalxdım. Mollanın ovcuna üç manat basıb: "Bağışla, molla əmi, mən daha sağaldım", – dedim. Molla pulu alıb getdi. Bacım: "Ah qardaş, bu nə oyundur mənim başıma gətirdin?" – deyə hirsindən ağlamağa başladı.

Bacım sözünü qurtarmamışdı ki, arvadım əlində zənbil otağa girdi. Məni stol başında yeyib-içən görüncə acıqlı-acıqlı bacıma baxıb: "Pulu ona sən verdin?" – deyə soruşdu. Bacımın dili tutulub cavab verə bilmədi. O, bir də soruşdu. Bacım ağlaya-ağlaya əhvalatı ona danışdı. Arvadım əvvəl gülümsündü, sonra hirslə başını buladı.

Bacım ağlaya-ağlaya: "Neyləyim... Ölürdü... Heç bilirsən, mən bu iki saatda nə əziyyət çəkmişəm, anamdan əmdiyim süd burnumdan gəlib. Hələ indi də ürəyim döyünür", – dedi.

Bax, mən beləyəm. Sizə danışdığım bu əhvalatdan bir kitab yaz. Ancaq adımı bildirmə, qoy oxuyanlar mənim kimi bədbəxt olmasın. Vicdanım indi də məni ağrıdır, yazıq bacım, o iki saat içində keçirdiyi həyəcan və qorxudan ürək xəstəliyinə mübtəla olub. Onu mən bədbəxt elədim.

Bu sözləri deyib müxatəbim gözlərini yerə dikdi.

Deyə bilərlər ki, "səlimlərsiz", "adsızlarsız"da xatirə yazmaq olar, bunlar zamanın şikəst etdiyi adamlardır. Onların həyatı o qədər də mənalı deyil. Ancaq bir yazıçı kimi mən belə insanlarla həmişə maraqlanmışam. Onu da gizlətməyim ki, onlar hərəsi bir adla mənim əsərlərimə daxil olublar. Yazdığım əsərlər izlənsə bu adamları tapmaq o qədər çətin olmaz.



## MƏHƏMMƏD HADİNİN FACİƏSİ

1905-ci ildə "Həyat" qəzetində:

Məkatib cilvəgahi tələti-fəyyazi-qüdrətdir.
Məkatib pərtövü ənvari-şəmsi-sübhi-vəhdətdir –

mətləli şeiri çap edilincəyə qədər Məhəmməd Hadini tanımırdım. Elmə və məktəbə təşviq üçün yazılmış bu şeir Hadini hamıya tanıtdı. "Füyuzat" nəşrə başlandıqdan sonra Məhəmməd Hadi Əlibəy Hüseynzadə tərəfindən jurnalın redaksiya heyətinə dəvət edildi.

Birinci dəfə onunla bizim evdə görüşdük. Hansı işdən ötrü isə qardaşının yanına gəlmişdi. Hadinin yazı dili ilə danışıq dili bir-birindən fərqlənmirdi. O yazdığı kimi də danışırdı. Hadi hər şeyə qarşı, son dərəcə laqeyd, laübali, azadlığa vurğun, əhvali-ruhiyyəcə bədbin, eyni zamanda xoşsima bir insan idi. Onda müşahidə etdiyim bəzi halların köklərini bilmədiyimdən bir gün yoldaşcasına onu tənqid edərkən çox mütəəssir olaraq:

– Eh, Şaiq, həyatı başdan-başa faciələrlə keçmiş bir bədbəxtdən nə gözləyirsən! – dedi.

Məndən iki yaş böyük olan Hadinin bu cavabı qəlbimdə bir ağırlıq vücuda gətirdiyindən onun faciələrlə dolu olan həyatını ətraflı öyrənməyə başladım, tərcümeyi-halını Sabirdən, Səhhətdən, müəllimi və yaxın qohumu olan Əbülqasım əfəndidən öyrəndim. Şairin müfəssəl tərcümeyi-halından dərsliklərimdə və başqa məqalələrimdə ətraflı bəhs etdiyim üçün burada ancaq onun ədəbi yaradıcılığına, əhvali-ruhiyyəsinə təsir edən bəzi hadisələri qısaca xatırladacağam.

Məhəmməd Hadi sənət və mədəniyyət beşiyi olan Şamaxı şəhərində dünyaya gəlmiş, ilk təhsilini məhəllə məktə-

bində almışdı. Doqquz yaşında ikən atası Əbdüssəlim vəfat edib, anası da başqa bir nəfərə ərə getdiyindən Hadiyə və kiçik bacılarına nənəsi Teyyibə xanım tərbiyə verib saxlamışdı. Bu dindar qadın nəvəsi Məhəmmədi ruhani görmək istəyirdi. Ona görə də Məhəmmədi ərəbcə oxutdururdu. Teyyibə xanımın vəfatından sonra başsız və himayəsiz qalmış bacılarını qohumları aparıb saxlamış, Məhəmməd isə böyümüş olduğundan kimsənin himayəsini qəbul etməyərək öz evində yalqız və sərbəst yaşamağa qərar vermişdi. Bu zaman o qohumlarından birinin qızına vurulmuş, qız isə başqasına ərə getdiyindən bu ilk eşqi onun qəlbində sağalmaz yara açmış, ömrünün sonuna qədər evlənməməyə söz vermişdi. Şeirlərində qadın azadlığını böyük bir ehtirasla ifadə edən Hadi, bütün ömrü boyu evlənməyə laqeyd bir münasibət bəsləmiş və axıra qədər evlənməmişdi. Evlənmək haqqında söhbət etdikdə:

– Allah bəlalarını versin, bu qadınlarda bizi anlayacaq baş, hiss edəcək ürəkmi var? – deyirdi. Buna baxmayaraq o zaman qadının örtükdə gəzməsini qanuniləşdirməyə çalışan mürtəcelərə qarşı yazırdı:

Bir ildırım olsam da əritsəm gecələrdən –
Bir parça olan örtüyü gül üzlü səhərdən.
Gül üzlü səhər, iştə qadındır, bu fərişdə
Yolgöstəri versin, girəlim bir də behiştə.
... Xurşid desəm, gün də sönükdür nəzərimdə,
Sən kölgəlisən, ey günəşim, rəhgüzərimdə
Zinət sənə zindan, sənə pirayə əsarət –
Olduqca yaşar xaki-məzəllətdə bu millət.
Sən açmaz isən bizlərə ümmidi-rəha yox
Hürriyyətə həsrət qalacaq bil ki, bu məxluq.



Bir dövrdən yeni bir dövrə keçdiyi zaman köhnə həyat, köhnə şüur və münasibətlər alt-üst olur. Yenilik isə birdənbirə onu əvəz edə bilmir. Bu təcəddüd dövründə köhnə görüşlər, ehtiraslar və təmayüllərlə üz-üzə gəlir və qəti döyüşə başlayır. Təhsili və əhatə olunduğu mühitin nəticəsində ədəbiyyatımızın qabaqcıl adamlarından uzaq düşən, rus mədəniyyətini yaxşı bilməyən müşkilpəsənd Hadi yenilikləri mənimsəməkdə çətinlik çəkirdi. Hadi mövcud ictimai quruluşla razılaşmır onu yıxmaq, parçalamaq istəyir, yerində yeni bir həyat yaratmağa isə qüvvəsi çatmırdı. Bu zəifliyi özündə dərk etdiyindən Hadi dərin bir bədbinliyə qapılmış, şübhə və tərəddüdlərlə dolu bir həyat keçirməyə başlamışdı. Bu əhvali-ruhiyyəni şair əsərlərində çox aydın göstərir. Hadi öz acizliyini ona köhnə sxolastik mədəniyyət təlim edən müəllimində, ustadında görürdü, bu "kəmşüur ustada" qarşı üsyan edir, aləmin dolaşıq hadisələri arasında çıxış yolu tapmırdı:

Əməl çiçəklərim oldu düçari-cövri-xəzan,
Çirağı-əqlimi söndürdü kəmşüur ustad,
Bu bağıban cəfadənmi xoşlanır, əcaba?
Nədir bu sirri-xofi, kimsə bilməyir, əsəfa?!

Bu suallara, mənəvi tələblərə təminedici aydın cavab almadığından Hadi bir filosof kimi həyatın dərinliklərinə dalır, onun sirlərinə vaqif ola bilməyincə verdiyi suallara qəti və təminedici cavab almayınca qüvvəti qırılır, artıq həyat onun üçün əhəmiyyətini itirirdi?

Hadinin eniş-yoxuşlu ədəbi fəaliyyəti, ziddiyyətləri ilə onun keçdiyi həyat yolu arasında bir yaxınlıq, uyğunluq var idi. Aşağıda nümunə üçün gətirdiyim bir-iki hadisə şairin həyatında baş verən yüzlərlə belə səhnələrdəndir.

Bir gün mən küçədə Hadi ilə yan-yana gedərkən birdənbirə durdu. Özünə başda-ayağa bir quş baxışı ilə baxdıqdan sonra:

– Şaiq, üstümdə lüzumsuz nə var? – deyə soruşdu.

Mənasını anlamadığım bu sualdan heyrətləndim. O isə:

– Diqqətlə bax, lüzumsuz heç bir şey görmürsənmi? – deyə sualını təkrar etdi.

– Yox, - dedim.

O, hirsləndi. Mənə acıqlı baxaraq:

– Siz də həyatın qeyudatına o qədər bağlanmısınız ki, gözləriniz lüzumlunu lüzumsuzdan seçə bilmir, – deyə cavab verdi. Sonra əli ilə jiletini çəkərək:

– Bu mənim nəyimə lazımdır, – dedi.

Məsələni anladım. Borc almaq adəti deyildi. Bunu bildiyim halda pul təklif etdim. Qəbul etmədi. Evimizə qonaq dəvət etdim:

– Hadi gərək bir yerdə yeyib-içək, – dedim.

O, yetim uşaq kimi inləyərək:

– Yox qardaşım bu gün öz səmalarımda uçaraq günəşimin ziyalarını örtən buludları parçalayıb dağıtmaq istəyirəm, xudahafiz, – deyə məndən ayrıldı. Həmişə mənimlə bir dost kimi görüşdüyü, evimizə gəldiyi halda, bugünkü hərəkəti mənə çox qəribə göründü.

Hadi məğrur və heç bir qüvvəyə əyilməyən bir şəxsiyyət idi. Topladığım məlumata görə Məhəmməd Hadi hələ tələbə ikən mollalığa hazırlandığı və hər tərəfdən ruhanilərlə əhatə edildiyi halda mövhumata qarşı ciddi mübarizə aparırmış. Bir gün dostları ilə kənd və şəhər məsələsini ortaya atıb bəzisi kəndin, bəzisi də şəhərin şərafətli olduğunu iddia edərkən yoldaşlarından biri:



– Kənd şərafətlidir, çünki Şeyxlərin hamısı kənddən çıxır, – demişdir.

O zaman müridlərin, şeyxlərin çox vaxt kənddən çıxdığını, təriqətçiliyin əsasən kəndlərdə yayıldığını bilən Hadi bu hadisələrə işarə edərkən belə cavab vermişdi:

– Şeyx dediyin kəs kəndlərdən çıxır, onun şəhərlərdə nə işi var!

Məhəmməd Hadi azadlığa, sərbəstliyə böyük məhəbbət bəsləyirdi. Hələ uşaqkən belə o, sərbəst dolanmağa böyük meyl göstərirmiş. Nağıl edirlər ki, Şamaxı bələdiyyə rəisi inqilab illərində axşamlar saat 8-dən sonra evdən dışarı çıxmağı bir müddət qadağan etmişdi. Bundan sonra Hadi gecələr şəhər ətrafına çıxmaq adəti olmadığı halda bələdiyyə rəisinin əmrinə məhz itaətsizlik göstərmək məqsədi ilə hər gecə şəhər ətrafında dolaşmağa başlamışdı. Bir dəfə polis nəfərləri tərəfindən tutulub dairəyə gətirildiyi zaman yolda şəhərin mötəbər şəxsləri tərəfindən birisi Hadini tanıyıb azad etdirmişdi.

Müsavat ağalığı dövründə sədr-əzəm Nəsib bəy Yusifbəyov ilə olan münaqişəsi də o zaman Hadi haqqında gedən söhbətlərdə tez-tez danışılırdı. Deyilənlərə görə, bir dəfə Nəsib bəy qatarda Tiflisə gedərkən Kürdəmir stansiyasında Hadi ona təsadüf etmiş və nədənsə şikayət eləmək məqsədilə onun yanına getmək istəmişsə də növbətçi müsavat zabitləri onu içəri buraxmamışlar. Hadi pəncərədən: "Adə Nəsib, Nəsib!" – deyə hiddətlə çığırmış, Nəsib bəy: "Qışqırma, içəri gəl!" – dedikdə o: "Sağdan soldan köpəkləri bağlamısan, içəri buraxmırlar", – deyə cavab vermişdi.

Türkiyənin müstəbid sultanlarından olan Əbdülhəmidin əleyhinə 1908-ci ildə güclənən azadlıq hərəkatı Azərbaycanda bir çox qabaqcıl ziyalıları maraqlandırırdı. Bu həmin

dövrdə idi ki, Sabir: "Osmanlılar, aldanmayın, allahı sevərsiz", – deyə Türkiyə xalqını istibdad əleyhinə daha qəti mübarizəyə çağırırdı. Azadlıq, inqilab xəbəri eşitmiş Məhəmməd Hadi də bəzi müasirləri kimi 1910-cu ildə Türkiyəyə getdi. Bütün ümidləri puça çıxmış şair, ancaq 4 ildən sonra ac, səfil bir şəkildə geri döndü.

Gəldiyini bilmirdim. Bir gün küçədən keçərkən üst-başı kirli, halı pərişan bir şəxs əlimdən tutdu. Əvvəlcə tanımadım. Çünki tanılacaq halda deyildi. O titrək bir səslə:

– Şaiq, məni tanımadın? – deyə soruşdu. Səsindən, gözlərinin rəngindən Hadi olduğunu tanıdım. Qucaqlayıb bağrıma basdım.

– Aman, Hadi bu nə haldır, – dedim.

O, gözləri yaşlar içində:

– Qardaşım, heç sorma, – deyə cavab verdi.

Hadini götürüb oradan birbaş evə gəldim. Çəkməsi yırtıq olduğundan ayaqları dışarıda qalmışdı. Üst-başı və yaxası görünən alt köynəyi qapqara və yırtıq idi. Necə faciələr keçirdiyi, gözlərinin sönük şüalarından məlum olurdu. Alt və üst paltarlarını tamamilə dəyişdirtdim. Birlikdə hamama getdik. Evə qayıtdıqdan sonra o mənə Türkiyədə keçirdiyi həyatı ətraflı nağıl etdi.

Hadi öz faciəsini belə söylədi:

İstanbula çatdıqdan sonra ilk əvvəl "Tənin" qəzetində şərq dilləri mütərcimi sifəti ilə çalışır, arabir "Mahtab", "Hilal" kimi qəzet və məcmuələrdə şeirlərimi nəşr etdirirdim. Təbiətimi bilirsən, mənim və ya başqasının azadlığına toxunulduğu zaman əsəblərim yerindən oynayır, səbir edə bilmirəm. Mən buradan çar istibdadından çıxıb geniş nəfəs almaq, azad həyat keçirmək ümidi ilə ora getmişdim. Fəqət orada həmin istibdadı bir az da artıqlığı ilə görüncə səbrim



tükəndi. Ruhumdakı sıxıntı və kədərləri unutmaq üçün çarəsiz yenə daha şiddətli surətdə içməyə başladım. Neyləyim? Qadın azadlığına dair yazdıqlarım xoşlarına gəlmədi. Xalq azadlığına dair yazdım. Yenə darıldılar. İttihadçılar hər yazıçıdan ancaq mədhiyyə gözləyirdilər. Şübhəsiz, mən onu bacarmazdım. Mən mədhiyyə üçün deyil, aləmi alt-üst edib inqilab yaratmaq üçün doğuldum. İstibdad xəfiyyələrinin mərkəzi olan İstambul həyatı məni boğurdu. Dəfələrlə məni sərxoş halda yaxalayıb polis idarəsinə aparmışdılar. Bir dəfə "Siz istibdad mikroblarısınız," – deyə qayim məqamı təhqir etdim. O məni İstambula qayıtmamaq şərti ilə Yunan şəhəri Salonikə sürgün etdi. Pul yox, tanış yox... Salonikdə qadınların bazarlıqlarını evlərinə daşıyıb aldığım pul ilə ölüm-zülm yaşayırdım. Zalımlar bunu da mənə çox gördülər. Bir gün məni Türkiyə xəfiyyəsi adı ilə yaxalayıb polis idarəsinə aldılar. Mən xəfiyyə olmayıb Qafqaz şairi olduğumu onlara inandıra bilmədim. Bir neçə gün həbsdə qaldıqdan sonra məni gəmiyə mindirib İstambula göndərdilər. Yolda yunan bəhriyyəliləri məni dənizə atmaq istədilər. Bir keşiş zor-güc məni onların əlindən qopartdı. Gəmi İstambul körpüsünə yan aldı. Yaramaz mal kimi İstambul da məni qəbul etmədi. Çox yalvardıqdan sonra məni Batuma gedən bir gəmiyə mindirib yola saldılar. Batumda sahilə çıxdım və bir dostumun köməyi ilə Bakıya gəldim. Eh, qardaşım, mənim həyatım başdan-başa bir faciədir.

Günümüz bir yerdə xoş keçirdi. Rahatlanmaq və çalışmaq üçün kabinetimi ona verdim. Evdə bərk tapşırdığım üçün heç kəs onun sərbəstliyinə toxunmurdu. Məqsədim onu içməkdən uzaqlaşdırıb təbii yola salmaq idi. Hətta "qaçmasın" deyə: "Araq ya şəraba meyliniz var isə yemək ilə bir az içmək pis deyil" – deyə bir neçə dəfə işarə də etdim. Qə-

bul etmədi: "Allah bəlasını versin, fəlakətlərimin başlıca səbəbi o deyilmidir?" – dedi. Bir həftə bizim evdə qaldı. Bir gün dərs deyib evə qayıtdığım zaman Hadini görmədim. Anamdan və başqalarından soruşduqda: "Səhər sən evdən çıxdıqdan sonra o da hara isə çıxıb getdi," – deyə cavab verdilər. Həmin gün nahara qədər onu gözlədim, qayıtmadı. Yeməyimi yeyib evdən çıxdım. N.Nərimanovun qardaşı Rizvan Nərimanov ilə dost olduğundan onun dükanına getdim. Rizvan gülə-gülə dedi: "Bura gəlmişdi. Türkiyəni çox söydü, ittihadçılarda abır qoymadı. Sonra hara isə çıxıb getdi."

Bir həftə Hadini axtardım. Xəbər verən olmadı. Sonralar tanış bir həkim tərəfindən tutulmuş olduğu alkoqolizm xəstəliyindən sağalmaq üçün xəstəxanaya göndərildiyini öyrəndim. Xəstəxanadan çıxdıqdan sonra görüşdük: "Bizim evdə sənə heç bir mane olmadığı halda bəyənməyib qaçdın" – dedim. O, utanacaq bir tövr ilə: "Yox, qardaşım, sənin evində özümü çox azad hiss edirdim. Heç bir maneə də yox idi. Fəqət sənə mane olurdum", – deyə cavab verdi. Onu yenə evə aparmaq üçün israr etdim. Ancaq Hadi bu dəfə razılıq vermədi.

Birinci cahan müharibəsi başlamışdı. Bəylərin və sərvətdarların təşəbbüsü ilə azərbaycanlılardan təşkil edilmiş "Dikaya divizya" Karpat cəbhəsinə göndərildiyi zaman Məhəmməd Hadi də ordu mollası kimi onlarla birlikdə Karpata getmişdi. Hadinin dostlarından olan Mürşid Səttar oğlunun söylədiyinə görə 1916-cı ildə cəbhədən ona iki məktub yazmış və hər iki məktubda müharibə hadisələrini təsvir etmişdi. Karpatdan qayıtdıqdan sonra Bakıya gəlmiş və altı ay Mürşidin evində qalmışdı. Bu zamanlar Hadi Karpatda yazmış olduğu "Əhvali-intibah" adlı ayrı-ayrı parçalardan ibarət mənzuməsini "Turan" mətbəəsində pulsuz çap etdirərək küçələrdə özü satırdı.

Bir gün küçədə sərxoş halda mənə təsadüf etdi. "Hərarətli şeirlərim" sərlövhəli mənzuməsini mənə uzadaraq: "Al, beş manat ver!" – dedi. Mən cibimdə olan on manatımın hamısını ona verdim. O, diqqətlə üzümə baxdıqda məni tanıdı və pulu ovcuma qoyub məni qucaqladı. Çox mütəəssir idi. "Şaiqciyim, bağışla tanımadım", – dedi. Nə qədər israr etdim, pulu almadı.

"Eşqi-möhtəşəm" kitabında "Hüsni-qalib və Hüsni-cazib" sərlövhəli şeirini mənə ithaf etmişdi. Bundan əlavə Hadi "Şükufeyi-hikmət" adlı kitabının üstünü yazaraq mənə bağışlamışdı. Həmin kitab indidə məndədir.

Hadinin ən böyük faciəsi tam aydın, ardıcıl bir məfkurəyə malik olmamasında, onun fərdiyyətçiliyində, dilinin isə bizim ümumi ədəbi dilimizdən, ümumxalq dilindən uzaqlaşmasında idi. Həyatı faciələrlə dolu olan bu şairin ədəbi yaradıcılıq yolu da ziddiyyətlər, müvəffəqiyyətlər və müvəffəqiyyətsizliklərlə dolu idi. Lakin Hadinin bir şəxsiyyət kimi yaradıcılığının, məfkurəsinin mərkəzində bir çox sağlam, mütərəqqi fikirlər var idi. Onun əsl faciəsi onda idi ki, o bunları davam və inkişaf etdirmək üçün münasib bir şəraitə düşmədi.

Hadi qabaqcıl ziyalılar ilə oturub-dursaydı, şübhəsiz dövrünün daha böyük şairlərindən biri olardı. Ancaq Hadi yaradıcılığının lap əvvəlində "Füyuzat" mühitinə, Əhməd Kamalların təsiri altına düşdü. Əhməd Kamalın tutulduğu sərxoşluq azarına tutuldu; bu təsirlər o qədər qüvvətli, başgicəlləndirici idi ki, Hadi həyatının sonuna qədər bu sərxoşluqdan, fikri-məstlikdən yaxasını qurtara bilmədi. Böyük istedada, parlaq ilhama malik şair başlıca olaraq düşdüyü mü-

hitin burjua məfkurəsi təsirlərinin qurbanı oldu. Onun dilindəki qəlizlik, ibarəçilik də əsasən buradan gəlirdi. Hələ o zaman Gəncə darülmüəlliminin ədəbiyyat müəllimi Abdullah Tofiq mənə göndərdiyi məktubunda "Qardaşım Şaiq! Məhəmməd Hadi bizim dilimizi və ədəbiyyatımızı hara aparır?" – deyə şikayət edirdi. "Füyuzat" məcmuəsinin Hadiyə aşılamış olduğu pantürkizm, panislamizm təsirləri Hadidə çox uzun davam etmədi. 1941-ci ildə Türkiyədən qayıtdıqdan sonra o pantürkizmin tamamilə əleyhinə idi. Hadi getgedə fikrən ayılırdısa da tutulmuş olduğu sərxoşluq onun tamam ayılmasına, göz açıb dünyaya daha aydın münasibət bəsləməsinə imkan vermirdi.

M.Hadinin həyatının axırı da yaradıcılıq taleyi kimi uğursuz oldu. O, müsavat ağalığının hərc-mərclikləri içərisində təxminən 1919-cu ilin axırları, 20-ci illərin əvvəllərində Gəncədə birdən-birə qeyb oldu. Şairin "yox olmasını" o zaman ancaq dostları, qələm yoldaşları hiss edə bildi, onu çox axtardılar, gördüm deyən olmadı.

## QEYRƏTLİ QOCA

Azərbaycanın maarif işlərində xidməti olan qoca Məhərrəmi unutmaq olmaz. O, ömrünün son illərini maarif işlərinə sərf etməyə qərar vermişdi və bundan böyük bir zövq alırdı.

Məhərrəm əmi Gəncə qəzasının Palçıqlı kəndində yoxsul bir ailədə dünyaya gəlmişdi. On beş yaşında ikən atası Heydər kişini və bir il sonra anasını itirmiş olduğundan iki kimsəsiz bacısının yaşlı gözləri yalnız ona dikilmişdi. Həyatındakı bu iki ağır zərbədən başını itirmiş cavan Məhərrəm



özünü, bacılarını saxlamaq yollarını düşündü; nəhayət, şəhərə köçməyə qərar verdi.

Şəhərdə əvvəlləri hamballıqdan qazandığı pul ilə yetim bacılarını saxlayırdı. Nəhayət, əttar dükanı açdı. Savadsız olduğundan dükanda gəliri-çıxarı hesablaya bilmirdi; ona görə də yazı-pozu öyrənməyə qərar verdi və bu fikrini həyata keçirmək məqsədi ilə bir mollanın yanına getdi. Molla isə: "Sən iki, üç ilə ancaq yazı-pozunu öyrənə bilərsən," – deyə onu həvəsdən saldı. O zaman yeni üsul ilə dərs verən müəllimlər və məktəblər olmadığından Məhərrəm rusca oxumalı oldu. Gəncədə avam adamlar bundan xəbər tutub Məhərrəmə "Urus Məhərrəm" adı verdilər.

Məhərrəm iki bacısını ərə verdikdən sonra Peterburqa getmiş, bir rus qızına evlənərək tam 40 il orada qalmışdı. Peterburq həyatı onu mütəəssib vətənpərvər yetişdirmişdi. Peterburqda o ali məktəblərdə təhsil almaqda olan gürcü, erməni və azərbaycanlı tələbələrlə tez-tez görüşür, onlara azçox maddi kömək edir, yardım kassası açmaq və milli müsamirələr vermək kimi məsələlər haqqında böyük təşəbbüs göstərirdi. Şərq müsamirələrində həyat yoldaşı Anna və tələbələrin iştirakı ilə Qafqaz səliqəsinə müvafiq bir otaq bəzəyir və o gün şadlığından yerə-göyə sığmayırdı. Annanın sonralar mənə anlatdığına görə, belə müsamirələrdə Qafqaz tələbələri, xüsusən Azərbaycanlılar milli rəqslər oynadığı, tar, kamança çalıb oxuduqları zaman şadlığından Məhərrəm əmi uşaq kimi ağlayır, yavaşca: "Çox şükür, ölmədim, bu günləri də gördüm", – deyirmiş.

Müxtəlif zamanlarda azərbaycan dilində nəşr edilən "Əkinçi", "Ziya", "Kəşkül" və "Ziyayi-Qafqaziyyə" qəzetlərini haradansa satın alıb birbaş tələbələrin yanına gəlir, "balalarım bircə bunu mənə oxuyun," – deyə qəzetləri başdan-

ayağa onlara oxudurmuş. Anna nağıl edirdi ki, həmin qəzetləri qarşısına qoyub bir neçə dəqiqə baxdıqdan sonra bir dəfə məndən soruşdu: "Anna, bu qəzetlər göstərir ki, mənim xalqım da yavaş-yavaş oyanır və başqa mədəni xalqlar sırasına keçməyə çalışır. Mən burada çox qala bilməyəcəyəm. Vətən məni yaman çəkir, getsəm sən də mənimlə bərabər gedərsənmi?" "Əlbəttə, gedərəm!" – deyə cavab verdim. Məhərrəmin gözləri işıqlandı. O, şən və qəti bir səslə: "Anna, mən artıq qocalmışam, ömrümün son günlərini vətənimdə keçirmək ən böyük arzumdur", – dedi.

1905-ci ildə Peterburqdan Gəncəyə köçdü.

Məhərrəm elə zənn edirmiş ki, Gəncə camaatı artıq mədəniləşib. Ancaq "köhnə hamam köhnə tas" olduğunu, cahil mollaların, bəylərin hələ də şəhərdə hakim olduqlarını, xalqda lazımınca ictimai şüur, məfkurə doğmadığını görüb çox kədərlənir. Bu vəziyyətin əsas səbəbini çar üsul-idarəsi ilə cahil mollalarda görüb hər yerdə onların əleyhinə təbliğat aparmağa başlayır. Mollalar ona bu dəfə "Kafər Məhərrəm" adını verirlər. Cahil adamlar hər yerdə onu təhqir etməyə başlayırlar.

Məhərrəm əmi Gəncədə qala bilməyib az sonra Bakıya köçdü.

Hər yerdə olduğu kimi Bakıda da köhnəliklə yenilik arasındakı mübarizə şiddətlə davam edirdi. Qoca Məhərrəm aydın ağıl və şüura malik idi. Bu mütəssib qoca xalqı maarif və mədəniyyətə çağırır və gecə-gündüz yorulmadan bu yolda çalışırdı. Küçələrdə avara gəzən, bir-biri ilə döyüşüb-söyüşən uşaqları yaxalayıb onlara nəsihət verir, məktəbdə oxumamaqlarının səbəbini öyrənir, sonra onları dilə tutub ya özü məktəbə yazdırır, ya da atalarının yanına gedib uşaqlarını məktəbə qoymağa onları zorla razı edirdi.



Məhərrəm əmi çox hirsli adam idi. Hətta acığı tutduğu zaman söyür və əlindəki düyümlü yoğun əsası ilə hədələyirdi. Az zaman içərisində Məhərrəm əmini Bakıda hamı tanıdı. Mollalar və cahillər burda da ona "Urus Məhərrəm" adı vermişdilər. Onun qulaqları bu sözə alışmış olduğundan daha əhəmiyyət verməyib öz işinə davam edirdi. Onun baş vurmadığı maarif idarə və müəssisəsi qalmamışdı. "Nicat" cəmiyyətinin fəal üzvlərindən idi. Onun yoxsul uşaqlara çox məhəbbəti vardı. Həmişə deyirdi: "Bu varlıların xalqa bir xeyri olmadığı kimi, onların uşaqlarından da xeyir olmayacaq. Nə olsa bizə bu kasıb uşaqlardan olacaq." O, vuruşa-vuruşa yoxsul uşaqları orta məktəblərə qəbul etdirir, onları atalar şurasının və məktəbin hesabına oxutdururdu. Orta məktəbi qurtaran yoxsul tələbələri özü ilə varlıların kontoruna aparıb həmin gənclərin ali məktəblərdə oxuması üçün varlı şəxsin ayda iyirmi beş manat verməsini tələb edirdi. Xəsis milyonçular onun tələbini rədd etmək istədikdə Məhərrəm onları elə utandırırdı ki, istər-istəməz razı olurdular.

Sentyabrın əvvəlləri idi. Məktəblərdə qəbul imtahanları qurtarıb dərslər başlamışdı. Bir gün Məhərrəm əmi İsgəndər adlı tələbəni realni məktəbə qəbul etdirmək üçün gətirmişdi. O zaman realni məktəbin dördüncü siniflərinə qədər ana dili dərsləri mənə verilmişdi. Sinifdən çıxıb müəllimlər otağına gəldikdə xidmətçi:

– Sizi aşağıda bir qoca görmək istəyir, – dedi.

Aşağı endim. Məhərrəm əmi məni görüncə:

– Abdulla, bu yetim uşağı məktəbə qəbul etdirməyə gətirmişəm, – dedi

– Qəbul vaxtı keçdiyindən müdir daha tələbə qəbul etmir, – dedim.

O, müdir ilə görüşmək üçün mənim ilə bərabər müəllimlər otağına gəldi və müdirə məsələni anlatdı. Müdir:

– Gecikmisiniz! – deyə qəti surətdə rədd etdi.

Məhərrəm əmi cavabında dedi:

– Müdir həzrətləri, siz hər şeydən əvvəl pedaqoqsunuz, rəsmiyyəti qoyun bir yana. Bilirəm, sizin məktəbinizdə oxuyan azərbaycanlı tələbələrin yüzdə doxsan beşi sərvətdar və bəy balalarıdır. Bəs bunun kimi yetim, kimsəsiz azərbaycanlı balaları savadsız qalsınmı? Halbuki hər kömək bizim xalqımıza onlardan olacaqdır. Bu məktəbin qapılarını onların üzünə açmaq sizin vəzifənizdir. Sizdə təmiz rus qəlbi varsa, mənim xahişimi yerə salmayın!

Müdir bir mənə baxdı, bir də uşağa, sonra masa başında oturan birinci sinif müəllimini çağırdı və uşağı ona göstərərək:

– Bu oğlanı sinfə götür, yoxla, yarayırsa sinifində ona yer ver! – dedi.

Məhərrəm əmi zahirən ali təhsil görmüş ziyalıya bənzəyirdi. Rusca sərbəst danışırdı. Müdir məndən onun kim olduğunu soruşdu. Mən Məhərrəm əmini ona təfsilatı ilə təsvir və xarakterizə etdim.

Bakı şəhər dumasının maarif şöbəsi iclasında Həsən bəy Zərdabi Azərbaycan qızlarına məxsus üçsinifli qız məktəbləri açmaq məsələsini ortaya atıb müdafiə etmişdi. Üzvlərdən bir neçəsi: "Bizim müsəlmanlar məktəbə qız ver-məzlər!" Nəhayət, belə qərar gəlmişdilər ki, "qızlarını oxutmaq üçün 25 ata, bizə ərizə versə, məktəb açarıq". Məhərrəm əmi bunu haradansa eşidib maarif şöbəsinə Atalar dilindən bir ərizə yazdırıb ümidi gələn adamlara imza etdirmişdi. O günlərdə mənim də yanıma gəlmişdi. O zaman övladım olmadığı halda mənə də imza etdirmişdi. Bu yol ilə qızlara məxsus birinci şəhər məktəbi açıldı. O gündən qoca Məhərrəm hər yerdə təbliğat aparıb deyirdi: "Oxumuş analarımız olmadıqca bizim xalqımız mədəni olmayacaq".



Məhərrəm əminin uşaqları yeni üsullu məktəblərə çəkməyindən və qızlarımızı da oxutmaq üçün qızğın təbliğat aparmasından cahil mollalar və onların müridləri şübhələnərək onun çar xəfiyyəsi olması barədə şayə yayırdılar. Bu fədakar qocanın xalq içində təbliğat apardığı zamanlar cahillər tərəfindən söyüldüyü, təhqir edildiyi hətta qovulduğu hallar da olurdu. O isə inad edərək əməllərindən, təbliğatından əl çəkmirdi.

Məhərrəm əmi sosial-demokratların məramları, proqramları ilə maraqlanır və onları bəyənirdi. "Bizə nicat bunlardan olacaqdır", – deyirdi. Bu fikri o, sözgəlişi desə də, camaat içində mülahizələrini yaymaqdan çəkinmirdi. Rus mədəniyyətini öyrənməyin, mənimsəməyin əhəmiyyətini təkrar-təkrar yada salırdı. Din xadimlərini – mollaları, mərsiyəxanları, əyyaş Şərq hökmdarlarını – Nəsrəddin şahı, Sultan Əbdülhəmidi görməyə gözü yox idi. O, hər yerdə nədənsə Napoleonu, Böyük Pyotru tərifləyib deyirdi: "Padşah belə olar. Öz xalqlarının tərəqqisi, mədəniləşməsi, ölkələrinin abadlaşması üçün əllərindən gələni əsirgəməyiblər. Bizim Nəsirqulu da (İran şahı Nəsrəddin şaha o belə deyirdi) padşahdır, olar da. Nəsriqulu İran xəzinəsini öz kefi üçün dağıdıb Firəngistana getdi, Avropa şəhərlərini gəzdi. Avropadan özünə layiq bollu yubka gətirdi. Bəs xalqa nə gətirdi? Heç nə! Bu zalım Qacar nəsli İranı viran etdi! Qonşularımız olduğu üçün onların əxlaqı, oradakı mövhumat bizim camaata da pis təsir edir".

Məhərrəm əmi birdən-birə düşdü, qocalıq əlamətləri sürətlə özünü göstərməyə başladı. Alnındakı, üzündəki və

gözlərinin altındakı qırışlar getdikcə artır, vücudu zəifləyirdi. Bakının ağır havası qoca Məhərrəmi hər gün bir az şam kimi əridirdi. Onun qumral gözləri, dərin bir çuxur təşkil edən kölgəli göz halqaları içində seyrək və qısa kirpikləri arasında sönük-sönük parıldayırdı. Bir tutumluq ağ saqqalı ətsiz çənəsi üzərində boğazının altına doğru qıvrılaraq uzanmışdı. Vücudu o qədər ərimişdi ki, paltarı əynindən tökülür və şlyapası gözlərinin üstünə düşürdü. Sinir mərkəzi də pozulduğundan arabir sərsəmləyirdi.

Anna tanış həkimlərdən çağırdı. Həkimlər onu xəstəxanaya götürməyi təklif etdilər. Məhərrəm əmi qəti surətdə rədd etdi. Həkimlər nə qədər təkid və israr etdi, Məhərrəm əmi qəbul etmədi. Anna gözləri yaşlı olduğu halda onlara dedi:

– Çox təkid etməyin, bilirəm o xəstəxanaya getməz; getsə də məncə faydasızdı; çünki o son günlərini keçirir. qırx ildən bəri ömür yoldaşımdır. Əlimdən gəldiyi qədər ona xidmət etmək mənim üçün bir təsəlli olar.

Anna xəstənin başı üstündə oturub həkimin verdiyi dərmanları vaxtlı-vaxtında içirir və bir an onu gözündən qoymurdu. O, hər gün paltarını geyinib küçəyə çıxmaq istədikdə Anna onu uşaq kimi dilə tutub qoymurdu.

Bir gün Məhərrəm əmi səhər tezdən oyanmışdı. Anna yatırdı. O bir təhər paltarını geyinib ağacını əlinə aldı, qapıdan çıxmaq istədi. Qapı açılmadı. Anna Məhərrəmin qorxusundan hər gün gecə yatanda qapını bağlayıb açarı götürürdü. O, acığından əlindəki əsanı şiddətlə qapıya vurdu. Səsə Anna ayıldı. Tez yerindən sıçrayıb onu yenə dilə tutub:

– Məhərrəm, hara gedirsən? – deyə soruşdu.

– Aç qapını, Allahın yanına gedirəm.

– Allah ilə nə işin var?



– Ona mollabaşıdan, Nəsirquludan şikayətim var.

Həqiqətən bir gün o, Annanı yuxuya verib küçəyə çıxmış, Şüvələndan gəlmiş üç cavanla rastlaşmış və onlar əylənmək məqsədi ilə Məhərrəmi Şüvələna aparmışdılar. Şüvəlanda qocanı Allahla, Nəsirqulu ilə, Həmidqulu ilə görüşdürmüş, səhnələr təşkil etmiş, öz yanlarından əylənmişdilər.

Məhərrəmin "yoxa çıxması" dərhal şəhərə yayıldı. Hamı mütəəssir oldu. Annanın gözünün yaşı qurumadı. Axtarışlar bir nəticə vermədi. Günlərin bir günü Məhərrəm çox şadxürrəm gəlib çıxdı. Səfərindən məmnun idi. Mollalara, Nəsirquluya, Həmidquluya divan tutmuş, allaha bütün dərdlərini deyib ürəyini boşaltmışdı.

Məhərrəm əminin sağ-salamat qayıdıb gəlməsi Annanın üz-gözündən matəm tozunu və qəlbindən bütün kədərlərini silib təmizləmişdi. Onu bu saat hər şeydən çox maraqlandıran bu on beş günü Məhərrəmin harada olduğu məsələsi idi. O, ağzını açıb soruşana kimi Məhərrəmi gətirən cavanlar onu necə bağa apardıqlarını, orada Allah ilə görüşdürdüklərini təfsilatı ilə danışdılar.

Anna sevindiyindən bilmirdi nə eləsin. Yastığının yanında oturub Məhərrəmə baxmaqdan doymurdu.

Qonşular axıb töküldü. Məhərrəm əmi yağa, bala dönmüşdü. Ertəsi günü bu işdən xəbər tutan ziyalıların sevinci aşıb-daşırdı. Bu on beş gün bağ səyahətinin Məhərrəmin səhhəti üzərində az-çox müsbət təsiri olmuşdu. Ancaq tamamilə sağalmamışdı: o, yenə də arabir saçma sözlər söyləyirdi. Vaxtilə xalqa böyük xidməti keçmiş olan bu qocanın küçələrdə sərsəri tək dolaşıb saçma sözlər söyləməsi bütün ziyalıların mənliyinə toxunurdu. Dəfələrlə onu xəstəxanaya qoymaq istədikdə Məhərrəm əmi inad edərək, razı olmamışdı.

Anna onu sağaltmaq üçün bütün qüvvəsini sərf edir, ancaq bir xeyri olmurdu. Çünki ona yataqda uzanıb dincəlmək lazım idi. Anna bu ayaqlı xəstəni yataqda dincəltməyi bacarmırdı. Məhərrəm əmi istədiyi zaman evdən çıxır, ağzı gəldiyi tərəfə gedir, qarşısına çıxan tanışlar ilə görüşür, saçma, məntiqsiz sözlər söyləməkdə davam edirdi. Ona artıq nə öz canı kimi sevdiyi Annanın, nə də yaxın dost-aşnanın sözü təsir edirdi. Ona görə də əsəb və dimağ xəstəliyi gündən-günə artır və vücudu zəifləyirdi. Səhhəti o qədər pozulmuşdu ki, artıq ən yaxın dostlarını belə tanıya bilmirdi. Bir dəfə tanıdımı, yaxasından əl çəkməyib Allah ilə görüşməsindən başlayaraq fərraşlara padşahları, mollabaşını döydürdüyündən uzun-uzadı danışırdı.

***

Həmi il ailəm ilə Şüvəlanda kiçik bir bağa köçmüşdük. Şüvəlana gələn bir ziyalı Məhərrəm əminin cahil adamlar tərəfindən qaçırılıb öldürüldüyünü xəbər verdi. Bu faciəli xəbər mənə çox pis təsir etdi. İki-üç gündən sonra, bir başqa ziyalı da Məhərrəm əminin cahillər tərəfindən öldürüldüyünü acı-acı anlatdı. Məhərrəm əminin bu faciəli ölümü yadımdan çıxmır, gecə-gündüz qəm dəryasında boğulurdum. Bir tərəfdən də yazıq Annanın vəziyyətini düşünürdüm. Qırx il bir yerdə həyat sürən bu ər-arvad bir-birinə o qədər möhkəm bağlanmışdılar ki, onları ölümdən başqa heç bir qüvvə ayıra bilməzdi. "Anna-Məhərrəm!" – deyə bir-birini səmimi çağırmaları onların səmimi və dərin məhəbbətini göstərirdi. Annanın halını düşündükcə ürəyim sıxılırdı.

Məktəbdən iyun ayının maaşını almaq üçün şəhərə getdim. Birinci növbədə ona başsağlığı verməyi qərara almışdım. Vağzaldan konkaya minib Qubernator bağı qarşısında düşdük. Bağarası evə girdim. Böyük hovuzun yanından keçərkən Məhərrəm əmi ilə üz-üzə gəldim. Gözlərimə inanmadım. Ona bir az da yaxınlaşdım. Məhərrəm əmi idi. Salam verdim. Məhərrəm əmi məni tanımadı. Kiçik, bulaşıq gözlərini üzümə dikib soruşdu:

– Sən kimsən?

– Məhərrəm əmi, məni tanımırsan? Mən Abdullayam!

Qoca məni tanıyınca əlimdən tutub çəkə-çəkə:

– Bura gəl, bax gör sənə nə söyləyəcəm, – dedi.

Onun qolundan tutub yaxındakı boş iskəmləyə oturduq. O mühüm bir hadisə söyləmək istəyən alimlərə məxsus bir tövr və sima aldı. Bürüşük qumral gözlərini açmağa çalışaraq sözə başladı:

– Abdulla, mən arzularıma çatdım.

– Məhərrəm əmi, hansı arzularına?

Məhərrəm əmi əlimdən tutub dəli kimi gülərək:

– Abdulla, daha qorxma, Nəsirqulunu, Həmidqulunu, Nikolayı və mollanı öldürdüm, – dedi.

Mən gözlərimi onun ağzına dikərək heyrətlə dilləndim. Məhərrəm əmi Allahın yanına getməyindən başlayaraq əhvalatı uzun-uzadı mənə anlatdı. Ona böyük zövq və nəşə verən bu qalibiyyətdən üz-gözü şəfəqlər içində parıldayırdı. Mən isə başımı yerə dikib düşünür, o biri tərəfdən də yoxsul bir kəndli ailəsində yetişmiş olan bu qocanın öz xalqına və məmləkətinə nə qədər mətin rabitələrlə bağlandığına, son günlərdə belə xalqın müqəddəratı ilə maraqlandığına heyrət edirdim.

Məhərrəm əmi yorulduğundan arxasını iskələyə söykəyib sakit durmuşdu. Yaxın zamanda dostlarından ayrılmaq istəyən bu qoca ilə birlikdə bir-iki saat vaxt keçirməyə qərar

verdim. Onun qoltuğuna girərək bağ içində yeni açılmış qəhvəxanaya gətirib südlü kakao sifariş verdim. Xatirə olmaq üçün ondan bir neçə şey soruşmaq istədim; ancaq mümkün olmadı, çünki Məhərrəm əmi cavab verəcək halda deyildi. Bir çox kasıb tələbələrə atalıq eləyən bu qoca getdikcə gözümdə böyüyür, "bəlkə onu da kor və mədəniyyətsiz millətİ bu hala salmışdır," – deyə, onun bugünkü halına ürəkdən yanırdım. O çox otura bilmədi. Qoltuğuna girib qaldırdım və oradan birbaş evinə apardım. Anna bizi məmnun baxışlarla qarşıladı. Mənimlə görüşdükdən sonra Məhərrəmini soyundurub yatağına uzatdı. Uşaq kimi kiçik çay qaşığı ilə bir boşqab düyü unundan süddə bişmiş firni yedirtdi.

Anna ilə qarşı-qarşıya oturub danışırdıq. Mən ona xəstə qocanın küçəyə buraxmamağı tapşırdım. Anna qəlbindən vurulmuş ceyran kimi ufuldadı. Gözləri yaş ilə dolduğu halda:

– Neyləyim, – dedi, – gücüm çatmır. Naxoş olalı mənim sözümə heç baxmır, öz bildiyini eləyir. Mən də onu əsəbiləşdirib zorla evdə saxlamaqdan qorxuram.

Sonra Anna mənə Məhərrəmin on beş günlük səfərini və bu on beş gündə başından keçənləri bütün təfsilatı ilə anlatdı.

Elə o gündən Məhərrəm əminin xəstəliyi getdikcə şiddətləndi, yeməkdən, hərəkətdən qaldı; iki gün sonra günəş qərb buludları arasında gizləndiyi vaxt onun da xatirəsi başı ucunda həsrətlə son görüşə toplaşmış olan ziyalıların qəlbinə gömüldü.

Məhərrəm əmini "Nicat" cəmiyyəti hörmətlə dəfn etdi, dəfnin bütün məxaricini öz üzərinə götürdü və onun qiymətli yadigarı olan Annaya ömürlük ayda otuz manat verməyi qərara aldı.[34]



## NƏCİB İNSAN, GÖZƏL YAZIÇI

1909-cu ilin yazı idi. Nijni Kladbişenskaya küçəsi ilə başaşağı gedirdim. Bu vaxt qolumdan ehmalca bir əl yapışdı. Geri döndükdə qarşımda məlahətlə gülümsəyən Nəcəfbəy Vəzirovu gördüm. Salamlaşdıqdan sonra dedi:

– Bala şair (o mənə belə müraciət edərdi. Mən yaşca ondan çox kiçik idim), bu il yayı sizinlə birlikdə keçirməyi qərara almışıq. Xurşud xanımın sizin ailənizdən, xüsusən anan Mehri xanımdan çox xoşu gəlir. Bu təklifi ailənizdə pis qarşılamazlar. Deyəsən, arvadların xasiyyəti yaxşı tutur.

Nəcəfbəyin təklifini dərhal bəyəndim, razılığımı bildirdim.

Nəcəfbəylə bu qədər yaxınlığımız təsadüfi yaranmamışdı. Biz Bakıda eyni küçədə qabaq-qarşı yaşayırdıq. Az zaman içərisində Nəcəfbəylə aramızda çox sıxı bir əlaqə yaranmışdı. O, tez-tez məni evinə aparır, şirin söhbətləri, ağıllı, maraqlı lətifələri ilə məni məftun edirdi. Onun söhbətlərindən doymaq olmazdı. Fikirlərində aydınlıq, ifadələrində sadəlik var idi. Buna görə də o yazanda da heç çətinlik çəkməzdi. Onun öz danışıq tərzi ilə bədii əsərlərinin dili bir-birinə çox yaxın idi. Mən onunla söhbət edəndə həmişə nədənsə komediyalarındakı incə gülüşü, komik hadisə və obrazları xatırlayırdım. O yaşlı olmağına baxmayaraq içməkdə,

[34] Məhərrəm əmi surətini müəllif "Əsrimizin qəhrəmanları" romanında yaratmışdır.

nəşədə, zövqdə gənclərə meydan oxuyurdu, çox şən və məclisara bir insan idi.

Nəcəfbəylə ilk dəfə harada, nə zaman tanış olduğumu xatırlamıram. Lakin bunu bilirəm ki, XX əsrin əvvəllərində, mən müəllimlik etməyə başladığım zaman Bakıda adı və əsərləri çox yayılmış yazıçılardan biri də Nəcəfbəy Vəzirov idi. Doğrudur, mən onun "Dərviş" imzası ilə yazdığı bir çox felyetonu oxumuşdum, ancaq Nəcəfbəy öz pyesləri ilə şöhrət qazanmışdı. Qərb və rus ədəbiyyatı ilə yaxından tanış olan bu mədəni yazıçı o zamankı Azərbaycanın ictimai həyatını bir güzgü kimi əks etdirən pyeslər yazırdı. Bu zaman bir çox dövlət vəzifələrində çalışmasına baxmayaraq, ədəbi yaradıcılığından qalmırdı. Komediyaları böyük müvəffəqiyyətlə tamaşaya qoyulurdu. Azərbaycan teatrının repertuarında Nəcəfbəyin "Yağışdan çıxdıq, yağmura düşdük", "Adı var, özü yox" kimi əsərləri mühüm yer tuturdu. Yazıçı böyük bir məharətlə Azərbaycan xalqının ifadəsindəki, təbiətindəki mənalı gülüşü, eyhamlı sözü komediyalarına gətirmişdi.

Mən Nəcəfbəyi komediya müəllifi kimi tanıyırdım. Lakin ilk dəfə "Müsibəti-Fəxrəddin" faciəsinə tamaşa etdikdən sonra bu istedadlı dramaturqun yalnız şən, zarafatcıl bir adam yox, həm də ürəyi dərdlə dolu olan müdrik bir vətəndaş olduğunu başa düşdüm. Bu əsər mənə o qədər dərin təsir etmişdi ki, tamaşaçıların bir çox kimi mənim də gözlərim yaşla doldu.

Nəcəfbəylə aramızda olan söhbət, əhd-peyman yaddan çıxmamışdı. 1909-cu ilin yayında Nəcəfbəy Vəzirovun, müəllim Əlicabbar Orucəliyevin və bizim ailəmiz birlikdə Dağıstan yaylaqlarından olan Daşlaqara köçdü. Mən də xəstə rəfiqəmi Kislovvodskidə müalicə etdirdikdən sonra Daşlaqara getdik.



Daşlaqar gözəl təbiətə, xoş mənzərəyə malik bir kənd idi. Günlərimiz çox şən və mənalı keçirdi. Nəcəfbəyin həyat yoldaşı Xurşud xanımın bizim ailəmizdəki qadınlara çox yaxşı təsiri olurdu. O, oxumuş, mədəni, mehriban bir qadın idi.

Bir gün Nəcəfbəy Daşlaqarın mənzərəli bir guşəsində bizə qonaqlıq verdi. Qarşısı açıqlıq olan meyvəli bir bağda süfrə açılmışdı. Dağıstanın göz işlədikcə uzanan yaşıl bağları, qalın və sıx meşələri, uca və qarlı dağları bu mənzərəni bir qat daha gözəlləşdirirdi. Süfrəyə plovla bərabər göy-göyərti qoyulduqdan sonra qədəhlər doldu. Nəcəfbəy üzünü mənə tutaraq dedi:

– Bala şair, birinci söz sənə verilir, məclisin də bilirəm, etirazı olmaz! Bu mənzərəyə yaxşı bax, elə bir şey de ki, Daşlaqardan bizə yadigar qalsın.

Bu sözləri Nəcəfbəy o qədər nüfuzedici bir tərzdə söylədi ki, dərhal gözlərim bir-birini qucaqlamış kimi duran dağlara dikildi. Bir an düşündükdən sonra:

Aşiqəm Daşlaqarın dağlığına,
Meşə, ormanlığına, bağlığına,
Baxınız bir plovun ağlığına,
İçəyin Nəcəfbəyin sağlığına

– deyə qədəhi qaldırdım. Bu adi mənzumə şəraitə uyğun olduğundan Nəcəfbəyin xoşuna gəlmişdi. O, əlində qədəh yerindən qalxaraq boynuma sarıldı. Qədəhləri bir-birinə vurub içdik.

Nəcəfbəy təbiət aşiqi idi. Təbiəti onun qədər sevən az adam tanıyıram. Hər gün yerindən qalxan kimi saatlarla tarlalarda, çəmən və bağlarda gəzmək adəti idi. Hər səhər erkən gələr, əsasını pəncərəmizə vuraraq məni yuxudan oyadardı, bərabər yaxındakı çəmənliklərdə, bağlarda gəzdikdən

sonra bostanlardan yer-yemiş alıb evə qayıdırdıq. Yolda şirin lətifələr söyləyir, bostançı ilə zarafatlaşar, xülasə vaxtını xoş keçirməyə, ürəyindəki dərdləri dağıtmağa çalışardı.

1913-cü il noyabrın 15-də Nəcəfbəy Vəzirovun 40 illik ədəbi fəaliyyəti çox təntənəli qeyd olundu. Bir çox Azərbaycan ziyalıları Nəcəfbəyin böyük xidmətlərini nəzərə alaraq onun yubileyi münasibətilə təbrik etdilər. Mən də bu yubileyə əliboş gəlmədim. Balaxanı qız məktəbinin tapşırığı ilə bir təbrik şeiri yazdım. Həmin şeiri gözəl bir kağıza öz əlimlə köçürüb Balaxanı qız məktəbi adından təqdim etdim:

Sən ey bu yomi-ali[35] qəhrəmanı, ey işıq ulduz!
Təşəkkür etməyə səndən mənim təbim, dilim aciz.
Nəcib bir millətə qeyrətlə, min zəhmətlə yol açdım,
Üzügülməz bu xalqın alnına parlaq şəfəq saçdın.
Sən onlarla bərabər bir pədər tək ağladın, güldün,
Yetimlər gözlərindən fışqıran göz yaşların sildin.
Qaranlıq bu məişət çöllərində zar, sərkərdan,
Qalırkən, sən yetişdin dadə, ey parlaq məhi-taban!
Bu milətçün geniş, parlaq, müəyyən bir cığır açdın,
O yollarda işıqlardan çiçəklər, töxmlər saçdın.
Bir gün bir qalib orduya müzəffər bir komandansan,
Nümunə olmağa daim şərəfli, şanlı insansan!
Yaşa, ey yomi-ali qəhrəmanı, fəxrü izzətlə,
Yaşa qalxdıqca dövranlar, yaşa bu şanlı millətlə.

N.Vəzirovla son dəfə M.S.Ordubadi "Kommunist" qəzetində işlədiyi vaxt görüşdüm. M.S.Ordubadi ilə məni müəllimə Şəfiqə xanım Əfəndizadə tanış etmişdi. Bu zamandan etibarən gec-gec olsa da, redaksiyaya – Ordubadinin yanına getməyə başlamışdım. Bir dəfə yenə Ordubadinin kabinetinə

[35] Keçmişdə yubileyə "yomi-ali" deyilirdi.



daxil olduğum zaman N.Vəzirovla Ə.Haqverdiyevi orada oturub danışan gördüm. Hamı ilə görüşüb oturdum. Söhbət əsnasında Məmməd Səid gülümsəyərək zəngi basdı, katibə içəri girdikdə ciddi bir tövr ilə dedi:

– Get, arxivin açarını bura gətir!

– Hansı arxivin açarını?

– Arxivin açarını deyirəm, tez ol, bura gətir!

Məmməd Səid sözünü qurtarmamışdı ki, N.Vəzirov oturanları əli ilə göstərərək bərkdən gülə-gülə dedi:

– Bunların hamısı arxiv maldır. Məmməd Səid bizi arxivə qoymaq istəyir.

Doğrudan da, Nəcəfbəy Məmməd Səidin zarafatını hamımızdan əvvəl başa düşmüşdü. Nəcəfbəyin sözlərinə hamımız güldük.

Mən Nəcəfbəyə həm qüdrətli bir yazıçı, həm də gözəl və nəcib bir insan kimi məftun idim. 1926-cı ildə görkəmli dramaturqun ölüm xəbərini eşidəndə çox bərk mütəəssir oldum, öz-özümə: "İstedadlı bir yazıçını, nəcib bir insanı da itirdik", deyə təəssüf etdim. Lakin Nəcəfbəyin qoyub getdiyi zəngin ədəbi irs, onun geniş və faydalı ictimai fəaliyyəti Azərbaycan xalqının xatirəsindən heç bir zaman silinməyəcək.

## NƏRİMAN NƏRİMANOV

Nəriman Nərimanov ictimai fəaliyyətə müəllimliklə başlamışdı. Lakin o, adi müəllimlərdən deyildi. Bu, mübariz insan müəllimliklə yanaşı ictimai-mədəni işlərdə də fəaliyyət göstərir, bolşevik partiyasının "Hümmət" təşkilatında gizli olaraq çalışır, İran inqilabçılarına kömək edirdi. "Parapet"

bağının (indiki Karl Marks bağı) yanında bir qiraətxana açdırmış, oranı rus, fars və azərbaycan dillərində çıxan qəzet və jurnallarla təmin etmişdi. Bu qiraətxana N.Nərimanovun təşəbbüsü ilə açıldığı üçün ziyalıların bir çoxu ora "Nəriman qiraətxanası" deyirdi. Müəllim Əlisgəndər Cəfərovu maaşla qiraətxanaya müdir təyin etmişdi. Çox çəkmədi ki, bura qabaqcıl ziyalıların görüş və müsahibə yerinə çevrildi. Lakin tezliklə qiraətxana hökumət tərəfindən şübhəli bir siyasət ocağı kimi bağlandı.

N.Nərimanov cəsarətli, yüksək mədəniyyətə malik, izzət-nəfsini sevən möhkəm iradəli bir şəxsiyyət idi. Rus dilində nəşr edilən "Kaspi" qəzetinin məsul müdiri və baş mühərriri Əlimərdan Topçubaşov Qori seminariyasını qurtarmış müəllimlərin ictimai və siyasi işlərə qoşulmasından xoşlanmır, onlara istehza ilə "uçitelişka" deyirdi. N.Nərimanov Qori seminariyasını bitirdikdən sonra Bakıda birinci Aleksandrovski məktəbində dərs deyirdi. Bir müəllim kimi Nəriman Ə.Topçubaşovun bu hərəkətini həzm edə bilmirdi. O, belə ziyalılar ilə fəaliyyətinin lap ilk dövrlərindən mübarizə etməyə başlamışdı. Gimnaziyada imtahan verdikdən sonra Nərimanov ali təhsil almaq məqsədilə Odessa Universitetinin tibb fakültəsinə daxil oldu. Oranı bitirdikdən sonra həkim sifəti ilə Bakıya gəldi. Ancaq Nərimanı yenə siyasi və ictimai işlər daha çox maraqlandırırdı. O, Tiflisə köçdükdən sonra da siyasi xadim kimi çalışır, İran inqilabı təşkilatı ilə əlaqəsini davam etdirir, xüsusi adamlar vasitəsilə İran Azərbaycanına gizli siyasi məktublar göndərirdi.

N.Nərimanovun siyasi fəaliyyəti hələ çox erkən çar jandarmasının nəzərini cəlb etmiş, onu təqib etməyə başlamışdılar. Nəticədə, Tiflisdə olduğu zaman Bakıya göndərdiyi və oradan aldığı məktubları çar xəfiyyələri ələ keçirmiş, Nərimanov həbs olunaraq bir il dustaqda qaldıqdan sonra Həştərxana sürgün edilmişdi.



Birinci cahan müharibəsi ərəfəsində N.Nəromanov Bakıya qayıtdı. O zaman məni çox düşündürən məsələlərdən biri də Azərbaycan qadınlarının vəziyyəti idi. Bu münasibətlə qadınlara məxsus bir məcmuə nəşr etdirmək fikrinə düşdüm. Hətta 1914-cü ildə "Dan ulduzu" sərlövhəli bir şeir yazdım, məcmuənin cildində vermək üçün realni məktəbin rəssamına şeirin məzmununa münasib bir şəkil çəkdirdim. Rəsm sökülməkdə olan dan yerini təsvir edirdi. Ziyalı Azərbaycan qızı çiçəkli çəməndə dayanaraq bir əlində al bayraq tutmuş, bir əlini də o biri tayda qaranlıqlar içində boğulmaqda olan çarşablı qızlara tərəf uzatmışdı. Bu qız əsrin elm və texnikasının, qadın azadlığının rəmzi olduğu kimi azadlıq və inqilabın da rəmzi idi. Bayrağın üstündə "Dan ulduzu" sözləri yazılmışdı. Bir gün söhbət əsnasında bu məcmuə haqqında və onun nəşri ilə əlaqədar olan fikirlərimi Nərimana söylədim, yazdığım şeiri oxuyub, çəkdirdiyim rəsmi də göstərdim. Nəriman mənim təşəbbüsümü bəyəndi. Jurnalı birlikdə nəşr etməyə qərar verdik.

Bu vaxt inqilabi fikirli ziyalıları şiddətli sürətdə təqib edirdilər. Nəriman siyasi dustaq olduğu zaman naşirlik hüququndan məhrum edildiyindən jurnalın məsuliyyətini mən öz üzərimə almalı idim. Bir gün bərabər oturub məcmuənin nəşrinə dair şəhər hakimindən icazə almaq üçün ərizə yazırdıq. O, qələmi əlinə aldı. Bir az düşündükdən sonra mənə gülə-gülə baxdı:

– Qorxuram, – dedi.

– Nədən qorxursan?

– Səni məsuliyyətə cəlb edəcəklərindən.

– Bir az ehtiyatlı yazarıq.

O, qələmi əlimdən alıb masaya qoydu, bir də gülümsündü və dedi:

– Başımda necə fikirlər olduğunu bilsən bu məcmuənin çıxmasına razı olmazsan.

– Nə fikirlər?

– Bu üsuli-idarəyə qarşı qəlbim üsyan ilə dolmuşdur. Mən qələmimi saxlaya bilməyəcəyəm. Bu zaman ən ağır zərbələr də mənə yox, mənim ucumdan sənə dəyəcək. Çünki sahibi-imtiyaz və məsul sən olacaqsan!

– Məni nə üçün qorxudursan?

– Qorxutmuram, doğru deyirəm, bu məcmuə hələlik qalsın. Görək bu dava nə göstərəcək! Sonra işə ciddi başlayarıq.

Nərimanın son sözü məni də düşündürdü. Beləliklə məcmuə nəşr olunmadı.

Orucov qardaşlarının o zaman həm mətbəəsi, həm də kitab mağazaları var idi. Nəzərdə tutduğum "Dan ulduzu" jurnalını özüm çap etdirməyə gücüm çatmadığından Orucovlarla görüşüb fikrimi açdım. Çəkdirdiyim şəkli göstərdim, yazdığım şeiri də oxuyub bu jurnalı nəşr etməyi xahiş etdim. Əlavə olaraq hər nömrəyə bir şeir ya məqalə yazmağıma da söz verdim. (O zaman bir qəzet və jurnallara verdiyimiz yazılarımıza pul almazdıq).

Orucov bir az düşündükdən sonra ağzını büzdü:

– Yox, – dedi, – bu bizə əl verməz!.. Çünki oxumuş qızlarımız, arvadlarımız azdır. Bu jurnal 150 nüsxədən artıq satılmaz. O da heç bizim xərcimizi ödəməz. İstəyirsən sənin xərcinə çap edək.

Mənim maddi vəziyyətim ağır olduğundan razılıq vermədim.



Ümumiyyətlə, qadın məsələsi Azərbaycan xalqının vücudunda yaralı bir çiban idi ki, zindan həyatı keçirən savadsız, çarşablı qızlarımızın və arvadlarımızın qəlbini göynədirdi. Sovet hökuməti mahir bir cərrah kimi bu yara üzərində əməliyyat aparıb onu kökündən sağaltdı.

Bakıda açılan cəmiyyəti-xeyriyyələr içində "Nicat" cəmiyyətinin üzvləri əksəriyyətlə demokrat ruhlu ziyalılar idi. Bir il Nərimanı "Nicat" cəmiyyətinə sədr seçdilər. Bundan sonra cəmiyyət xeyli canlandı. Cəmiyyətin nəzdində tənqid dərnəyi təşkil edildi. Dərnəkdə ayrı-ayrı əsərlər haqqında yazılmış tənqidlər oxunub müzakirə edilirdi. O, dərnəkdə 3 əsər oxuyub təhlil və tənqid etdik (Hansı əsərləri tənqid etdiyimiz xatirimdə deyil). "Nicat" cəmiyyətinə Nəriman bolşevik partiyasına mənsub olan və demokrat ruhlu ziyalıları cəlb edirdi.

"Nicat" cəmiyyəti sosialist ziyalıların əlinə keçdikdən sonra mən bu cəmiyyətin heyəti-rəyasətində dörd-beş il çalışdım. Bu cəmiyyət orta və ali məktəblərdə təhsil alan yoxsul tələbələrə kömək edirdi. O zaman almancadan tərcümə etdiyim "Qafqaz çiçəyi" faciəsi və "Bir saatlıq xəlifə" məzhəkəm yoxsul tələbələrin xeyrinə olaraq dəfələrlə teatr səhnələrində oynanmışdı.

İlk əvvəl bu heyət Nərimanov başda olmaqla İbrahimbəy Heydərov, Səməd Mənsur, Sultan Məcid Qəniyev, Məmmədəli Rəsulzadə, Əşrəfdən və məndən ibarət idi. Bu heyət cümə axşamları müxtəlif evlərdə toplanır və proqram ətrafında uzun-uzadı müzakirələr davam edirdi.

Burada yığışan müxtəlif fikirli adamlar müzakirə zamanı hər birisi öz fikrini irəli sürür və Krılovun: "Ördək, balıq və xəncər" təmsilini xatırladırdı. Ona görə də dörd-beş ay davam edən müzakirələr nəticəsiz qaldı. Ortaya müəyyən

bir məramnamə hazırlanıb çıxmamış "Ədəb yurdu" adlı bir cəmiyyət təşkil edilməyə qərar verildi. Bu cəmiyyəti təşkil etməkdə Nərimanovun məqsədi inandığı ziyalıları öz tərəfinə, öz firqəsinə cəlb etmək idi. "Ədəb yurdu" cəmiyyətinin hazırlığı gedərkən fevral inqilabı qopdu. Nəriman Nərimanov "Hümmət" firqəsinin başına keçdi.

Həştərxan sürgünündən qayıdandan sonra Nərimanı ədəbi həyatdan çox siyasi məsələlər maraqlandırırdı. Ona görə də ədəbiyyat sahəsində çox az çalışırdı.

N.Nərimanov ədəbiyyatın təsir qüvvəsini, tərbiyəvi əhəmiyyətini çox qiymətləndirirdi. Bu cəhətdən Nəriman o zaman üçün daha əlverişli olan dramaturgiyaya böyük məna verirdi. O, xalqda intibah hissi yaratmaq üçün Mirzə Fətəlinin, Haqverdiyevin, özünün və başqa dramaturqların əsərlərini ziyalılar tərəfindən tamaşaya qoyulmasını təşkil edirdi. Bəzən özü suflyorluq vəzifəsini öhdəsinə götürürdü. Nəriman Nərimanovun o zaman "Bahadır və Sona", "Nadir şah", "Şamdan bəy", "Pir" kimi əsərləri məşhur olduğu ki-mi, qəzetlərdə çap etdirdiyi atəşin felyetonları da çox ma-raqla oxunurdu.

***

1921-ci ildə Azərbaycan Sovet hakimiyyəti qurulduqdan sonra bir il kəndlərdə xalqı elmə və mədəniyyətə çağırmaq, yeni məktəb binaları tikdirmək üçün Maarif Komissarlığı kəndli həftəsi təşkil etmişdi. Təbliğat aparmaq üçün müəllimləri üç-üç ayrı-ayrı qəzalara göndərirdilər. O zaman ali və orta məktəblərdə, altı aylıq təkmilləşdirmə kurslarında dərslərim çox olduğu üçün Maarif Komissarı məni kəndlərə göndərməkdən azad etmişdi. Lakin buna baxmayaraq, bu təd-



birin yerinə yetirilməsinə rəhbərlik edən müəllimlər ittifaqı sədri Müslüm Maqomayev məni də çağırtdırmışdı. Getdim. O məni kəndli həftəsi münasibətilə müəllim Bababəy Səfərəliyev və Dursun ilə birlikdə Göyçaya getməli olduğumu bildirdi. Mən cavab verdim ki, "Müslüm, Maarif Komissarlığı məni bu işdən azad etmişdir". O, əhvalatdan xəbərdar olduqda gülə-gülə dedi:

– Bilirəm, biz sənin də getməyini lazım bilirik. Yoxsa bu qış vaxtı qəzaların qarından, soyuğundan qorxursan?

O, bu sözləri o qədər nəzakətlə dedi ki, etiraz edə bilmədim. Onun son sözünə cavab olaraq:

– Mən zəhmətdən və soyuqdan qorxmuram, vəzifə vəzifədir, burada ya orada, madam ki, siz məsləhət görürsünüz, gedərəm, – dedim.

İki gün sonra Bababəy və Dursun ilə yola düşdük. Başçımız Məşədi Hüseyn adlı cənubi Azərbaycanlı bir fəhlə idi. Göyçaya çatdıqdan sonra gecəni bir ortabab alverçi evində bizə bir otaq verdilər. Qar kəsmiş, küçələr donmuşdu. Bərk çovğun və ayaz idi. Ev sahibi qonaqlarını bir azərbaycanlı kimi qəbul etməmişdi. İçmək üçün su istədik. O, gedib çini kasada bulanıq, lehmə su gətirdi. Biz suya baxıb dedik:

– Ay qardaş, bu ki, lehmədir.

– Neyləyim, bizim çay başdan bulanıq axır, – deyib getdi.

Balabəy Şirvan mahalından olduğuna görə Göyçayı da, oranın adamlarını da yaxşı tanıyırdı. Birdən ayağa qalxaraq:

– Mən bu saat sizə təmiz su gətirim, – deyib getdi. Bir az sonra həmin kasada çeşmə suyu kimi saf və təmiz su gətirdi. Sonra dedi:

– Göyçayda çay suyu bulanıq olduğuna görə evlərdə kürsü üstündə böyük küp, altına da bir qab qoyurlar. Həmin

lehmə su küpdən damcı-damcı həmin qaba tökülür, filtr daşı kimi suyu təmizləyir. Bilirdim ki, kişidə küp suyu olmamış deyil. Mən özümü ona tanışlıq verdim, tanıdı, sonra da o mənə özünü tanıtdı. Kasanı əlimdən alıb lehməli suyu tökdü, içini təmizlədikdən sonra təmiz su gətirdi.

Otağın pəncərələri möhkəm yerinə oturmadığından arasından soyuq üfürürdü. Palto ilə oturmuşduq. Bu vaxt kişi oğlunun qucağında odun içəri girdi, gülümsəyərək:

– Soyuqdur, bilirəm üşüyürsüz, buxarını yandırım, qızışın, – dedi.

Təşəkkür etdik. Buxarını yandırdı. Odunlar çatır-çatır yandıqca bizə ləzzət verirdi. Mən: "Qışda alov plovdan yaxşıdır" atalar sözünün doğruluğunu burada bir daha gördüm. Bir saat sonra oğlu ilə bizə çay-çörək, şor göndərdi. Otaq havalanmış olduğundan paltomuzu çıxarıb çay içdik. Kişi bizim ilə söhbətə gəldi.

Birinci cahan müharibəsindən sonra ərzaq şeyləri, xüsusən çay, şəkər, ət, demək olar ki, tapılmırdı. Odur ki, Babəy zarafatla:

– Şəkər, çay indi ceyran dalındadır, sən bunları hardan tapırsan? – deyə soruşdu.

Kişi gülə-gülə:

– Sizin kimi qonaqlar üçün taparıq, – deyə cavab verdi. Bir az söhbət etdikdən sonra gedib yorğan-döşək göndərtdi. Yerimizi salıb yatdıq.

Səhər oyanıb çay-çörək yeyərkən qapı ağzında üstüörtülü bir öküz arabası dayandı. Yeməyi qurtarandan sonra kişi ilə görüşüb öküz arabasına mindik. Yollar kələ-kötür olduğuna görə araba bizi atıb-tutur, cırıldaya-cırıldaya gedirdi. Bir tərəfdən soyuq, bir tərəfdən də arabanın əziyyəti bizi əldən salmışdı. Axşama yaxın Qara Məryəm kəndinə çatdıq.



Bizə kənd sovetinin evində otaq verdilər. Kənd soveti sədri xoşsima, üzügülər bir kişi idi. Qapıdan girəndə Bababəy zarafatla:

– Qonaq istəmirsiniz? – dedi.

Kənd soveti qarşıya çıxaraq:

– Sizin kimi qonaqları kim istəməz, gəlin! – deyə, bizi bir otağa apardı. Tez buxarını qaladı. Söhbət vaxtı o, N.Nərimanovdan, onun xalqa olan məhəbbətindən, kəndlilər içərisindəki hörmətindən danışdı. Kənd sovetinin sədri axırda dedi:

– Mən çox mərd, igid və ürəkli adam görmüşəm, ancaq yoldaş Nəriman kimisini görməmişəm. Bu yaxınlarda bizə xəbər verdilər ki, sabah yoldaş Nəriman Nərimanov xalq ilə görüşməyə gələcək. Həmin gün yaxın-uzaq kəndlərdən kəndlilər tökülüşüb gəlmişdilər. Verst yarım uzunluğunda geniş yolun iki tərəfi də adam ilə dolmuşdu. Bir az sonra yığıncağa yüz qədəm qalmış bir avtomobil dayandı. Kənd hökumət adamları qaçıb onu qarşıladı. Yoldaş Nərimanov avtomobildən düşüb bizimlə salamlaşdı. Yavaş-yavaş irəli gedə-gedə kəndin vəziyyətini xəbər aldı. Adamlara yaxınlaşdı:

– Siz mənimlə gəlin! – dedi. Biz bir tərəfə çəkilib durduq. O, yolun bu başından xalqa salam verə-verə o başına getdi. Qayıdarkən onun səsi çatsın deyə dayanıb nitq söylədi.

Sovet hökuməti hələ yenicə qurulmuşdu. Düşmən hələ çox idi. Yoldaş Nərimanın bu işi bizi lap həyəcana saldı. Halbuki, biz onun yerinə qorxurduq.

Nəriman yoldaşı yola saldıqdan sonra kəndlilər arasında onun söhbəti dillərdən düşmürdü.

Bundan başqa biz İsmayıllı, Dyallı, İncə kəndlərində olduq. Yığıncaqlarda məcburi ümumi təhsilin əhəmiyyəti, elm

və mədəniyyətin faydası, məktəblərin təşkili haqqında söhbətlər etdikdən sonra geri döndük.

***

Xalq kütləsi ilə sıx əlaqə görkəmli Azərbaycan bolşeviklərindən olan Məşədi Əzizbəyovun da ən gözəl xüsusiyyətlərindən biri idi. Bakı fəhlələri içərisində böyük məhəbbət qazanan bu qorxmaz inqilabçı ilə tanışlığım çox qəribə olmuşdu.

Bir gün Məhərrəm əmi ilə Qubernator (indiki "İnqilab" bağı) bağından çıxıb söhbət edə-edə Naberejni (indiki neftçilər prospekti) küçəsi ilə gedirdik. Məhərrəm əmi bir dükanın qapısından keçərkən içəri baxdı, sonra məni də özü ilə bərabər dükana çəkərək: "Gəl səni bir yaxşı adam ilə tanış edəcəyəm" – dedi. Dükanda İsgəndər Məlikov ilə tanış oldum. O da qarşısında oturan adamı göstərib: "Tanış olun, incinar Məşədi Əzizbəyovdur, – dedi. Onunla da tanış olduq. Məhərrəm əmi dərhal ondan soruşdu:

– De görüm, varlılardansan, yoxsa kasıblardan?

Məşədibəydən əvvəl İsgəndər Məlikov cavab verdi:

– Məhərrəm əmi, varlılardan olsa da sən deyən adamdır. Bizimlə bir məhəllədə olur, həm də arada qohumluğumuz var. Peterburqdan təzəcə gəlib, neft incinarıdır.

Məhərrəm əmi Peterburq adı eşidincə kürsüsünü bir az da ona yaxınlaşdırıb Peterburqdakı azərbaycanlı tələbələrin sayını soruşdu. Sonra özünün qırx il Peterburqda yaşadığını söylədi. Əzizbəyov diqqətlə Məhərrəm əmiyə baxdıqdan sonra:



– Eşitmişəm, – dedi, – tələbələr sizdən çox danışırdılar. Mən Peterburqa gəldiyim il siz oradan çıxmısınız; ona görə də mən sizi görməmişəm.

Əzizbəyov rəsmi mühəndis geyimində idi. Furajkasında xüsusi kakorda və döşündə nişanlar var idi. Qısa saqqal da qoymuşdu.

Məhərrəm əmi yenə mollalardan, varlılardan, Nəsrəddin şahdan şikayətlənməyə başladı. Əzizbəyov:

– Məhərrəm əmi, bəs bizim Nikolayın üsuli-idarəsindən niyə şikayət eləmirsən? – deyə gülə-gülə soruşdu.

Məhərrəm əmi qaşqabağını sallayıb:

– Oğlum, bu biqeyrət Qacar Avropaya gedib vaqon dolusu yubkadan başqa heç bir şey gətirmədi. Mən onu heç yadımdan çıxara bilmərəm, – deyə cavab verdi. Məşədi bəy orada çox oturmadı. Bir qədər söhbət etdikdən sonra çıxıb getdi.

M.Əzizbəyovla ilk görüş, onu mənə bir qədər ağırtəbiətli adam kimi tanıtmışdı. Odur ki, Məlikovdan soruşdum:

– Sizin qohumunuz Məşədi Əzizbəyov mənə elə gəlir ki, azdanışan, ağır təbiətli adamdır.

İsgəndər Məlikov mənim təsəvvürümün əksinə olaraq onun çox zarafatcıl, ürəyiaçıq bir insan olduğunu söylədi.

1918-ci ildə Bakıda Sovet hakimiyyəti qurulduqdan sonra davam edən uzun daxili vuruşmalar nəticəsində təsərrüfat və ərzaq işləri çox ağır vəziyyətdə idi. Möhtəkirlər tərəfindən satılan ərzaq, xüsusən çörək o qədər baha idi ki, hər adam ala bilmirdi. Ona görə də o zaman yerli hökumət tərəfindən tez-tez çörək əvəzinə qoz, fındıq paylanırdı.

Bir gün Təzə pir məscidində M.Əzizbəyovun çıxışı olacaqdı. Xalq içində böyük hörməti və nüfuzu olduğundan məscidin içi və həyəti adam ilə dolmuşdu. Məşədi Əzizbə-

yovun səsi eşidiləndə izdiham sükuta qərq oldu. Məruzəçi sadə, aydın xalq dilində mövcud vəziyyəti izah etməyə, Sovet hökumətinin məqsədlərindən bəhs etməyə başladı. Çar hökumətinin müstəmləkə qazanmaq üçün başladığı müharibənin törətdiyi fəlakətdən danışdı, qıtlığın müvəqqəti olduğuna dair inandırıcı fikirlər söylədi, xalqı hələlik səbir və mətanətə çağırdı.

Məruzənin şirin yerində bir nəfər:

– Məşədibəy, bir az da qozdan, fındıqdan danışın! – deyə qışqırdı.

Məşədibəy təmkinini pozmayıb dayandı, fitnəkarlıqla söz atan adama hamını təmin edən tutarlı bir cavab verdi, sonra zarafatla əlini döşünə vurub: "Mən sizin qoz, fındığınız", – deyə güldü. Onun bu zarafatı həyəcanı xeyli azaltdı.

Ümumiyyətlə inqilabçılara, zəhmətkeşlərin azadlığı, tərəqqisi yolunda çalışan siyasi xadimlərə xalq kütləsi böyük rəğbət bəsləyirdi. Mübariz bolşevik Xanların ölümü münasibəti ilə təşkil edilmiş mərasimdə mən bunun bir daha şahidi oldum.

1907-ci ilə qədər Xanların nə adını eşitmişdim, nə də üzünü görmüşdüm. Bir dəfə Nikolayevski küçədən (indiki Kommunist küçəsi) keçərkən o vaxta qədər ömrümdə görmədiyim nəhəng bir izdihamla qarşılaşdım. Fəhlələr bir tabut aparır, böyük insan dəstələri onları mühafizə edirdi. Ölənin kim olduğunu soruşduqda, inqilabçı bir azərbaycanlı fəhlə olduğunu dedilər. Bu Xanlar Səfərəliyev idi. O, 1907-ci ildə Bayılda işlədiyi mədəndən evə qayıdarkən vurulmuşdu. Yarası ağır olduğundan müalicələr səmərəsiz qalmış, bu odlu, cəsarətli bolşevik gənc yaşlarında vəfat etmişdi.

Dəfn mərasimi olduqca mütəşəkkil idi. Mən və bir neçə müəllim realni məktəbin (S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti binasının) böyük darvazası ağzında durub gözləyirdik. Atlı polislər camaatı küçələrin tinlərinə qovub yol açırdılar. Polislər adamları nə qədər qovurdusa onlar yenə hücum çəkib tinlərin başında dururdular. Dəstəyə yad adamlar daxil olmasın deyə, fəhlələr hə iki tərəfə kəndirdən hasar çəkib kəndiri əllərində tutmuşdular. Dəfn mərasimində iştirak edənlərin çoxu fəhlələr idi. Atlı, piyada jandarmlar, qaradovoylar böyük həyəcan içində o tərəf-bu tərəfə qaçırdılar. Mərasim siyasi bir nümayişə çevrilmişdi. Dəstənin qabağında və axırında fəhlələrdən ibarət iki xor dəstəsi növbə ilə matəm marşı və marselyoza oxuyurdu. Çox çəkmədi ki, mərasimdə iştirak edənlər gözdən itdilər. Onların dalınca dəstə bağlayıb gedənləri polislər qamçı ilə vurub geri qaytarırdılar.

## İKİ REALİST YAZIÇI

1906-cı ildə Sabunçu məktəbindən və üçüncü gimnaziyadan istefa verib birinci realni məktəbin aşağı siniflərində və 7-ci şəhər məktəbində dərs götürdüm. 7-ci şəhər məktəbinin müdiri Süleyman Sani Axundov idi. O, ortaboylu, zəif vücudlu, sarıbəniz bir şəxs idi. Qısa kirpikləri arasında parlaq və düşüncəli gözləri ahənrüba kimi insanı özünə cəlb edirdi. Mehriban rəftarı, şirin dili ilə özünü bütün məktəb müəllimlərinə sevdirmişdi. Xidmətçilərə qədər hamı ilə çox hörmət və nəzakətlə rəftar edirdi. Gəncliyimdən təmizürəkli, təmizvicdanlı insanları sevirdim. Ona görə də dostlarımın içində hamıdan çox Süleyman Saniyə səmimi bir hörmət və məhəbbət bəsləyirdim. Qabaqlar bir yazıçı kimi onu ancaq "Tamahkar" adlı pyesi ilə tanıyırdım.

Bir gün məni otağına çağırıb, Qori seminariyasının son sinfində ikən rusca yazmış olduğu öz təəssüratını oxudu. Bu kiçik əsər olduqca təmiz və coşqun hiss ilə yazılmışdı. "Tamahkar" adlı pyesindən daha çox bunun xoşuma gəldiyini söylədim. "Səndə yazıçı ruhu, yazıçı istedadı, yazıçı qələmi var" – deyə onu yazmağa təşviq etdim...

Süleymanbəy Axundovu 1905-ci il inqilabına qədər uzaqdan tanıyırdım. İnqilabdan sonra açılmış cəmiyyətlər, təşkil edilmiş yığıncaq və konfranslar Azərbaycan ziyalılarını bir-birinə çox yaxınlaşdırdı. 1906-cı ildə çağırılmış müəllimlər qurultayı "İkinci il" dərsliyini təlif etməyi qərara almışdı. Bu dərsliyi təlif etməyi altı müəllim öz üzərinə götürdü ki, Süleyman bəylə mən də o müəllimlərin sırasında idik. Dərslik üzərində çalışdığımız zaman Süleyman bəylə yaxından tanış oldum.

May ayının gecəni gündüzə çevirən mahtablı axşamı idi. Dəniz durğun, hava sakit idi. Dəniz sahilində bir-birinə yaxın duran yelkənli kiçik gəmilər, qayıqlarda qarmon, tar-qaval və zurna çalınır, gəmiçilər və qayıqçılar bulvarda sıra-sıra duran tamaşaçıları dəniz seyrinə çağırırdılar. Kişilər, arvadlar, qızlar axıb istədikləri gəmiyə ya da qayığa minirdilər. Azərbaycan müəllimləri içərisində mənim ən yaxın dostlarım Süleyman Sani Axundov və Mahmud bəy Mahmudbəyov və Süleyman Əbdürrəhmanbəyov idi. O, axşam hava almaq üçün onlarla birlikdə dəniz sahilinə çıxmışdım. Mahmudbəy əllini keçmiş, qarayanız bir kişi idi. Çox dinc və xoşrəftarlığına görə hamı onu sevər, "Mahmud əmi" – deyə çağırardı. Gözəl insan olduğu kimi, gözəl də pedaqoq idi. Süleyman Əbdürrəhmanbəyov Tiflis Pedaqoji İnstitutunun məzunu olduğundan o biri müəllimlərə nisbətən daha bilikli idi. Qocalıqdan dişləri tökülmüş, zahirən görkəmsiz bir kişi idi.



Tədris üsulu və pedaqogikaya dair yazdığı məqalələri-nin altında çox vaxt "Süleyman" imzası qoyulduğundan, oxucular qarışıq salmasınlar deyə, Süleyman Axundov da özünə "Süleyman Sani" imzasını qəbul etmişdi.

Sərnişinlər ilə dolu olan yelkənli gəmilər, qayıqlar musiqi sədası altında dənizdə quş kimi süzürdü. Süleyman Əbdürrəhmanbəyov hamıdan qoca olduğuna baxmayaraq hamıdan həvəsli idi. "Gəlin biz də bu gün bir dəniz seyri eləyək", – dedi. Onun xahişini qəbul edib, qabaqda duran boş bir qayığa atıldıq. Qayıqçı avarlara sarılınca qayıq hərəkət etdi. Süleyman Əbdürrəhmanbəyov əlini çiynimə qoyub: "Şair, bizim bu dəniz seyrimizə dair elə buradaca bir şeir yaz, yadigar qalsın", – dedi. Mən onun sözünü yerə salmayaraq qoltuğumdan qələm və kağız çıxarıb aşağıdakı kiçik şeiri yazdım:

Hava sakit, dəniz durğun, bu könlüm ağlayar, gülməz,
O insafsız gözəllər çünki bu göz yaşımı silməz,
Otursaydı yanımda gül yanaqlı nazlı dilbərlər,
Açardım bu qayıqda şeirim ilə başqa bir kişvər.
Fəqət ətrafımı almış bütün çirkin, həzin sima,
Olur baxdıqca qəlbimdə acı fəryadlar peyda.

Bu şeiri oxuduğum zaman hamı güldü. Süleyman Sani əlini Əbdürrəhmanbəyovun çiyninə qoyaraq:

– Bu da sən istədiyin şeir, – dedi.

Süleyman Sani xoşrəftar, nəzakətli və xeyirxah bir insan olduğu halda məsləkinə zidd adamlarla mübarizə etməkdən də çəkinmirdi. O zaman şəhər duması nəzdində açılmış məktəblərə məxsus ayrıca bir maarif şöbəsi var idi. Soltan Məcid Qəniyev həmin maarif şöbəsində müdirin ikinci müavini idi. O ancaq azərbaycanlılar oxuyan məktəbləri təftiş edirdi. Bir dəfə müəllim yığıncaqlarından birində o, maarif

sahəsində çarizmin yürütdüyü siyasətin müdafiəçisi kimi çıxış etdiyi zaman Süleyman Sani etiraz edərək onun əleyhinə çıxmışdı.

S.Sani bir yazıçı kimi çox orijinal yola malik idi. Mən onun əsərlərini, xüsusən uşaqlar üçün yazdığı hekayələri oxuyanda bir çox müasirlərindən fərqləndiyini görürdüm. Məsələn, onun yaradıcılıq yolu, təsvir vasitələri öz qələm yoldaşlarından, hətta öz yerliləri olan Ə.Haqverdiyevdən, N.Vəzirovdan, Ü.Hacıbəyovdan seçilirdi. Onun dilində olduğu kimi, əsərlərinin məzmununda da bir humanizm, lirika, müəyyən dərəcədə didaktika var idi. O, tənqiddən çox nəsihətə, müsbət həyat hadisələrini göstərməklə oxuculara təsir etməyə çalışırdı. Onun əsərlərində satira yox, lirika hakim idi. Nədənsə, S.Saninin əsərlərini o zaman mən daha çox bəyənir və təqdir edirdim. Ədibin "Qorxulu nağıllar" adı altında çap etdirdiyi və çox şöhrət tapan uşaq hekayələri xoşladığım əsərlərdən idi. Süleyman Sani öz əsərlərində maraqlı macəralar verməyi sevirdi. O, bu macəraları o qədər təbii təsvir və təhkiyə edirdi ki, oxucuları, tamaşaçıları biixtiyar özünə cəlb edir. Ədibin "Qaraca qız" hekayəsini səhnələşdirməyim də (M.Qorki adına Gənc Tamaşaçılar teatrında tamaşaya qoyulmuşdur) onun yaradıcılığına bəslədiyim səmimi münasibətin nəticəsi idi.

Süleyman Sani çox xeyirxah bir dost idi. O, həmişə dostlarını ruhlandırır, onlara ağıllı məsləhətlər verirdi.

"Əsrimizin qəhrəmanları" sərlövhəli bir roman bağışlamışdım. Elə bu ərəfədə iki açıq məktub aldım. Birincini Qazandan Əlimcan yazmışdı, ikinci məktub Aşqabaddan gəlmişdi. Aşqabaddan yazan oxucu məktubunda romanı böyük maraqla mütaliə etdiyini, əsərin məbədini oxumaq üçün hər gün qəzetin yeni nömrəsini səbirsizliklə gözlədiyini yazırdı.



Hər iki məktub məndən böyük ruh yüksəkliyi yaratmışdı. Hə, demək, hələ gənc ikən yazılarım tənqid edilməyə başlamışdı.

Bir gün Süleyman bəylə görüşdüm. O, əlimi sıxaraq məni təbrik etdi, "əsərini oxuyuram, yaxşıdır, əvvəlcə mən elə güman etmişdim ki, Lermantovun "Zəmanəmizin qəhrəmanları" sərlövhəli romanına nəzirədir. Heç bir oxşarı olmaya-olmaya sərlövhəsini neyçin elə qoymusan?" – dedi.

Mən Lermantov və Puşkini bir şair kimi tanıdığımdan hər ikisinin əsərlərini oxumuşdum. Ancaq nə Puşkinin "Kapitan qızı", nə də Lermantovun "Zəmanəmizin qəhrəmanları" sərlövhəli romanı olduğunu bilmirdim. Başlamış olduğum romanın sərlövhəsi Lermantovun romanının sərlövhəsinin eynən tərcüməsi olması məndə heyrət doğururdu. Süleyman bəydən ayrıldıqdan sonra evə döndüm. Lermontovun əsərlərini araşdırıb "Zəmanəmizin qəhrəmanları" sərlövhəli romanını tapıb diqqətlə oxudum. Məzmunu, hətta quruluşu tamamilə başqa olduğu halda, mənim romanımın sərlövhəsi bu romanın sərlövhəsinin eyni olması, o zaman gənc yazıçı kimi mənim izzət-nəfsimə toxundu. Həvəsim və iradəm qırıldığından başlamış olduğum bu roman gözümdən düşdü. Artıq mabədin yazmadım. Bu hadisə Süleyman bəyə çox təsir etdi. O, bir həftə məni görərkən romanı yazıb qurtarmağa təkid və təşviq etdi. Mən romanı ancaq 1918-ci ildə tamamlaya bildim.

Süleyman bəy o zamandan ana dili üzərində həvəslə çalışır, onu dərindən öyrənmək istəyirdi. Əlibəy Hüseynzadənin şəxsiyyətinə bir yazıçı kimi böyük hörmət bəslədiyi halda, o, "Füyuzat" dilinə yanaşmadı. İncə və sağlam tellərlə öz xalqına bağlı olan həssas qəlbli insan həm müəllimlik, həm də yazıçılıq fəaliyyətində öz xalqından bir an belə ayrılmadı.

– "Dəbistan" və "Rəhbər" adlı məcmuələrdə nəşr edilən şirin hekayələri uşaqlarımız tərəfindən böyük maraqla oxunurdu.

***

Dövrünün görkəmli realistlərindən olan Əbdürrəhimbəy Haqverdiyev isə bir yazıçı kimi tam başqa yol ilə gedirdi. O, satirik idi, cəmiyyətdəki nöqsanları tənqid etməyi o, öz yaradıcılığının əsas məqsədinə çevirmişdi.

Əbdürrəhim bəyin satirik bir yazıçı kimi yetişməsində Şuşa şəhərinin çox mühüm xidməti olmuşdu. Bu şəhər: Natəvan, N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov kimi yazıçılarımızın, Ü.Hacıbəyov, Cabbar Qaryağdı, Seyid Şuşinski, Bülbül kimi klassik bəstəkar və xanəndələrimizin vətəni olmuşdur. Azərbaycan xalqının incəsənətində parlaq bir mövqe tutan bu şəhərin əhalisində ayrıca bir xüsusiyyət vardır: Həyatı şən keçirməyə xüsusi meyil göstərən şuşalıların gözəl lətifələr düzəltməkdə böyük məharəti vardır. Təsadüfi deyil ki, böyük, kiçik hər hansı bir şuşalı ilə söhbət etdikdə, hər sözünün başında bir lətifə deyir. Şuşada adamlar arasında bir-birinə ləqəb qoymaq da yayılmışdır.

1932-33-cü illərdə yayı Şuşada keçirdiyim zaman bir daha bu xüsusiyyətlərin şahidi oldum. "Hacı Qəmbər", "Arşın mal alan", "Məşədi İbad" kimi komediyaların, "Marallarım" silsiləsindən olan satirik hekayələrin necə, hansı təsirlə yazıldığını, buradakı incə gülüşün haradan olduğunu öyrəndim.

Əbdürrəhim bəy Haqverdiyev ilə ilk dəfə 1902-ci ildə şəhər məktəbində tanış olduq. Mən ehtiyat müəllim olduğumdan xəstə müəllimləri əvəz edirdim. Dərs başlanmışdı.



Müəllimlər otağında əvvəlcə müdir ilə görüşdük. Müdir məni müəllimlər ilə tanış etdi.

Haqverdiyev ucaboy, enlikürək, alnı geniş, xoşsima bir şəxs idi. Qalın, uzun və pərişan saçları vardı. Mənim ilə tanış olub əl verirkən heyrətlə üzümə baxaraq gülə-gülə dedi:

– Çox cavansan, bu uşaqlarla necə bacaracaqsan? – dedi.

O zaman mən 21 yaşında idim. Ona nisbətən çox gənc olduğuma baxmayaraq, mənə bir dost kimi yanaşdı və o gündən dostluğumuz davam etdi. Hətta müdirin tapşırığı ilə birinci dərsə məni Haqverdiyev özü ilə bərabər aparıb sinfə təqdim etdi.

Tənəffüs zamanlarında müəllimlərə şirin lətifələr söyləyib güldürmək adəti idi.

İnqilabdan sonra hər ikimiz Ali Pedaqoji İnstitutda bir müəllim kimi çalışırdıq. O, hələ də öz köhnə vərdişlərini buraxmamışdı, hətta bir az da üstünə artırmışdı. Böyük tənəffüslərdə söylədiyi şirin lətifələrlə müəllimləri güldürür və kəlməbaşı atalar sözündən bir misal çəkirdi. O, xalq həyatını, xalq ədəbiyyatını çox gözəl bilirdi. Ondan eşitdiyim lətifələri yazmış olsaydım, böyük bir kitab olardı. Bu qədər lətifəni haradan öyrəndiyinə və zehnində necə saxladığına heyrət edirdim.

Haqverdiyevin söylədiyi lətifələri yazmış olduğu hekayələrdə, dramlarda, "Molla Nəsrəddin" məcmuəsində çap etdirdiyi satirik felyetonlarda və yaratdığı surətlərin mükalimələrində görmək olardı.

Mən ciddi mövzuları qələmə aldığım zaman bir o qədər çətinlik çəkmirəm. Ancaq arabir komik surətlər də yaratmaq lazım gəlir; bu yerdə qələmim çətin işləyir. Belə vaxtlarda adətən Haqverdiyevdən eşitdiyim lətifələr imdadıma çatır və məni çətinlikdən qurtarır. Məsələn, mənim "Ana" pye-

simdə istifadə etdiyim aşağıdakı lətifəni ilk dəfə Haqverdiyevdən eşitmişdim:

Bir kəndlinin iki arvadı varmış, birinin adı Şövkət, o birinin Şəhrubanu imiş. Kişi Şövkəti "Şam", Şəhrubanunu isə "Şup" çağırırmış. Günülər bir yerdə yola getmədiklərindən kişi arvadlardan birini kəndin ortasında axan çayın o tayında, birini isə bu tayında saxlayırmış. Bir gecə o Şupun evindən çıxıb, Şapın evinə getmək istəyərkən ensiz körpüdən ayağı sürüşür, kişi çaya düşür. Nə qədər çalışır çaydan çıxa bilmir. Coşqun çay az qalır ki, onu aparsın. Kişi özünü zorla saxlayır və çaydan çıxmaq üçün əl-qol ataraq deyir:

Şup elə bilir ki, Şapdayam,
Şap elə bilir ki, Şupdayam.
Nə Şapdayam, nə Şupdayam,
Burda şarap-şurupdayam.

Ə.Haqverdiyev hələ Şuşa realni məktəbində oxuduğu zaman yay zamanları Məlik Haqnazarovun təşəbbüsü ilə həvəskar aktyorlar tərəfindən Mirzə Fətəlinin komediyalarını oynayırdı. Əbdürrəhimbəy Haqverdiyev tələbə ikən teatr işlərinə həvəs göstərir, yazdığı ilk səhnə əsərini müəllimi Haqnazarova oxuyur, onun nöqsanlara dair göstərişləri kiçik Haqverdiyevi yazmağa təşviq edirdi. 1890-cı ildə Şuşa realni məktəbindən Tiflis realni məktəbinin son sinfinə köçmüş, burada tez-tez teatr tamaşalarına getmiş və həmin illərdə ruscadan "Nahaq qan" adlı bir faciə tərcümə etmişdi. Tiflisdə realni məktəbi bitirdikdən sonra Peterburqa gedərək səkkiz il Yollar İnstitutunda oxumuş, dinləyici sifəti ilə "tarix-dil" fakültəsinə davam etmişdir.

O zaman Peterburqda Aleksandrovski teatrının ən parlaq bir dövrü idi. Teatrda gördüyü sənətkaranə əsərlər, mahir aktyorlar gənc müəllifin drama olan meylini və rəğbətini



daha da artırmışdı. Ədib "Yeyərsən qaz ətini, görərsən ləzzətini" komediyası ilə "Dağılan tifaq" kimi klassik faciəsini də orada ikən yazmışdı. 1899-cu ildə Şuşaya qayıdıb 1900-cu ildə "Tamah", yaxud "Baxtsız cavan" faciəsini tamamlamışdı.

Ə.Haqverdiyev Bakıda geniş ədəbi-ictimai fəaliyyətlə məşğul idi. O, bir tərəfdən şəhər məktəblərində müəllimlik edir, digər tərəfdən teatrda çalışır, tamaşaya qoyduğu əsərlərə rejissorluq edirdi.

Mərhum bəstəkar Zülfüqar Hacıbəyov nağıl edirdi ki, Ə.Haqverdiyevə Şuşada "Şəbehgərdan" adı qoymuşdular. Bu görkəmli dramaturqun teatra olan böyük marağı ilə bağlı idi.

1896-cı ildə, Şuşa şəhəri müəllimlərinin və Nikolayevski məktəbin tələbələrinin iştirakı ilə "Dağılan tifaq" faciəsi tamaşaya qoyulur. Xandəmirovun böyük salonda keçirilən bu tamaşanın rejissorluğunu Haqverdiyev özü edirmiş. Rollar müəllimlər ilə tələbələr arasında paylanır. Üçüncü bəyin rolunu Süleyman Sani Axundov, qumarda uduzan bəyin arvadının rolunu tələbələrdən Mirzəyev Rza oynayır, məktəblilər nəğməsini Ü.Hacıbəyov və başqaları oxuyurlarmış. Tamaşanın sabahı arvad rolunu oynayan Rza Mirzəyevin anası məktəbə gedib hay-küy qoparmış: "Hanı o şəbəhgərdan? Mənim oğluma arvad paltarı geyindirib xalqın qabağına çıxardan o Əbdürrəhim hardadır? Onun başına bir oyun açım ki..." – deyə Haqverdiyevi hədələmişdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Ə.Haqverdiyev müxtəlif sahələrdə çalışırdı. 1920-ci ildə o, Nəriman Nərimanovun göstərişi ilə Maarif Komissarlığında işləyirdi; bir müddət teatrda çalışdı, sonra "Sənayeyi-nəfisə" şöbəsinin müdiri oldu, eyni zamanda da Azərbaycan Dövlət

Universitetinin Şərq fakültəsində müəllimlik edirdi. Əbdürrəhimbəy çox çalışqan, qeyrətli, energiyalı bir ədib və ictimai xadim idi.

1929-cu ildə Azərbaycan yazıçıları nümayəndə heyəti Gürcüstan və Ermənistan yazıçıları ilə görüşə getmişdi. Başçımız Haqverdiyev idi. Şamaxı ermənilərindən yazıçı Şirvanzadə də bizimlə idi. Yerevanda söhbət üçün bir gün Haqverdiyevin yanına getdim. Şirvanzadə ilə oturub erməni artistlərinin göstərdikləri milli rəqslərdən, Azərbaycan və erməni xalqlarının həyat, adət, musiqi və rəqslərinin bir-birinə nə qədər yaxın olduğundan danışırdılar. Söhbət vaxtı Şirvanzadə: "Mən Azərbaycan həyatından yazmışam, siz də erməni həyatından yazın" deyə bizə müraciət etdi. Haqverdiyev gülə-gülə cavab verdi: "Bu çətin iş deyil. Hansı hekayət olur-olsun iştirak edən şəxslərin adlarını dəyişdirib Arşaq, Avanes qoysam olar erməni həyatından." Sonra o erməni və azərbaycanlıların həyatından bir-iki lətifə söylədi .

Haqverdiyev Şirvanzadənin xahişini unutmadı. 1931-ci ildə erməni həyatından "Çox gözəl" adlı bir pyes yazdı.

## BÖYÜK SƏNƏTKAR

Cəfər Cabbarlını hələ kiçik ikən, Bakının yeddinci şəhər məktəbində oxuduğu zamandan tanıyırdım. O, mənim ən çox sevdiyim şagirdlərimdən idi. Özünün zəkası və istedadı ilə yoldaşlarından seçilirdi. Onun hərəkətlərində, danışıqlarında, mühakimələrində bir qəribəlik, qeyri-adilik nəzərə çarpırdı. Sinifdə sakit otura bilməz, əlləri havada oynar, iri, parlaq, qaynar gözlərindən od tökülürdü. Müəllim sinifdə dərs soruşarkən əllərini havada oynadaraq: "Müəllim, mən,



mən", – demək adəti idi. Bunu kiçik Cəfərə tərgitmək mümkün olmayırdı. Divara bitişik son partada otururdı.

Üzügülər və şən olan Cəfər öz müəllimlərinin dərin hörmət və məhəbbətini qazanmışdı. Müəllimlər onu o qədər sevirdilər ki, tənəffüs zamanı da tez-tez onun saf, səmimi xasiyyətindən danışırdılar. O, özü də müəllimlərinə çox mehribanlıq göstərər, hər yerdə görsə onları saxlar, bir şey soruşar, bu dəqiqələrin hər birini qənimət bilərdi.

Bir dəfə (ili yadımda deyil) sinifdən çıxıb müəllimlər otağına getdiyim zaman Cəfər qarşıma çıxdı. Üzü mənə tərəf danışa-danışa dalı-dalı yeriməyə başladı. Onun bu hərəkəti mənə qəribə göründü. Heç gözlənilmədən dedim: "Cəfər, ya sən çox böyük adam olacaqsan, ya heç bir şey. Ancaq birincidən olmağa çalış".

Mənim bu sözlərim ona çox təsir etdiyindən həmişə xatırlayırdı. O, "heç bir şey" olmamaq üçün böyük səy göstərir, xalqa faydalı bir adam olmağa çalışırdı.

Cəfər məktəbi qurtaran il mən həmin məktəbdə işləmirdim. O, sənət məktəbində çalışır, mən isə realnidə dərs deyirdim. Odur ki, biz yalnız arabir küçədə görüşürdük. O, hər dəfə məni görəndə əvvəlki kimi tez yanıma gəlir, parlaq, iri gözlərini gülə-gülə mənə dikərək: "Şaiq müəllim necəsiniz? Yeni nə yazırsınız?..." – deyə soruşardı.

Cəfər yaradıcılığa 14-15 yaşlarından, şeir yazmaqla başlamışdı. O, ilk şeirlərini çox zaman hamıdan əvvəl mənə oxuyar, mənim göstərişlərim əsasında işləyərdi. Onda möhkəm iradə və nikbinlik vardı. Hər bir müvəffəqiyyətsizlik onu ruhdan salmaz, əksinə öz şeirlərinin üzərində daha səylə çalışmasına səbəb olardı. Məsləhət və göstərişləri o çox asanlıqla qavrayar və əməl edərdi. Ehtimal ki, Cəfərin ilk şeirlərinin əksəriyyəti çap olunmamışdır.

Cəfərin ilk şeiri "Məktəb" jurnalında çap olunmuşdu. Bu ilk müvəffəqiyyət yaradıcılığa böyük eşqi olan gəncin hədsiz sevincinə səbəb olmuşdu. O, yerə-göyə sığmırdı. Bu sevincinin mənasını mən ancaq bir neçə il sonra, Cəfərin böyük yaradıcılıq istedadının şahidi olduğum zaman daha da dərindən hiss etmişdim.

Gənc Cəfər çox sürətlə, gündən-günə inkişaf edirdi. Əsərləri mətbuatda tez-tez çap olunmağa başlamışdı. Yazdığı sabiranə satiralar, lirik şeirlər, pyeslər ictimaiyyətin diqqətini cəlb edirdi. Bir dəfə, hələ inqilabdan əvvəl onun pyeslərindən bir tamaşa qoyulmuşdu. Pyes tamaşaçılara, o cümlədən mənə çox böyük təsir bağışlamışdı. Tamaşa qurtarandan sonra onunla görüşdüm, əlini sıxıb təbrik etdim. O, gülə-gülə soruşdu:

– Şaiq müəllim, deyin görüm, indi mən hansındanam? Heç bir şeyəm, yoxsa bir yerə çıxmaq ümidim vardır? Əsər haqqında fikirləriniz nədir?

–Böyük adam olmağa başlayırsan, – dedim, – çox sağ ol, ancaq bu azdır. Səndən daha qiymətli, daha faydalı əsərlər gözləyirəm.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra gənc dramaturq Dövlət Universitetinin Şərq fakültəsində oxuyurdu. O, burda mənim ədəbiyyat nəzəriyyəsindən oxuduğum mühazirələrə böyük maraq göstərirdi. Cəfər artıq uşaqlıq hərəkətlərini yadırğamışdı, indi skamyada ciddi bir tövr alaraq oturur, ağıllı gözlərini məndən ayırmırdı. Cəfər artıq bu zaman tanınmış bir dramaturq idi. On beş yaşında ədəbiyyat sahəsinə atılmış bu gənc istedad artıq, "Oqtay Eloğlu", "Vəfalı Səriyyə", "Solğun çiçəklər", "Aydın" kimi gözəl əsərləri yaratmışdı. Cəfər Cabbarlı bu pyeslərində orijinal bir ədəbi sima kimi realizm ilə romantikanı böyük məharətlə



birləşdirmişdi. Cabbarlı yaradıcılığında bir-birinə zidd olan surətlər arasındakı danışıqlar o qədər kəskin, qəti, qısa, bir-birini tamamlayan, inandırıcı və məntiqidir ki, insan heyrət etməyə bilmir. Bu isə dramaturqa qismət olmayan bir keyfiyyətdir.

Cəfər həm istedadlı sənətkar, həm də səmimi, mehriban insan idi. Öz müəllimləri içərisində məni də ata məhəbbəti ilə sevirdi. Harada görsə kefimi, vəziyyətimi soruşar, kömək göstərməyə çalışardı. Kinostudiyada işlədiyi zaman bir gün təsadüfən küçədə görüşdük. Adəti üzrə kefimi, harada işlədiyimi soruşdu və sonra mənə müraciətlə dedi:

– Şaiq müəllim, bəlkə bizim üçün bir ssenari yazasınız?

Bu sözləri deyib ümid dolu gözlərini mənə dikdi. O zaman mən Qaçaq Nəbi mövzusu ilə maraqlanırdım. Hətta bu mövzuda poema yazmağa da başlamışdım. Odur ki, "Qaçaq Nəbi" adında bir ssenari yazıb kinostudiyaya verdim. Əsərə Cəfər çox müsbət rəy vermişdi. Yanına gedəndə o məni çox mehribanlıqla qarşıladı:

– Şaiq müəllim, biz sizə çox borcluyuq, – dedi, sonra əlavə etdi:

– Yaxşı yazmısınız.

Cəfərin həyatı mənim gözlərim qarşısında keçmişdi. Yoxsul ailədə min bir fəlakət və zəhmət ilə yetişmiş bu böyük sənətkarın Sovet hakimiyyəti qurulana qədər necə çətin yollar keçdiyinin şahidi olmuşdum. O kimsəsiz uşaq kiçiklikdən həyatın bütün ağır zərbələri qarşısında əyilməyən, dayanıqlı, yorulmaz bir mübariz olmuşdu. Yeniliyi seçən Cəfər uzun müddət ona mane olan əngəlləri səylə öz yolu üstündən qaldırmağa çalışmışdır. Həmişə arvadı Sona xanıma deyərmiş: "Mən Şaiq müəllimin tələbəsi olub onun tərbiyəsi ilə böyümüşəm. Mənim tərcümeyi-halımı da ondan soruş".

Cəfər Cabbarlı həqiqətən böyük adam, ürəkləri, zehinləri fəth edən bir sənətkar oldu. Cəfər böyük ideallarla yaşayırdı. O, həmişə həyatı təsdiq edən, fəal, mübariz insan surətləri yaratmaq həvəsi ilə yaşayırdı. Odur ki, hələ yaradıcılığının ilk dövründə yazdığı əsərlər, yaratdığı surətlər onu tamamilə təmin etmirdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Cəfərin ən böyük yaradıcılıq arzularını həyata keçirməsi üçün gözəl bir zəmin yarandı. Böyük dramaturq özünün ən qiymətli əsərlərini də məhz bu dövrdə yazmışdır. O, "Od gəlini", "Sevil", "Almaz", "1905-cil ildə" kimi böyük sənət nümunələri olan pyesləri ilə Azərbaycan sovet dramaturgiyasının əsasını qoydu. Cəfərin sovet dövründə yazdığı pyeslər, eləcə də gözəl hekayələri və şeirləri sovet ədəbiyyatımızın klassik nümunələridir.

Azərbaycan səhnəsinin gündən-günə çiçəkləndiyi, gündən-günə inkişaf etdiyi bir zamanda, yaradıcılığının ən qaynar bir dövründə Cəfər vəfat etdi. 1934-cü il dekabrın 31-də, gecə misilsiz sənətkarın, qüdrətli tələbəmin ölümünü eşitdiyim zaman daxilimdə nəyinsə qırıldığını hiss etdim. Uzun müddət bu itkinin ağırlığını unuda bilmədim. Ancaq böyük sənətkarın ölümü münasibətilə "Solmaz və sönməz" adlı acı təəssüratımı yazdıqdan, hisslərimi kağıza tökdükdən sonra bir az yüngülləşdim. 1934-cü ildə yazılmış həmin mənzum nəsr parçası bu sözlərlə qurtarırdı.

– "Ey gənc sosialist vətənimin yaradıcı şairi!
Yeni sənət səltənətində yeni bir günəş kimi doğdun!
Sənət səltənətində doğan böyük günəşlər sönməz!
Əbədiyyat baharının bağçalarında açan çiçəklər solmaz!
O çiçək, o günəş sənsən, sənin sənətindir!"



## HÜSEYN CAVİD

Orta və ali məktəb dərsliklərinə daxil etmək üçün Hüseyn Cavidin geniş tərcümeyi-halını öyrənmək istəyirdim. Odur ki, bir gün bizə gəlməsindən istifadə edib məsələni ona açdım. Cavid gülə-gülə dedi:

– Yaz ki, "dimdiyinin sarısı getməmiş sərçə balasıdır", – dedi.

Onda mən ciddi şəkildə:

– Elə isə, bu sözünü dərsliklərə yazacağam, – dedim.

O:

– Yaxşı, dur qələm, kağız gətir, mən deyim, sən yaz, – deyə razılaşdı.

Qələm, kağız gətirib oturdum. O, tərümeyi-halını söyləməyə başladı. Onun dediklərini qeydə götürdüm.

Rasizadə Hüseyn Cavid 1882-ci ildə Naxçıvan şəhərində dünyaya gəlmişdi. İlk təhsilini ibtidai şəhər məktəbində almışdır. Çox gənc ikən şeirə həvəs göstərmiş, "Gülçin" təxəllüsü ilə Şərq şairlərinə təqlidən bir çox qəzəl yazmışdır.

Cavidin atası Molla Abdulla Qafqazda gözəl səsi olan mərsiyəxanlardan sayılırdı. Muğamatı o qədər gözəl bilirmiş ki, məscidlərdə, təkyələrdə mərsiyə oxuduğu zaman xanəndələr muğamatı ondan öyrənməyə gələrmiş. İkinci arvadından olan Hüseynin yaxşı səsi olduğundan Molla Abdulla onu da özü ilə bərabər götürüb şəhər-şəhər dolaşır, cavan Hüseynə öz sənətini öyrətməyə çalışırdı. Hüseyn iki il sevmədiyi bu sənətlə məşğul olduqdan sonra ondan əl çəkmiş və buna görə də ata-anasının gözündən düşmüşdü. Onlar: "Bundan bir şey çıxmaz", – demişdilər.

Mərsiyəxanlıqdan yaxasını qurtardıqdan sonra böyük qardaşının yanına Təbrizə getmiş, orada farsca, ərəbcə oxu-

mağa başlamışdı. Bu arada şiddətli göz ağrısına tutulduğundan təhsildən əl çəkərək xalça, palaz ticarətinə başlamışdı. Təbrizdən qayıtdıqdan sonra bir müddət ticarətlə məşğul olmuş, sonra bundan əl çəkib Gürcüstanda, Kaxetiya tərəflərdə şose yolu çəkən idarədə podratçılıq etmişdi. Bundan sonra atasının yaxın dostlarından ticarət şirkəti sahibi olan bir tacirin xahişi ilə ona şərik olur. Hüseyn həm şirkətin mühasibat işlərini aparmalı, həm də əlində olan sərmayəsi 700 manatı şirkətə verməli idi. Şirkətin Batumda, Təbrizdə və İstanbulda şöbələri var idi. 1905-ci ildə Hüseyn İstanbul şöbəsinə göndərilir. Bundan istifadə edərək o, İstanbulda gözlərini müalicə elətdirir. Çox çəkmir ki, şirkətin Təbriz və Tiflis şöbələri iflas edir. Bunu eşidən Hüseyn sərmayəsi olan 700 manatı geri alıb ticarətdən əl çəkir.

Təxminən bu zamanlarda Gəncəli Abdulla Tofiq İstanbulda darülfünün ədəbiyyat və psixoloji şöbəsinə rəsmən daxil olub oxuyurdu. Hüseyn İstanbulda onunla görüşdü. Bu görüş cavan Hüseyndə təhsilini artırmaq fikrini doğurur. O, məşhur türk filosof və şairi Rza Tofiqdən xüsusi olaraq ədəbiyyat və fəlsəfə dərsləri alır. Elani-hürriyyətdən sonra iki ilə qədər də darülfünunun ədəbiyyat şöbəsinin bütün dərslərinə davam edir.

Hüseyn Cavid İstanbulda təhsilini artırmaqla məşğul olduğu zaman qərb müstəmləkəçilərinin yürütdüyü siyasət nəticəsində Türkiyənin ictimai və iqtisadi vəziyyəti gündəngünə zəifləməyə başlamışdı. Türkiyə cəmiyyəti özünü qərb istismarçılarının əzici pəncəsindən qurtarmaq üçün çalışır, çırpınır və bu vəziyyətdən çıxmaq üçün tədbirlər düşünürdülər. O zamankı ictimai və iqtisadi həyat islamlaşmaq, milliləşmək və müasirləşmək kimi yeni fikirlər ortaya atdı. Ədəbiyyat da bu üç cərəyanı təbliğ etməyə başladı. İslamlaşmaq



cərəyanının başında "Siratilmüstəqim" məcmuəsinin naşiri Məhəmməd Akif, milliləşmək cərəyanının başında Məmməd Əmin, müasirləşmək cərəyanının başında "Sərvəti-Fünun" məcmuəsinin naşiri Tofiq Fikrət dururdu. Vaxtilə ədəbiyyatda hakim olan hissiyyun (sentimentalizm) ədəbi məsləkini indi romantizm və realizm məsləki əvəz edirdi. Romantizm ədəbi məsləkini davam etdirən, bir çox mənzum tarixi faciələri ilə şöhrət qazanmış Əbdülhəq Hamid idi.

Gənc Hüseyn ən çox Əbdülhəq Hamidi bəyənmiş olduğundan onun əsərlərini daha çox oxuyurdu. Elə bu vaxt "Cavid" təxəllüsü ilə yeni tərzdə bir neçə şeir yazmışdı.

Abdulla Tofiq təhsilini bitirdikdən sonra Gəncəyə qayıtmış, Azərbaycan dilində ruhani məktəbi açmağa müvəffəq olmuşdu. Bakı qəzet və məcmuələrində "Abdulla Sur" imzası ilə tənqidi məqalələr nəşr etdirmişdi. Abdulla Tofiq Azərbaycan ədəbiyyatında tənqidçiliklə məşğul olan ilk alim-münəqqidlərdəndir.

Hüseyn Cavid İstanbuldan Naxçıvana qayıtdıqdan sonra Abdulla Tofiq ilə məktublaşıb Gəncəyə getmiş və Abdulla Tofiqin təşəbbüsü ilə açılmış ruhani məktəbində bir müddət müəllim olmuşdur.

Abdulla Tofiq yazıçılar ilə əlaqə saxlayaraq əsərlərində olan nöqsanları göstərirdi. Mənə yazdığı məktublardan birində "Qardaşım, Məhəmməd Hadi bizim ədəbi dilimizi hara aparır?" – deyə şikayət edirdi. Hamid və Fikrət dilinin ən böyük düşməni idi. Mənə göndərdiyi son məktubunda yazırdı: "Qardaşım, xəstəyəm. Həkimlərin göstərişinə görə Tiflisə gedib əməliyyati-cərrahiyyə yapdırmalıyam. Bıçaq altından salamat qurtarsam yaxşıdır." Əfsus ki, bu gənc istedadlı alim-münəqqidimizi ölüm əlimizdən aldı, əməliyyaticərrahiyyədən salamat qurtarmadı.

Abdulla Tofiq Cavidin də inkişafına müsbət təsir etmişdi.

Hüseyn Cavid Gəncədən Bakıya gələndən sonra müəllimliklə yanaşı bədii yaradıcılıqla da məşğul olurdu.

Cavid təbiətcə laqeyd, laübali, həyatını şən keçirməyi sevən bir şair idi. Onunla keçirdiyim maraqlı bir günü "Dəyərli bir xatirə" adlı hekayəmdə təsvir etmişəm.

İsti bir yaz axşamı idi. Şəhər bağçasında yan-yana oturub söhbət edir, hər kiçik bir hadisədən qəhqəhələr qoparaq əylənirdik. Hər ikimiz gənc, hər ikimiz subay idik. Dostum bu aralıq qarşımızdan keçən şıq geyimli, üz-gözü boyalı gənc bir qadına işarə edərək: "Mənə bax, nə haldayam, yara bax nə sallanır!" mahnısını kəsik səslə oxudu. Qadın kəklik kimi səkərək önümüzdən sürətlə keçmişdi. İndi hər ikimiz onu arxadan seyr edərək vücudundakı tənasübü təyin etməyə çalışırdıq. Yoldaşım başı ilə onun yapon şəmsiyyələrini təqlid edən iri, olduqca iri şlyapasını göstərərək istehzanı andırır bir qəhqəhə qoparandan sonra:

– İnsanların get-gedə zövqü pozulmağamı başlayır, nədir? Bu iri qazan incə başlara yaraşırmı?

– Nə etsin, zavallı moda əsiri, sıradan qalmaq olmaz, – dedi.

Bu qadın söhbətimizin uzanmasına gözəl bir mövzu oldu. Söz sözü çəkərək bir çox şeydən, hətta həyatın ən mühüm məsələlərindən olan təəhhüldən[36] bəhs etdik. Nəhayət, modasız, boyasız, riyasız, təbii, saf və sadə gözəlliklərin insanda buraxdığı təsirin bambaşqa olduğundan belə bir həyat yoldaşı tapmağa qərar verdik.

[36] Evlənmək.



Günəş qürub etmək üzrə idi. Təmiz hava almaq məqsədi ilə dəniz sahilinə çıxdıq. Qayıqlar ötəbəriyə axır, dəniz seyri həvəskarlarını əyləndirici musiqilərlə, istədikləri tərəfə daşıyırdı. Heç sormadan qayığa atıldıq. Qayıq ancaq hərəkət etdikdən sonra onun Qaraşəhərə getdiyini və aldığımız biletlə oradakı sinemaya[37] tamaşa etmək yenə həmin biletlə geri dönmək mümkün olduğunu öyrəndik. Bu təsadüfəndən hər ikimiz məmnun qaldıq. Gözlərimiz önündə ağ köpüklər üzərində qalxıb-enən şən qayıqlar qulaqlarımızı dadlı-dadlı oxşayan samturun incə tellərindən qopan munis mahnılar gənc ürəyimizi coşqun sevinclərə qərq etmişdi. Bir az sonra qayığımız Qaraşəhərdəki iskələyə yan aldı. Dişarı çıxdıq, tamaşa göstərilən binanı tapıb, orta sıralarda oturar-oturmaz işıq söndü. Tamaşa başlandı. Dostum: "Bizi gözləyirmişlər, mərhəba, qanacaqları var imiş", – dedi.

Birinci lövhə gənc çoban bir italyan qızını təsvir edirdi. Lətif və mütənasib vücudunda ağ bir don, qıvırcıq saçlı kiçik başında kəpənək qanadlarına bənzər incə bir şlyapa var idi. Şən, oynaq quzularla qarışıq qoyunları seyrək, iri ağaclı və otlu bir obaya yayaraq topladığı çiçəklərdən başına bir çələng hörməyə çalışır, və arabir dodaqlarında uçan lətif təbəssümlər qədər şən və şux zərrin kəpənəklərin arxasınca uşaqcasına qoşaraq əylənirdi. Hazırlamış olduğu çələngi şən və şatır uşaqlara məxsus bir tövr və əda ilə başına qoyarkən: "Eşq olsun, eşq olsun, tam bizim istədiyimiz qız", – deyə pıcıldadı. – Bizim üçün ideal olan gözəlliyə yalnız böylə təmiz havalarda açıq-saçıq gözəl obalarda sərbəst bir quş kimi yaşamış kənd qızlarında təsadüf etmək mümkündür.

[37] Kino.

O gecə bir-birimizdən çox gec ayrıldıq. Əllərini əllərim içində sıxaraq:

– Cavid bu xatirə sənə dair yazacağım romanın başlanğıcını təşkil edəcək, – dedim.

O gülə-gülə:

– Yox-yox yazma, – dedi.

Cavid ilə ilk tanışlığım 1905-ci ildə oldu. O zaman Bakıya səyahət üçün gəlmişdi. Yaxın dostluğumuz 1910-cu illərdən sonra başlandı. İstanbuldan yenicə dönmüş və hələ böyük şöhrət qazanmış şairin arabir "Tərəqqi" və "Yeni həyat" qəzetlərinin səhifələrində, "Salik" imzası ilə yazdığı mənzumələrini oxuyurdum. 1910-cu ildə yazdığı birpərdəli "Ana" dramı məndə onun həm böyük şair, həm də böyük dramaturq olacağı qənaətini oyatdı. Şair dostlarımın hamısından ziyadə Cavid ilə görüşür və boş vaxtlarımızı əksərən bir yerdə keçirirdik. 1914-cü ildə nəşr etdiyi "Şeyx Sənan" faciəsini böyük bir maraqla oxumuş, görüşürkən onun böyük müvəffəqiyyətini səmimi qəlbdən təbrik etmişdim. Cavidin şah əsərləri, şübhəsiz, "Şeyx Sənan" ilə "İblis" faciələridir. "İblis"i 1919-cu ildə başlamış, 1920-ci ildə bitirmşdir. Şair bu iki qiymətli əsəri ilə yaradıcılığının ən böyük zirvəsinə qalxmış, kamal dövrünü bulmuşdu.

Cavidin "İblis" faciəsini ideoloji cəhətdən tənqid edənlərə onun nə kimi təsir altında yazıldığını xatırlatmaq üçün şairin keçirdiyi müthiş fəlakəti yazmaq məcburiyyətindəyəm.

Cavid Bakıda köhnə Nikoloyevski küçədə yerləşən "Təbriz" otelində yaşayırdı. 1918-ci ilin mart hadisəsindən sonra yazıçı və münəqqid Hüseyn Sadiq ilə bərabər bizə gəlmişdi. Cavidin bət-bənizi ağarmışdı. O, son dərəcə nəşəsiz və mütəəssir görünürdü. Əhval sordum. Hüseyn Sadiq Cavi-



din əsir düşdüyünü və ölümdən qurtulduğunu söylədi. Sonra şair özü başına gələn qəzanı müfəssəl şəkildə belə danışdı:

"Mart hadisəsinin ikinci günü bir dəstə daşnak əsgəri otelin qapısını qırıb içəri girdilər və altmış nəfərdən ziyadə müsafiri əsir aldılar. Mən vəziyyətin nə yerdə olduğunu hiss edərək getmək istəmirdim. "Nə edəcəksiniz burada edin!" – dedim. Lakin hamımızı məcburən çıxarıb apardılar. Yolda hər tin başı üzərimizə yaylım atəşi açılınca hamımız qorxudan yerə sərilir, bir-birimizə qısılırdıq. Sonra "Qalxın!" əmri verilincə yoldaşlarımızdan bir çoxunun qurşunlara fəda olduğunu görürdük. Xülasə 60 nəfərdən 2 nəfər qaldıq. Bizi gətirib Mayılov[38] teatrına buraxdılar. Aralıq sakitləşənə qədər orada qaldıq. Bu hadisədən olduqca mütəəssir oldum. İndi biz Hüseyn Sadiq ilə Ənzəliyə qaçmağa qərar vermişik. Bura çox təhlükəlidir. Sənə də burada qalmamağı məsləhət görürəm".

Mənim Bakıdan çıxmaq iqtidarım yox idi. Vəziyyətimi Cavidə anlatdım. Hüseyn Sadiq ilə Cavid iki gün sonra Ənzəliyə getdilər. Cavid oradan Təbrizə, Təbrizdən isə Naxçıvana getmişdi.

Cavid Azərbaycan səhnəsinin şah əsərlərindən olan "İblis" faciəsini bu acı təsirlər altında yazmışdır.

Cavid öz sənətini çox sevən bir şair idi. O, gözü önündə uçuşan minlərcə mövzulardan yalnız ən çox sevdiyini, ruhuna və sənətinə ən müvafiq gələnini yaxalar və onu bir müddət zehnində yaşatdıqdan sonra səssiz, kimsəyə sezdirmədən yazmağa başlar, ondan soruşmayınca hansı əsərin üzərində çalışdığını söyləməzdi. O, əsərlərini birdən-birə, kamil şəkildə meydana çıxartmaq istərdi.

---

38 İndiki Akademik Dövlət Opera və Balet teatrının binasıdır.

Həyatında eniş-yoxuşlu yollar keçmiş bir neçə peşədə çalışmış, böyük istedada malik olan Hüseyn Cavid Şərq tarixində bəyəndiyi tarixi mövzuları qələmə alıb romantizm üslubunda "Ana", "Maral", "Şeyx Sənan", "İblis", "Uçurum", "Şeyda", "Afət", "Telli saz", "Peyğəmbər", "Topal Teymur", "Dəli Knyaz", "Siyavuş", "Madrid" və "Xəyyam" kimi mənzum və mənsur faciələr, "Azər" adlı mənzum roman yazmışdır. Cavidin mənzum faciələri Azərbaycan səhnəsində böyük müvəffəqiyyət qazanmışdır. Yazdıqları o qədər sevilirdi ki, tamaşaçılar onun əsərlərindəki ayrı-ayrı səhnələri, dialoqları əzbərdən bilirdilər.

## NALÇİK HƏYATI

Hər il yay tətilini təbiətcə zəngin bir yerdə keçirmək on ay müəllimlik nəticəsində yorulmuş əsəblərimə və əhvali-ruhiyyəmə çox yaxşı təsir etdiyindən 1916-cı ildə Nalçikə getmişdim. Parka yaxın bir yerdə otaq kirayə etdim. Həmin həyətdə mənimlə yan-yana iki otaqda Novorossiyski şəhərindən ailəsi ilə bərabər gəlmiş bir dəmiryolçu mühəndisi yaşayırdı. Həyətə çıxan uzun artırmanın qarşısında kiçik bir bağça vardı. Həmin mühəndis ilə tanış olduqdan sonra hər gün səhər qəlyanaltı edib onun ilə bərabər ya parka, ya yaxın meşəyə gəzməyə gedirdik. Mühəndis olmağına baxmayaraq o, rus ədəbiyyatını bir ədəbiyyatçı qədər gözəl bilirdi. Mən də 1903-cü ildə bir rus ziyalısından aldığım kitabxana vasitəsilə məşhur rus klassik yazıçılarının yaradıcılığı ilə bir qədər tanış olmuşdum. Realni məktəbin müəllimlərə məxsus 40 minə qədər kitabı olan zəngin bir kitabxanası var idi. Rus



ədəbiyyatı müəllimi V.İ.Miskeviç[39] həmin kitabxananın müdiri idi. Miskeviçdən izn alıb hər gün boş saatlarımı o kitabxanada keçirirdim. Miskeviç mənə həm rəhbərlik edir, lazım olan qiymətli kitabları mənə verib oxumağımı tapşırır, həm də bəzən oxuduğum əsər haqqında bir tələbə kimi məndən sorğu-sual edirdi. Hətta son zamanlar imtahan günlərində Miskeviç məni özü ilə bərabər yuxarı sinif tələbələrinin imtahanlarına aparırdı. Beləliklə, o zaman mən rus və Avropa klassiklərinin əsərləri ilə Belinski ilə tənqidçilərin fəaliyyəti ilə tanış olmuşdum.

Odur ki, həmin mühəndislə rus ədəbiyyatından bəhs edərkən mən də öz fikirlərimi söyləməkdə aciz qalmırdım. Bizim dostluğumuz gündən-günə möhkəmlənirdi. Müəllim olduğumu ona söyləmişdim. Ancaq yazıçı olduğumu bilmirdi. Bir gün parkda mənim keçmiş tələbələrimdən Əlibəndə Rzayev ilə görüşdük. O mənim yaşadığım evin ünvanını aldı. İki gün sonra məni görmək üçün evə gəldi. Mən onu mühəndisin ailəsi ilə tanış etdim. Oturub söhbət etdikdən sonra gedərkən mühəndisə: "Mən çox şadam ki, bizim müəllimimiz şair və yazıçımız sizin kimi mədəni bir ailə ilə birlikdə yaşayır və darıxmır", – dedi.

Mühəndis şair olduğumu bildikdən sonra mənə daha da məhəbbətlə yanaşmağa başladı. Bir gün mənə dedi:

– Cavan şair, səni burada qızlarla gəzən görmürəm. Mənim baldızım Vinoqradov stansiyasında qardaşımın yanındadır. Kağız yazdım ki, gəlsin. Çox tərbiyəli, gözəl bir qızdır. Tibb İnstitutunun ikinci kursunda oxuyur. Gəlsin səninlə tanış edim. Bəlkə ondan ilham ala biləsən.

---

[39] Klassik Litva yazıçısıdır.

Səhər idi. Yatağımdan hələ qalxmamışdım. Bu vaxt mühəndisin doqquz yaşında olan oğlunun qapını döyərək: "Əmi, səni atam çağırır", – deməsi məni yuxudan oyatdı. Qalxdım, əl-üzümü yudum. Onlar bağçada oturub çay içirdilər. İncə bir qız səsindən baldızının gəldiyini hiss etmişdim.

Mühəndis məni baldızıyla tanış etdi. Qızın adı Varya idi. Bir yerdə çay içdikdən sonra mühəndis gülə-gülə dedi:

– Cavan şair, qalx Varyaya parkımızı göstər. Gedin gəzin, – dedi.

İyirmi gün o qız ilə səmimi bir dost kimi gəzib-dolaşdıq. Varyanın kəskin ağlı, məntiqi, dərin mühakiməsi məni heyrətdə qoymuşdu. Mən bunu hər şeydən əvvəl böyük bir mədəniyyətin, doğru təlim-tərbiyənin, təhsilin nəticəsi kimi izah edirdim. Ayrılmaq zamanımız gəlmişdi. Mən Bakıya, onlar Novorossiyskiyə getməli idi. Mühəndisin təşviqi ilə Varya mənim otağıma gəlib xatirə üçün ona bir şeir yazmağımı xahiş etdi. "Mən azərbaycan dilində şeir yazıram, o da sənə bir xeyir verməz" – deyə cavab verdim. O rusca bir şeir yazmağımı təkid ilə xahiş etdi. Birinci dəfə olaraq rus dilində şeir yazmağı sınaqdan keçirmək istədim. Varyanın çox ağıllı, göy və parlaq gözləri xoşuma gəlirdi. Bu gözlər mənim ilk dəfə rus dilində yazdığım şeirin mövzusu oldu:

**О ВЫ ОЧИ!**

О, вы, небесные очи,  
Из-за дни и ночи,  
Улетают как туман  
Печалъ из жизни и обман.  
Со дня сотворения мира  
Клянусь дыханием зефира,



Клянусь и Варей и Мирзой,  
Клянусь молнией и грозой,  
Никто не видел такие глазки.  
Они полны любви и ласки.  
Эти очи, взоры… да,  
Их не забуду никогда!  
О, вы, очи «божий свит»  
Увидите вы, может быть:  
Бурей сорваннын листок  
Грозой подбитый мотылек  
Как деревца сорвав поток  
В край далыний молча уволок  
Иль журавль израненн одинок,  
Летит печально на восток,  
Прошу, тогда вас, о вы, очи  
Меня вспомнить во тьме ночи.

Bu şeiri mən həmişə nəcib və nəzakətli, ağıllı və məlumatlı gənc bir qıza, xalqına xeyir verə biləcək, yaxşı tərbiyə edəcək bir anaya yazdığım şeir kimi xatırlayıram.

## SEMİ HƏYATI

1928-ci ildə Maarif Komissarlığı pedaqoji fəaliyyətimi nəzərə alaraq Nazirlər Şurasından mənə mükafat verilməsini xahiş etmişdi.

Təhsil ilinin son günləri idi. Bu arada Nazirlər Şurasının sədri məni çağırmışdı. Getdim. Oturub bir az danışdıqdan sonra mənə dedi:

– Maarif Komissarlığının xahişinə görə sizə mükafat olaraq bir qədər pul verilməsini qərara almışıq. Gedəndə aşağıda baş hesabdardan alın və yayda istirahət üçün kurorta gedib xərcləyin.

Beş yüz manat mükafat verilmişdi. O, il çox yorğun idim. Zorla çalışırdım. Məşhur həkim Məhəmməd Rza ağa Vəkilovun yanına getdim. O, atamın yaxın dostu idi. Həkim məni diqqətlə müayinə etdikdən sonra sinirlərimin zəiflədiyini söylədi. Müalicə üçün heç bir dərman verməyib dedi:

– Sən istirahət üçün bir-birinə yaxın, gözəl mənzərəli kurortlara get və hər gün bir kurortda gününü keçir. Mən Gürcüstan kurortlarından Bakuryaniyə, Semiyə, Saqveriyə getməyi məsləhət görürəm. Çünki yaylaq qatarı ilə gündə birinə gedə bilərsən. Barjom da çox uzaq deyil, arabir Barjoma da get. Gündə gözəl bir mənzərəni görmək sənin sinirlərini sağlamlaşdırar.

O il yay tətilini Semidə keçirdim. Bakuryani uca meşəli dağın başında, Semi ortasında, Saqveri ətəyində idi. Həkimin tapşırığına görə gündə yaylaq qatarı ilə yaşıl meşə arasından birinə, həftədə bir kərə də Barjoma gedirdim.

Mənimlə bir artırmada yaşayan bir gürcü diş həkimi ilə qonşu idim. Arvadı da diş qayıran idi. Onlar özləri ilə bərabər bir xəstəxanada çalışan başqa həkimin Milaida adlı qızını da gətirmişdilər. Milaida o il orta məktəbi bitirmişdi. Bu qızın rəngi sapsarı, vücudu isə çox zərif idi. Onun üzü gülməzdi, həmişə kədərli görünərdi. Gözəl gitara çalırdı. Rəssamlıqda da böyük istedadı var idi. Təhsil ili başlandıqda Lelinqradda Rəssamlıq İnstitutunda oxumaq fikrində idi.

Bir gün Bakuryaniyə getmək istərkən üç nəfər dərs dediyim işçi fakültəsinin tələbələri ilə üz-üzə gəldik. Görüşdük. Onlar Semidə otaq tutub yaşayırdılar. Adresimi öyrəndilər. Məni görmək üçün bir gün yanıma gəldilər. Otağımın qarşısında, artırmanın bir başında mən, o biri başında həkimin ailəsi stol qoymuşdu. Həkimin qadını samovarı hazırlayıb stolumun üstünə qoydu və qonaqlara çay tökdü. Həkim ilə ailəsi də bizimlə bərabər oturdu. Söhbət əsnasında tələbələr mənim şair olduğumu söylədilər.



Mila nədənsə hər söz başı "vay" deməyə vərdiş etmişdi. Mən ona neçə dəfə tapşırmışdım ki, "vay" dərd, kədər gətirən sözdür. O sənin əsəblərinə, əhvali-ruhiyyənə pis təsir edər. Bir gün otaqda oturmuşdum. Axşam çağı idi. Mila içəri girdi. Semidə çəkdiyi bir mənzərəni mənə uzadıb:

– Xatirə üçün bu şəkli sizin üçün çəkmişəm, – dedi.

Arxa tərəfdə bir neçə söz yazıb imza etmişdi. O şəkil indi də məndə qalır. Sonra mənim də ona xatirə üçün bir şeir yazmağımı xahiş etdi. Mən Milaya yazdığım şeiri belə başladım:

ВАЙ

О, ты милый ландыш, вай!
Скуке воли не давай!
Скука – зто скорпион,
Не щадит ведь нежных он.
Отнимет радост красоты,
Отнимет все, что любиш ты,
Отнимет все, что было свято,
Для тебя и для поета.

О, ты милый ландыш, вай!
Скуке воли не давай!
Цветов я видел много разных,
И много душ разнообразных.
И все же я успел собрать

Их формы, йвет и аромат.
Из них составлю я букет,
И поднесу: пусть видит свет.
Красу весеннюю цветков,
И поражен пусть будет вновь:
В букете этом красоты,
Ведь место в нем займешь и ты.

## QABAQCIL GƏNCLİK UĞRUNDA

1911-ci ildə dərs dediyim başqa məktəbləri buraxıb pedaqoji işimi ancaq realni məktəbdə mərkəzləşdirdim. Bu işlərdə bir çox çətinliklərə baxmayaraq, mən müəllimlik sahəsində çalışır, eyni zamanda bədii əsərlər yazmaqda davam edirdim. Həm pedaqoji fəaliyyətim, həm də əsərlərimlə mən qarşıma gənc nəsli yeni ruhda tərbiyələndirmək, ona mədəniyyətimizi, dil və ədəbiyyatımızı sevdirmək məqsədini qoymuşdum. Bütün qüvvətimi bu yolda sərf etməyə çalışırdım.

İnqilabdan əvvəlki məktəblərdə ana dilinə göstərilən etinasızlıq müəllimlərin işini çox ağırlaşdırmışdı. Tiflis mərkəzi Maarif Şöbəsi tərəfindən verilən əmrə görə Azərbaycan balalarına ana dilini oxumaq məcburi deyildi. Ata, ana istədiyi zaman müdiriyyətə ərizə verib övladını ana dili dərsindən azad etdirə bilərdi. Bundan əlavə ana dili dərsləri bir qayda olaraq son saatlarda keçilir (bəzən dərs saatlarından əvvəl), bu isə tələbələrin dərsdən qaçması üçün daha çox imkan yaradırdı.

Şəriət dərsləri isə məcburi fənlər sırasında keçirilirdi. Qəribə burası idi ki, daha çox əmək sərf etmələrinə baxmayaraq ana dili müəllimləri rəsmi müəllim sayılmır, hamıdan



az maaş alırdılar. Lakin bu təhqirlərə baxmayaraq mən öz vəzifəmi sədaqətlə yerinə yetirməyə çalışırdım.

Ana dili müəllimləri adətən şəriət dərslərini də aparmalı idilər. Şəriət məcburi hesab edildiyi üçün o çox vaxt orta saatlara daxil edilirdi. Odur ki, mən çox tez-tez şəriət dərslərini dil və ədəbiyyat dərslərinə çevirir, həmin saatlarda ədəbi materiallar oxuyur və təhlil edirdim. Şəriət dərslərini isə evdə hazırlamağı tapşırırdım. Mənim bu hərəkətimi kimsə müdirə xəbər vermişdi. Bir gün şəriət dərsi zamanı müdir qəflətən qapını açıb içəri girdi. Səhv etmirəmsə mən Sabirin yaradıcılığı haqqında danışır, şeirlərini təhlil edirdim. Vəziyyət ağır idi, müdirə nə cavab verəcəyimi bilmirdim. Lakin onun özü məni bu çətin vəziyyətdən qurtardı. Üzünü tələbələrə tutaraq:

– Bu günkü dərsinizin mövzusu nədir? – deyə soruşdu.

Tələbələrdən Həbib Talışınski tez ayağa qalxıb:

– Bu dərsdə müəllim bizimlə "miras" məsələsini keçir, – deyə cavab verdi. Tələbənin cavabı müdiri təmin etdiyindən məndən heç bir şey soruşmadı, az sonra sinfi tərk etdi.

Buna bənzər bir hadisə də Tiflis Maarif Şöbəsi tərəfindən Bakıya göndərilmiş Slaviniskinin mənim sinfimi yoxlamağa gəldiyi zaman baş verdi.

Dərslik olmadığından o zaman mən mənzum və mənsur əsərlər seçib tələbələrin dəftərlərinə yazdırırdım. Belə seçilmiş parçalar içərisinə bəzən öz əsərlərimi də daxil edirdim. Tələbələrin dəftərinə o cümlədən "Niyə üçdu?" şeirimi yazdırmışdım. Bu şeir 1905-ci il inqilabından sonra ölkəni bürüyən irticanın əleyhinə yazılmışdı.

Bir gün səhər dərsə gəldiyim zaman müdiri pilləkən başında dayanmış gördüm. O rəsmi paltarını geyinmiş, orden və medallarını səliqə ilə döşünə taxmış, əsgəri vəziyyətdə

dayanmşdı. Məni görən kimi saxladı. Salamlaşdıq. Sonra bir qədər rəsmi tonda Slaviniskinin bu gün mənim dərsimə gələcəyini söylədi. Tez sinifə girdim. Dərsə başlamaq istəyirdim ki, müdir Slaviniski ilə birlikdə içəri girdi. Uşaqlar ayağa qalxdılar. Slavinski partaların üstündə dərslik yerinə dəftərləri görüb soruşdu:

– Dərsliyiniz yoxudrmu?

– Yoxdur. Münasib əsərləri uşaqların dəftərlərinə yazdırıram, – deyə cavab verdim.

Dərslərin belə qeyri-rəsmi təşkili Slavinskinin xoşuna gəlmədi. Odur ki, parta üstündə qoyulmuş dəftərlərdən birini götürüb vərəqlədi. Sonra yazılmış parçaları bir-bir tələbələrə oxudub, ruscaya tərcümə etdirdi. "Qadın anadır" sərlövhəli əsər çox xoşuna gəldi. Növbə mənim "Niyə uçdu?"şeirimə gəldi. Tələbə həvəslə şeirimi oxudu. Mən işin nə ilə nəticələnəcəyini gözləyirdim. Slaviniski şeirin mövzusunu eynilə bilsəydi məni ya müəllimlikdən azad etdirəcək, ya da başqa bir tədbir gördürəcək idi. Lakin bu dəfə də tələbələrimdən Tağı Şahbazi məni ağır vəziyyətdən xilas etdi. O, şeiri oxuduqdan sonra: "Bu şeir öz mövzusu etibarilə Puşkinin "Bir mələyə" adlı şeirinə oxşayır", – deyə cavab verdi.

Slavinski ilə ikinci görüşüm "Gülzar" dərsliyim nəşr olunandan sonra baş vermişdi.

Subay olduğum halda böyük bir ailə sahibi idim. Həyatımda zühur edən bir çox təsadüfi və faciələrə görə güzəranım çox ağır və sıxıntılı keçirdi. Bu ağırlıq və sıxıntı mənə bir çox tərəfdən gəlirdi. Birinci mən mühitə deyil, mühiti öz düşüncə və idealıma tabe etmək kimi xülyapərəstlikdən, həyati adam olmadığımdan irəli gələn maddi çətinlik idi. İkinci səy və əməyimin təqdir edilməməsi idi. Azərbaycan dili müəllimləri, ümumiyyətlə orta məktəblərdə rəsmi müəllim sayılmadığından, başqa müəllimlərdən iki-üç qat artıq çalışdıqları halda, dörd qat az maaş alırdılar. Üçüncü, çar ruhu ilə bəslənmiş rus pedaqoqlarının və müdirlərinin azərbaycanlı müəllimlərə yüksəkdən baxmaları və onların qaba hərəkət və rəftarları idi. Nəhayət, dördüncüsü azərbaycan dilinin məcburi olmayıb əhəmiyyətsiz bir dərs olması, çar hökumətinin və onun sadiq qullarının yürütdüyü müdhiş və əzici milli siyasəti idi. Bununla belə ruhdan düşmürdüm.



1912-ci ildə "Gülzar" adlı dəsrliyimi nəşr etdirmişdim. Dərsliyə yararlı əsərlər az olduğundan, osmanlı ədəbiyyatından da az-çox nümunələr salınmışdı. Kitabın dili ümumiyyətlə ədəbi olduğundan azərbaycan dilinə əhəmiyyət vermək istəməyən tənbəl şagirdlərə bu bir bəhanə olmuşdu. Fikirlərini sərbəst anlada bilmək və kəlmə yatırını artırmaq məqsədilə onları əsərlərdəki lüğətlərin mənalarını öyrənməyə məcbur edirdim. Mirzə Fətəli Axundovun "Aldanmış kəvakib" adlı hekayəsini dördüncü sinifdə bir ay içərisində keçə bildiyim indiyə kimi xatirimdədir. Leyli tələbələri[40] çalışdırmaq üçün üzərlərində yuxarı siniflərdən rəhbərlər təyin etmişdim. Tələbələrin gecə çalışmasına müdir müavini Nikolay Petroviç Popov mane olurdu. Bunu mənə tələbələr söyləmiş, mən də dəfələrlə müavin Popov ilə görüşüb, tələbələrin çalışmasına mane olmamasını rica etmişdim. Fəqət, öz hərəkətlərindən əl çəkməyirdi. Ona buyruq olan bir-iki şagirdi ələ keçirib, mənim sinifdə söylədiklərimi onlardan öyrənirdi. Zəif nömrə verdiyim tələbələrdən biri ona demişdi ki, "Gülzar"ın dili tatar dili deyil, osmanlı dilidir. Beləlik-

---

40 Gecə məktəbinin tələbələri.

lə, kitabda verilmiş inqilabi, demokratik məzmunlu əsərlərdən sərf-nəzər edib N.P.Popov məni türkçülükdə təqsirləndirirdi. Bunu o Tiflisdən gələn baş müfəttiş Slavinskiyə də xəbər vermişdi. Belə ki, həmin günlərdə müəllimlər otağına girərkən Popova təsadüf etdim. Görüşərkən acı-acı gülümsəyərək dedi: "Dünən sizin dərslik haqqında Slavinskiyə danışdım. Onun fikrini anlayaraq: "Nikolay Petroviç, ayıb olsun. Siz bir müavin olmaqdan əvvəl bir müəllimsiniz. Azərbaycanca bir kəlmə bilmədiyiniz halda mənim əsərim haqqında siz nə söyləyə bilərsiniz?" – dedim. O, hiddətlənərək məndən ayrıldı.

Ertəsi gün sinifə girər-girməz "Gülzar"ı əlimdə havaya qaldıraraq: "Uşaqlar, bu kitab hansı dildə yazılmışdır?" deyə soruşdum. Onlar: "Türk dilində", – deyə cavab verdilər.[41]

Mən məsələni onlara izah etdim, soruşsalar kitabın tatar dilində[42] yazıldığını söyləmələrini tapşırdım. Bu təlimi verdikdən sonra "Dərənin təsviri" sərlövhəli mənsur bir parca oxutdum. Dərsə dair bir-iki sual verərkən müdir və müfəttiş sinfimizə girdi. O mənimlə çox soyuq görüşdü. Hətta iki barmağını mənə uzatdı. Tələbələr qarşısındakı "Gülzar"ı götürüb əlində havaya qaldıraraq: "Uşaqlar, bu kitab hansı dildə və şivədə yazılmışdı?" – deyə soruşdu. Tələbələr verdiyim təlimat əsasında bütün suallara cavab verdilər.

Slavinski artıq "Gülzar"ın türk dilində deyil, tatar şivəsində yazılmış olduğuna qənaət hasil etdikdən sonra kitabın ötəbərisinə diqqətlə baxdı, sonra üzünü mənə tutaraq soruşdu:

---

[41] İnqilabdan əvvəl bəzi ziyalı dairələrində Azərbaycan dilinə türk dili də deyilirdi.

[42] O zaman Azərbaycan dili rus məmurları tərəfindən tatar dili adlandırılırdı.



– Bu kitab kimin əsəridir?

– Mənimdir, – dedim.

– Baş Maarif müfəttişliyi tərəfindən təsdiq edilmişmi?

– Yox, təsdiq üçün bu günlərdə üç cild göndərəcəyəm.

– Bunu çoxdan yapmaq lazım idi.

O gün axşamüstü müəllimlər şurası çağırıldı. Müəllimlər toplanmışdı. Divar saatı beşi vurunca müdir iclası açıq elan etdi. Slavinskinin tatar və erməni siniflərini təftiş etməsindən söz açaraq dedi:

– Müfəttiş həzrətləri erməni sinfindən narazı qaldı. Tələbələrin əksəri kitabsız, dəftərsiz gəlmişdilər. Fəqət Talıbzadənin sinfində nümunəvi bir intizam hakim idi. Slavinski həzrətləri onun dərsindən məmnun qaldı. İclasda Talıbzadəyə təşəkkür etməyi məndən rica etdi.

Müdir ilə yan-yan oturan Nikolay Petroviç Popovun üzünə baxdım. O, qızarıb başını yerə dikmişdi. Azərbaycanlı olduğum halda mənə tatar namını taxan və milliyyətimi unutdurmağa çalışan, hər hüququmu ayaqlar altına alan müstəbid çar siyasətindən ziyadə mənimlə bir məktəbdə çalışan bir cəbhədə pedaqoq namını daşıyan çar müəllimlərinin bizə qarşı olan hərəkət və rəftarı mənə hər şeydən ağır gəlirdi.

Belə yoxlamalar və təftişlər o zaman, demək olar ki, bütün yerli müəllimlərin siniflərində keçirilir. Yeri gələndə Maarif şöbələri tərəfindən müəllimlərin əleyhinə lazımi tədbirlər görülürdü. Hər bir müəllim hər şeydən əvvəl sinifdə keçdiyi dərsi və özünü tələbələrə sevdirməyi bacarmalıdır. Buna nail olmaq üçün müəllim öz tələbələrini və öz dərsini sevməlidir. Mən öz dərslərimdə qazandığım az-çox müvəffəqiyyətin əsas səbəbini də həmin bu şərtlərə əməl etdiyimdə görürəm. Mən həmişə nədənsə yazıçılığımdan daha çox mü-

əllimliyimlə iftixar edirdim. Tələbələrimin ictimai həyatda göstərdikləri fəaliyyət məndə müəllimliyə, onun böyük ictimai mənasına tükənməz bir məhəbbət oyatmışdı.

İnqilabdan əvvəl, zəhmətkeş balalarının vəziyyəti ağır idi. Onlar üçün öz doğma evləri bir zindan idi. Uşaqların üzünə səadət, tərəqqi və inkişaf yolları bağlanmışdı. Balalarımıza məxsus nə teatr, nə kino, nə kitabxana, nə də klub vardı; məktəb xaricində oxumaq üçün kitab az tapılırdı. Gənc nəslimizin bu vəziyyəti məni çox düşündürürdü. Buna görə də bu zamanlar məktəblərdə gördüyüm işin bir qismini bədii yaradıcılıqla əvəz etdim. Uşaqlar üçün müxtəlif janrlarda əsərlər yazdım. "Uşaq çeşməyi", "Uşaq gözlüyü" kimi dərsliklərim də, şərikli yazdığımız "İkinci il" də, "Məktəb" və "Rəhbər" jurnallarında uşaqlar üçün yazdığım əsərlər də belə bir məqsədlə qələmə alınmışdı. 1909-1910-cü illərdə "Tülkü həccə gedir", "Yaxşı arxa", "Tıq-tıq xanım", "Şələquyruq", "Murad" kimi mənzum və məsur hekayələr, "Ürək dikmək", "Çoban Məmiş" adlı uşaq pyesləri yazdım, "Danışan kukla" və "İntiqamçı xoruz" adlı pyesləri ruscadan iqtibas etdim. 1911-ci ildə azadlığın rəmzi olan "Gözəl bahar" sərlövhəli mənzum pyesi yazdım. "Gözəl bahar" pyesi həmin ildə məktəb səhnəsində tamaşaya qoyuldu. Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım bu işdə bizə böyük kömək göstərdi. İki başqa ziyalı azərbaycanlı qadın ilə birlikdə o əsərdə iştirak edən Bahar, Qış, Günəş, Yer, Külək, Qaranquş və başqa rollara əlvan kağızlardan paltar tikib səhnə quruluşunu gözəlləşdirirdi. Rollarda tələbələr çıxış edirdilər. Tamaşa çox maraqlı keçdi. Tamaşaya çağırılmış ikinci gimnaziyanın müdiri bizim müdirə: "İnqilabi ruhda yazılmış belə əsərləri oynamağa nə üçün izn verirsən?" – deyə etiraz etmişdi.



O zaman realnidə məktəb kitabxansı təşkil edilməsi də mütərəqqi təşəbbüslərdən biri idi. Mənim və yuxarı sinif tələbələrinin irəli sürdüyü bu təşəbbüsü yerinə yetirmək üçün üç nəfər tələbədən ibarət heyət seçildi. Onlar siyahı ilə tələbələrdən pul yığıb kitab şkafı aldılar. Bundan sonra hər tələbə Orucovların kitab mağazasından bir neçə kitab alıb ktabxanaya verdi. Mən də kitabxanaya öz kitablarımdan bir neçəsini bağışladım. Tələbələrdən seçilmiş kitabxana müdiri böyük tənəffüslərdə və dərsdən sonra uşaqlara evdə oxumaq üçün kitab verirdi. Kitabxananın yaradılmasında istəkli tələbələrimdən biri olan Tağı Əliyevin də böyük xidməti olmuşdur. O, qarayanız, arıq, ortaboy bir uşaq idi. Zamanın iztirab və kədərləri onun qara, düşüncəli gözlərində bir xatirə dəftəri kimi oxunur, mühakiməsi və ictimai şüuru yaşından irəli getdiyi üçün daha yaşlı görünürdü. O, bütün sinif yoldaşları və başqa sinif tələbələri ilə yaxın əlaqə saxlayardı. Məktəb müdirindən uşaqlar üçün azərbaycan dilində kiçik bir kitabxana açmağa icazə aldığımı sinifdə söyləyərkən o həyəcanla yerindən qalxaraq titrək və əsəbi səslə mənim bu təşəbbüsümü alqışladı və bütün sinif tərəfindən mənə təşəkkür etdi.

Kitabxananı yaratmaq üçün məktəb daxilində bir müsamirə də vermək lazım idi. O, hər gün artırmada məni görərkən yanaşıb: "Müəllim müsamirə verməyə müdirdən izn aldınızmı?" – deyə soruşur, məni tələsdirirdi.

Müsamirə verməyə müdirdən izn aldıq. Müsamirəyə hazırlıq gedirdi. Tələbələrin arzusuna görə mənim "Gözəl bahar" pyesimi müsamirədə oynanmağa qərar verildi. Tələbələr arasında rollar paylanmağa başladı. Müsamirənin ağırlığı ən çox onun üzərinə yüklənmişdi. O gecə hər tərəfdən yoldaşları:" Tağı, Tağı" – deyə ona müraciət edirdi. Müdir və müəllimlər "Əliyev", – deyə onu səsləyirdilər.

Müsamirə müvəffəqiyyətlə keçdi. Satılan çiçəklərin pulunа bir şkaf, əlliyə qədər kitab alındı. Kitabxananın ən ağır zəhmətini Tağı Əliyev öz üzərinə götürmüşdü.

Məktəbdə Tağı mənim sağ əlim idi. Hər işdə o mənim imdadıma çatırdı.

Orta məktəb tələbələrinin ozaman gizli yığıncaqları olurdu. O, yığıncaqlarda ən fəal iştirak edən və ortaya yeni fikirlər atan Tağı Əliyev idi.

1917-ci ildə Oktyabr inqilabından sonra realni məktəbində milli siniflər açılması haqqında əmr gəlmişdi. Bu tədbirin icrası mənə tapşırılmışdı. Mən atalar ilə iclas edib onların razılığını aldıqdan sonra beş sinif milliləşdirdim. Məktəbin tədris işləri müdiri Nikolay Petroviç ataları və uşaqları danlayıb milli siniflərdə oxumağa mane olurdular. Demə Tağı Əliyev bu işdən xəbər tutub bir yoldaşı ilə bərabər müdir müavini Nikolay Petroviçin qəbuluna gedir və onun bu hərəkətinə qarşı bütün tələbələrin və ataların etiraz etdiyini söyləyir.

Həmin günün səhəri mən müəllimlər otağında ikən Nikolay Petroviç üzü-gözü qızarmış, pörtmüş halda mənə yanaşıb dedi: "Talıbzadə mənim heç xəbərim olmaya-olmaya sənin tələbələrin qarşımı kəsib deyirlər ki, sən milli siniflərin açılmasına mane olursan, ataları və uşaqları öyrədirsən. Mənim bu işlərdən əsla xəbərim yoxdur."

Tağıgil üç qardaş idilər. Haşım, Tağı və Hadı. Hər üçü mənim tələbəm idi.

Haşım Əliyev bolşevik kimi öz yoldaşı Musəvi ilə bir yerdə müsavatçılar tərəfindən öldürülmüşdü.

Yuxarı siniflərdə oxumaq üçün dərsliyimiz yox idi. Hər gün keçiriləcək dərsləri başqa müəllimlər kimi, mən də tələbələrin dəftərinə yazdırırdım. Bu ağır vəziyyətdən qurtar-



maq üçün 1909-cu ildə "Gülzar" adlı bir dərslik tərtib edib Orucovlar mətbəəsində çap etdirdim.[43]

XX əsrin əvvəllərində artıq dünya mədəniyyəti ilə yaxından tanış olan qabaqcıl ziyalılarımız çox yaxşı dərk edirdilər ki, beş-on ziyalı ilə bir millətə nicat vermək olmaz. Xalqımızın qarşısında duran böyük ictimai-siyasi vəzifələrin öhdəsindən gəlmək üçün dərin məlumatlı, elmli, ziyalılarımız çox az idi. Buna görə də yeni ruhlu, mübariz ziyalı nəsli yetişdirmək qarşımızda duran ən mühüm vəzifələrdən idi. Demokratik fikirli bütün müəllimlər, yazıçılar, maarif xadimləri yeni nəslin təlim-tərbiyəsinə böyük əhəmiyyət verirdilər. Onlar həm müəllimlik edir, həm dərsliklər yazır, həm uşaqlar üçün bədii əsərlər yaradır, jurnal və qəzetlər buraxır – bir sözlə tərbiyə işi ilə əlaqədar olan bir neçə sahəni öz fəaliyyətlərində birləşdirirdilər. Sabirin, Səhhətin, S.S.Axundovun, M.Mahmudbəyovun, Ü.Hacıbəyovun və başqalarının fəaliyyətləri buna yaxşı misaldır.

Pedaqogikanı yaxşı mənimsəmək, uşaqların bədii zövqünü doğru istiqamətdə tərbiyə etmək üçün müəllimlərimiz, yazıçılarımız dünya elmindən, ədəbiyyatından, xüsusən bizə daha yaxın olan rus ədəbiyyatından öyrənirdilər. Bunu sübut etmək üçün XX əsr ədəbiyyatımızdan onlarca misal gətirmək olar. Burjua yazıçıları əsasən mürtəce, romantik və sentimental ədəbiyyatın təsiri ilə yazırdılarsa qabaqcıl yazıçılarımızın əksəriyyəti realist rus ədəbiyyatından öyrənir, onu təbliğ edirdilər. Müəyyən dövrlərdə füyuzatçılara meyil göstərməyinə baxmayaraq, rus ədəbiyyatı mənim də bir ya-

[43] 1909-cu il dərsliyin tərtib olunduğu ildir. Kitab 1912-ci ildə nəşr edilmişdir.

zıçı kimi inkişafımda böyük rol oynamışdı. Xüsusən Krılov, Lermontov, Puşkin, Koltsov, Nikitin, Tolstoy, Çexov, Qorki məni bu dövrdə ən çox maraqlandıran yazıçılar idi. Mən onlardan iqtibaslar və tərcümələr edərdim. (Krılovdan –"Cırcırama və qarışqa", Nikitindən – "İntizar", Çexovdan – "Sail" və s.) 1912-ci ildə çap olunmuş "Gülzar" dərliyində rus ədəbiyyatının gözəl əsərlərindən onlarca nümunələr verilmişdir.

Rus ədəbiyyatı bizə həyati mövzular seçməyi, həyata realist münasibət bəsləmk yollarını öyrədirdi. Nəinki təkcə ədəbiyyatın, mən hətta rus rəssamlarının realist xüsusiyyətlərindən də istifadə etmişəm. Bu münasibətlə bir hadisəni xatırlatmaq istəyirəm.

Mənim rəssamlığa da böyük eşqim vardı. Hətta iki ay xüsusi olaraq bir rəssamın yanında dərs də keçmişdim. Vaxtım müsait olmadığından davam edə bilmədim. O zaman Orucovların kitab mağazasında məşhur rəssamların fırçasından çıxmış gözəl şəkillər də satılırdı. "Şair" – rəssamdır, rəssam – şairdir" deyirlər. Orucovların mağazasına getdikdə həmişə xoşuma gələn şəkillərdən alırdım. Bir gün oradan V.M.Vasnesovun vərəqə üstündə olan "Alyonuşka" adlı məşhur əsərini aldım. Bu şəkil məndə bir çox yeni fikirlər oyatdı. Ətrafı yaşıllıq və daşlıq olan dərin gölün kənarında bir qız dizlərini qucaqlayaraq qəmli başını köksünə dikib həzin-həzin düşünür. Onun kədər tozu ilə örtülmüş arıq üzü, dərin düşüncəli gözləri, qıza bir fəlakət üz verdiyini göstərirdi. Həmin əsərdən aldığım təsir o zaman yazdığım "Nişanlı qız" şeirimin mövzusu olmuşdur.

1917-ci il fevral inqilabından sonra Tiflisin müvəqqəti hakimiyyət orqanı olan "Seym" tərəfindən bütün məktəblərin birləşdirilməsi haqqında əmr verilmişdir. Bundan sonra mürtəce, millətçi müəllmlər mənə düşmən kəsildilər. Vaxt-



dan istifadə edib üç ehtiyat, iki əsas olmaq üzrə beş sinif təşkil etdim. Məmur təbiətli müəllimlər və müdiriyyət mənə çox maneələr törətdi. Ancaq gənc iradəm sayəsində maneələri ortadan qaldırmağa müvəffəq oldum. Bu xüsusda realni məktəbin yuxarı sinifləri də mənə çox yardım etmişdi. Çar müəllimləri və müdiryyət milliləşdirilmiş qrupları dağıtmaq məqsədi ilə dəfələrlə tələbələrin atalarını toplayıb etirazlarını bildirmişdilər, uşaqlarını rus məktəbində oxutmağa dəvət etmişdirlər. Bəzi cahil atalar onlara inanıb uşaqlarını yenə rus qruplarına verirdilər. Mən onları yenidən təşkil etdiyim qruplara gətirirdim. Bir tərəfdən çar siyasəti yürüdən rus pedaqoqları ilə, digər tərəfdən də cahil valideynlərlə mübarizə aparmağa məcbur olurdum. Xülasə davamlı mübarizələrdən sonra beş sinif təşkil edildi. Tanıdığım fəal və bilikli müəllimlərdən: Cəmo Cəbrayılbəylini, Qəfur Rəşadı, Qasımov Əli Raqibi, riyaziyyat, təbiyyat və coğrafiya dərslərini aparmaq üçün dəvət etdim. Aşağı siniflərdə realni məktəbi ikmal etmiş tələbələrdən Sadıq Quliyev və Qulaməli Həsənov dərs deyirdilər. Bununla da sonralar Şaiq adına nümunə məktəbi adını daşıyacaq tədris müəssisəsinin əsası qoyuldu.

## SİYASİ SƏHİFƏLƏR

Birinci cahan müharibəsi davam edir, aclıq və səfalət gündən-günə artırdı. Hamı dərin həyəcan içində müharibənin nəticəsini gözləyirdi. Cəbhədən verilən rəsmi xəbərlər hər gün ayrıca vərəqlərdə çap edilib satılır, alıcılar bu vərəqləri bir-birinin əlindən qapırdılar.

Müxtəlif sinif və zümrələr müharibəyə müxtəlif münasibət bəsləyirdi. Hər sinif və siyasi qrup müharibənin öz mənafelərinə uyğun şəkildə başa çatmasını arzulayırdılar. Yerli mürtəce burjua ziyalılarının bir qismi çarizmin, bir qismi osmanlıların qalib gəlməsini gözləyir, bir qismi də yerli ruhanilərlə həmfikir olub panislamizm cəhbəsində dururdular. İnqilabçı xalq, demokrat görüşlü ziyalılar isə: "İlanın ağına da lənət, qarasına da, qurddan çoban olmaz!" – deyə köhnə üsuli-idarənin devrilib, hər cür əsarətdən azad, demokrat bir dövlətin qurulmasını arzu edirdilər. Ancaq çar hökumətindən razı qalmış bəzi yerli sərvətdarlar, eləcə də milyonçu Tağıyev: "Bizim sərvət və kapitalımızı Türkiyə hökuməti çar hökuməti kimi mühafizə edə bilməz!" – deyə müharibədə çar ordusunun qalib gəlməsini arzu edirdilər.

1917-ci ilin oktyabrında V.İ.Leninin rəhbərliyi və qırılmaz iradəsilə bütün xalqları istibdad zəncirindən qurtaran Böyük Oktyabr inqilabı parlaq günəş kimi doğdu. O coşqun dənizin qüvvətli dalğaları hər yerə yayıldığı kimi, qoca Qafqaz dağlarını da aşdı, onun al şəfəqləri Azərbaycanı işıqlandırdı. Bu azadlıqdan sərvətdarlar və onların tərəfdarları olan burjua ziyalıları istifadə edərək yerli hökumət qurdular. Azərbaycan, Gürcüstan və Ermənistan əksinqilabçıları, Za-



qafqaziyanı inqilabi Rusiyadan ayırmaq məqsədi ilə birləşərək Tiflisdə "seym" təşkil etdilər.

Böyük Oktyabr sosialist inqilabından sonra Azərbaycanda menşevik, eser və daşnak partiyalarından başqa "İttihad", "Müsəlmanlıq" və "Hidayət" kimi yeni partiya və siyasi qruplar yaranmağa başladı. Lakin bu zaman Azərbaycanda geniş zəhmətkeş kütlələri bolşeviklərə daha çox etimad göstərirdilər.

O dövrdə fəaliyyət göstərən əksinqilabçı partiyalardan biri də Müsavat partiyası idi.

Müsavatçılar məni partiyaya cəlb etməyə çox çalışdılarsa da, mən razılıq vermədim. Bir dəfə hətta Müsavat parlamentinə üzvlər seçilməyə hazırlıq aparıldığı zaman, partiyanın liderlərindən Məmmədəmin Rəsulzadə ilə üz-üzə gəldik. O, təkidlə məni partiyaya keçməyə çağırdı, hətta parlamentə üzv seçəcəyini söylədi. Mən bu təklifi rədd etdim. Bu hadisədən sonra müsavatçılardan Abasqulu Kazımov Seyid Zərgər ilə: "Abdulla Şaiq Müsavat firqəsinə daxil olmasa, firqə dağılar", – deyə kinayəli bir xəbər göndərmişdi. Ucaboylu, qalın bığları olan bu adama mən də öz cavabımı göndərdim, dedim: "Ona deyərsiniz ki, Müsavat firqəsi heç bir zaman yıxılmaz, çünki Bığıbəy (bığları uzun olduğu üçün ona Bığıbəy də deyirdilər) onu bığları üstündə saxlayır".

Seyid Zərgər mənim cavabımı ona yetirəcəyinə söz verdi.

Müsavat partiyası demokrat ruhlu ziyalılar arasında nüfuz qazana bilmədi. Hətta onlar bu partiyaya axır vaxtlar "Nəsib bəyin kontoru" deyirdilər.

"İttihad" firqəsi türkçülüyü, "Müsəlmanlıq" firqəsi isə panislamizmi müdafiə edirdi.

Oktyabr inqilabından sonra Bakıda bolşeviklər ilə müsavatçılar arasında kəskin mübarizə gedirdi. Geniş xalq kütləsi əməkçilərin mənafeyini güdən bolşeviklərin tərəfində idi. Odur ki, 1918-ci ilin martında bolşeviklər Bakıda əksinqilabçılara qələbə çala bildilər. Bakı Sovetinin müvəffəqiyyətləri, xüsusən müsavatçıları çox qeyzləndirmişdi.

Birinci Cahan Müharibəsi dövründə mülkədarların və sərvətdarların təbliğatı ilə Azərbaycanda "Dikaya diviziya" adlı ordu hissəsi hazırlanıb cəhhəyə göndərilmişdi. Müharibə dayandırıldıqdan sonra cəbhədən Bakıya qayıdan "Dikaya divizya"nın böyük bir əksəriyyətini Müsavat partiyası öz tərəfinə çəkib ordu təşkil etmişdi. Bu hadisədən sonra müsavatçıların burnu bir qədər dikəlmişdi. Müsavat patiyasının başında öz mənafeyini güdən adamlar dururdu. Atalar yaxşı demiş: "Dəliyə yel ver, əlinə bel ver". Rəyasət xəyalı ilə məst olan müsavatçılar xalqın ehtiyacını düşünmürdülər. Xalq onların siyasi xətti-hərəkətindən tamamilə narazı idi. Onlar zora istinad edirdilər. Nəcəfqulu kimi qoçular müsavatçıların sağ əli idi. Gimnaziyada oxuyan qızlarımızın və ziyalılarımızın vəziyyəti çox ağır idi. Ölkədaxili hərcmərclikdən mütəəssir olan ziyalılar[44] dəfələrlə Nəriman Nərimanova müraciət edib ondan "Hümmət" partiyasının bir rəhbəri kimi kömək istəmişdilər.

Müsavat partiyası daşnak partiyası və gürcü menşeviklərilə əlaqə saxlayıb Bakı Sovetinə qarşı ciddi mübarizəyə hazırlaşırdı. Son zamanlar Müsavat ilə Bakı Soveti arasında olan ziddiyyət olduqca kəskinləşmişdi. Hər gün vuruşma

[44] O zaman demokratk ruhlu ziyalılar "Ziyalılar ittifaqı" adında bir cəmiyyət düzəltmişdilər.



gözlənilirdi. Nəhayət, 1918-ci il mart ayının sonlarında Bakı Soveti qüvvələri ilə Müsavat qüvvələri arasında vuruşmalar başladı. Bakının küçələrində qızğın vuruşmalar oldu. Nəticədə, bolşeviklər qalib gəlib Müsavat qüvvələrini "Dikaya diviziya" qalıqlarını tamamilə dağıtdılar. Beləliklə, Bakıda sovet hakimiyyəti qələbə çaldı. Lakin mart hadisələri dövründə mürtəce ünsürlər şəhərlərdə, kəndlərdə yerli camaata çox tələfat verirdilər, vətəndaş müharibəsini hətta milli ədavətə çevirmək təşəbbüsləri də oldu.

Karpat və Rusiyanın başqa cəbhələrindən dönməkdə olan minlərlə əsgərin Bakıda toplanması, daşnakların müxtəlif cildlərə girərək yerli xalqa qarşı vuruşmaları mövcud vəziyyəti daha da mürəkkəbləşdirdi.

Bakıda Sovet hakimiyyəti uzun müddət yaşaya bilmədi. Əksinqilabi partiyalar xarici dövlətlərlə əlaqəyə girərək sovet hakimiyyətinin məğlub olması üçün hər cür tədbirlərə əl atırdılar. Mübarizəni davam etdirən müsavatçılar türkləri köməyə çağırmışdılar. 1918-ci ilin yayında türklər Kars və Ərdahanı tutduqdan sonra Gəncəyə gəldilər, orada irticaçı sərvətdar Xanxoyskinin başçılığı ilə Müsavat hökumətini təşkil etdilər. Bakıda sovet hökuməti əleyhinə fəaliyyət göstərən menşeviklər və daşnaklar isə köməyə ingilisləri çağırmışdılar. Şimali İranda yerləşən ingilis qoşunları Bakı neftinə yiyələnmək üçün, Denikinin İrana qaçmış əsgərləri ilə birlikdə Culfa istiqamətində irəliləyirdilər. Çox çəkmədi ki, biz Bakıda ingilis qoşunlarının ağalıq etdiyini gördük. Bu təkəbbürlü, qəsbkar ağalar Bakıda özlərini bir sahibkar, bir hökmran kimi aparır, olmazın cinayətlər işləyirdilər.

Bu zaman Nuru paşanın başçılığı ilə türklər böyük hərbi qüvvələrlə mübarizəni davam etdirirdilər. Bakının vəziyyəti ağırlaşdığı üçün əvvəl ingilis qoşunları, sonra isə menşevik

və eserlərdən ibarət Sentro-Kaspi hökuməti üzvləri şəhərdən təcili surətdə çıxdılar. 1918-ci ilin sentyabrında türk işğalçıları Bakıya daxil oldular.

Türklərin Bakıya girdiyinin üçüncü günü vəziyyəti bilmək üçün realni məktəbə getdim. Məktəb binasını türk əsgərləri işğal etmişdilər. Nikolayevski küçəsi ilə aşağı tərəfə gedərkən indiki Nizami müzeyinin böyük qapısı ağzında dəhşətli bir faciəyə təsadüf etdim. Küçədə qapı ağzında dar ağacı qurulmuş, bir müqəssirin boynuna kəndir salıb dar ağacına bağlamışdılar. Mən bunun nə olduğunu başa düşməyib irəlilədim. Bu zaman müqəssirin ayaqları altından skamyanı götürdülər. Müqəssir havada qaldı, gözləri açıldı, dili bir qarış bayıra çıxdı. Bu dəhşəti görüncə gözlərimi yumub oradan birbaş evə qayıtdım. Türk əsgərlərinin o zaman təkrar etdiyi belə faciəli tədbirlər xalqa, inqilabi ruhda olan yerli demokrat ziyalılara çox mənfi təsir bağışlayırdı.

Antanta ölkələri Cahan Müharibəsində qalib çıxdıqdan sonra türklər Azərbaycandan çəkilməyə məcbur oldular. Bundan sonra ingilislər Azərbaycanı yenidən əllərinə alıb müsavatçıların qarşısında çox ağır şərtlər qoydular, ancaq müəyyən müqavilədən sonra müsavatın hakimiyyətdə qalmasına razılıq verdilər.

İngilis əsgərləri gecə-gündüz küçələrdə xalqı soymaqla məşğul idi. Onlar özləri ilə bərabər İrandan çoxlu qatır da gətirmişdilər. Bu qatırlar bulvarın yuxarı tərəfində saxlanılır və Hindistan əsgərləri tərəfindən mühafizə edilirdi. Elə gün olmurdu ki, qatırlara baxan hind əsgərləri müxtəlif bəhanələrlə ingilis zabitləri tərəfindən döyülməsin. Onların ah-vayına uzaqdan durub tamaşa edənlərin ürəyi yanırdı.

İngilislərin ağalığı dövründə Bakıda vəziyyət dah da ağırlaşmışdı. Ərzaq işi çox ağır idi. İngilislər şəhər və kəndləri talayıb çapır, xalqı var-yoxdan çıxarırdılar. Onlar Zaqafqaziyanı, müstəmləkə halına salmaq üçün Gürcüstan, Ermənistan və Azərbaycanı zəif salmaq siyasətini yeridirdilər. Bu məqsədlə o, gah gürcü menşeviklərilə daşnak hökumətini vuruşdurur, gah da qonşu xalqlar arasında milli ədavət salmağa çalışırdı.

Bu zaman ağqvardiyaçı Denikin Qafqazı istila edə-edə gəlib Dərbəndə çatmış və oradan Bakıya hücum etməyə hazırlaşırdı. Lakin həmin aylarda Denikinin qoşunları Kirov və Orconikidze yoldaşların başçılıq etdiyi Qızl Ordu dəstələri tərəfindən darmadağın edildiyi üçün, onların son qalıqlarını müsavatçılar himayə edirdilər. Denikin vəziyyətin ağırlığını görüb müsavatçılar ilə burunlaşdı, tərksilah olmaq şərti ilə müsavata təslim olmağa razılıq verdi. Onlar bu ağqvardiyaçılardan da bolşeviklərə qarşı mübarizədə istifadə etmək xəyalında idilər. Ancaq Bakıya gələn Denikin ordusu gəmilərə minib İrana qaçdı.

Müsavatın bütün ciddi-cəhdləri heç bir nəticə vermədi. 1920-ci il aprel ayının sonlarında Qızıl Ordunun köməyi ilə Azərbaycan zəhmətkeşləri müsavat hökumətini devirib yerinə Sovet hakimiyyəti qurdular. Zəhmətkeşlərin qələbəsindən xəbər tutan müsavat liderləri həmin gecə Bakıdan qaçdılar. Səhər oldu. Bakı əhalisinin çoxu gecə müsavat liderlərinin qaçdığından və Qızıl Ordunun Bakıya girdiyindən xəbər tutmamışdı. Bu xəbər çox sürətlə bütün Bakıya yayıldı. Küçələr adamlarla dolu idi. Hamı bir-birini təbrik edirdi. Birinci günlər yeni Azərbaycan Sovet hökuməti indiki universitetin binasında yerləşirdi. Binanın böyük qapısına qızıl bayraq asılmış, üç tərəfi qızıl əsgərlərlə əhatə edilmişdi. Əhali bir-birini basa-basa qapı ağzında qızıl əsgərlərlə şirin-şirin

danışırdı. Şəhər bəzənmiş, hər yerdə qızıl bayraqlar asılmışdı.

Sovet hökuməti Azərbaycan xalqına azadlıq və xoşbəxtlik gətirdi. Hər yerdə məcburi təhsil elan edildi. Azərbaycan dilində müvəqqəti uçaylıq, altıaylıq təkmilləşdirmə kursları, orta və ali məktəblər, işçi fakültələri açıldı. Sovet hökumətinin maarif-mədəniyyətə bu qədər əhəmiyyət verməsi təhsilə həsrət qalan zəhmətkeşləri, ziyalıları həddindən artıq sevindirdi. Xüsusən, qadınlarımızın azadlığı üçün görülən tədbirlər, qız pedtexnikumlarının, orta və ali məktəblərin, Əli Bayramov adına qadın klubunun, qadın işçi artellərinin açılması bütün qabaqcıl ziyalıların ürəyindən xəbər verirdi. Ümumiyyətlə, qadın məsələsi Azərbaycan xalqının vücudunda bir çiban idi ki, zindan həyatı keçirən savadsız, çarşablı qızlarımızın və qadınlarımızın qəlbini göynədirdi. Sovet hökuməti mahir bir cərrah kimi bu yara üzərində əməliyyat aparıb onu kökündən sağaltdı.

Sovet hökuməti iqtisadi həyat, maarif və mədəniyyət sahəsində gördüyü ilk tədbirlərlə qabaqcıl ziyalılarımızı hələ ilk günlərdən özünə bağladı. Doğrudan da, həqiqi xalq dövləti qurulmuşdu. Odur ki, bir çox müasirlərim və yazıçı dostlarımla birlikdə mən də yeni bir qüvvə və energiya ilə işlədim. N.Vəzirov, S.S.Axundov, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, M.S.Ordubadi, C.Cabbarlı və başqaları kimi mənim üçün də yeni yaradıcılıq dövrü başladı. Azərbaycanda Sovet hökumətinin qurulmasının lap ilk günlərindən etibarən kurslarda, orta və ali məktəblərdə çalışmağa başladım. Mən bu zaman Ali Pedaqoji İnstitutdan başqa Şərq fakültəsində, institut nəzdində mənim milliləşdirdiyim Şərq texnikumu adını almış Nümunə məktəbində və işçi fakültəsində çalışırdım. Ana dili, ədəbiyyat, tarix və poetikadan proqramlar, dərsliklər və başqa elmi materiallar olmadığından, həmin işlərin bir qismini Maarif Komissarlığı mənə tapşırdı. Zəif vücudumla, gecə-gündüz çarpışaraq, yoxluqlardan bir varlıq yaratmalı idim. Gənc nəslə olan eşqim və zəhmətə olan həvəsim bu ağır işi həyata keçirməkdə mənə yardım etdi. Bir tərəfdən müxtəlif proqramlar yazıb Maarif Komissarlığında təsdiq etdirir, bir tərəfdən də ədəbiyyata məxsus dərsliklər tərtib edir, bir tərəfdən də ədəbiyyat tarixi və nəzəriyyəsinə dair elmi materiallar hazırlayırdım. Gənc nəslimizə geniş və elmi məlumat vermək üçün gecə yarıya qədər çalışırdım. Hər sahədə olur-olsun, dünyada zəhmət çəkib yaratmaqdan ləzzətli şey yoxdur.

Belə bir həvəslə mən inqilabın ilk illərində qızğın fəaliyyətə başladım. Sovet dövləti böyük bir qüvvətlə zəhmətkeşlərin ürəyindəki arzuları həyata keçirməklə məşğul oldu. Beləliklə, köhnə dünyanın əzab və əziyyətini görmüş xalqımız üçün yeni bir həyat yolu, yeni bir inkişaf yolu başladı.

Yeri gəlmişkən, Nəriman Nərimanovla olan bir söhbəti də burada xatırlamağı lazım bilirəm. İnqilabın ilk illərində N.Nərimanovla görüşlərimdən birində o mənə belə bir sual verdi:

– Mirzə, "hamımız bir günəşin zərrəsiyik" məcmuəsini neçənci ildə yazmısan?

– 1908-ci ildə, – deyə cavab verdim.

– Sən elə o vaxtdan beynəlmiləlçisən. Bizim firqəyə daxil ol, sənə elə həmin ildən firqə bileti verdirim.

Bu sözləri mənə göstərilən etimad kimi qəbul etdim.

1920-ci ildə, inqilab günlərində mənim ailə həyatımda da bir inqilab oldu. Denikinin Dərbəndə olan aramsız, qanlı hücumlarından qaçqın düşüb Bakıya sığınmış tərbiyəli, ziyalı olan bir qızla evləndim. Bu, Dərbənd ziyalılarından olan

Əhməd bəy Mirzəbəyovun qızı Şahzadə xanım idi. Təbiətimcə olan, yüksək əxlaqi, insani sifətlərə malik olan həyat yoldaşımın yaradıcı əlləri, qayğısı, tükənməz zəhməti sayəsində arzu etdiyim bir ailə qurdum, ədəbi pedaqoji fəaliyyətim elə bil birə-iki qat qüvvətləndi. Kiçiklikdən sevdiyim ailə həyatı sanki yenidən doğdu. Ata oldum. Ətrafım şən səslərlə doldu.

**1953-1954**

AŞM
Fonduna qəbul olundu





Abdulla Şaiq. Bakı
1911-ci il



Anası, Mehri xanım



Atası Axund Molla
Mustafa

# Abdulla Şaiq
# Xatirələrim

Çapa imzalanıb: 06.03.2015
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 23
Sifariş № 116

Tel.: (+99470) 523 01 34
info@hedefnesrleri.az

**Qiymәti: 6 manat**

2357

## "XAN" XATİRƏ ƏDƏBİYYATI SİLSİLƏSİNDƏN NƏŞRLƏRİMİZ




**BU SİLSİLƏDƏN XARİCİ XATİRƏ ƏDƏBİYYATI KİTABLARI NƏŞRƏ HAZIRLANIR**

Kitabların onlayn satış ünvanı
www.kitabevim.az
Mütaliənizin ən rahat ünvanı!

9789952405569

6 ₼